**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**

# *Ocaqdan nur alanlar*

*Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunur*

Naxçıvan - 2024

Məsləhətçi: Səfiyar Abışov
*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Hüquq fakültəsinin müəllimi*

Redaktor: Xanəli Kərimli
*filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, pedaqoq, şair, publisist*

***Çingiz Süleymanov, Rövşən Hüseynov, Ocaqdan nur alanlar.*** *Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 296 səh.*

4700000000
053-2024

© "Əcəmi" 2024.






































KITAB TƏQDİMATI























## BƏSİRƏT GÖZÜMÜZ

**Bu məclisi yaratmaq,**
**Mənim içimdən gəlib.**
**Sözdən bina ucaltmaq,**
**Dövrü-qədimdən gəlib.**

**“Söz dünyanın naxşıdır”,**
**Deyib Nizami babam.**
**İncə fikir, incə söz,**
**Qəlbi oxşayar tamam.**

**Sözdən uzaq duranlar,**
**Tez düşüblər təşvişə.**
**Sözü nurlu olanlar,**
**Qalib olub həmişə.**

**Söz yanar ocağımız,**
**Sönməyən közümüzdür.**
**Dünyaya baxışımız,**
**Bəsirət gözümüzdür.**

**Biz bu yolla gedirik,**
**Üzü tanrıya sarı.**
**Ona ibadət edir,**
**Sözün xiridarları.**

***Çingiz Süleymanov***

## "KÖZ" ƏDƏBİ MƏCLİSİ NECƏ YARANDI?

Bir yay günü idi. Dost-tanışlarla sərinləmək, dincəlmək, dərdləşmək, yazdıqlarımızı, pozduqlarımızı bir-birimizlə paylaşmaq üçün münasib bir yer, guşə axtarırdıq. Ordubadın, Şahbuzun, ayrı-ayrı bölgələrimizin cənnət-məkan, dilbər guşələrində çox olduğumuzdan ayrı bir yerdə dincəlmək arzusunda idik. Çox keçmədi bu arzunun özü bizi tapdı. Hər birimiz üçün doğma, əziz, mehriban, qayğıkeş insan, sədaqətli dostumuz Səfiyar müəllim bizə yaxınlaşdı.

- Havanın bu istisində canınıza yazığınız gəlmir?

- Fikrimizi ona bildirdik.

- Yığışın gedək mənim min bir əziyyətlə hasilə gətirdiyim doğma kəndimizdəki bağıma. Hər istirahət günlərində, yaxud iş saatı bitəndə bu bağa baş çəkir, ağaclara su verir, onlara xüsusi qulluq göstərirəm. Bu gün istirahət günüdür. Lap yerinə düşüb, (Yarı ciddi, yarı zarafatla) söhbətimizin davamını doğma diyarımızın səfalı kəndlərindən heç də geri qalmayan Aşağı Uzunoba kəndində – mənim həyətimdə davam etdirərik.

Elə də oldu. Həyətə daxil olanda gül-çiçəyin ətri, ağacların ətrafa payladığı sərinlik bizə qızmar günəşin boğucu havasını unutdurdu. Aramızda iş bölgüsü də apardıq. Səfiyar müəllim həyəti suvarmağa, biz isə ağacların altında dincəlmək üçün stol-stul düzməyə, stəkan-nəlbəki gətirməyə, həyətin bir küncündə neçə-neçə qonaq-qara yola salan, bir əsrdən çox tarixi olan samovara od salmağa, tüstülətməyə başladıq. Sonra isə hamımız samovarın yanında çay stoluna əyləşdik. Canımıza rahatlıq gətirən ətirli çay (bu rayihəli otu onun faydasını yaxşı bilən Əzim müəllim bu həyətdən yığmışdı), bizi ağuşuna alan yaşıllıqlar, bir tərəfdən də əllərimizi donduran, həyətdəki yaşıllıqlara can verən artezian suyunun şırıltısı duyğularımızı elm, şeir-sənət aləminə aparmışdı. Kimi muxtar respublikada apardıqları elmi-tədqiqat işlərinin uğurlu nəticələrindən danışır, kimi 44 günlük Vətən müharibəsinin qəhrəmanlarına və müzəffər ordumuza həsr etdiyi



şeirlərini söyləyir, kimi iqtisadiyyat sahəsindəki bilik və bacarıqlarını dostları ilə bölüşür, kimi dağlarımızın insan orqanizmi üçün faydalı olan ot-ələfindən, kimisi elmi-tədqiqat işlərinin uğurlu nəticələrindən, kimisi musiqi sahəsində əldə etdiyi nailiyyətlərdən, kimisi isə ədəbi-mühit nümayəndələrinin öz saytlarında necə tanıdılmasından həvəslə söhbət açırlar.

Bu dostların içərisində hər kəsin sözünə, fikrinə yeni rəng qatan Çingiz müəllim birdən hamımızı təəccübləndirən bir səslə - “Evrika” (tapdım) deyir. Nəyi tapdığını soruşduqda o əlləri ilə samovardan tökülən, ışım-ışım ışıldayan gözlərə işarə edir və deyir:

- Bu gündən məclisimizin adı “Köz” ədəbi birliyi olacaq (bir neçə gündən sonra Çingiz müəllim bu ədəbi birliyin yaranmasına həsr etdiyi şeirini də bizə təqdim etdi).

Belə də oldu. Yaratdığımız “Köz” ədəbi birliyi bir neçə ildir ki, fəaliyyətini davam etdirir. Birliyin üzvləri ayda bir dəfə bir yerə yığışar, ərsəyə gətirdiyi əsərlərindən, ölkə və muxtar respublika mətbuatında dərc olunan məqalə və şeirlərindən, əldə etdikləri uğurlardan həvəslə söhbət açarlar.

Qələmə aldığımız hisslər, düşüncələr və nəşrinə qərar verdiyimiz bu kitabın işıq üzü görməsi yuxarıda qeyd etdiyimiz kimi elm və sənət adamlarının yaxın dostu, sirdaşı cəmiyyət içərisində tanınan, sayılan, seçilən və sevilən Səfiyar müəllimin həyatinin və qəlbinin isti ocağından qaynaqlanıb.

# DƏYƏRLİ ZİYALILARIMIZ, HAQQINDA BİR NEÇƏ SÖZ

Əziz oxucu!

Əgər şeirdə təbiət lövhələrinin obrazlı şəkildə ifadəsini, qədim diyarımızda ucalan, dünyaya səs salan tarix, memarlıq abidələrinin bədii inikasını duymaq istəyirsənsə Muxtar Qasımzadəni vərəqlə! Məhəbbət qatarına geçikən, sevgisini bu yolda qurban verən, o anların, günlərin, illərin acılı-şirinli xatirələrini qəlbində yaşadan bir gəncin kitabının arasında yadigar saxladığı solmuş çiçəklərin qəlb göynədən monoloqunu və nəğməsini dinləmək istəyirsənsə Ramiz Babayevi düşün!

Şeirləri, misraları müzəffər bir orduya bənzəyən, söz səngərində daim ayıq-sayıq dayanan, soy kökünə, milli dəyərlərinə, adət-ənənələrinə bağlı olan, pirlər qələmi sayılan döyüşkən bir ədibin iç dünyası ilə yaxından tanış olmaq istəsən Xanəli Kərimlini oxu! Əgər əsgər məktublarının istisinə qızınmaq, fəsillər gözəli baharın insan qəlbini vəcdə gətirən poetik lövhələrini duymaq istəyirsənsə Nizami Əzizəliyevi seç!

Oxuyun, vərəqləyin bu söz-sənət aşiqlərini. Dinləyin onların qəlbindəki hikmətamiz sözləri, inciləri. Çünki onların qələmə aldığı hər bir misra xalqımızın səsidir, ünüdür, milli dəyərimiz, sərvətimizdir. Bu sərvətlər isə Vətən adlı ocağın işim-işim işıldayan, hər zaman vətən uğrunda amansız düşməni yandırıb, məhv edə biləcək alovun, odun közləridir. Ocağın közləri nə qədər davamlı olarsa, onun hərarəti, istiliyi də bir o qədər xoş və daim var olar. “Ocaq” deyəndə

görkəmli şairimiz Xanəli Kərimlinin aşağıdakı misraları yada düşür:

***Ocağın közü mənəm,***
***Zamanın sözü mənəm,***
***Rəngim Vətən rəngidir,***
***Astarı, üzü mənəm.***

Əziz oxucu!

Bu kitabda siz ulu tariximizdən xəbər verən, Azərbaycan sərhədləri çərçivəsindən çıxaraq geniş oxucu kütləsinin və elmi ictimaiyyətin diqqətini çəkən akademiyanın müxbür üzvü Vəli Baxşəliyevin və sənətşünas Nizami Alıyevin Gəmiqayada apardığı tədqiqatlardan, Şəmsəddin Qasımovun və Kamal Əhmədovun musiqi mədəniyyətimizə verdiyi töhfələrdən xəbərdar olacaqsınız. Naxçıvan Dövlət Universitetinin "Ümumi riyaziyyat" kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru Sahib Əliyevin Ali məktəb tələbələri və müəllimlər üçün hazırladığı iki hissədən ibarət "Riyazi analiz" adlı kitablarının faydasını öyrənəcək, qəlbində insani keyfiyyətlər yaşadan Mirələkbər Seyidovun yüzilliklərə söykənən şəcərəsi ilə yaxından tanış olacaqsınız. Bizə sağlam yaşamağın sirlərini öyrədən Əzim Mirzəyevi, muxtar respublikanın ictimai həyatında xüsusi yeri və rolu olan, məsul vəzifələrdə çalışan, ömrünün ixtiyar çağlarını yaşayan, insanlığı və sadəliyi özünün həyat devizi seçən Oktay Niftəliyevi və ocağı daim qonaq-qaralı olan Səfiyar Abışovu yaxından tanıyacaqsınız.

Bu yolda biz sizin ən yaxın bələdçiniz olacağıq!

**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**

# ZİYALILARIN YIĞIŞDIĞI OCAQ – "KÖZ"
*yaxud ocaqdan nur alanlar*

***Ocaqda hər kəsin öz yeri vardı,***
***Onlar da bu haldan razı qalardı...***
***Ç.Süleymanov***



Şəkildə gördüyünüz ev Səfiyar müəllimin alın təri, zəhməti bahasına tikib başa gətirdiyi koması və həyatyanı sahəsidir. Dörd bir tərəfindən gül-çiçək ətri gələn, barlı, sirin və dadlı meyvələri ilə diqqəti cəlb edən, xüsusilə yay vaxtlarında onu ziyarət edən qonaqların istirahət guşəsinə çevrilən bu həyət cox gözəl bir bağcanı, bağı xatırladır. Bu evi, həyəti biz hər zaman qonaqqaralı görmüşük. Ərkyana ağacına əl uzatmışıq, meyvələrindən-armud, gilənar, nar, ərik və cəvizindən nuş etmişik. Həyətdə bitən dərman otlarından çay dəmləmişik, bumbuz suyundan doyunca içmişik. Vətən üçün, xalq üçün belə bir layiqli övlad, vətəndaş yetirdiyinə görə valideyinlərinə dualarımızı əsirgəməmişik.



Atası Süleyman kişi kəndin sayılib-seçilən insanlarından biri olub. Daşı daş üstünə qoyan, elinə obasına ev quran, bu zəhmətkeş insan bənna işləyərdi. El arasında belə söhbət edirlər ki, -Süleyman kişinin inşa etdiyi evlərdə hər zaman xoşbətxlik höküm sürürdü. Bunu da onun hər bir tikdiyi evin daşına, kəssəyinə, bünövrəsinə, tavan və döşəməsinə tökülən halal alın tərinin və imanının olmasıyla əlaqələndirirdilər. Bir sözlə, çörəyini halallıqla, əlinin qabarı, zəhmətilə qazanardı. Həyat yoldaşına sadiq olmaq, ailə dəyərlərini qorumaq və yaşatmaq, övladlarının əlini halal çörəyə catdırmaq, qohum, qonşusunun sevincinə, kədərinə şərik çıxmaq Süleyman dayının insani kimliyi idi. Onun bir kimsəyə zərrə qədər də olsun pisliyi kecməmişdi. Hətta quşlara, heyvanlara da. Bəzən də onu Nizami Gəncəvinin "Kərpic kəsən kişi" hekayəsindəki usta ilə müqayisə edirdilər. Cünki, Suleyman dayı da adı çəkilən hekayədəki nurani qoca kimi gəncləri halal zəhmətə çağırar, onlara öyüd və nəsihət verərdi. Bu gün də Süleyman dayının iç dünyasının nə qədər insani keyfiyyətlərlə zəngin olduğunu sübüt edən bir hadisə gözlərimin qarşısından getmir.

Səfiyargilin ata həyətindəki aynabəndin yuxarı küncündə qaranquş ailəsi üzun illərdi ki, özünə yuva qurmuşdu. Günlərin bir günü övladları bu evdə təmir işləri aparacaqlarını, quşun yuvasının isə başqa yerə köçürəcəklərini atalarına söyləsələr də, Suleyman dayı bu işə razılıq verməmişdir:

-Allahın yaratdıgı bu quş mənim qapıma, evimə, isti ocağıma pənah gətirib. O Allahın mənə əmanətidir. Bu

qaranquşlar hər oçaqda yuva qurmazlar. Əgər mən bu ənənəni pozsam, Allahıma xəyanət etmiş olaram -demişdir.

Süleyman usta-bənna işləyirdi, 1974-cü ilin yayı idi, işlərin ən qızğın vaxtlarıydı. Usta iş qəzası keçirmişdi. Divar hörülməsi üçün yaxşı qurulmayan taxta körpüdən yıxılaraq bədən-baş nahiyələrindən ağır xəsarətlər almışdır. Aldığı xəsarətlərə baxmayaq Süleyman kişi öz həyat yoldaşı Laləzər anaya - al bu 50 manatı (1 manatlıq əskinazlar olaraq) ailənin ilk ehtiyacları üçün (qənd, cay, çörək) bir müddət istifadə edərsən deyib pulu ona vermişdi. Laləzər xanım da bu pulu eləcə palazın altına qoymuşdu... 50 manat təklik. Ağır zədələr almasına baxmayaraq bu zəhmətkeş insan qısa müddətdə özünü toparlayıb - Yox, mən yanımı yerə verib yata bilmərəm, bu ailənin bütün yükü mənim üstümdədir deyib, tam sağalmamış yenidən öz işinin başına dönmüşdü.

Belə əzminə və qusursuz işinə görə Süleyman dayı muxtəlif dövrlərdə Fəxri Fərmanlar, pul mükafatları, zərbəçi əmək meydanında nəzərdə tutulmuş plandan artıq görülən işlərə görə keçici bayraqlarla və Əmək Veteranı medalı ilə təltif edilmişdir. Hər zaman öndə olan zərbəçi, əməkdar bir insan olmuşdur. Onun əlinin zəhməti, alnının təri ilə tikilən binalar, o cümlədən, Naxçıvan şəhərində inşa edilən Dram Teatr, H.Əliyev, Nizami, İstiqlal küçələrində ucaldılan uca mərtəbəli yaşayış binaları, mikrorayon deyilən yeni yaşayış massivi və sosial obyektlər bu gün də onun bənnalıq əsərləri kimi anılır və tanınır. Bu qüsursuz əməyinə görə də tanıyan insanlar tərəfindən onun pak ruhuna hər zaman dualar oxunur.

Anası Laləzər xanım da kəndin ağbirçəklərindən sayılırdı. Onun əsilli-nəsilli tayfadan olması da simasına xanım-xatınlıq çöhrəsi verirdi. Nəinki, Aşağı Uzunobanın, ərazidə yerləşən digər kəndlərin də (Yuxarı Uzunoba, Şixmahmud, Xəlilli,

Didivar, Nəzərabad) qız-gəlinləri onu əzizlər, sevər həyat dolu dərslərinə, məsləhətlərinə qulaq asar, tövsiyələrinə əməl etməklə öz həyatlarında bir örnək kimi bunlardan istifadə edərdilər. Çünki, Laləzər ana bu qız-gəlinlərə də öz övladları kimi öyüd və nəsihətlərini əsirgəməzdi. Onlara sağlam təməl üzərində ailə həyatı qurmağı, həyat yoldaşlarına sədaqətli olmağı tövsiyə edərdi. Qız-gəlinlər də bu məsləhət və qayğısının əvəzini ona mehribanlıqla qaytarar, Laləzər ananın şad günündə, çətin anlarında da onun yanında olardılar.

Laləzər ana dünyaya 9 övlad gətirib. Onlardan 6-sı oğlan, 3-ü qızdır.



Ananın sıradan olan bir günü.

–Səhər sübh çağıdır. Bütün ailə şirin yuxuda olanda Laləzər ana sobanı qalayıb evi qizdırır, dünən gecə saat 1-ə kimi uşaqların əyin-başlarını, Uzunoba çayının buz suyunda yuyub, suya çəkdiyi və duruladığı əyin-başlarının (libaslarının) qurudulmasına da çaba göstərirdi. Axı ailə üzvləri bu libasları geyərək hərəsi öz işinin dalınca gedəcəkdi. Süleyman kişi bina inşa etməyə, uşaqlar dərsə, özü isə təsərrüfat işlərilə məşğul olmağa. Növbə səhər yeməyinin hazırlanmasına gəlirdi, 11 nəfərlik bir ailə üçün yemək, azuqə hazırlamaq, süfrə açmaq da onun zəhmətkeş ana qayğısı ilə ərsəyə gəlirdi. Bunun necə çətin bir iş olduğunu hamı çox gözəl bilir. Bir sözlə, yu, yığışdır, təmizlə, gündəlik 3 evinə yemək bişir, sökük tik, tikik sök. Böyüyən uşaqların paltarının ehtiyatını açar, kiçik uşaqların böyük olan paltarlarını da qatlanaraq tikər, elə bir növü də dərzilik edərdi. Mələksimalı ananın əllərinin nuru, bacarığı və əzmi

hesabına ailə tər-təmiz, səliqəli geyinərdi. Bu ilahi əzmin nətcəsi olaraq da cəmiyyətdə zəhmətsevər bir ailə formalaşırdı.

Laləzər ana indiki Babək rayonunun Aşağı Uzunoba kəndində dünyaya göz açmışdır. Ancaq onun anası Güləfsər xanım isə (o sonralar bu adı böyük qızına vermişdi) İrəvan elinin adı dillər əzbəri olan qədim yurd yerimiz Göyçə mahalının Ağzıbir kəndindən idi. Laləzar xanım anasından eşitdiklərini də hafizəsində möhkəm saxlamışdı. Laləzər xanım xatirələrində hər zaman o diyarın əsrarəngiz təbiəti, ailəsinin firavan həyat keçirməsi və xüsusilə milli dəyərlərimizin bu ərazilərdə necə qorunub saxlanmasından, aşıq müsiqisindən, bayatılardan, oxşamalardan, təcnislərdən, qoşmalardan, hağıştalardan söz açardı. Tez-tez belə bayatılar deyərdi:

***Əzizinəm Göyçədədi,***
***Bağca-bağım Göyçədədi,***
***Mənə qərib söyləməyin,***
***Od-ocağım Göycədədi.***

***Əzizinəm Göyçədədi,***
***Qəlbim, gözüm Göyçədədi,***
***Ələsgərtək ustadımın,***
***Sazı, sözü Göyçədədi.***

və ya, düşmənə olan nifrətini, yaşadığı acı xatirələri belə yada salardı:

***Yurdumu niyə soydun?***
***Obamı elsiz qoydun.***
***Qana boğuldun, doydun?***
***Qoy ağzın yansın düşmən.***
***Söndürdün ocağımı,***
***Sönsün ocağın düşmən.***

Göyçə mahalının xalı, palaz, kilim, gəbə toxuyan qadın-qızlarından da söhbət açardı. Həmin tarıx dolu qədim

toxumalarda vurulan ilmələrin, Türk-Oğuz elinin yaşam tərzinin necə olduğunu, hər təsvirdə həyat məğzini, adət-ənənələrinin necə yerləşdirildiyini anladardı. Xalı-xalçalardakı rəsmlərin mənasını bircə-bircə açar, mahiyyətini dəqiq anladardı. Övladın anaya olan sevgisini Səfiyar müəllim hələ gənclik illərində anası Laləzər xanıma həsr etdiyi bir şeirində bütün anaları belə tərənnüm edir:

***Bala baldan şirinsə,***
***Ana ondan da şirin.***
***Nə qədər ki, ana var,***
***Onun qədrini bilin.***

***Yuxusuz gecələrin,***
***Bizlərə bəxş edibdi.***
***Mən anayam, dözərəm,***
***Yatsın balam deyibdi.***

***Ana bizə ümiddir,***
***Arzuya çatmaq üçün.***
***Onun qədrini bilək.***
***Daim yaşatmaq üçün.***

**Səfiyar müəllimin bacısı Güləfsər xanımın dediklərindən:**

Ana haqqı Tanrı haqqı deyiblər. Övlad üçün ata da ana da eynidir. Valideynlərim haqqında xatirələrim tükənməzdir, sonsuzdur. Həmişə gözümün önündə yaşmaqlı bir qadın, əliqabarlı bir kişi durur.

Atam və anamın ali təhsilləri olmasa da, onlar daxilən ziyalı idilər. Onların həyat tərzləri imkan verməmiş oxusunlar. Lakin yenə də təhsilə önəm vermişlər.

Anam 7-ci sinfi əla qiymətlərlə bitirmişdir. Təhsilini davam etdirə bilməməsi onun ən yaralı yeri idi. Bir dəfə orta

ixtisas məktəbini bitirmiş sinif yoldaşlarından biri anama zarafatla "əziz bacım, sənin əsil həyat yoldaşın, 9 uşağın olsa da diplomun ki, yoxdur"-demişdir. Bu söz anama çox təsir etmişdir. Məhz bu səbəbdən övladlarının təhsilinə həmişə nəzər yetirərdi.:-"Mənim tamamlamadığım təhsilimi qoy uşaqlarım tamamlasın"-deyərdi. Hər ilin avqust ayında bizim məktəb ləvazimatlarımız, məktəbli formalarımız hazır olardı. Məktəb rəhbərliyi həmişə onları nümunə çəkərdi. Hər gün beş uşaq məktəbə yola salmaq böyük hünər tələb edirdi. Anam bunların öhdəsindən layiqincə gəlirdi. O, gecələr yatmayıb, şirin yuxusuna acı qataraq paltar tikər, əyirdiyi iplərdən əlcək, corab, şarf toxuyardı. Ev üçün rəngbərəng dekorativ bəzək əşyalar-örtüklər hazırlayardı. Bundan əlavə vaxt tapan kimi palaz, cecim toxuyardı. (Anamın cəhrəsi və yun darağı son vaxtlaradək evimizdə saxlanılırdı). Bu sənət görünür nənəmdən anama keçmişdir. Nənəm Qərbi Azərbaycandan-Göyçə mahalının Ağzıbir kəndindəndir. Anamın şeirə, xüsusilə də aşıq yaradıcılığına olan sevgisi də məhz burdan qaynaqlanırdı. O, aşıq Ələsgərin, S.Vurğunun şeirlərini yorulmadan əzbər söyləyərdi:

***Can deməklə, candan can əksik olmaz,***  
***Məhəbbət artırar, mehriban eylər.***  
***Çor deməyin nəfi nədir dünyada?***  
***Azad könülləri pərişan eylər.***

Anam bizə Aşıq Ələsgərin "Yaylaq" adlı şeirini də tez-tez söylərdi:

***Kəkotu, qırxbuğum, qaymaq çiçəyi,***  
***Bənövşə, qantəpər, qızlarörpəyi,***  
***Qoyun mələşməsi, çoban tütəyi,***  
***Çəkir uzağa xəyalı yaylaq!***

Bu şeiri deyəndə anam Göyçə sədalı, Göyçə nidalı çayların, göllərin, laləli, bənövşəli, kəkotulu ilahi yurdun ətrini, ab-havasını bizə də hiss etdirər, xəyalı uzaqları dolaşardı. Göyçə gölündən də söhbət açardı. Deyərdi ki, Göyçə gölü Azərbaycanın incisidir. Onu deyərdim ki, anam həmişə nikbin olmuşdu. Bu həsrətli günlərə nə vaxtsa son qoyulacağına, arzu və ümidlərinin haçansa göyərəcəyinə inamını itirmədi.

Anamdan fərqli olaraq atam isə şifahi xalq ədəbiyyatı ilə maraqlanardı. Atalar sözlərinə böyük önəm verərdi. Deyərdi ki, bu müdrik kəlamlara əməl edənlər həyatda daim üzüağ, alnıaçıq olurlar. Savab iş görmək, yaxşılıq etmək, el içində sayılıb-seçilmək atamın həyat devizi olmuşdu.

Yadımdadı mən orta məktəbi bitirdiyim il müsabiqədən keçə bilmədiyim üçün ali məktəbə daxil ola bilmədim. Qərara aldım ki, Naxçıvan şəhərindəki fabriklərdən birində çalışım. Həm iş stajım olar, həm də ailəmizə köməklik etmiş olaram. Lakin atam buna icazə vermədi, dedi:-gedib işləyərsən oxumağı unudarsan, yorğun-yorğun gəlib  hazırlaşa bilməzsən, bir də ki, mən hələ qabaqdayam işləyirəm, get dərslərini hazırla, təhsilini davam elə.

Atam sakit təbiətli, mülayim, səbirli, xeyirxah və şükürlü bir insan idi. Həyatının uşaqlıq, gənclik illəri keşməkeşli olsa da ömrünün payızında özünü xoşbəxt sanırdı. Atam deyirdi:- "Qızım mən özümü dünyanın ən xoşbəxt atası sayıram. Həyatda doqquz tərbiyəli, əxlaqlı, təhsilli, ailəyə sədaqətli övlad yetişdirmək asan deyil. Anan da, mən də bunu bacarmışıq. Ata, ana üçün bundan artıq nə ola bilər. Anam bu xoşbəxtliyin şərbətini atamdan daha çox içdi. Belə ki, atam 70 yaşında, anam isə 90 yaşında bu dünyaya əlvida dedilər. Anam xoşbəxt günlərini yaşadığı zaman həyat acı şərbətini də daddırdı ona.

Övlad acısı, övlad itkisi çox ağır gəldi, sanki büsbütün dünyası dəyişdi anamın. O, bayatılarını ağıya çevirdi.

*Əzizinəm lala dağı,*
*Bürüyüb lala dağı.*
*Hər yaralar sağalar,*
*Sağalmaz bala dağı.*



Bəxtiyar ailənin ikinci övladı olsa da, evin bütün təşkilati işlərində atamın yardımçısı idi. O, deyib-gülən, dostunun, yoldaşının, tanışının xeyirinə-şərinə tələsən, sevincinə, kədərinə şərik olan bir insan idi. Uzunoba kənd inzibati dairə üzrə İcra Nümayəndəliyində çalışdığı və bələdiyyə üzvü işlədiyi dövrlərdə üzərinə düşən vəzifəsinin öhdəsindən bacarıqla gələrdi. Xüsusilə yay aylarında su qıtlığı yaranan zaman zəhmətkeş insanların əkin-biçin sahələrinin növbə ilə suvarılmasına, yağışlı günlərdə insanların rahatlığına mane olan kənd içindəki yararsız olan avtomobil və piyada yollarına qum-çınqıl döşənməsinə xüsusi diqqət göstərərdi. Müxtəlif dövrlərdə keçirilən Prezident, Parlament və Bələdiyyə seçkilərində də dövlətinə, millətinə, xalqına olan sevgisini, məhəbbətini, sədaqətini əsirgəməzdi.

Bəxtiyar öz səmimiyyəti ilə kənd sakinləri arasında böyük hörmət qazanmışdı. Hamıya dost, bacı, qardaş deyərdi. Xalqımızın min illər boyu yaşatdığı və qoruduğu adət-ənənələri – Vətənə, ailəsinə, valideynlərinə sonsuz məhəbbəti, dostluğa sədaqəti, qonağa hörməti, qadına-ahıla, uşağa diqqət və qayğını vüqarla yaşadar, xalqına layiqli övlad, layiqli vətəndaş olmaq borcunu ləyaqətlə yerinə yetirərdi.

Dostları çətinə düşəndə Bəxtiyarın ağıllı məsləhətlərinə ehtiyac duyardılar. Çünki Bəxtiyar üçün dostluq əvəzi olmayan bir əxlaqi sərvət idi. O, görkəmli şairimiz Məmməd Arazın dostluğa həsr etdiyi bir şeirini həvəslə səsləndirərdi:

**Sev könül dostunu gözündən artıq,**
**Sözünə məna ver sözündən artıq,**
**Deyirəm əzizlə özündən artıq,**
**Dərdini öz dərdi bilən dostları.**

O, bu sərvəti ömrünün sonuna qədər daşıdı.

Ömrü qısa oldu. Bütün ailəmizə kədər gətirdi. O, həyatda gözəl xatirələr, gözəl ailə, 3 əxlaqlı, tərbiyəli, təhsilli övlad qoyub getdi. İnsanlar arasında hörmət, izzət, məhəbbət, keşməkeşli həyatında vicdan, namus, qeyrət qoyub getdi. Ömrünün 57-ci baharını qışa çevirdi getdi. Lakin qəlbimizdə həmişə yaşayır, yaşayacaq.

Bizə atalıq qayğısı göstərən Səfiyar qardaşımın ocağı daim yanar olsun. Onun gənclik illərində tez-tez söylədiyi bir şeiri xatırlayıram.

***Ürək nədir, adi ürək, insanlığın yol yoldaşı.***
***Duyğuların kövrəkliyi, xəyalların məhək daşı.***
***Güzgü kimi təmizdirsə, sındırmayaq qədrin bilək.***
***Ləkəlisə oda atıb, bir dəfəlik məhv eyləyək.***

Bizə ləkəsiz bir həyat bəxş etdikləri üçün valideynlərimin ruhu şad olsun.

Səfiyar da belə bir köklü ailədə dünyaya göz açıb. Atası Süleyman kişinin halal çörəyi, dəyərli nəsihətləri ilə ayaq tutub yeriyib, müstəqil həyata qədəm qoyub. Qarşısına çıxan bütün çətinlikləri ona təlqin edilən iradəsinin gücü ilə dəf edib. Quş qanadı ilə özünə yol açdığı kimi, Səfiyar da öz əqli, kamalı ilə özünə yol açıb. Azərbaycan Dövlət

Universitetinin (indiki Bakı Dövlət Universiteti) Hüquq fakultəsini müvəffəqiyyətlə bitirib. Haqqı, ədaləti, düzgünlüyü özünün həyat devizi seçib. İşlədiyi bütün sahələrdə hər zaman haqq və ədalətə söykənib. Axı necə olsa, düzlük və həqiqət onun ürəkdən sevib seçdiyi peşəsinin tələbidir. Onun nəzərincə düzlük tərəzinin bir-birinə baxan gözlərinə bənzəyir. Çünki tərəzi ağır və yüngülü bir-birindən ayırdığı kimi, düzlük də haqqı nahaqdan ayıra bilir. Yeri gəlmişkən deyim ki, Səfiyar müəllim Tərəzi bürcündə, 02 oktyabr 1960-cı ildə dünyaya göz açıb.

Səfiyar müəllim 1992-ci ilin sonlarında və 1993-cü ildə Naxçıvanda əsası qoyulan Yeni Azərbaycan Partiyasının fəal iştirakçılarından olub. YAP-ın sıralarının möhkəmlənməsində, yerlərdə ilk təşkilatların yaradılması və formalaşmasında öz köməkliyini, prinsipiallığını, mövqeyini və əzmkarlığını əsirgəməyib. Heydər Əliyev partiyasına daim sədaqətli olub.

Bir vaxtlar Hüquq fakültəsinə qəbul olunmasını da Ulu Öndərin təhsil sahəsində apardığı islahatların parlaq nəticəsi hesab edir. Çünki həmin illərdə bu fakültəyə yalnız yuxarı dairələrin, xüsusi ilə də məhkəmə və prokurorluq orqanlarında rəhbər vəzifələrdə çalışanların övladları qəbul olunurdular. Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra isə ayrı-seçkiliyə, süni maneələrə son qoyulmuş, fəhlə, kolxozçu və zəhmətkeş övladlarının bu sahədə təhsil almasına geniş imkanlar açmışdır.

Ona əbəs yerə müəllim demirlər. O, Naxçıvan Dövlət Unuversitetinin Beynəlxalq Münasibətlər və Hüquq Fakültəsinin ilk müəllimlərindən biridir. Elm ocağında hüquq təhsili alan tələbələrə təhsilin pillələrində ucalması üçün əzimlə və yüksək intelektual səviyyədə dərslər də tədris

edir. Axı müəllimlər insanları kamillik zirvəsinə qaldırmaq kimi böyük bir vəzifəni – gənclərin təhsili, təlim-tərbiyəsi, cəmiyyət və dövlət üçün yararlı bir vətəndaş kimi yetişdirilməsi missiyasını həyata keçirir. Belə bir müdrik kəlam var: - Hər bir millətin mədəni tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır. Əsl müəllim həmişə əsl insan, əsl vətəndaş yetirir. Onun nəzərincə ömrünü bu sahəyə həsr edənlər ən şərəfli insandır. O, bu şərəfli adı bu gün də vüqarla qoruyur və yaşadır.

Səfiyar müəllim bu gün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Arkoz Travertin-Mərmər Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru kimi məsul bir vəzifədə çalışır. Rəhbərlik etdiyi müəssisə muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin həyata keçirilməsində fəal iştirak edir. Eyni zamanda Səfiyar müəllim həm də atası Süleyman kişinin bir vaxtlar inşasında böyük zəhməti və əməyi olan neçə-neçə yaşayış binalarının fasadının və həyətyanı sahələrinin, müəssisənin istehsal etdiyi travertin-mərmər daş məhsulları ilə üzlənməsinə və bu binaların ömrünün uzaldılmasına durmadan öz töhfəsini verir.

Ancaq muxtar respublikada hamı onu ziyalı, öz peşəsinə vicdanla, ləyaqətlə xidmət edən hüquqşunas, vətəninə, xalqına bağlı olan bir vətəndaş, "Notarius Səfiyar" kimi tanıyır. O, uzun illər ədliyyə sahəsində çalışıb. Ədliyyə müşaviridir. Onun bu fəaliyyəti və xidməti dövlətimiz tərtəfindən yüksək qiymətləndirilib. 2011-ci ilin noyabrında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub. Bu təltif Səfiyar müəllimin Vətəninə, dövlətinə və peşəsinə olan sonsuz sevgisindən irəli gəlir. Onun nəzərincə vətənpərvərlik geniş məfhumdur. Bu anlayış sadəcə ələ silah alıb Orduda



xidmət etmək anlamını vermir. Vətənpərvərlik hər bir insanın Vətən qarşısında ən müqəddəs borcudur. Bu müqəddəs hiss Səfiyar müəllimin qəlbinin əbədi sakinidir. O, övladlarını – Fəridi və Fuadı da bu ruhda tərbiyə edib. Hər ikisi ali təhsillidir. Həyat yoldaşı Təranə xanım isə Əziz Əliyev adına Naxıçvan şəhər Uşaq Xəstəxanasında həkim işləyir. Gələcəyimiz olan körpələrin sağlamlığının qayğısına qalır.



**Böyük qardaşı Əmrah** - 1956-cı ildə anadan olub. 1980-ci ildə RSFSR-in Altay diyarının Barnaul şəhərindəki SSRİ Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı ali məktəbini bitirmişdir. 1989-cu ilədək Rusiya Federasiyasında SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşı kimi müxtəlif vəzifələrdə işləyib. Sonradan doğma respublikamıza qayıdaraq, uzun müddət Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsində baş məsləhətçi vəzifəsində çalışmışdır. Hazırda təqaüddədir. Ailəlidir. 3 övladı var. Hər üçü ali təhsillidir.

**Qardaşı Eldar** üzun müddət polis opqanlarında çalışıb. Polis mayoru rütbəsinə qədər yüksəlib. Hazırda təqaüddədir. 1992-ci il Sədərək döyüşlərində mənfur düşmənlərə qarşı mərdliklə vuruşub. Döyüş zamanı yaralanan yoldaşını ən təhlükəli zonadan çıxarıb. Növbəti döyüş tapşırığını icra edərkən yaxınlığına düşən mərminin qəlpəsi onun baş



nahiyəsindən yaralanmasına və sağlamlığının qismən itirilməsinə səbəb olmuşdur. Müharibə əlilidir. Ailəlidir 3 övladı var.

**Eldarın** dediklərindən:

1992-ci ilin may ayı idi. Mənfir qonşuların Naxçıvana hücumunun ardı-arası kəsilmirdi. Sədərəkdə və muxtar respublikanın digər sərhəd ərazilərində mövqe uğrunda ölüm-qalım mübarizəsi gedirdi. Məqsəd çox əlverişli strateji yüksəklik hesab edilən Miltəpəni düşmənin mövqeyinə keçməməsi idi. Mən o zaman polis opqanlarında xidmət edirdim. Amansız düşmənə olan nifrətim mənim güçümü birə-beş artırmışdı. Döyüş əzmi, iradəmiz olsa da, silah sursat sarıdan çox çətinlik çəkirdik. Bu illərdə bütün ərazidə olan ov tüfənglərini belə yığmışdılar. Odur ki, Sədərəkdə yerləşən qərargaha gəlib göyüşçülərə silah-sursat aparırdım. Bu, döyüşlər zamanı ən çətin əməliyyat hesab edilirdi. Belə ki, düşmənin hər nöqtədə yerləşdiyi snayperlər sözün həqiqi mənasında - bizi göz açmağa macal vermirdi. Gah sürünərək, gah da saatlarla gözləmə mövqeyində olaraq (üzü üstə uzanmış vəziyyətdə) döyüş sursatlarını döyüşçülərə çatdırırdıq. Hər an ölümlə üzbəüz idik. Döyüş vaxtı idi. Sursatla dolu çantanı mən döyüşən dostlarıma çatdırmalı idim. Bu həm olduqca çətin, həm də ölümlə üzləşən bir vəziyyət idi. Hamı Eldar sursat dolu bu çanta çox ağırdır, bu çantanı sən necə hündür təpəyə apara bilərsən? Biz bunu yerindən belə tərpədə bilmirik – deyirdilər. Mənsə, siz nə danışırsız canım bahasına da olsa bu silah və sursatı ön xətdə döyüşən komandir Əbdülə və döyüşçü dostlarıma çatdırmalıyam. Onlar fikrini mənə israrla bildirdilər. Sən nə danışırsan, birinci posta ancaq gecə

gedə bilərsən, o yolda neçə şəhidlərimiz var, mümkün deyil gündüz getmək. Mənsə döyüş dostlarımı o çətin vəziyyətdə qoya bilməzdim, bu işin sonu ölüm olsa belə. Mən ağır silah-sursatla dolu cantanı götürüb getmək istəyirdim ki, dostlarım Eldar dur, deyə, məni çağırdılar. Hamısı mənə tərəf gəldilər - Eldar afərin sənə bu əsil igidlik və qəhrəmanlıqdır, halal olsun atanın çörəyi, ananın südü sənə, səni bu çür vətənpərvər ruhda böyüdüblər. Bunu deyən əsgər dostlarım – gəl heç olmasa halallaşaq Eldar-dedilər. Bu yolda dönüş möcüzədir qardaşım deyib, hamısı mənə sarıldı. Aramıza bir anlıq kədər sükütü çökdü.

Amma mənin itirməyə vaxtım yoxdu. Sursatla dolu cantanı götürüb yoluma davam etdim. Yol həqiqətən dostlarımın söylədiyi kimi –“Ölüm yolu” idi. Düşmən məni görüb üstümə mərmi yağışı yağdırırdı. Mən bu ağır yüklə və başımı belə qaldıra bilmədiyimdən sürünə-sürünə cığırlarla posta- döyüşçü yoldaşlarımın, komandir Əbdülün yanına irəliləyirdim. Atılan güllələrin səsini eşidir və düşdüyü yeri görürdüm. Xoşbətlikdən bu güllələr mənim yanımdan keçirdi. Posta çatıb silah sursat dolu çantanı yerə qoydum. Postda olan döyüşçü dostlarımın və komandirin gözlərinə baxdım, bu gözlərdə bir sevinc gördüm. Bu hal mənim əziyyətimi unutdurdu. Canım bahasına keçib gəldiyim yoldan dostlarım və mənim üçün əhəmiyyətli olan sulah və sursat çatdırmağımın sevincini hiss etmək istəyirdim ki, yoldaşlarımdan bri neytral zonada bir əsgərin yaralı olduğunu söylədilər.

Məlum oldu ki, bu əraziyə düşmən snayperləri nəzarət edir. Heç kim ora cəsarət edib gedə bilmir. Həqiqətən də atılan snayper mərmiləri bunu bir daha sübut edirdi. Döyüşçü dostlarıma bildirdim ki, mən o zonaya gedirəm. Yenə də məni israrla fikirimdən döndərmək istədilər. Mənsə fikrimi onlara dedim. Bildirdim ki, əgər orda bir nəfər yaralı varsa,

biz onu darda qoya bilmərik, xilas etməliyik. Ya Allah! deyib nəzarətdə olan zonaya tərəf getdim. Sürünə-sürünə gələ bildiyim bu ərazi məni dəhşətə gətirdi. Həqiqətən ətrafda gərgin döyüşlərin getdiyin şahidi oldum. Döyüş döstlarımı bu vəziyyətdə görmək məndə düşmənə qarşı daha çox nifrət hissi oyatdı. Kənarda yaralı əsgər dostumun ağrılar içində neçə əziyyət çəkdiyini gördüm. Verdiyim qərarın nə dərəcədə düzgün olduğunu düşündüm. Yaralı əsgər ağrılar içərisində – mənə dəli olmusan, bura necə gəlmisən, hər tərəf düşməndir. Düşmən snayperləri nəzarət edir bu zonaya. Qayıt, get, mən yaralıyam məni qurtara bilməzsən, özün də həlak olarsan. Mənsə yaralıya ürək dirək verib əvvəlcə yaralarını bağladım, sonra onu çiynimə alıb ərazidən çıxarmağa çalışdım. Ancaq düşmən snayperlərinin açdıqları atəşlər mənim irəliləməyimə imkan vermirdi. Yaralı əsgəri təhlükəsiz zonaya çıxarmaq üçün yenidən yerdə sürünə-sürünə və onu darta-darta qayanın arxasına keçə bildim. Yaralı əsgərsə israrla deyirdi:– qardaş sən get, məni burax. Mənsə onu xilas edəcəyimə söz verdiyimi ona bildirdim.

Yaralı əsgərin gözlərindəki həyat eşqini görəndə nə qədər düzgün qərar verdiyimi bir daha anladım. Yaralı əsgəri xilas edib 900 metr aralıda yerləşən "Koroğlu bulağı"nın yanınadək təhlükəsiz əraziyə çatanda artıq əsgər çoxlu qan itirdiyindən huşunu itirmişdi. Onun sağalacağı isə möcüzə hesab edilirdi. Düzü onun huşunu itirməsi, vəziyyətinin ağırlığı məni də həddən artıq sarsıtmışdı. Ətraf da mənə Eldar bunu necə bacardın? Necə etdin? Afərin sənə, əsil igidsən, qəhrəmansan!– deyən əsgər yoldaşlarımın səslərini eşidirdim. Məni isə daxilən adını belə öyrənə bilmədiyim yaralı əsgər yoldaşımın bu halı dəhşətli dərəcədə məyus etmişdi.

Günlərin bir günü mənə dedilər ki, bir nəfər səni görmək istəyir. Kim olduğu maraqlı gəldi mənə. Düzü bu şəxsin kim

olması, məni niyə axtarması çox düşündürdü. Görüş təyin etdiyimiz yerə gəldim. Burda bir nəfər məni gözləyirdi. Özünü təqdim etdi. Eldar tanımadın məni dedi və məni qucaqladı. Sən mənim həyatımı qurtaran, məni yenidən həyata qaytaran Qəhrəmansan Eldar! Mənim xilasgarımsan, məni ölümün pəncəsindən alansan, mən Qaracuq kəndindən olan Babək – yaralı əsgər. Hə dostum deyib biz yenidən qucaqlaşdıq. Məni ölümün pəncəsindən xilas edən, məni qurtaran Qəhrəman Eldar necəsən deyə bir daha mənə müraçiət etdi. Ağrılı o anlardan, xəstəxanada Allahın köməyi ilə olümdən bir daha necə xilas olduğu barədə danışdı. Babək ürəkləri ağrıdan elə məni də kövrəldən bir çümlə də işlətdi - sən olmasıydın mənim ailəm, əzizlərim və əsasən də övladlarım həmişəlik ata üzünə həsrət qalacaqdı.

Döyüşdən sonra da, Eldarın bu igidlik, əsil qəhrəmanlıq hərəkətləri, qorxmazlığı dildən-dilə düşmüşdü. Hər görüşdüklərində dostları arasında xatırlanaraq: Əsl Qəhrəman, İgid elə sənsən! -deyirdilər.



**Qardaşı Sabir** isə Kənd Təsrrüfatı Texnikumunu bitirib. Kənd təsərrüfatı sahəsində çalışır. 1990-2000-ci illərdə Moskva şəhərində yaşayan Sabir həmin müddətdə rusiyada fəaliyyət göstərən diasporanın idarə heyyətinin ən fəal üzvlərindən biri olub. Yaşadığı ərazidə mənfur düşmənin apardığı bütün təbliğat-təşviqat işlərinin qarşısını almaqla onların mənfur niyyətini ictimaiyyətə çətinliklə də olsa çatdırırdılar. Əlbətdə bu işlər asan başa gəlmirdi. Həm maddi, həm də mənəvi güc tələb edirdi. Həmin dövrdə Rusiyada yaşayan və Azərbaycana ordan köməklik edən neçə-neçə dəyərli,

elinin təəssübünü qoruyan oğullarımızla birlikdə idi. Sabir bəzən söhbətlərində deyirdi- Mən və orada yaşayan diaspora üzvləri Azərbaycanı Rusiyada təmsil edirdik, elə bunların özü də bir növü çəbhə xətti hesab edilirdi. Orada, qərib eldə düşmənlə qabaq-qənşər dayanmaq bir hünər istəyir.

Bu hünər zəhmətkeş ailədə böyüyən bütün övladlarda, Sabirdə də cəmlənmişdi. Əsas qayəsə məlum idi. Ağır günündə Vətəni Müdafiə etmək... Sabirin gördüyü əvəzsiz işlər, haqqında danışdığı xatirə dolu söhbətlərində öz əksini tapırdı. Ailəlidir 2 övladı var.



**Balaca qardaşı Hicran** Naxçıvan Dövlət Pedoqoji İnstitutunun Coğrafiya fakultəsini bitirib. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində işləyir. O, həm də təbiəti daha çox sevən bir insan kimi ağaclara diqqət və qayğı göstərməyi özünün vətəndaşlıq borcu hesab edir. Oxuduqlarından və televiziya ekranlarından izlədiklərindən danışarkən bildirir ki, dünyada o şəhəri yaşıl şəhər adlandırırlar ki, həmin şəhərin ərazisinin 25 faizdən çoxunu yaşıllığlar təşkil etsin. Fəxrlə söyləyirəm -qədim Nuh yurdunun ərazisinin artıq 20 faizdən çoxunu yaşıllıqlar öz ağuşuna alıb. Axı yaşıllq sağlam həyat tərzinin ifadəsi olduğu kimi, həm də gözəllik nişanəsidir. Yaxın gələcəkdə gözəlliyindən zövq aldığımız Naxçıvanın da bu yaşıl şəhərlər sırasında adı çəkiləcək.

Vətənpərvərlik onun ən ali əxlaqi keyfiyyətlərindən, ən dərin duyğularından biridir. Onun nəzərincə vətənpərvərlik milli qeyrətdir ki, bu hamıda olmalıdır. Çünki insan mənsub olduğu xalqın istək və arzuları ilə yaşayanda, öz taleyini Vətəninin taleyi ilə bağlayanda xalq qədər böyüyür, ucalır. Axı Vətənin şərəfi hər

kəsin şəxsi şərəfi, insanın ən müqəddəs borcu isə Vətən borcudur. Hicran Abuşov da bu borcu Birinci Qarabağ Müharibəsində şərəflə qoruyub. Sədərək döyüşlərində qardaşı Eldarla birlikdə düşmənə qarşı çiyin-çiyinə mübarizə aparıb, kəşfiyyatçı olub. Müharibə veteranıdır. Ailəlidir 3 övladı var.



**Ailədə 3 qız övladı da böyüyüb. Güləfsər, Aləmzər və Gülşən ali təhsillidirlər. Ailəlidirlər. Xoşbəxtdirlər. Güləfsərin 3, Aləmzərin 3, Gülşənin isə 2 övladı vardır.**

Səfiyar müəllimin sayılıb seçilən dostları da var. Yuxarıda bəhs etdiyimiz bu həyətdə onların da gözəl xatirələri, anları yaşanıb və yaşayır. Bu həyətdə Naxçıvan Dövlət Universitetinin Ədəbiyyat müəllimi–pedaqoq, tanınmış alim-şair Xanəli Kərimlinin əziz günlərini qeyd etmiş, onun yeni işıq üzü görən şeir və poemalarını, Muxtar Qasımzadənin Naxçıvanın abidələrinə həsr etdiyi şeirləri dinləmişik, "Naxçıvan" Universitetinin İdarəetmə Fakültəsinin müəllimi iştisadi inkişaf üzrə Naxçıvan Muxtar Respublikasının iki "Dövlət Proqramının" həmmüəllifi olan Çingiz Süleymanovun regionun inkişafına dair töhvə verə biləcək nəzəri bilik və təcrübəlorilə tanış olmuşuq. (Çingiz müəllim Naxçıvan Muxtar Respublikasının Dövlət Əmlak Nazirliyi, İqtisadiyyat Nazirliklərində, Özəl Holdinqdə yüksək vəzifələrdə çalışmışdır. O Kənd Təsərrüfatı Texnikumunu və Poltava Kooperativ İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. İki övladı, üç nəvəsi var.)

Ramiz Babayevı yeni nəşr olunan 44 günlük vətən müharibəsinə həsr etdiyi, "Salam Şuşa şeirlər kitabına, Nizami Əzizəliyevi, mətbuatda dərc olunan şeirlərinə görə təbrik

etmişik. Loğman və təbib kimi tanınan Əzim müəllimdən dağlarımızda bitən şəfalı bitkilər haqqında müfəssəl məlumat almış, Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünas Nizami Alıyevin, Akademiyanın muxbir üzvü Vəli Baxşəliyevin muxtar respublikada apardığı tədqiqat işlərinin uğurlu nəticələrinə, Sahib Əliyevin ali məktəb tələbələri və müəllimləri üçün üzərində işlədiyi "riyazi analiz" dərs vəsaitlərinin hazırlanmasına, Şəmsəddin Qasımovun və Kamal Əhmədovun yeni bəstələrinə birlikdə sevinmişik.

Mirələkbər Seyidovun ədəbi mühit nümayəndələrinin neçə-neçə kitabının öz AQRA (Elmin İnkafına Dəstək Qeyri-Hökümət Təşkilatı) səhifəsində tanıdılmasından xəbər tutmuşuq. Göründüyü kimi, Səfiyar müəllimin bu ocağı həm də seir, sənət, elm və mədəniyyət ocağıdır. Bu ocağın közü, hərarəti və nuru el obamızı öz nuruna, işığına qərq edir. Bir sözlə Cingiz müəllimin dediyi kimi:

–Bu ziyaliların yığışdığı ocaq "KÖZ" ədəbi, elmi, bədii, irfan, iman ocağı da adlandırıla bilər. Çünki burda söz deyən hər bir şəxs, elində, obasında, ölkəsində, dünyada tanınan ZİYA, NUR daşıyıcıları olan ziyalılardı.

Bura gələn nurlu insanlar samovara od salar, pürrəngi çay masasının arxasında yazdıqlarından, mütaliə etdiklərindən, bildiklərindən, gəzib-gördüklərindən, həyatda qarşılaşdıqları ən maraqlı anlarından fəxr və fəxarətlə söhbət açırlar.

"Ocaqdan nur alanlar" adlı kitabımızda dərc olunan şeir, elmi məqalə, mahnı, və sair materiallar bu ziyalıların əldə etdikləri uğurların, qazandıqları nailiyyətlərin cuzi bir hissəsidir. Məqsədimiz bu insanları gələcək nəslə tanıtmaqdır.

**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**
***9 iyul 2023-cü il***

## SƏFİYAR ABIŞOV

### ANA



*Bala baldan şirinsə,*
*Ana ondan da şirin.*
*Nə qədər ki, ana var,*
*Onun qədrini bilin.*

*Yuxusuz gecələrin,*
*Bizlərə bəxş edibdi.*
*Mən anayam, dözərəm,*
*Yatsın balam deyibdi.*

*Ana bizə ümiddir,*
*Arzuya çatmaq üçün.*
*Onun qədrini bilək.*
*Daim yaşatmaq üçün.*

### NƏYƏ LAZIM

*Bir bağın ki, naşı ola bağbanı,*
*O bağın verdiyi bar nəyə lazım.*
*Bir dağın ki, yoxdur çəni, dumanı,*
*Zirvəsində olan qar nəyə lazım.*

*O insan ki, yoxdur onun hörməti,*
*Dost-tanışa quyu qazır xəlvəti,*
*Tapdalayır mənliyi, ləyaqəti,*
*Onda olan dövlət-var nəyə lazım.*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİNİN NAXÇIVAN DÖVRÜ



Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətə verilən layiqli qiymətdir. Bu Sərəncam geniş ictimaiyyət tərəfindən yüksək əhval-ruhiyyə ilə qarşılanır. Xalqının qəlbində özünəməxsus yer tutan böyük şəxsiyyətin müstəqilliyimizin qorunub saxlanılması və Azərbaycanın ərazi bütövlüyünün, o cümlədən onun ayrılmaz parçası olan Naxçıvanın düşməndən qorunması üçün həyata keçirdiyi tədbirlər, gördüyü işlər hər zaman minnətdarlıq hissi ilə xatırlanır. Sərəncamda deyilir: "Zamanın hökmü ilə ötən

əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir".

Ulu Öndərimizin 1990-1993-cü illəri əhatə edən Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti də, bu mənada, böyük siyasətin bir parçasıdır. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin xilası missiyasına məhz Naxçıvandan başlamışdı. Moskvada ciddi təqiblər və nəzarət altında yaşayan Ulu Öndər Heydər Əliyev1990-cıilin iyul ayında Azərbaycana, oradan da Naxçıvana qayıtdı. Naxçıvan əhalisi onu böyük ruh yüksəkliyi ilə qarşıladı, ona böyük ümid bəslədiklərini bildirdi və milli adət-ənənəyə görə ayağının altında qurbanlar kəsdi. Həmin dövrdə Moskva mətbuatı Ulu Öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti haqqında ardıcıl olaraq məlumatlar verirdi. Bu məlumatlarda Moskvanın böyük narahatlığı da hiss olunurdu. Ümummilli Lider Naxçıvanda olarkən "İnterfaks" agentliyi belə bir məlumat vermişdi: "Heydər Əliyev siyasi fəaliyyətlə məşğul olmağı davam etdirir. Belə ki, iyulun 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında onun yerli əhali ilə görüşü keçirilmişdir. Bəzi məlumatlara görə, görüşə 30 minə qədər adam toplanmışdır". Bəli, bu məlumat Ulu Öndərin fəaliyyətinin Naxçıvan dövrünü özündə əks etdirən ilk xəbər idi.

Ümummilli Liderin elə bu görüşlə başlayan böyük fəaliyyəti çox çəkməyəcək, bütün Azərbaycanı əhatə edəcəkdi. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoyacaq, imperiya qüvvələri ilə mübarizə daha da alovlanacaq, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxaracaqdı. "Komsomolskaya Pravda" qəzeti isə Azərbaycan Respublikası Ali Sovetinə seçkilərdən sonra "Əliyev qayıdır" başlıqlı məqalədə yazırdı: "Uzun fasilədən sonra öz vətəninə qayıdan Heydər Əliyevin ayaqlarının altında xalq adətinə görə kəsilən qurbanların qanı hədər yerə axıdılmadı. Doğma Naxçıvan torpağına qayıdan Siyasi büronun keçmiş üzvü zamanın çağırışına cavab verməyi qərara almışdı. Və səhv etmədi. Heydər Əliyev respublikada mandat uğrunda səslərin 95 faizini toplayan, parlaq qələbə qazanan yeganə şəxsdir". Qəzet Ulu Öndərin parlamentə üzv seçilməsini onun siyasi nüfuz dairəsinin daha da genişlənməsinə səbəb olacağını və parlamentdə ciddi siyasi mövqe dəyişikliyinə təsir edəcəyini də böyük narahatlıqla yazırdı.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının deputatı Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. "Şərq qapısı" qəzetinin xüsusi buraxılışında yer alan və Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsindən bəhs edən "Məclis iflic vəziyyətindən çıxır" başlıqlı məqalədə bu hadisənin Naxçıvanın müqəddəratında həlledici əhəmiyyəti olduğu böyük inamla qeyd edilirdi. "Həyat" qəzetinin bölgə müxbirinin elə həmin qəzetdə çap etdirdiyi yazıda isə deyilirdi: "Həyat"ın oxucularına tam səmimiyyət və məsuliyyətlə bildirirəm ki, sessiyanın beş gün davam edən iclaslarında əvvəldən axıradək iştirak etmişəm. Naxçıvan Muxtar Respublikasının Azərbaycandan ayrılması barədə bir nəfərin də

olsun eyham vurmasını belə eşitməmişəm. Əksinə, ilk gündən Məclisin Sədri öz çıxışlarında Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu bildirmiş, bütün naxçıvanlıların müstəqil Azərbaycan dövləti uğrunda mübarizə aparacağını elan etmişdir. Çıxış edən deputatların da hamısının mövqeyi belə olmuşdur. Sessiyanın gedişi radio vasitəsilə translyasiya edilmiş, videoyazısı televiziya ilə göstərilmişdir. Ümummilli Liderin nitqi yerli qəzetdə dərc olunmuşdur".

Bu arada onu xatırladaq ki, həmin dövrdə bir çox qəzetlər Naxçıvanın müstəqillik elan etməsi barədə şayiələrlə çıxış edir, Ulu Öndərin Naxçıvandakı fəaliyyətinə kölgə salmağa çalışırdılar. Azərbaycanın o zamankı rəhbəri tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının təhrif edilməsi də bu istiqamətdə atılan təxribat xarakterli addımlardan idi. Ancaq "Həyat", "İki sahil" və bu kimi qəzetlər əsl reallığı yazır və hadisələrin necə cərəyan etdiyini göstərirdilər. Naxçıvan Muxtar Respublikası bu dövrdə həm də informasiya blokadasına alınmışdı. Halbuki Bakıya Naxçıvan haqqında müntəzəm məlumat verilirdi. Bir faktı da qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin son beş gündə davam edən növbədənkənar sessiyası haqqında müntəzəm olaraq məlumat verilməsinə baxmayaraq, bu məsələ Azərbaycanın informasiya orqanları tərəfindən qətiyyən işıqlandırılmırdı. Əvəzində isə Azərbaycan televiziyası Naxçıvan Muxtar Respublikası haqqında yalan və böhtanlarla dolu verilişlər hazırlayır, Azərbaycan ictimaiyyətinə yanlış məlumatlar verirdi. Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan Ümummilli Lider Heydər Əliyev real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başlamışdır. 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin

yaradılması haqqında" Qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıcı idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olunmuş, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu Öndərə olan sonsuz inamı nəticəsində Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası qoyulmuşdur. Ümummilli Lider Heydər Əliyev Ali Məclisin Sədri olarkən ilk dəfə dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət naminə birləşməyə səsləmişdir. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. Bu mənada, 1991-ci il dekabrın16-da Ali Məclis tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Həmin fərman bütün Naxçıvan əhalisinin ürəyindən xəbər vermiş və ictimai-siyasi şəraitin gələcək gedişinə çox böyük təsir göstərmişdi.

Dahi şəxsiyyət Heydər Əliyev hələ Naxçıvanda olarkən hər gün Azərbaycan üçün, onun müstəqilliyi və tərəqqisi üçün məqsədyönlü tədbirlər həyata keçirirdi. Ümummilli Lider həmin illərdə dövlətçilik məsələlərində olduğu kimi, iqtisadi məsələlərin həlli sahəsində də böyük addımlar atdı. Ulu Öndər Heydər Əliyev Naxçıvanın türk dünyasına, İslam aləminə bir qapı olduğunu yaxşı bilirdi. Ona görə də qabaqgörən siyasətçi 1992-ci il mart ayının 22-də Türkiyə Cümhuriyyəti Prezidentinin dəvəti ilə qardaş ölkəyə gedib Türkiyə ilə iqtisadi əməkdaşlıq barədə protokol imzaladı. Bu protokol əsasında Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi, Araz çayı üzərində

körpü salınması, muxtar respublikaya kredit verilməsi, 100 tələbənin Türkiyədə pulsuz təhsil alması və başqa məsələlərin həyata keçirilməsinə nail olundu. Beləliklə, Ulu Öndər Naxçıvanda bəzi dairələr tərəfindən təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, qısa müddətdə xalqımızın gələcəyi naminə böyük xidmətlər göstərdi. Ümummilli Lider Heydər Əliyev muxtar respublikada həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində regionu erməni işğalından qorudu, digər tərəfdən iqtisadi problemlərin həllinə ciddi fikir verərək muxtar respublikanı iqtisadi çətinliklərdən, aclıqdan xilas etdi. 1992-ci ildə İran və Türkiyə ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri yaradıldı. Bundan əlavə, Naxçıvan şəhəri yaxınlığında İstilik-Elektrik stansiyası tikildi. İran İslam Respublikasından Culfa rayonuna, Türkiyə Respublikasının İğdır vilayətindən isə 92 kilometrlik bir məsafədən yüksək gərginlikli elektrik xətlərinin Naxçıvana çəkilməsi başa çatdırıldı ki, bu da Naxçıvanın elektrik enerjisinə olan ehtiyacını ödəmiş oldu. Nəticədə, yanacağa olan ehtiyac azaldı.

Həmin dövrdə Ulu Öndərin rəhbərliyi ilə kənd təsərrüfatının dirçəldilməsi sahəsində də mühüm addımlar atılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmişdir. Torpaq islahatlarına da ilk dəfə Naxçıvanda başlanılması, bütövlükdə, ölkəmizdə kənd təsərrüfatının gələcək inkişafını şərtləndirən əsas amillərdən olmuşdur. Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini daşıyarkən həm də Azərbaycan Respublikası Ali Sovetinin ses-

siyalarında da iştirak etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı çıxışında Ulu Öndər Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürmüş, prinsipial və konkret fikirlər söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyanetmişdir.1990-1993-cü illərdə Naxçıvanda atılan bu addımlar milli dövlətçiliyimizin inkişafı baxımından da çox böyük əhəmiyyət kəsb edir.1992-ci il noyabrın 21-də Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi, ölkə ziyalılarının dahi şəxsiyyətə ünvanladığı çoxsaylı teleqram, məktub və çağırışlar ictimai və siyasi sabitliyin gündən-günə ağırlaşdığı Azərbaycanın gələcək xilaskarının yalnız və yalnız Ulu Öndər Heydər Əliyev olduğunu təsdiq edirdi. Bu mənada, 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndərin Bakıya, yenidən siyasi hakimiyyətə qayıdışı milli-mənəvi dəyərlərimizə və tarixi yaddaşımıza qayıdış günü oldu.

Çox çəkmədi ki, bu dahi şəxsiyyətin səyi ilə Gəncə qiyamı dinc yolla yatırıldı, vətəndaş müharibəsinin qarşısı alındı, bir sözlə, müstəqilliyimiz qorunub saxlanıldı. Ümummilli Lider oktyabr ayında xalq tərəfindən yekdilliklə Prezident seçildi. Bununla da dahi rəhbər Azərbaycanı geniş tərəqqi yoluna çıxarmağa başladı. Bu gün xalqımız, eləcə də muxtar respublika sakinləri gözlərimiz önündə gündən-günə çiçəklənən Azərbaycanın xoş gələcəyini də haqlı olaraq Heydər Əliyev siyasətində və bu siyasətin Azərbaycan Respublikasının

Prezidenti cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən təntənəsində görür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi: "Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Ötən illərin təcrübəsi göstərir ki, bu siyasət olmadan Azərbaycan irəliyə gedə bilməz".

**Səfiyar Abışov**
***"Nuh yurdu" qəzeti, 20 aprel 2023-cü il,***
***"Yeni fikir" qəzeti, 28 dekabr 2023-cü il,***

# GÜN KEÇDİ



Adəti üzrə yuxudan erkən oyanar. Bu səhər də əvvəlkilərdən heç nə ilə fərqlənmirdi. Ömür-gün yoldaşı Təranə xanım mətbəxdə artıq hər şeyi hazır etmişdi. Övladları Fərid və Fuad isə mışıl-mışıl yatmaqlarında idi. Gənc ata nəvazişi ilə üzlərindən öpüb bayıra tələsdi. Yubana bilməzdi. Axı, onu gözləyənlər vardı.

Çiskin payız yağışı günü gündən gözəlləşən Naxçıvan şəhərini sanki bir daha yuyub təmizləmişdi. Hələ söndürülməmiş lampalar küçə və meydanlarda bərq vururdu. Səhərin təmiz, soyuq havası yanaqlarını dolaşırdı. Artıq soyuqlar düşürdü.

Yaşadığı mənzillə iş yerinin arasındakı qısa məsafəni qət edərkən addım başı dost-tanışlarla hal-əhval tutar, kimsə elə küçədəsə salamlaşıb ondan məsləhət alar. Axı o, maraqlı bir sahənin iş adamıdır. Dövlət notariat kontorunun notariusudur.

Beləcə səhər erkən qayğılı günləri başlayır. Adəti üzrə iş otağının qarşısı vətəndaşlarla dolu olur. Bu kiçik otaq onun diqqət və qayğısı sayəsində göz oxşayır. Səliqə sahman, divardakı plakat və tablolar, ilk andaca bura müraciət edən vətəndaşların səmimiyyətlə qəbul olunub dinlənilməsi ürək açandır.

...Səfiyar Abışov...

Naxçıvan şəhər 2 saylı dövlət notariat kontorunun notariusu. İndi bu ad Naxçıvan şəhərində çoxlarına tanışdır. Ali təhsilli hüquqşünas olan Səfiyar Abışov əvvəllər də zəhmətkeşlərin hörmətini qazanmış, şəhər icra hakimiyyətində hüquq məsləhətçisi, hüquq şöbəsinin müdiri işləmiş, ədliyyə nazirliyinin mütəxəssisi olmuşdur.

Əvvəlki günlərdə olduğu kimi qaynar iş saatları beləcə başlayır. Vətəndaşlar yubadılmadan, səmimiyyətlə qəbul olunur. Kimisi mənzilini satır, kimisi avtomaşın alır, kimisi müəyyən bir sənədin üzünü çıxartdırır, kimisi tələsir, qayğılı görünür... Bütün bunlar gənc hüquqşünasın nəzərindən yayınmır.” Məhz belə çətin gün-güzəranın ağırlaşdığı indiki vaxtda adamlara daha həssaslıqla yanaşmaq, diqqət və qayğını əsirgəməmək gərəkdir”, deyir.

Beləcə saatlar ötür. “Çox sağ olun Səfiyar müəllim”, “minnətdaram bala” ifadələri tez-tez səslənir. Səfiyar bəzən evə getməyə imkan tapa bilmir. Yaxınlıqdaca bir tikə çörək kəsib yenidən iş yerinə qayıdır. Nahardan sonra onu başqa qayğılar da gözləyir. Qoltuğunda kitab-dəftər Naxçıvan Özəl Unversitetinə tələsir. Vaxtilə Bakı Dövlət Universitetinin beşillik təhsil müddətində bir pencəklə başa vuran, səhərləri kitablar içərisində açan bu 36 yaşlı gənc hazırda özü unversitet müəllimidir. Dərs dediyi tələbələrin çoxu yaşca ondan böyükdür. Lakin onun yolunu burada da səbirsizliklə gözləyirlər. Gənc müəllim həvəslə dərs deyir, öz üzərində çalışır, daim mütaliə edir, gündəlik mətbuatla maraqlanır.

Süleyman kişi Naxçıvan şəhərində tikinti abadlıq işlərinin hələ bu dərəcədə geniş vüsət aldığının şahidi olmamışdı. Əslən Babək rayonun Aşağı Uzunoba kəndindən olan Süleyman kişi 40 ilə yaxın Naxçıvan şəhərində inşaat

işlərində çalışıb. Tikilən neçə-neçə yaraşıqlı binada onun da əl izləri qalıb. O, bununla fəxr edir.

Süleyman kişi ömür gün yoldaşı Laləzər xanımla 9 övlad 6 oğul, 3 qız böyüdüb tərbiyə ediblər. Səfiyar ailənin üçüncü övladıdır. Lakin ondan da cəsarətli, igid, əliqabarlı qardaşları var. Pəhləvan cüssəli Eldar vətənə borcunu şərəflə verib, sərhədlərimizdə ən ağır günlərdə belə səngərdə düşmənlə üz-üzə keçirib. Hazırda polis sıralarındadır. Sonbeşik Hicran da əsgəri xidmətini şərəflə başa vurub. Böyük qardaşı Əmrah muxtar respublika iqtisad məhkəməsində məsləhətçidir. Bəxtiyar isə ata-anası kimi torpağı, zəhməti üstün tutub. İcarədardır. Taxıl əkib becərir. İnşaatçı Süleymanın Sabir oğlu da uzaq ellərdə halal zəhmətilə bu ailəyə baş-ucalığı gətirib. Qızlar isə pərvazlanıb hərəsi bir ailəyə çıraq olublar.

...Süleyman kişi həmin gün şəhərə qonaq gəlmişdi. Övladlarının yaşadığı mənzillərin pəncərələri birbaşa Azadlıq meydanına açılır. Lakin buradakı qaynarlıq, aparılan tikinti-abadlıq işləri onu sanki əfsunlamışdı. Sinnisinin bu vədəsində dayanıb həvəslə tamaşa edirdi. Obyektdə işlər sürətlə aparılır, hərə bir işin qulpundan yapışır, maşın-mexanizmlər fasiləsiz işləyirdi. İnşaatçı Süleyman bolluq dövrü heç belə qaynarlığın şahidi olmamışdı.

Odur ki, həmkarlarının bu günkü hünərinə qəlbi açılır, obyektlərə tamaşa etməkdən doymurdu. Buradakı qaynarlıq onu özünə elə bağlamışdı ki, iki addımlığında yerləşən oğlunun mənzilinə belə baş çəkməyi unutmuşdu.

...Onu xəyaldan hüquqşünas oğlu Səfiyarın səsi ayırdı. Ata-oğul səmimiyyətlə görüşüb söhbət edə-edə oğlunun yaxınlığındakı mənzilinə sarı addımladılar. Atanın qəlbi iftixarla döyünür. Axı, beşmərtəbəli bu yaraşıqlı binalar onun, bənna dostlarının əlləri ilə ucaldılıb.

Qapını gəlini Təranə açır. Xoş gəlmisən Süleyman əmi, deyir. Nəvələri sevincək "babam gəldi", deyə ona sarı atılırlar. Süleyman kişinin sevincdən gözləri yaşarır. O, bunu büruzə verməmək üçün pəncərəsi şəhərin baş meydanına açılan otağa keçir. Şəhərin baş meydanında hələ də maşın-mexanizmlərin səsi kəsilməmişdi. Günəş qüruba enmiş, qızıl külçə kimi dağın zirvəsinə əyilmişdi. Səma lap aydın idi. Demək sabah günəşli gün olacaq. İnşaatçı dostları neçə-neçə park və xiyabanı abad edəcək.

Saç saqqalı ağarmış, qədd qamətini hələ də əyməmiş 68 yaşlı Süleyman kişi bu fikirlərlə tül pərdəni çəkib süfrə arxasına keçdi. Nəvələri Fərid və Fuad bir daha onun boynuna sarıldılar. İxtiyar qoca kənddən gətirdiyi şirin sovqatı süfrəyə qoydu.

Noyabr günlərindən biri Süleyman kişinin ömründən beləcə keçdi.

**Məhəmməd Fərəcov**
***"Şərq qapısı" qəzeti,***
***21 dekabr 1996-cı il***

## BİR DOSTUM VAR

*Dostum Səfiyar Abışova həsr edirəm*

*Bir dostum var, onu siz də tanıyın,*
*Qəlbində Vətənə məhəbbət yatır.*
*Bir dostum var, onu siz də tanıyın,*
*Köksündə insanlıq, mərhəmət yatır.*

*Elə bir yoldaşdır, elə bir sirdaş,*
*Səninlə ağlayar, səninlə gülər.*
*Görsə kədərlisən, kəsər yanını,*
*Ağrını, acını qəlbindən silər.*

*Eşitsə düşmüsən, çətinə, dara,*
*Əl verər, əl tutar, səni qaldırar.*
*Məqsəd, məramına çatasan deyə,*
*Yolunda hər zaman çıraq yandırar.*

*Bir nurlu ocaqdan nur götürüb O,*
*Bu nurlu ocağı sönməyə qoymur.*
*Yaxşılıq etməyi O savab sayır,*
*Etdiyi savabdan heç zaman doymur.*

*Bu yaxşılıq, bu fəzilət, bu duyğu,*
*İlahinin xoş təbindən yaranıb.*
*Yaşatdığı düz ilqar, atasının,*
*Nəsihəti, tələbindən yaranıb.*

*Bir dostum var, onu siz də tanıyın,*
*Qulaq asın qəlbindəki o səsə.*
*Bir dostum var, onu siz də tanıyın,*
*Bir örnəkdir, nümunədir hər kəsə.*

**Rövşən Hüseynov**
***2 oktyabr 2021-ci il***

## ORDUBADDA BİR GÜN

Adi istirahət günlərindən biridir. Səfərimiz Ulu öndərimiz Heydər Əliyevin “Azərbaycanın İncısi” adlandırdığı, qədim tarixə malik olan Ordubadadır. Bu şəhərin yerləşdiyi relyef bura gələn qonaqların könlünü açır, simasını nura qərq edir. Hər tərəfi dağlarla əhatə olunmuş və yaşıl bağlar qoynuna sığınmış Orubadın iqlimi dörd qütbdən gələn küləklərin qovuşmasından yaranaraq buranı cənnət-məkana çevirir, insanları qurub-yaratmağa, yaşamağa həvəsləndirir. Qədim səyyahların dediyi kimi:” Ordubad kiçik şəhərlər içərisində birinci, qünyada isə ikinci yaşayış məskənidir ki, buraya qonaq gələn nabələd adam heç vaxt azıb qalmaz. Hər məhəllədə tikilmiş 2-3 məsçid, tinlərin və dalanların kəsişdiyi yerlərdə kavansaraylar var.

Ordubad bu gündə ən gözəl çağlarını yaşayır. Dəniz səviyyəsindən 950 metr yüksəklikdə, Araz çayından təqribən 3 kilometr şimalda yerləşən bu yurd yeri tarixi və təbiət abidələri qədim tikililəri, planlaşdırılmış şəhər quruluşu ilə də diqqəti cəlb edir, sanki insanı ovsunlayır.

Avtomobilimiz hərəkət etdikcə gözlərimiz önündə qədimilik təravətini özündə saxlayan Ordubadın başı buludlarla əlləşən zirvələri, baxanda ğöz qaraldan dərin dərələri bizi heyran edir. Məhşur astranom alim, riyaziyyatcı, şair Nəsrəddin Tusi, dövlət xadimi I Şah Abbasın baş vəziri Hatəm bəy Ordubadi, Şərq aləmində özünün “Ərəb dilinin qrammatikası” adlı kitabına görə məşhur olan Ayətulla Məhəmməd Əli Qələvi Ordubadi,  böyük pedaqoq və maarifpərvər Məhəmməd Tağı Sidqi, görkəmli ədib Məmməd

Səid Ordubadi, böyük alim Yusif Məmmədəliyev, ədəbiyyatşünas, alim Əliyar Səfərli və neçə-neçə dünya şöhrətli alim və sənətkarların gördükləri işlər, vətən sevgisi, xalqına bəxş etdiyi töhfələr gözlərimiz qarşısından qırmızı xətt kimi gəlib keçir, sanki ruhları bizimlə söhbət edir. Bu yerlərin şair oğlu Elman Həbibin saf duyğularını, könül pıçıltılarını bizə xatırladır: Sənin gözəlliyini vəsf etməklə tarixini yazmaq arasında çox böyük fərqlər var. Bir onda fərq yoxdur ki, hər ikisi sevərəkdən yazsın. Günki sən anamın da anasısan. Sənin məhəbbətin ürəyimizə təpər, gözümüzə işiq, nur verir. Sən övladlarını sevdiyin qədər də sevilirsən doğma Ordubadım! Sən bizim üçün nə etmisən? Təmiz havan bizimki, saf suyun, bərəkətli torpaqların, o da bizimki. Hər nəyin varsa öz övladlarına səxavətlə veribsən. Başın üzərində günəşin hərarəti sənin qoynunda nə yetişdirmir? Ot-ələfdən tutmuş, kol-kosuna qədər hamısı can dərmanı, şəfa qaynağıdır. Meyvələrin dünyanın ən daldısı, ən ləzzətlisidir. Qoynunda bəslədiyin insanlar, görkəmli şəxsiyyətlər isə sənin baş taçında dayanır. Sənin bənzərsizliyin və ecazkarlığın isə ruhumuza qol-qanad verir. Biz səninlə birlikdə bu ülvi gözəlliyin keşiyində dayanmışıq. Günki sən torpağın yaşıdısan.

*Mənim adım başlayır,*
*Zirvələrin qaşından.*
*Torpağın yaşıdıyam,*
*Söz salmayın yaşımdan.*

*Torpaq nə vaxt doğulub,*
*O mənim doğum günüm.*
*Mən bu qədimliyimlə,*
*Haqqım var ki, öyünüm.*

Ordubadın bu möcüzəli təbiəti, sirli aləmi, təbii gözəlliyi XIX-XX əsrlərdə buraya səyahət etmiş bir sıra səyyahların da marağına səbəb olmuşdur. Ruz alimi İ.Şopen, polyak tədqiqatçı A.Petrold, Fransız yaşıçı A.Düma və başqaları öz yaradıçılığında və təəssuratlarında bu gözəlliyi vəsf etmiş, Ordubada heyran qaldıqlarını bildirmişlər.

Ordubad şəhərinə çatırıq. Bizi Ordubadın "El həyatı" qəzetində uzun müddət redaktor müavini işləmiş Səfiyar müəllimin dostu Abbas Seyid qarşılayır. Hal-əhval tutduqdan sonra o bizi əsrlərə şahidlik edən, şəhərin ümumi simasını tamamlayan ulu çinarların kölgəsinə, çay süfrəsinə dəvət edir.

Çayçının gətirdiyi pürrəngi cayın və Ordubada məxsus limonun ətru duyğularınıza hakim kəsilir. Şirin söhbətin ardı-arası kəsilmir Səfiyar Abışovla Abbas Seyid bur vaxtlar Bakı Dövlət Universitetinin məzunu olduqlarını, tələbə yataqxanasında bir yerdə qaldıqlarını, (Səfiyar müəllim həmin universitetin hüquq, Abbas müəllim isə jurnalistika fakültəsini bitirib) bir sözlə, o illərin-tələbə həyatının yadda qalan acılı-şirinli xatirələrini paylaşırlar.

Həyatda hər zaman hər şeyin əslini, düzünü və özünü axtaran dostumuz Çingiz müəllim şöhbətə qoşulur. Ordubad sözünün Abbas müəllimə görə neçə yarandığı barədə ondan soruşur. Abbas müəllim bu haqda muxtəlif fikir və mənbələrin olduğunu təsdiq etməklə bildirir ki, Ordubad sözünün mənası "abad olmuş məkan" deməkdir. Sonradan o dilimizə üyğun şəkildə dəyişmiş "Ordubad" kimi səslənmiş versiyası məncə də ən optimalıdır.

Bu torpağa yaxından bələd olan Çingiz müəllim Abbas müəlliminin bu fikrinin qarşılığında bildirir ki, Ordubad şəhərinin əsasının nə vaxt qoyulması elmə tam aydın

olmadığı kimi, bu şəhərin adının da mənşəyi tam olaraq aydınlaşdırılmamışdır. Çingiz müəllim bir el adət-ənənəsinin bu torpaqda necə qorunması və yaşanmasından da danışır. Bildirir ki, Ordubadın Gənzə kəndində bir el adəti və inancı var. İlin son çərşənbəsində bütün evlərdə işıqlar yanmalı, ev nura qərq olmalıdır. Müəyyən səbəbdən uzaqda olub evinə gələ bilməyənlərin, ocağını işıqlandıra bilməyənlərin hər birinin evinə qonşusu gedib, onun evinin çırağını yandırar ki, ocağının xeyiri, bərəkəti, nuru bol və daimi olsun.

Çingiz müəllimin Ana babası Murad Məhəmməd də Ordubaddandır. Murad Məhəmməd Üstüpü kəndinin ən tanınmış şəxslərindən, ziyalılarından, İman əhlindən olub. Belə ki, həmin kənddə Üstüpir adlanan yerdə dəfn olunan Mirisfəndiyar Ağa da Murad bəyin yaxın qohumu və dostu olub. Mirisfəndiyar Ağa böyük Seyid tayfasındandır. Onun oğlu Mir Abdulla Ağa uzun müddət Naxçıvan Muxtar Respublikasının axundu olub.

Şəhərdə onlarla tarixi-memarlıq abidələri vardır ki, onların hamısı tarixi keçmişimizdir. Qədim "Cümə Məscidi", "Mingiz Məscidi", "Qeysəriyyə", " Buzxana", "Mədrəsə", "Əfqan Qalası", 40 yaxın çeşmə, kəhrizləri və kölgəsində əyləşdiyimiz bu çinar ağacları qiymətli abidələr sayılır. Memarlıq quruluşu və tarixi abidələrinə görə Ordubad 1979-cu ildə "Qoruq Şəhər" elan edilmişdir. Rayon ərazisində ayrı-ayrı illərdə ekspedisiyalar bu yaşayış məskəninin tarixini, etnoqrafik xüsusiyyətlərini öyrənmək üçün Ordubad şəhərində, Əylis, Unus, Pəzməri, Aza kəndlərində Xarabagilan, Gəmiqaya və digər ərazilərdə tədqiqat, arxeologi işlər aparmışlar. Hazırda Şərq aləminin canlı muzeyi hesab olunan Ordubad öz tarixini və dünya mədəniyyətinə bəxş etdiyi töhfələri ləyaqətlə qoruyaraq nəsillərdən-nəsillərə ötürür.

Ordubad beynəlxalq ticarət yolu olan "İpək Yolu" ticarətində də önəmli rol oynamışdır. Buradan quru meyvələr, ipək parça və digər kənd təsərrüfatı məhsulları xarıci ölkələrə ixrac olunmuşdur. Geniş meyvə bağları şəhəri hər tərəfdən əhatə etmişdir. Həmin bağlarda cəviz, ərik, gavalı, alca, göycə, şaftalı, innab, iydə, armud və sair meyvələr yrtişdirilir. Bu bağlarda yetişdirilən meyvələrdən hazırlanan bəkməz, sucuq, alana, lavaşa, araq, gülab, mürəbbə və cemlər bütün dünyada şöhrətlidir. Belə ki, Ordubadın məhşur ipəyi Beynəlxalq sərgilərdə 13 dəfə qızıl medala layiq görülüb. Ona da qeyd edək ki, bu il Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası və Turkiyə Respublikası Kənd Təsərrüfatı və Meşə Nazirliyinin əməkdaşlığı çərçivəsində Ordubad rayonunun "Əylis Düzü" adlanan ərazidə "Azərbaycan-Türkiyə İpək Bağı" salınmışdır. Burada Naxçıvan Muxtar Respublkasında təhsil alan Türkiyəli tələbələrin də payı az deyil. Onalar 1, 2 hektar ərazidə yeni salınan bağda Türkiyədən gətirilən 600-dən artıq tut tingi əkiblər. Bu gələcəkdə barama-çılığın inkişafında əhəmiyyətli rol oynayacaq.

Söhbətimizin necə şirin məcrada davam etdiyini görən, bizdən bir qədər aralı masa arxasında əyləşən biri- Mahir müəllim Abbas müəllimə xitabən -əyləşə bilərəm deyib birlikdə sözün –söhbətin karvanına qoşulur. Cibində olan 5-6 cəvizi çıxarıb masanın üzərinə qoyur -nuş olsun deyir. Cəvizlər qabıqlı olduğundan biz bir-birimizin üzünə baxırıq. Bu zaman Çingiz müəllim masaya qoyulan cəvizlərdən birini götürüb-bu cəviz nazikqabıqlı, kətanköynək cəvizdir. Bu cəvizin qırılmasına o qədər də güç sərf etmək tələb olunmur deyib, iki barmağı ilə sıxaraq cəvizi sındırır. Belə cəviz ağacları Yuxarı Buzqov kəndində də çoxdur, Ordubadda bu cəvizlərə də rast gəldiyini sevinc hissi ilə vurğulayır.

Axı necə olsa bu növ cəviz bir növü diyarın simvolu hesab olunur. Diyarda başqa növ cəvizlər də var. Məsələn el arasında –Bu cəvizi ye, Bizi də unutma! (cəvizin qalınqabıqlı növü) deyilən cəviz növünündən də danışır. Belə ki, bir Naxçıvanlı Bakıda cəviz satır. Cəvizin necə faydalı, yağlı olduğunu bildirir. Bir nəfər alıcı daha yaxından cəvizin başqa faydalarını da öyrənmək üçün cəviz satanın yanına yaxınlaşır:

Alıcı;

-Necəyədi cəviz?

Satıcı;

-7 manatadı, sən 5 manatdan apar. Apar ye. Bizi də heç vaxt unutma.

Naxçıvanda cəviz növləri coxdur. Bu qabığı qalın cəviz növünə başqa adla –korcəviz də deyərlər. Bu cəviz növü cox dadlı və yağlı olur. Amma bir az qabıqdan gec ayrıldığına görə, cəvizi arıtlayarkən BİZ- deyilən uçu iti, miz olan bir alətdən də istifadə etməlisən. Bu Biz alətsiz cəvizi təmizləmək cətin olur, amma dadına və yağlılığına görə bu əziyyətə qatlaşmağına da dəyər.

Olmuş bir əhvalat həmən yada düşür. Kisələrdə səhər tezdən malını bazara satmağa gətirən satıcıya alıcı yaxınlaşıb – Dünən satdığın cəviz cox daldı, ləzzətli və yağlı idi, amma arıtlamaq (təmizləmək, qabıqdan ayırmaq) çox cətin idi. Bunu eşidən cəviz satan gülümsəyərək deyir:

- Bəs mən dünən siz cəviz alanda dedim axı- Bu cəvizi ye, Bizi də unutma. Mən Biz deyəndə özünü göstərərək bizi nəzərdə tutmurdum, Biz alətini nəzərdə tuturdum. Bu hal alıcının çox xoşuna gəlir, hətta iki kiloqram əlavə olaraq cəvizdən alaraq-Gedim birdənə də Biz alım deyib, xoş təəsuratla oradan ayrılır

Akademik Həsən Əliyev "Həyacan Təbili" adlı kitabında vurğulayır ki, ərazinin 75 faizi daşlar, qayalar olan Ordubad rayonunda əsrlərlə məhşur olan nəinki, nazikqabıq cəviz həmçinin nazikqabıq badam da yetişdirilmişdir. Bu ən qiymətli meyvə növlərinin yetişdirildiyi sahəni xəritəyə köcürmək lazımdır. Çünki, həmin sahələr çox geniş bir ərazini təşkil edir. Uzunəsrlik cəviz ağaclarının əhatə etdiyi yerlərdə indi adda-budda, tək-tük ağaclara rast gəlmək olar. Çingiz müəllim bu sözlərə qüvvət olaraq bildirir ki, bəli işlənib hazırlanan dövlət proqramlarına uyğun bu ərazilərdə bu növ və digər növ nadir meyvə ağaclarının yetişdirilməsi üçün tingcilik təsərrüfatının yradılması və bu istiqamətdə təxirə salınmaz işlərin aparılması zəruri hesab edilir. Bu həmçinin regionun əmək qüvvələrinin inkişafına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına, ölkənin iqdisadi gücünun artmasına və daimi, davamlı sənaye istehsal mühitinin yaranmasında da öz müsbət təsirini göstərir.

Mahir müəllim Çingiz müəllimin dediklərini təsdiqləyir, illər öncə Bakı şəhərinə Naxçıvandan aparılan nazikqabıqlı cəvizlərin keyfiyyətinə görə baha qiymətə satıldığını da deyir.

Bu zaman bir nəfər də masamıza yaxınlaşır. Əlində gətirdiyi "Şərq qapısı" qəzetini Abbas müəllimə verir və oğlunun haqqında məqalə yazıdlığını bildirir. Öyrəndik ki, Abbas müəllimin oğlu Hüseyn Seyid gənc, istedadlı şahmatçıdır. Şahmatçımızla yaxından tanış olmaq üçün qəzetdə yazılanları oxuyuruq:-məqalənin müəllifi Ceyhun Məmmədov "Müdafiədən başlayan uğur" adlı yazısında qeyd edir ki, Hüseyn Seyid 6 yaşından şahmat oyununa həvəs göstərib. Nəinki, muxtar respublikada, eləcə də ölkəmizdə və beynəlxalq yarışlarda adını mükafatcılar sırasına yazdırıb. 2022-ci ildə 16 yaşınadək şahmatçılar arasında Naxçıvan şəhərində

keçirilən Ümumdünya Şahmat Olimpiadasında Naxçıvan Komandasının tərkibində 1-ci taxtada 9 oyundan 7, 5 xal toplayan zəka sahibi 210 şahmatçı arasında ən yaxçı nəticə əldə edən 2 şahmatçıdan biri olub.

Hüseyn Seyidin bu uğuruna və Abbas müəllimin sevincinə biz də qoşuluruq. Bu arada Səfiyar müəllimlə Çingiz müəllimin baxışları bir-birilə toqquşur. Səfiyar müəllim bildirir ki, (hazırda Çingiz müəllim ömrünün 60-cı baharını yaşayır) bir vaxtlar Çingiz müəllim də gənc yaşlarından idmanın muxtəlif sahələrində, xüsusən də şahmat və voleybol üzrə keçirilən respublika, ümumittifaq və beynəlxalq yarışlarda uğurla muxtar respublikamızı təmsil edib. Bu məqamı baxışlardan anlayan Çingiz müəllim təbrikə və söhbətə qosulur və deyir:

-Mən də gənc yaşlarımda 5 yaşımda uşaq başcasında şahmat oynamağa başlamışam. 1975-1976-ci illərdə Uşaq və Gənclər İdman Məktəbi üzrə keçirilən məktəblilər arasında şahmat üzrə 1-ci taxtada muxtar resbublika birincisi olmuşam. 1979-cu ildə Gənçlər arasında keçirilən Naxçıvan şəhər birincisi, 1980-ci ildə Fizuli rayonunda “Məhsul Cəmiyyəti” Kənd Təsərrüfatı Texnikumları arasında keçirilən respublika şahmat yarışının, Qazaxstanın Boykanur şəhərində 1983-cü ildə Orta Asiya Hərbi dairəsi üzrə keçirilən yarışın, ən sonda isə muxtar respublikada 2006-ci ildə İqtisadiyyat Nazirliyində 2 fevral Gənclər Günü münasibətilə keçirilən şahmat turnirinin qalibi olmuşam. Bu yarışlarda qazandığım reytinqlərə görə uşaq və gənclər arasında 1-ci, böyüklər arasında 2-ci dərəcəli normaları doldurmuşam. SSRİ-üzrə normativləri yerinə yetirmişəm. Şahmatla məşğul olmağım məni çox sevərək məşğul olduğum voleybol idman növündən də ayırmayıb, əksinə mənə voleybol oyununda qərar qəbul

etmək anında düzgün qərar verməyə köməklik edib. Yeri gəlmişkən qeyd edim mən, voleybol idmanı üzrə SSRİ İdman Ustalığna Namizəd dərəcəsini də almışam. Muxtəlif medal və nişanlarla, diplomlar və Fəxri Fərmanlarla təltif olunmuşam.

Təklif olundu ki, gənc və qocaman şahmat ustaları arasında yoldaşlıq görüşü keçirilsin. Çingiz müəllim və Hüseyn Seyid razılıqla bir-birinin üzünə baxırlar. Çingiz müəllim- Hüseyn biz 3 oyun oynayacağıq. Həm Blich və həm də Klassik. Hüseyn bu şahmat terminlərini anlayaraq qəbul edir. Oyunlar başlayır və bitir. Hə bir də qeyd edək ki, oyun 1, 5-1, 5 nəticə ilə bərabərə qalır. Qazanansa yenə gənc şahmatçımız Hüseyn olur. Çünki, onu qarşıda neçə-neçə mötəbər yarışlar gözləyir. Hamılıqla gənc Hüseyn Seyidə uğurlar arzu edirik.



Belə xoş, duyğulu anlarda şair Tofiq Qəbulun "Ağıl oyunu"-adlı şeirini də yada salırıq:

*Toplar döyüşə hazır,*
*Fillər yürüşə hazır.*
*At da hələ ki, sakit.*
*Ona yaraşmır sükut,*
*Əsgərlər öndə durur.*
*Keçilməyən sədd qurur.*
*Vəzir baxır meydana,*
*Nəzər salır hər yana.*
*Şah qalada əyləşir,*
*Ordusuyla dərdləşir.*
*Döyüş marşı çalınır,*
*Neçə sədlər alınır.*
*İki şahın qoşunu,*
*Biçirlər bir-birini.*
*Fənd də qururlar hətta,*
*Güdürlər bir-birini,*
*Savaş planına bax,*
*Qalib ağıldır ancaq.*

"Azərbaycanın incisi" olan Ordubaddan xoş təəssüratla qayıdırıq. Maşının radiosunda tanınmış bəstəkar Kamal Əhmədovun yenicə bəstələdiyi "Ordubadım" mahnısının sədaları eşidilirdi.

**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**

# ÇİNGİZ SÜLEYMANOV

## BƏSİRƏT GÖZÜMÜZ



*Bu məclisi yaratmaq,*
*Mənim içimdən gəlib.*
*Sözdən bina ucaltmaq,*
*Dövrü-qədimdən gəlib.*

*“Söz dünyanın naxşıdır”,*
*Deyib Nizami babam.*
*İncə fikir, incə söz,*
*Qəlbi oxşayar tamam.*

*Sözdən uzaq duranlar,*
*Tez düşüblər təşvişə.*
*Sözü nurlu olanlar,*
*Qalib olub həmişə.*

*Söz yanar ocağımız,*
*Sönməyən közümüzdür.*
*Dünyaya baxışımız,*
*Bəsirət gözümüzdür.*

*Biz bu yolla gedirik,*
*Üzü tanrıya sarı.*
*Ona ibadət edir,*
*Sözün xiridarları.*

# ORDUBAD HAQQINDA NƏ BİLİRİK?

Ordubad şəhərinin əsasının nə vaxt qoyulması elmə tam aydın olmadığı kimi bu şəhərin adının da mənşəyi tam olaraq aydınlaşdırılmamışdır. Bu toponimin necə yaranması ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri vardır. Bəzi tarixçilər toponimin mənşəyinin məlum olmadığını qeyd etmişlər. Onların fikrincə Ordubad sözünün müxtəlif dövrlərdə Orduvad, Ortvat, Urdubad, Ourdubad şəklində səslənmə formaları mövcud olmuşdur.

Əbülfəz Hüseynin izahına görə isə şəhər əvvəllər "Ordubay" şəklində işlənmişdir. Mənası isə "Bəyin qalası" deməkdir. Tarixi inkişaf nəticəsində toponimin tərkibindəki "y" səsi "d" səsi ilə əvəzlənmiş və bugünkü "Ordubad" formasını almışdır.

Bəzi tədqiqatçıların fikrinə görə Ordubad 2 hissədən: "ordu" və "bad" sözlərinin birləşməsindən əmələ gəlmişdir ki, mənası "ordu yeri" deməkdir.

Qədim türk dillərində Ordubad oykonimi "iqamətgah", "qərargah","xan düşərgəsi" mənalarında işlənən "ordu" və "abad" (kənd yaşayış məntəqəsi) sözlərinin birləşməsindən ibarətdir. Coğrafi adın tərkib hissələrinin birləşməsi zamanı "abad" sözünün əvvəlindəki "a" səsi düşmüşdür. Keçmişdə şəhərin adı Orduvar şəklində də qeydə alınmışdır.

Mahmud Kaşğarlı (XI əs)) "ordu" sözünün "xaqanın yaşadığı yer, mərkəz" mənasında izah etmişdir. Coğrafi adın tərkibindəki "ordu" sözünün "qoşun" mənası XIV əsrdən sonra yaranmışdır.

Tədqiqatçı Ə.Fərəzli Ordubad toponiminin izahını verərkən Ordubadın Atropat adını bu günədək özündə

qoruyub saxlayan yer adlarından biri olduğunu qeyd etmişdir. O, toponimdə ordu ucalığından yox, "od ucalığından" söhbət getdiyini bildirmişdir. Odbad-Otbad-Atbad-Ortbad-Ord(u)bat-Otrbad-Atrbad-Atropat kimi tarixi inkişaf yolu keçmiş və günümüzdə "Ordubad" şəklində sabitləşmişdir. Filologiya elmləri doktoru, professor Y.Axundlu isə Ə.Fərəzlinin izahı ilə razılaşmayaraq, bunun əksi istiqamətdə inkişaf yolu keçdiyini qeyd etmişdir.Yəni Atrobat-Atrobad-Ortbad… nəhayət Ordubad.

Eramızdan əvvəl IV yüzillikdə yaranmış Atropatena dövləti daxilində, dövlətin banisi olan Atropatın adının verildiyi ərazinin olması ehtimalı bu izahın mümkünlüyünü göstərir.

Əliqulu Fərəcov şəhərə həsr etdiyi tarixi-iqtisadi oçerkdə sözün mənşəyi ilə bağlı yazır ki, hərfi tərcümədə "ordu dayanacağı" və ya "düşərgə yeri" mənasını verməsinə baxmayaraq, yaşlı əhali sözün "Ordbehişt" adının təhrif olunmuş forması olduğunu təsdiq edir.

***Coğrafiyası***

Ordubad rayonu Arazın sol sahilində,Zəngəzur silsiləsinin ətəyindədir.Relyefi əsasən dağlıq,az bir hissəsi dağətəyi , 5–6 faizi isə aran ərazisindən ibarətdir.Ordubad, əvvəllər Fars ərazisində, indi isə Azərbaycan Respublikasında, şərqi Zaqafqaziyanın Araxes (Aras) çayının orta axarının şimal sahilində yerləşən bir şəhərdir. Təbrizdən təxminən 94 km şimal-qərbdədir və 948 m yüksəklikdədir. Ordubad şəhəri şimaldan Aşağı Əndəmic kəndi ilə, şərqdən Kotam kəndi ilə, cənubdan Araz çayı ilə, qərbdən isə Dəstə kəndi ilə həmsərhəddir.

Ordubad rayonu ərazisində olan Misdağ yatağı Vənəndçayın yuxarı hissəsində yerləşir və əsasən malaxit,

xalkopirit, xalkozin, minerallarından ibarətdir. Buradakı yataqlar faizli mislə müşahidə olunur. Onların tərkibində mis 0,3-8,25%-ə qədər, bəzən isə 21,56%qədər olur. Misdağ filiz sahəsində iki mis-qızıl yatağı mövcuddur. Birincisi filiz sahəsinin mərkəzi hissəsini əhatə edir ki, Ağyurd yatağıdır. İkinci Kətəm-Kələki ərazsinin mərkəzi hissəsindən şimal-şərqdə yerləşən Şəkərdərə yatağıdır. Bu yataqlarda qızılın miqdarı 0,5q/t,gümüş isə 13,2q/t qədərdir. Qeyd edək ki, geoloji ədqiqat işləri zamanı Şəkərdərədə qədim mədən yerlərinin bərpa olunması ilə yanaşı burada əsasən iki filiz zonası qeydə alınmışdır. 1Damar tipli mis filizləri;2 Mis-pirit filizləri.

***Geoloji quruluşu***

Ərazidə, əsasən, Tabaşir və Antropogen çöküntüləri yayılmışdı.

***Ordubad çayları***

Əsas çayları Gilan, Parağa, Vənənd, Ordubad, Əylis və Düylün çaylarıdır. Gilan Zəngəzur silsiləsinin 2700 m yüksəklikdəki yamaclarından formalaşır. Gilançayın 8 əsas qolu vardır. Düylün Zəngəzur silsiləsindən (2400 m) formalaşır. Vənəndçayın mənbəyi Qaplançaydan başlayıb Zəngəzur silsiləsinin 3400 m yüksəklikdəki cənub-qərb yamaclarında yerləşir. Əylisçay Vardanaxdərə və Dabaxlıdağ çaylarının qovuşmasından (3100 m) yaranır. Onun 3 qolu vardır. Ordubadçayın mənbəyi 3200 m yüksəklikdə yerləşir. Çayın 5 qolu vardır.

***Landşaftları və bioloji müxtəlifliyi***

Boz, çəmən-boz, allüvial- çəmən, dağ-meşə, çimli dağ-çəmən torpaqlar yayılmışdır. Ərazinin iqlimi yayı quraq və qışı soyuq keçən iqlim tipi vardır.

***Bitki örtüyü***

Arazboyu düzənliklər və qismən alçaq dağlıq sahələr(600–1200m) səhra və yarımsəhra bitkiləri,orta dağlıq sahələr dağ-kserofit bitkilər,yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülüdür.

Ordubad ərazisində bitən nadir bitkilər aşağıdakılardır:

✓ Qarabağ dağlaləsi (lat. Tulipa karabachensis) – Ordubadın dağ ətəylərində

✓ Qaraquş zəngçiçəyi (lat. Campanulaceae) – Zəngçiçəklilər fəsiləsindən olan mürəkkəb rəngli dağ çiçəyidir.Orubadın çəmənliklərində yayılmışdır.

✓ Güləbətin (lat. Pulsatilla) – Qaymaqçiçəklilər fəsiləsindən olan çoxillik ot bitkisidir. Ordubadın "Göygöl" ərazilərində yayılmışdır.

✓ Tıs-tıs (lat. Acantholimon) – Ən çox Ordubadın uca dağlarında bitir.

✓ Komarov şaqqıldağı (lat. Colutea komarovii) – Elmdə ilk dəfə rus botaniki Komarov tərəfindən öyrənilmiş kol bitkisinin boz yaşıl çiçəkləri vardır. Ordubadın dağ yamaclarında daha çox yayılmışdır.

✓ Çox rəngli dağlaləsi (lat. Tulipa) – Zanbaqçiçəklilər fəsiləsindən olan çoxillik ot bitkisidir. Ləçəkləri ağ-narıncı rəngdə olub otlaqlarda yayılmışdır. Muxtar Respublikanın bütün rayonlarında dağ və təpəlik çəmənliklərində rast gəlinir.

✓ Kirpiyə bənzər tıs-tıs (lat. Echinopsilon E.) – Sıx xırda çiçəklərlə əhatə olunmuş bitki, sanki kirpiyə oxşayaraq tikanlıdır. Muxtar Respublikanın əksər rayonlarında dağ yamaclarında yayılmışdır.

✓ Gəvən (lat. Astragalus) – Paxlalılar fəsiləsindən olan çoxillik tikanlı bitkidir. Muxtar Respublikanın Ordubadın yüksək dağ yamaclarında (quzeylərdə) yayılmışdır.

✓ Çaytikanı (lat. Hippophae) – İydə fəsiləsindən olan kol bitkisi. Çaytikanı kol bitkisinə əsasən Muxtar Respublikasının Ordubad və rayonundakı çay kənarlarında rast gəlinir.

✓ Boymadərən (lat. Althaea) – Mürəkkəbçiçəklilər fəsiləsindən olan çoxillik ot bitkisidir. Naxçıvan MR-da bütün rayonlarında çəmən və çay sahillərində yayılmışdır.

✓ Gülxətmi (lat. Althaea) – Muxtar Respublikanın bütün rayonlarında dağ-çəmən və düzənliklərdə xüsusən çay kənarı kolluqlarda yayılmışdır.

✓ Kəklikotu (lat. Thymus) – Dodaqçiçəklilər fəsiləsindən olan ədviyyat bitkisinin vətəni Qafqaz dağlarıdır. Naxçıvan MR-da kəklikotu bitkisi əsasən Ordubad rayonundakı "Göy-göl" ətrafındakı güneylərdə ətirli növü yayılmışdır.

✓ Dağnanəsi (lat. Ziziphora) – Dodaqçiçəklilər fəsiləsindən olan ədviyyat bitkisidir. Azərbaycanda nanənin beş növü o cümlədən Naxçıvan MR-da rayonlarında dağ ətəyi çay sahilllərində iki növü yayılmışdır.

✓ Zirinc (lat. Berberis) – Zirinckimilər fəsiləsindən olan kol bitkisi. Yer üzündə 175 növü vardır ki, Azərbaycanda 6 növündən 4-ü Naxçıvanda yayılmışdır. Naxçıvan MR-da Ordubadın dağ ətəyi kolluqlarda daha çox yayılmışdır.

✓ Dovşanalması (lat. Cotoneaster) – Muxtar Respublikanın Ordubad rayonunda kolluqlarda yayılmışdır.

✓ Yemişan (lat. Crataegus) – Gülçiçəklilər fəsiləsindən olan kol bitkisinin vətəni Amerikadır. Muxtar Respublikanın Ordubadın dağ ətəyi kolluqlarda yayılmışdır.

✓ Dağdağan (lat. Celtis) – El arasında bəzən bu kol-ağaca "müqəddəs daş ağacı" da deyərlər. Qaraağackimilər fəsiləsindən olan bitkinin yarpaqları payızda tökülür, gövdəsinin hündürlüyü 3 metrdən artıq olur. Naxçıvan MR-da yalnız Ordubad və Culfa rayonlarındakı dağ yamaclarında seyrək bitmişdir.

✓ İnnab (lat. Ziziphus) – Murdarçakimilər fəsiləsindən kol-ağac bitkisidir. Ordubadda daha çox yayılmışdır.

✓ Sumaq (lat. Rhus) – Hündür kol-ağac bitkisi olmaqla vətəni Kiçik Qafqaz (Ordubad) və Abşeron yarımadasındakı Qobustanda yayılmışdır. Naxçıvan MR-da Ordubad rayonu ərazilərindəki dağ ətəylərində yayılmışdır.

✓ Ardıc (lat. Juniperus) – Sərvkimilər fəsiləsindən olan həmişəyaşıl ağac-koldur. Ordubadın dağ ətəylərində geniş yayılmışdır.[6]

✓ Bənövşə (lat. Viola) – İkiləpəlilər sinfindən olan çoxillik ot bitkisi dağ zirvələrində rast gəlinir.

✓ Baldırğan (lat. Heracleum) – Çətirçiçəklilər fəsiləsindən olan çoxillik ot bitkisidir. Baldırğanın Azərbaycanda 8 növü, Naxçıvan Muxtar Respublikası|Naxçıvan MR-da isə 2 növü yayılmışdır. Ordubadın geniş yayılmışdır.

✓ Qafqaz xurması (xirnik), (lat. Diospyros lotus) – Ebenakimilər – Ebena fəsiləsindən olan subtropik çoxillik bitki növü. Bitki −25 C$^{o}$ şaxtaya dözdüyü ümün Naxçıvan Muxtar Respublikasının iqliminə dözümlüdür. Son illərdə Astaradan gətirilmiş tinglərlə həvəskar bağbanlar tərəfindən Ordubad meyvə bağlarında əkib-becərilir.

***Dərman bitkiləri***

✓ Sarılıqotu (lat. Erysimum), Quşəppəyi (lat. Capsella), Jenşen (lat. Panax ginseng), Atpıtrağı (lat. Arctium)

***Zəhərli bitkilər***

Azərbaycanda (o cümlədən də muxtar respublikada) otlaq sahələrdə 300-dən artıq zəhərli bitki növləri yayılmışdır ki, onlardan güclü təsirli, zəhərli bitkilər aşağıdakılardır;

✓ İtboğan (lat. Colchicum)

✓ Xaş-xaş (Papaver somniferum)

- ✓ Qaymaqçiçəyi (lat. Ranunculus)
- ✓ Çöl qərənfili (Agrostemma Githago)
- ✓ Canavar gözü (Daphne mezereum)
- ✓ Küstüşam (lat. Bryonia)
- ✓ Bat-bat (lat. Hyoscyamus)
- ✓ Qaraçöhrə (lat. Taxus)
- ✓ Dəlibəng (lat. Datura)

Bundan başqa, Kəpənək çiçək (lat. Aconitum) muxtar respublika ərazilərində zəif təsirli zəhərli bitkilər də vardır ki, onlar öldürgən, acılıq, qatırquyruğu, kəkrə, çobanyastığı, cil, acı yonca, qızıl sarmaşıq (küc), yapışqan otu, mahmız çiçək, ayı döşəyi, süddüyən, acı biyan, süsən, lalə, üzərlik, birə otu, qaytarma, asırqal, həlməd, dəmirtikan, xaççgülü, ardıc, sarı kol, kərməşov, şümşad və s. göstərmək olar.

**Çingiz Süleymanov**

## AZƏRBAYCAN TORPAQLARINDA ERMƏNİLƏRİN YERLƏŞDİRİLMƏSİ, ETNOMƏDƏNİ TERROR, AZƏRBAYCANLILARA QARŞI ÇARİZMİN MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ VƏ DİGƏR TARİXİ FAKTLAR

Aşağı Qarxun - Eçmiadzin rayonunda kənd adı. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1928-ci ildən sonra qovulmuş ailələrin az hissəsi geri qayıtmış və ermənilərlə qarışıq yaşamışdır. 1949-cu ildə onlar Azərbaycana köçürülmüşlər. Aşağı Qarxun adı XIX əsrin sonlarında Yuxarı Qarxun adlanan kənddən çıxmış bir qrup ailənin ayrı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Digər adı Şəfiabaddır. XIII əsrdə monqolların tərkibində gəlmiş türk mənşəli Karkın tayfasının adını əks etdirir.

Karkın boyu (Qarxun) Oğuz Kağan Dastanına görə Oğuzların 24 boyundan biridir. Bu boyların Bozoklar qolundan (sağ qolundan) Oğuz Xaqanın oğlu Ulduz Xanın soyundan gəldikləri qəbul edilir. Ağqoyunlu ve Dulkadir-oğulları bu boydan gəlir Qarkın "Daşqın və doyurucu" mənasındadır.

Ata babam Süleyman Hüseyn Süleyman oğlu İrəvan xanlığının Sərdarabad mahalının Aşağı Qarxun kəndində anadan olan (Cuxur Səddin adı da ulu babam olan Sədinin adı ilə adlanmışdır.) Böyük Türk tayfasından ərən Süleymanın oğludur.

Babamin babasının da adı V Şəfi idi həmin ərazilər Şəfiabad (Qarxunun digər adı) adlanırdı. Ulu babam başçı və böyük tacir olub, Adı və sanı ilə tanınan, secilib, sevilən

bir insan olub. Söhbət zamanı babam onun babasının ərazinin ən varlısı və tayfa başçısı olduğunu deyirdi və bildirirdi ki, 1918-ci ildə babamgilin Qarxun kəndinə Türkiyədən ermənilər köçürüldü.Köçürülən ermənilər vəhşicəsinə babamgilin tayfasına və şəcərəsinə divan tutdular. Babamgil 10 qardaş üç bacı olublar. Ermənilər onların ailə üzvülərinin bir qismini öldürüb toplu məzarlığa basdırıb bir qisim tayfa üzvülərini isə amansızlıqla qətlə yetirərək yandırmışlar. Babam və ən balaca bacısı isə qacaraq əvvəl İğdıra, sonra da Naxçıvandakı Yuxarı Qarxuna gəliblər. Naxçıvan ərazisində də onlara aid yerlər olub.Onların əqraba qahumları da burada yaşayırdı. Əsasən də Ordubadın Üstüpü kəndində Yusif oğlu Məhəmməd Məhəmməd oğlu Murad, Murad oğullarının da Məzahir, Müzəffər və Əyyubla əlaqə saxlayırdılar.

Babamın danışdığı ən önəmli faktlardan - Naxçıvan xanı Kəlbalı xanla görüşü idi. Babamın əmisi Sərdar bəy Kəlbalı xana istər maddi, istərsə də mənəvi dayaq olmuşdur. Bu da bir təsdaüf nəticəsində baş vermişdır. Sərdar bəylə Kalbalı xanın tanışlığı İravandakı mərkəzi bazarda baş vermişdır. Bəyə məxsus dukanda Kalbalı xan  papaq almaq istəyir, gözləri görməyn bu şəxsə Sərdar yaxınlaşır və ona köməklik göstərmək istəyir. Elə bu an Naxçıvandan gəlmiş adamlar Kəlbalı xana hücüm edir, adamlarını döyür və onu əsir götürmək istəyir. Bundan hiddətlənən babamın əmisi Sərdar bəy hücüm edənlərin hamısının cavabın verir və Kəlbalı xanı xilas edir. Ağır zədə alan Kəlbalı xan bir müddət bəygildə qalır və sonradan bir can borcluluğu olan bir dosluğa və sonradan qohumluluğa dönür.

Sərdarabad mahalı Şərur rayonunun eyniadlı inzibati ərazi vahidində  kənd. Arpa çayının sahilində, düzənlikdədir.

Oykonim qəd. oğuzlara qoşulmuş karkın tayfasının adı ilə bağlı¬dır. Bu tayfa haqqında ilk dəfə Rəşidəddin (XIII əsr) məlumat vermişdir. Əbdülqazi xan (XVI əsr) karkınların Oğuz xanın üçüncü oğlu Ulduz xanın nəvələrindən birinin törəməsi olduqlarını qeyd etmişdir. Qaraqalpaqların tayfalarından birinin də qarkın adlanması göstərilir. Bu tayfanın mənşəcə Azərbaycanda məskunlaşmış eyniadlı tayfalarla yaxınlığı şübhəsizdir. Karkınlar oğuz tayfaları tərkibində XI əsrin 30-40-cı illərində Azərbaycanda məskunlaşmış və yerli tayfalarla qaynayıb-qanşmışlar. Dağıstan, Ermənistan, Türkmənistan və Özbəkistan ərazisində də eyniadlı kəndlər mövcuddur. Qarxun tayfalarını qara hunlarla da əlaqələndirirlər.

Tarixi danışarkən babam deyirdi. Bizm tayfa bu ərazilərdə yaşamış və bu ərazilərin sahibləri olmuşlar. Belə ki, 1431-ci ildə Ağqoyunlu Yaqub padşahin Üç kilsə (Eçmiədzin) ərazisində yaradılması hesab edilən 7 kənddən 2-sinin babamgilin tayfasına aid olduğunu bildirirdi. Bu kəndlər Eştərək (tərək undan hazırlan yemək un su doşab qarşığı eş tərək isə evin xatununun yəni bəyin eşinin (həyat yoldaşının) hazırladığı un yeməyinə deyirdilər. Bu yeməyi evin ana xatunu hazırlayanda bu yeməyə ana tərək deyirdilər. Eş tərəyi gözəl hazırlayan və yeyilməsi zövq verilən bu kənddə bu səbəbdən Eş tərək adı verilmişdi. Ağu xatun yəni ahu gözlu xatun. Babamgilin tayfasından olan xatunlar əsasən iri gözlu, düz qamətli olduğundan belə deyirdilər onlara. Ağu yəni Ahu ceyran gözlü hatun. Bu iki kəndin babamgilə məxsus torpaqlarınıda Yaqub padşahın nümayəndəsi Əmir Rüstəm padşah torpaqları ilə birlikdə Üç Kilsə kotolikosu Makuluya satıb. 530 min dinar məbləgində qiymətləndirilən torpaqların Eştərək və Ağuxatun

kəndlərinə aid olan torpaq sahələrinin pulu yəni qiymətləndirməyə görə 152 min dinar babamgilin tayfasına ödənilməli və mülkiyyət hüququ ondan sonra əldə edilməli idi. Amma təəssüflər olsun bu məbləğ ödənilməmişdir. Babam deyirdi ki, Yaqub paşa və onun nümayəndəsi 1431 ci ilin qışında son dəfə babamgilin tayfa başçısı olan Sərdar Süleyman və qardasına  xəbərdarlıq edirlər ki, 152 min dinardan əl çəksinlər. Bunun da səbəbi o idi ki guya ermənilər razılaşdığı məbləğin 378 min dinarını ödəyiblər qalanı qalir. Erməni ilə sövdələşmənin sonu isə yenə də babamgilin həmin ərazinin ətrafından sürgün edilməsinə gətirib çıxarır və sonda Erməni kotolikosu Makuluyan tərəfindən  həmin ərazilər ücün 152 min dinarı ödəmədən toprağın zəbt edilməsi ilə nəticələnir. Ermənilərin tarixi fakt olaraq qeyd etdiyi 530 min dinar qarşılığı torpaqların alınması məsələsində də saxtakarlıq edərək 530 min qarşılığı qeyd olunan ərazinin alqı-satqısının aparılması haqqında deyilənlərin tamamilə yanlış olduğunu deyirdi. Ən əsası odur ki, babamgilin tayfasına aid olan Eştərək və Ağuhatun kəndlərinin torpaqlarının dəyəri bu günədək ödənilməmişdir. Bu da bir daha təstiq edir ki, Üç Kilsə ərazisinin alındığı hesab edildiyi halda həmin ərazi üçün nəzərdə tutulan məbləğ tam olaraq mülk sahiblərinə ödənilməmişdır. Babam bir də deyirdi ki, kotolikos  Makuluya gəlib özü  Sərdar Süleymanın ayaqlarına düşüb yalvarıb ki onlara bu torpaqları satsın. Amma yenə erməni xisləti həm topağı zəbt elə, tam dəyərini ödəmə, həm də bu ərazilərdən onların qovulmasına nail ol. Yəni sırf erməni xisləti əvvəlcə ayağı, ətəyi öpürlər əyiləndə ki, bunlara ehtiyaç yoxdu xain xəncəri arxadan vururlar kürəyə.

Sonralar islamın qəbulu ilə əlaqdar olaraq babagilin tayfası Dədə Karkın İslami dərnəkləri yaradırlar və islamın

inkişafında böyük rol oynayırlar. Dədə Karkınlılara Uç kilsə (Eçmiədzin) də daxil idi babamgilin tayfasına aid idi həmin ərazilərin vəliəhdi və ordanda vegilər toplanırdı. Xüsusən bu ərazi mənim babam Süleyman öğlu Hüseynin ulu babası olan Seyx Hüseyn Karkına mənsub idi.

1411-ci ilədək Cuxur Sədi Əmir Sədin oğlu Pirhüseyn idarə edib.

1656-1663-cü illərdə Çuxur-səd bəylərbəyi Qazaq xan Çərkəz Şamlının oğlu Nəcəfqulu xan idi. Nəcəfqulu xandan sonra Əmirgunə xanın oğlu Abbas Çuxur-Səd bəylərbəyi və İrəvan hakimi təyin edilmişdi. Ondan sonra isə ləzgi Səfi xan burada bəylərbəyi olmuşdur. O, Şah tərəfindən cəzalandırıldıqdan sonra Rüstəm xanın oğlu Səfiqulu Çuxur-Sədə bəylərbəyi göndərilir.

Səfiqulu xan İrəvan bəylərbəyi olub. O keçmiş Şah (II Şah Abbas) dövründə Səfəvi İmperatorluğunun ən mühüm əyalətlərindən birində hökmranlıq edirdi. Səfiqulu xanın arvadı ana tərəfdən Şahın qohumu idi. Şah Süleymanın hakimiyyətinin (1666-1694) ilk illərində onun xahişi ilə ərini Şah yenidən İrəvan hakimi və Çuxur-Səd bəylərbəyi təyin edir. Səfiqulu xan digər hakimlərə nisbətən ədalətli olduğu üçün hökmran olduğu ərazinin əhalisinin hörmətini qazanmışdır. Lakin yerli sultanlar və əyanların bir çoxu ona tabe olmaqdan boyun qaçırıb, əleyhinə Şah və divanbəyiyə çoxlu şikayətlər edirdilər. Səfiqulu xan da öz növbəsində Çuxur-Səd vilayətindəki vəziyyət barədə vaxtaşırı şaha məlumat göndərirdi. Nəhayət, şah fərman verir ki, kiçik hakimlər sözsüz olaraq İrəvan hakiminə tabe olmalıdır.

Babamın ana tərəfi isə Elxanılər. Səəd elxanilərdən olub. Atabəylər və elxanilərə qədər uzanıb. Elə Karkında eyni soydan eyni kökdəndi. Çuxur Sədinin qızı yəni Pir

Hüseynin baçısı Səda xatun mənin babam Hüseynin ulu nənəsi olub Pir Hüseynin şərəfinə babama V Hüseyin adını veriblər və Sədanın həyat yoldaşı Vəlinin Alp Karkın boyundan olması və sonradan Süleyman Şahın şərəfinə babamgilin səcərəsinin Süleyman soy olaraq adlandırılmasına və bu soyun daşınmasına səbəb olumuşdur. Vəli Alp təsadüf nəticəsində Səda xanımla rastlaşır. Səda qoçaq və qəhrəman bir qiz olub. Bir vaxtlar ona hec kim Pir Hüseyn xana görə söz deməyə cürət etməyib. O da igid cəsarətli böyüyüb. Vəli Alp Səda xatun ovdan qayıdanda onun qarşısını kəsir. Bu da o zamanlar Bozoklarda ən təhqiramiz hal hesab olunurdu. Hələ Kayı boyundan olasan, Karkın elində at oynadasan bu heç qəbul olunan deyidi. Vəli Alp və əhatəsində olan alplar bilmədən Səda xatun və onun ərtafinda olanların bütün ovlarını və silahlarını əlindən alırlar. Alınan qənimətlərin arasında Qarxun (Karkın) boyunun damğası hesab edilən Tavşancılın (Qartal quşu) da olması Səda xatunu cox narahat edib. Özü qədər sevdiyi bu quşu həmişə yanında gəzdirən Səda xatun cox pərişan olur. Hüçum edən adamların kim olduqları tezliklə bəlli olur. Bunların Kayı bəylərindən birinin oğlu olan Vəli Alpın və dəstəsinin olduğu müəyyən edilir. Babam onu da deyirdi ki, Kayı və Karkın boyları arasında bu ədavət uzun surub, hətta Kayı boyundan olan Vəli və alpları Səda xatunun qaldığı çadırdan ona aid əşyaları götürməyə gəlmiş və bu zaman böyük döyüş olmuşdu. Bir ara bu Oğuz boyları bir-birinə müqavimət göstərmişlər. Hətta Səda xatunun 4 oğlu 2 qızının olması bu döyüşləri səngitməyib. Səda xanım sonradan yəni Vəli Alp döyüşlərin birində vəfat etdikdən sonra o, ata yurduna qayıdır.

Şimalı Qarasu çayından Hüseyn babamın ulu babası Şəfi əraziləri su ilə təhchiz etmək üçün bu ərazilərə Türkmən,

Şəfiabad və Qarxun adları ilə arxlar çəkdirmişdir.

Çuxur Sədd tarixi haqqında bəzi faktlar;- 1339-cu ilin mayında Şeyx Həsən tərəfindən taxta gətirilmişdi. 1340-cı ildə Sultan Satıbəy xatunla evləndirilmişdir. 1341-ci ildə Sərbədarlar üsyanının başçıları Süleyman xanı hökmdar kimi qəbul etmişdilər. Məlik Əşrəf tərəfindən devrilməsindən sonra haqqında son məlumat 1345-ci ildə verilir.

1590-cı ildə bu kənddə yalnız bir erməni vergi mükəlləfiyyəti daşıyanın adı qeydə alınmışdır (İrəvan əyalətinin müfəssəl dəftəri.N-633, c. 115). Ermənilər Şeyx Mahmud kəndinə türk-müsəlman əhali buranı tərk etdikdən sonra yerləşmişdilər. Sırf türk-müsəlman adı daşıyan kəndlərə yerləşən ermənilər, fıkrimizcə, şah I Abbas tərəfindən Çuxursəd beylərbəyliyinə ölkənin içinə sürgün edilənlərin XVII əsrin ortalarından başlayaraq yenidən öz yerlərinə qayıdarkən Çuxursəd beylərbəyliyinə getməmiş və Naxçıvan sancağının türkmüsəlman əhalisinin tərk etdiyi kəndlərinə yerləşmişdilər. Naxçıvan sancagının ermənilər yerləşən kəndlərinin adı bir qayda olaraq türkmüsəlman mənşəlidir. Misal üçün, Şeyx Mahmud, Qaraquş, Kömür, Qurd Əmir, Dulus, Qızılca, Ərikli, Pul, Qalacıq, Ayısəsi və b.Ermənilərin Çuxursəd bəylərbəyliyindən Naxçıvan sancağına (yeri gəlmişkən qeyd edək Gəncə - Qarabağ əyalətinə də) gəlib yerləşmələri (yerləşən erməni əhalisinin sayının azlığına əsaslansaq) hətta XVIII əsrin əvvəllərində də baş vermişdir.

Mülkü Arsalan nahiyyəsində (Cəhri kəndi ərazisi) Süleyman şəcərəsinin 1 qitə üzüm bağı olub Məzeyi Xatun nahiyyəsinə tabe olan İtqıran kəndindən Məhərrəm və Məhəmməd Ehtibar oğulları da şəcərə qohumlarıdı sonradan 3 dönəmdən sonra Məhəmmədin adını daşıyan Məhəmməd Böyük Vətən Müharibəsində iştirak etmişdir. Baçısı Atıkə

Xatun 2016-cı ildə 100 yaşında Uzunoba kəndində vəfat etmişdir.

Babamgilin bir şəcərə qohumu da Naxçıvan qazisi Mövlana Süleyman idi.Ona məxsus iki üzüm bağının gəlirindən Camiə-Şərifin nəznində fəaliyyət göstərən mədrəsələrdə oxuyanlara təqaüd verilib.

Babamın ana tərəfi isə Atabəylər və Elxanilərə qədər uzanır. Elxanılər və Səəd də Oğuz Xanın oğlu Ulduz xanın oğlu Karkınla (Qarxın) eyni kökdəndirlər.

**Çingiz Süleymanov**

# FACİƏ…

Ön söz. Ancaq və ancaq halallıqla qazınıb, halal olanı halal böl!

Bir əyalın əyaləti vardı. Deyilənə görə, bu əyalət Nuh əyamından qalmışdı. Burda insanlar çox rəvan və firəvan yaşayırdı. Bu yaşam surəsinə 7 bəzən də 70 deyərdilər. Burda 3- lərin 7-lərin 40-ların da öz hökmü vardı, hə elə indi də var.

Bir gün bu əyalətdən üzun müddət ayrılan, özünü-sözünü bilməyən tayfasından olan birinin əyalətə dönmə xəbəri yayılır. Əyalətə səs-səmir düşür ki, bəs Filankəsin oğlu Filanciyəz gəlir. Bir sözlə, hamıya beşikdəki çağadan, 99 yaşlı Ağaya kimi bu səda çatdırıldı. Hamı bu anı səbirsizliklə gözləməyə başlayır. Filanciyəz əyalətə gəlib nə edəcəkdi görəsən? Nədən gözləyirdilər onu belə səbirsizliklə?

Qoyun deyim:

-Gələn kimi əsnaf da, qəssab da, bakkal da, dükan və bazarda olan bütün nisyə dəftərlərini alıb, yandıracaq;

-Hər anadan olan uşağa 5 yaşı tamam olanadək çəkiləcək bütün xərcləri qarşılayacaq;

-Uzun müddət sıra gözləyən gənclərin toyun edəcək;

- Dünyasını dəyişənlərin ruhuna dualar oxutduracaq;

- Kimin nə arzu, istəyi varsa həmən yerinə yetirəcək.

Bütün əyan bu işlərə görə ona böyük hörmət və sayğı göstərirdi, hətta nurani Ağa dədəni də onu qarşılamağa çıxmasına təhrik edirdilər.

Uzun sözün qısası Filanciyəz əyalətə gəlib, təntənəli olaraq əyan tərəfindən qarşılandı. Əvvəllər olduğu kimi, o bütün istəkləri yerinə yetirdi. Birdən diqqət etdi ki, Ağa dədə yoxdu. Həmən yanında duran yekə baş, iri qarın, bəstə boy, dişləri düşmüşdən (yeri gəlmişkən qeyd edim ki, bu yekə başın dişlərinin də düzəltdrilməsinə Filanciyəz söz vermişdi) soruşdu:

-Bəs Ağa harda?

Başı yekə:

-Xəstədi, yataqdan dura bilmir deyə cavab verdi.

Görüşlər davam etməyə başladı, hamının keyfi damağı çağ idi. Əlləri çalır, ayaqları da oynayırdı.

Birdən elə bil yığılan əyanları ildırım vurdu. Lap bəndin qənşərindən Ağa dədənin əlində çəlik, odu ey! gəldiyini gördülər. Hamı qeyri-iradi həmin tərəfə dönüb baxdı. Başı yekəninsə üzünə elə bil sarı rəng çəkdilər. Çünki Filanciyəzə yalan məlumat vermişdi, busa ölümə bərabər idi. Deyilənə görə Filanciyəzin qanunlarında onun sevmədiyi hal, yalan qanışmaqdı. Yalanı heç sevməzdi, çünki onun dünyasında və əhatəsində bu ən böyük qəbahət sayılırdı.

Əlqərəz, Ağa dədə gərgin çabayla və təngnəfəs halda, ağır adımlarla əyanın toplandığı meydana tərəf dəlirdi. Gecə olmasına baxmayar Ay ətrafı tamamən aydınlatmışdı.

Ağa dədə meydana çatar-çatmaz kimsə ona kömək etmək istədi. O bu köməkdən də imtina etdi. Əyilib meydan daşının üstündə oturdu. Əlindəki əsasını belinə qoyub əllərini əsanın üzərinə keçirdi. Bu duruşa "çoban duruşu" deyrərlər əyan arasında. Hecə olasa Ağa dədə üzün illər bu əyalətin çobanı olmuşdu axı.

Dədə uzun ömründə gördüyü hadisələrdən çətinliklə də olsa danışdı. Filankəsin tayfasından söz açdı. Onların

necə əclaf və naqis olmalaından da xüsusi vurğu vurdu. Hamının, əsasən də Filənciyəzin gözləri on altı olmuşdu. El arasında gözləri dörd olmuşdu deyirlər, amma dədənin dediklərindən çox heyrətləndikləri üçün gözləri bunun dörd qatı böyümüşdü.

Ağa dədə:

-Demişəm yenə deyirəm. Qulağınızı açın və eşdin… Bir maraqlanın Filankəsin qoduğu Filanciyəz nə işlə məşğuldur. Onun qazandığı miliyonlar nəyin hesabınadır?

Bilmiyənlərə deyim:

- Ev yıxır, qanunsuz qərar qəbul edir, üzə durur, qız, qadın satır, uşaqları, yetimləri gözü yaşlı qoyur əlində nələri varsa alır, dini, imanı yox, gündə yeyir, içir, çəkir, çəkməsi çəhənnəm hamıya zəhrimar satdırır (narkotik maddə), narkobarondu. Bu əyalətdə məqsədi olmasa bu işləri görməz. Axırda nəsə edəcək sizlərə… Sizdə qoşulmusuz ona ağına bozuna baxmadan, soruşub öyrənmədən nə verdi ondan alırsız. Bu aldıqlarınız haramdır -olmaz, bunları qəbul etməməlisiniz. Deyirəm olmaz!!!. Nədən olmaz, çünki siz də onun tərəfinə keçirsiz, Yaradanın qəzəbinə səbəb olursur. Bunun sonu faciədir. Qayıdın bu yoldan və hər nə veribsə qaytarın özünə.

Əyalətin əyanlarına bu hal ləzzət eləmədi, hamı Ağa dədəni qınadı. Hətta ona- ölmür ki, canımız qurtarsın deyənlər də oldu.

Ağa dədə çətinliklə də olsa yenidən dedi:

-Siz bilin Ey əyan! mənim dualarımla bu əyalət qorunur, mənim dediklərimə həmən əməl edin, yoxsa fəlakət qapını döyür.

Heç kim Ağa dədənin dediklərinə əməl etmədi. Onu saya saymadı.

Hadisənin dili Hadisə görədir, baş verəndə gec olur. Belə də oldu. Ağa kişi çox çəkmədi dünyasını dəyişdi.

Bəs əyalət necə oldu? Əyalətdə zəlzələ oldu, ardından da tufan, ondan sonra da sel gəldi. Bu əyalət və əyandan heçnə qalmadı, Təpəgöz dağdan başqa…

Son söz: … Ancaq və ancaq halallıqla qazanıb, halal olanı halal böləndə ölən olmaz.

**Çingiz Süleymanov**
***23.05.2023-cü il***

## GÖL VƏ MƏN

Tarix 26. 02. 2023 saat 02:26:23 Məkan Naxçıvan Uzunoba Gölü…

Gəldik görüşünə Xanəli Kərimli, Rövşən Hüseynov, Səfiyar Abışov və Çingiz Süleymanov. Uzunoba Gölü. Eşitdik xəstə yatağında yatırsan, gəldik ziyarətinə. Nələr gördük gələn kimi. Görgük Göl xəstə yatağında Gölməçəyə gönüb artıq. Yəni ölür… cox ağırdır. Gördük xəstə göldən umanlar hələ də var. Ara sıra balıq belə tutanlar var. Yar olmayan yadları var. Dərdinə çarə axtaran Göl, carəsizdir elə bilki hökm verilmiş Öl Ay Göl…

Mən:

-Salam Ay Göl biz gəlmişik ziyarətə.

Göl gözünü açtı. Gölün gözünün içi sapsarıydı, elə bil sarılıq xəstəliyi tutmuşdu. Qara ciyarına soyuq dəyib deyəsən.

Mən:

-Necəsən? Bu ərazilərə ƏR və AZİlərə su, can verən Uzun Oblardan axıb gələn suyu qoynuna yığıb, su su deyən vaxt ətrafında olan bütün canlılara su paylayan Göl. Əhatə dairəndə və əlaqədə olduğun bütün canlılara həyat verən



Göl, nə oldu sənə, nədir dərdin?

Göl:

-Eh Bəşər!. YA BEŞ ƏR… YA BƏ ŞƏR. ƏN yarandın beş ər olasan, şər və cahillikdən uzaq olasan?. Əşrəf olasan, qəddar yox...

Mən:

-Ey Göl nədən bu halın pərişan olmuş, ölüm yatağındasın?

Göl:

-Suyum mındarlandı. Məndən qidalanan balıq və digər canlılar məhv oldu. Mənimsə durumumu görürsən. Yarı can olmuşam…

Mən:

-Nə edə bilərik? Nə lazım sənə?

Göl:

-Təşəkkür edirəm xəstə yatağımda ziyarətimə gəldiniz. Dua edin…Yaradana. !!! Sağalmam üçün dua edin. Bütün Bəşər övladına tərcüman olun səsimi, ünümü çatdırın. Qoruyun anamız TƏBİƏTİ… Çün Kİ, bütün yaşam təbiniz bundan asılıdır.

**Çingiz Süleymanov**

## OL AY Göl… YA DA ÖL AY Göl

Tarix 26 fevral 2023-cü il Məkan Naxçvan Uzynoba Gölü…Gəldik görüşünə Uzunoba Gölü. Eşitdik xəstə yatağında yatırsan, gəldik ziyarətinə. Nələr gördük gələn kimi. Görgük Göl xəstə yatağında Gölməçəyə gönüb artıq. Yəni ölür… cox ağırdır. Gördük xəstə göldən umanlar hələ də var. Ara sıra balıq belə tutanlar var. Yar olmayan yadları var. Dərdinə çarə axtaran Göl, carəsizdir elə bilki hökm verilmiş Öl Ay Göl…

Tarix 09 may 2023-cü il Məkan Naxçvan Uzunoba Gölü…

Yenə gəldik, ziarətinə Uzunoba Gölü. Ötən ziyarətdə edilən dualar Yaradanın izniylə qəbul olunmiş və gölün suyu çoxalmışdır. Çox sevindik göl xəstəliyini atıb ölüm yatağından durmuşdu. Gölə bütün canlılar təkrif buyurmuşdu. Hətta 2 -3 kq balıqların tutulduğunuda dedilər. Ördəklər, Leyləklə Zağ-vağ quşları və sairdə gəlmişdilər. Sükür Yaradana dualarımızı qəbul edərək, Uzun Oba Gölünə sağlıq və həyat nəsib etdi.

Dörd nurlu insan, yenədə gəlmişik görüşünə, (Xanəli, Rövşən, Səfiyar, Çingiz)

Gəldik əhvalı sorub, halı keyf edək.
Yazda ölüm halında görmüşdük səni,
İndidə vardıq ki, şövqünü görək.
Görək dualar qəbul olubmu?
Görək bir çevrən suyla dolubmu?
Görək üzündə qaysaq bağlayan,
Yaraların sağalıb, qanı durubmu?
Şükür Yaradana, min şükür olsun,
Dualar qəbul oldu, verdi an aman,

Suyun göm - göydür səmalar kimi,
Siman əks edirir düşən hər anı.
Qoynuna qayıdıb Leylək də, Vağ da,
Artıq sahilində tor atan hər kəs,
Əzəl minvaldadır, gözəldə çağda.
Uzaqda üzürdü yaşılbaş ördək,
O da sevinirdi bu halı görcək.

**Çingiz Süleymanov**
***10.05.2023-cü il***

## UZUNOBA GÖLÜ

*Eşitdim Göl suyun xeyli azalıb,*
*Pərişan könlünü almağa gəldim.*
*Yığıb buludları başının üstə,*
*Yanına qonağın olmağa gəldim.*



*Gəldim ki, Rəbbimə dualar edim,*
*Yağdırsın üstünə göylər incisin.*
*Sinənə tor atsın balıqçı dostlar,*
*Nə balıq incisin, nə tor incisin.*

*Yenidən canlansın sinəndə həyat,*
*Sənsiz darıxanlar seyrinə gəlsin.*
*Suya həsrət qalan gen zəmilər də,*
*Doyunca suyundan içib dincəlsin.*

*İndi duamızı eşidib Rəbbim,*
*Yağış yağdırmağa hazırdır göylər.*
*Buludlar köynəyin səribdır yerə,*
*Hayqırır neçə çay, sevinir göllər.*

**Rövşən Hüseynov**
***16.03.2023-cü il***

## TANRININ ELÇİSİ....

*Dostum Süleymanov Çingiz Elşad oğluna ithaf olunur.*

*O Allahın sadiq dostu,*
*Ülvi hisslər qanındadır.*
*Mələk desəm, yanılmaram,*
*Elə mələk donundadır.*

*Dua üçün əllərini,*
*O qaldırsa tanrısına.*
*Duaları məlhəm olar,*
*Bir kimsənin ağrısına.*

*Oxuyuram varlığını,*
*Nur tökülən üz, gözündən.*
*Quşlar göydə qanad saxlar,*
*Hikmətamiz sözlərindən.*

*Tanrı verib qiymətini*
*Əziz dostum, sirdaşıma.*
*Neçə-neçə möcüzənin,*
*Şahidiyəm təkbaşına.*

*İçi dolu xəzinədir,*
*Özü, sözü bir aləmdir.*
*Alim desəm, kiçildərəm,*
*O alimlər alimidir.*

*Sehirlidir çox sirlidir,*
*Onun həyat, yaşam tərzi.*
*Allahına ibadətdir,*
*Sədaqətdir həyat tərzi.*

**Rövşən Hüseynov**
***23.03.2023-cü il***

# XANƏLİ KƏRİMLİ



## BİR VULKAN PÜSKÜRMƏSİ

*Ürəyim bomboşdur,*
*Yel vurur, yengələr oynayır.*
*Ürəyimin boşluğu*
*Bəsirətin korluğu,*
*Beynimin karlığıdır.*

*Məstəm–*
*ya ağlın yoxluğundan,*
*ya dərdin çoxluğundan.*
*Tükənir yavaş-yavaş*
*Səbrim də, gücüm də,*
*Ancaq...*
*Bir vulkan püskürməsi*
*Gözlənilir içimdə.*

# BAYRAĞINI UCA QALDIR, ANA VƏTƏN

*Lirik poema*

*Ana Vətən! Sən günəşli ölkə kimi var olsan da yaranışdan,*
*Başın heç vaxt açılmadı nə borandan, nə şaxtalı qarlı qışdan!..*

***

*Azərbaycan bir üzüksə, o üzüyün qaşı sənsən, Qarabağım,*
*Azərbaycan bir bədənsə, o bədənin başı sənsən, Qarabağım,*
*Azadlığın, enməzliyin əfsanəvi yaşı sənsən, Qarabağım.*
*Həm kədərli, həm sevincli gözümün də yaşı sənsən, Qarabağım.*
*Sənsiz mənim ürəyim də para idi, yara idi, Qarabağım,*
*Sənin belə quru adın dərdlərimə çarə idi, Qarabağım.*
*İllərdir ki, şeytanlığın, iblisliyin beşiyində dustaq idin,*
*Sinəmizə çalın-çarpaz çəkdirilən bir dağ idin, Qarabağım.*
*Nə əlimiz, nə ünümüz yetməyirdi nə bir kəsə, nə də sənə.*
*Əriyirdik, əriyirdin, sozalırdıq ildən-ilə, gündən-günə.*
*ATƏT-lərin, matətlərin əlində bir oyuncaqdın illərlə sən,*
*Qara günün, qara bəxtin əzabını hey çəkirdin günlərlə sən.*
*Səndən ötrü vurnuxurduq, əzilirdik içimizdə, çölümüzdə,*
*Səndən ötrü ayaqdaydı oğlumuz da, qızımız da, ...ölümüz də.*
*Kimlərinsə günahının olmuş idin sapand daşı, qan savaşı,*
*Onunçün də sinən üstə at oynatdı oğrubaşı, quldurbaşı.*
*Canımızı dişimizə tuta-tuta, sıxa-sıxa dözdük yenə,*
*Çarən üçün illərdir ki, qitə-qitə, ölkə-ölkə gəzdik yenə,*
*Açılmayan düyün idi taleyinə düşmənlərin yazan yazı,*
*Düşünürdük, sənin xilas yolun çəkər bundan sonra qırx il azı...*
*Əllərimiz üzülmüşdü haqq deyilən, fakt deyilən dərgahdan da,*
*Ancaq yenə ümidimiz kəsilmirdi Haqq deyilən Allahdan da.*
*Haqqımızı yeyirdilər gözgörəsi bilə-bilə, qana-qana,*
*Qovrulurduq içimizdə köz üstündə cızdağımız yana-yana.*
*Vuruşurduq, döyüşürdük içimizdə özümüzlə, sözümüzlə,*

*Sənin dustaq taleyinə dözənmirdik qəlbimizlə, gözümüzlə.*
*Ancaq Zaman inad ilə səbir dedi, dözün dedi bizə bir az,*
*Bu haqsızlıq, şərəfsizlik ömrü boyu belə getməz, belə qalmaz...*
*Bu da bəlkə bizim üçün bir imtahan bir yazıymış sınaq üçün,*
*Dostumuzla düşmənimi ayırd edib seçmək üçün, qınaq üçün...*
*Qarabağım! Sənin qara bəxtin üçün günahkarıq biz hamımız,*
*Biz özümüz özümüzə qənim olub qurban dedik canımızı*
*Özgələrə, gəlmələrə, çörəyi də dizi üstə olan şeytan ölkələrə.*
*Qonaqladıq, qaraladıq, süfrəmizi paraladıq ac-yalavac alçaqlara.*
*Qucaq açıb yerləşdirdik şeytanları, iblisləri isti otaq-ocaqlara.*





*Qanı qanla yumalıykən qanı yuduq su ilə ki, biz insanıq,*
*Allah xoflu, iman xoflu, əli kitab "Quran" xoflu müsəlmanıq.*
*Bizim kimi millət yox ki, bu dünyada, ağzımızın tikəsin də,*
*Cibimizin son qəpiyi, sikkəsin də saxlamışıq qonaq üçün,*
*Dedik əsir-yesirlərə, yazıqlara: "buyur, gəlin, başa keçin".*
*Özümüz öz əlimizlə quyu qazdıq özümüzə, sözümüzə,*
*Handan-hana ayılanda ha döysək də dizimizə, üzümüzə,*
*Ox kamandan çıxmışdı ta, özümüzü öz əlimiz yıxmışdı ta,*
*Çörəyimi yeyən düşmən xəncərini ürəyimə soxmuşdu ta...*
*"Öz-özünə eyləyənə el yığıla edə bilməz" məsəli var,*
*Heyif, bizi gec ayıltdı bu məsəllər, bu hikmətlər, bu kitablar.*
*Özümüzə qayıtmaqçün yollar gəzdik illərlə biz, aylarla biz,*
*Zülmətləri yara-yara, qova-qova axtarırdıq təmiz bir iz.*
*Şükür Tanrı dərgahına, şükür Haqqa, Qarabağım - sinə dağım,*
*İndi-indi ayaq açır yeni dövrüm, yeni çağım, ilk növrağım.*
*İndi daha Günəş doğub - zülmətlərin bağrın yaran yeni Günəş,*
*O Günəşin şəfəqindən güc alaraq işıqlanır yeni duyğu, yeni həvəs...*
*Bundan sonra səni səndə ovudacaq o Günəşin hərarəti,*
*Saflaşdırıb duruldacaq hər arzunu, hər istəyi, hər niyyəti.*
*Bundan sonra Xarıbülbül pardaqlansın, çiçəkləsin ürəyincə,*
*İsa bulaq hey çağlasın bundan sonra gərəyincə, görəyincə.*
*Səni sənə qaytardı o Haqqa bağlı ulu qüvvət, ulu qeyrət,*
*Bu qeyrətin qabağında diz çökübdü xəstə "millət", cılız "dövlət".*
*Bu da bizə bir dərs olsun, bir dərs oldu, gözüm nuru, Qarabağım,*
*Bundan belə qoy başlasın arzu dolu, ümid dolu yeni çağın.*
*Bəsdi daha qucaq açdıq, çörək verdik bəşəriyyət düşməninə,*
*Kökü-soyu haydan gələn hayla gedər, lənət bunların cəminə...*
*İçimizdə kök salmısdı, qan salmışdı illər boyu düşmən əli,*
*Havadarlar əli ilə üstümüzə uzanırdı tülkü dili, ilan dili.*
*Hər biri də yerləşmişdi ürəyimin şah damarı keçən yerdə,*

*Əlimizi, qolumuzu bağlamışdı Vətənimdə və hər yerdə.*
*Doğurdular, artırdılar tülkü kimi, siçan kimi qırx gündən bir,*
*İçimizi, çölümüzü qoxutmuşdu, iylətmişdi basmışdı kir.*
*"Bir az yana çəkil" decək haylaşaraq, birləşərək hürürdülər,*
*Bizi bizdə ovsunlayıb aldan-altdan işlərini görürdülər.*
*Üç yüz ildir qanımıza qan qatdılar bilə-bilə, görə-görə,*
*Üç yüz ildir başımızı aldatdılar şirin vədələr verə-verə.*
*"Bilmədilər" yalan ayaq tutar getməz, sona yetməz,*
*"Bilmədilər" təmiz torpaq hiylə ilə, kələk ilə bar yetirməz.*
*Çörəyimə, ürəyimə dönük çıxdı haqqa dönük çıxan "millət",*
*Haqqa dönük çıxanlarda olmayıbdı nə cəsarət, nə də qeyrət.*
*İndi düşüb ayaq altda rəzil olub yalmanırlar o qapıda, bu qapıda,*
*İndi daha üz döndərib şərəfsizdən yaxını "düşmən sapı da".*
*Qarabağım!!! Qarabağım!!! İftixarım, şərafətim, baş tacımsan!!*
*Azadlığım, ucalığım, enməzliyim, əbədilik amacımsan, əlacımsan.*
*Səndən ötrü qan tökmüşük tarix boyu nəsil-nəsil, fəsil-fəsil,*
*Səndən ötrü qan tökürük bu gün də biz şəhid-şəhid, əsil-əsil.*
*Havan təmiz, suyun təmiz, çörəyinin dadı təmiz, tamı təmiz,*
*Saf ilqarın, təmiz duyğun, təbiətin füsunkar ilhamın təmiz,*
*Onunçün də tarix boyu göz dağısan azğınlaşmış alçaqlara,*
*Onun-bunun bucağında, qucağında yallanan o yaltaqlara.*
*Yaltaqlığın, alçaqlığın həddi yoxdur, səddi yoxdur yaranışdan,*
*Yaltaqlığın, alçaqlığın gətirdiyi bəlalar da qoxuludur qarlı qışdan.*
*Ancaq Haqqın haqq gücü də gec eyləyir güc eyləyir el demişkən,*
*Bir güc var ki, Haqdan gəlib, Haqqı deyir həm yenilməz, həm döyüşkən:*
*Bu güc bütün məzlumların, qaçqınların, köçgünlərin haqqın tutan ulu türkdür,*
*Onun sözü, onun gücü Tanrı qədər çox ötkündür, çox böyükdür!*
*Bu dünyaya düzən üçün göndərilmiş enməz Tanrı ordusudur,*
*Ulu Türküm Haqq istəyən hər millətin ən müqəddəs arzusudur.*
*Mən də türkəm, bu düzəndə mənim də öz haqqım vardı, payım vardı.*

*Onunçün də Haqqa qənim olanların gözü kordur, qəlbi dardır.*
*Qarabağım, sən Haqq deyən bir millətin inadından doğulmusan,*
*Al bayraqlı, dan ulduzlu, nur hilallı bir səhərdən var olmusan.*
*İndi daha ruhun gülür, qəlbin gülür, gözün gülür, üzün gülür,*
*Görüşünə əli güllü, çiçək dolu dəstə-dəstə ellər gəlir, illər gəlir.*
*Üç yüz ildə görməmişdin sən bu qədər nə cahcəlal, nə təntənə,*
*Alqış deyir Yer də, Göy də taleyinə işıq saçan bu xoş günə.*
*Bu xoş günə qovuşmaqçün üç yüz ildir yol gəlirdi Azərbaycan*
*Bu xoş günə qovuşmağı gözləyirdi Şah İsmayıl - ulu xaqan...*

***

*Qarı düşmən, papağını (varsa əgər) qoy qabağa düşün bir az,*
*Yaltaqlıqla, alçaqlıqla nə bir dövlət, nə bir ölkə qurmaq olmaz.*
*Yaxşı deyib bəy babalar, xan babalar, hər sözü mərcan babalar:*
*"Oğrudan ev quran olmaz ev sahibin girdən salar, vardan salar".*
*Sən Allahın qarğımışı, oğrubaşı, "yazıq", "məzlum" quldurbaşı,*
*Hələ bir az amanın var, ətəyindən tök bu daşı, kəs savaşı,*
*Bir tikəyə qul eyləyib oynadırlar səni əldə, "can" deyirlər sənə dildə,*
*Onlar da çox gözəl bilir boğulassan, batacaqsan daşan seldə...*
*Yüz illərdir dadanmısan türk qanını içməyə sən şərbət kimi,*
*Talamısan havadarlar əli ilə türk yurdunu sərvət kimi.*
*İndi qalxıb ayağa, bil, haqq savaşlı Turan eli - Haqqın güclü vuran əli,*
*Silkələyib oturdur o öz yerində Haqqa dönük "millətləri", "ölkələri".*
*Baş kəsməklə, qan tökməklə yaşayarsan beşcə günlük, bir həftəlik,*
*Ondan sonra bükəcəklər dizlərini olacaqsan əldə ənik...*
*Tarixlərdən xəbərsizsən, çünki özün soysuz-köksüz tarixsizsən,*
*Tarixlərə yamaq olan zatı, kökü bilinməyən bir iblissən.*
*Qarı düşmən, yüz ildən bir öz əlinlə öz ölümünə qol çəkirsən,*
*Yüz ildən bir bəşəriyyət tarlasına fitnə səpib qan əkirsən.*
*Ancaq yenə abır hissi yoxdur səndə nə dünəndə, nə bu gündə*
*Sən çıxdığın, sən gəldiyin yerə kimi qovacağıq səni, düşmən,*

*Tökdüyün qan dənizində boğacağıq nəsilliklə səni həmən.*
*Bəlkə onda bəşəriyyət xilas oldu sənin kimi şər püskürən bir iblisdən...*

***

*Başı uca olan Vətən, ucalardan ucadasan dünəninlə, bu gününlə,*
*Bir azadlıq məktəbisən həm sağınla, həm solunla - hər yönünlə.*
*Onsuz da bir canda idik, indi də bir can olmuşuq - Qarabağlı,*
*Həm Göyçəli, Zəngəzurlu, İrəvanlı, Naxçıvanlı, Qardağlı...*
*Sənsiz bizim bir anımız, bir günümüz olmamışdır, ana Vətən,*
*Səndən belə bircə qor da aparanmaz min-min gələn, min-min gedən.*
*Səndən ötrü, Məmməd Araz demiş belə "biz hamımız ölə billik".*
*Səndən ötrü qəlbimizi, canımızı qıyma-qıyma bölə billik.*
*Qarı düşmən yaxşı görüb, yaxşı görür qüdrətini, cürətini,*
*Yaxşı bilir canındakı, qanındakı heyrətini, qeyrətini.*
*O heyrətdir, o qeyrətdir səni daim uca tutan, ana Vətən!..*
*O heyrətdən, o qeyrətdən doğulubdu sənin üçün şəhid düşən!..*
*Hər qayanda, hər daşında, çiçəyində, gülündə də şəhid qanı,*
*Bu dünyada "şəhid qanı tökülməyən ölkə hanı, vətən hanı"*
*Vətən şəhid qanı ilə yoğrulmuş bir torpaqdır ki, yox qiyməti,*
*Bu qiymətin qiymətidir mərd igidlər, şanlı oğullar qeyrəti*

***

*Azərbaycan, sən analar anasısan, Qarabağ da balan sənin,*
*Öz balana qovuşsan da, bilirəm ki, qövr eyləyir yaran sənin.*
*Zəngəzurun, Göyçə gölün, İrəvanın... yol gözləyir azadlıqçün,*
*Duyğuları oyatmalı, İlkininə qayıtmalı, olmalısan vahid-bütün.*
*Buna sənin cəsarətin, ləyaqətin, inamın da çatır, Vətən!*
*Bütöv olsan, vahid olsan, çəkinəcək, susacaqdır yoldan ötən...*
*Sən dünyaya Xətailər, Nadirləri bağışlayan məmləkətsən,*
*Bütün Şərqdə ilk azadlıq bayrağını qaldıran da, axı, sənsən,*
*Cümhuriyyət havasını sən daddırdın bütün Şərqə, bütün Qərbə,*
*Ətalətə, mütiliyə, köləliyə sən çalmısan ilkin qılınc, ilkin zərbə.*
*Bundan sonra mürgü vurub Haqq yolunda ləngiməyə haqqın yoxdur,*

*Onu bil ki, bu kəhkəşan yollarında sən dayansan,*
*Yenə quduz köpəklərin dişlərində parça-parça olacaqsan.*
*Ayaq üstə qalmaq üçün hər imkanın, hər qüdrətin yetər... çoxdur.*
*Bayrağını uca qaldır, ana Vətən, indi meydan, söz sənindir,*
*Sən Tanrıdan yaranmısan Tanrı köklü bütün Turan Vətənindir!..*
*Bütün tarix sədlərini əbədilik qırmaq üçün, enmək üçün,*
*"Vətəninin sərhədinə, son həddinə, son səddinə dönmək üçün,*
*Zaman döyür qapımızı,*
*yaman döyür qapımızı,*
*yaman döyür qapımızı!!!".*

***25-29.10.2020***

## TURAN QALXIR AYAĞA

*Yüksək Türk! Sənin yüksəkliyinin hüdudu yoxdur.*
***Mustafa Kamal Atatürk***

*Mən Turan şairiyəm!..*
*Həqiqətin aşiqi,*
*Zəfərin dan yeriyəm!..*

*Mən Turan şairiyəm!..*
*Tanrının gur işığı,*
*Cənnətin Kövsəriyəm!..*

*Közüm köz olub mənim.*
*Sözüm söz olub mənim,*
*Çağlayan bir türküyəm...*

*Tarixlər yaşıdıyam,*
*Köküm çox dərindədir...*
*Onuncün də diriyəm.*

*Dünyası mənə ilk ev,*
*Göyü də qübbəm olan*
*Kainatın piriyəm.*

*Azadlıq bayraqdarı,*
*Köləliyin qənimi,*
*Bəşəriyyət hürrüyəm...*

*Mən Turan şairiyəm!..*
*Mən Turan şairiyəm!..*

***

*Əsr təlatümdədir, çırpınır öz içində,*
*Turan qalxır ayağa indi başqa biçimdə.*
*Yerdən, Göydən müjdə var ərənlər ərəninə:*
*"Bəşər səcdə edəcək Turançılıq dininə".*
*Bu din dinlər dinidir, gəlibdir yaranışdan,*
*Bu dinin hər ayəsi doğulubdur savaşdan.*
*İnsan, insanlıq üçün savaşda olub hər an,*
*Ancaq bircə yol belə tökülməyib nahaq qan.*
*Bu dinin peyğəmbəri Alp Ər Tonqa Xaqandır,*
*Xaqanların xaqanı, Cahan içrə Cahandır.*
*O, Allahı bir görüb, Göyə Tanrı deyibdir.*
*Əyninə Tanrı rəmzi göy libasın geyibdir.*
*Bilibdi ki, göy rəngdə bir yaratmaq eşqi var,*
*Yaradanın eşqindən yaranmışda nəsə var.*
*İnsan yaranışından yaradanın quludur,*
*Onunçün də Yaradan ululardan uludur.*
*Bu ulu qüvvət verdi türkə hörmət, ehtiram,*
*Türkü etdi dünyaya sahibi-natiq Quran.*
*Bir əliylə endirən, bir əliylə qaldıran*
*Türkün gücü edibdi şərin mülkünü viran.*
*Tanrı türkü göndərib ədalətin rəmzitək,*
*Dünyaya düzən gəlsin türkün əliylə, gerçək.*
*Min illərdir türk oğlu Şərqin, Qərbin ağası,*
*Ulu türksüz olmayıb dünyanın toyu, yası.*
*Bütün başlar, başçılar türkə səcdəyə gəlib,*
*Türk də kimin kimliyin çox ustalıqla bilib.*
*Bəlkə elə bununçün Məhəmməd Mustafadan*
*Hökm gəldi bəşərə:*
*"Türkə asi olmayın", söyləyibdi Yaradan.*
*Harda bir türk yaşarsa, demək, orda haqq yaşar,*
*Haqq olan yerdə isə ədalət coşub daşar.*

*Göy Türk imperatoru böyük Bilgə Kağanın*
*Fərmanı dolaşırdı dünyanın dörd bir yanın:*
*"Göydən göy çökmədikcə, Yerdən Yer batmadıqca*
*Türk törəsi pozulmaz, türk oğlu yatmadıqca".*
*Türkə çağırış etdi ərənlər əri Kağan:*
*"Ey türk,özünə qayıt, sən özünə qayıtsan,*
*Daha ulu,möhtəşəm, daha böyük olassan"*
*Türk özünə qayıdıb elə yarandığından,*
*Qoruyubdu bəşəri ölümdən,qırğın,qandan.*
*On altı imperiyanın, iyirmi dövlətin*
*Qurucusu türk olub, daha cəsur və mətin.*
*Tarix qansız, amansız, tarix qəddar, baş kəsən,*
*Bəzən İblisə uyub fitnə toxumu əkən.*
*Ən qorxlu çağında, Çaldıran torpağında*
*Qardaş qanı tökdürüb türkün türk ocağında.*
*Tarixin dönəmində çox iblislər doğulub,*
*Türkü türkə saldıran bədxahlar da çox olub.*
*Lakin türk öz türklüyün qoruyub zaman-zaman,*
*Ona dönük çıxana vaxtında uddurub qan.*
*Varaqla bir tarixi, türkə dönük çıxanlar,*
*Hər əsrdə türk olan türkün öz öndəri var.*
*Türkün şanlı bayrağı, bayraqdarı Atatürk*
*Söylədi:*
*"Türkün dostu dünyada türkdür elə ən böyük".*
*Bir ucu Gündoğandan,bir ucu Günbatandan,*
*Halay qurub hay vuran türkdür gəlib bir qandan.*
*Kükrəyib çağlayanda atının kişnərtisi,*
*Göylər də vəcdə gəlib ucaldardı bu səsi.*
*İndi bu səs səs olan "Bayraqdar"ın səsidir,*
*Türkün türkə əvəzsiz ən böyük töhfəsidir.*
*Türkün "Qızıl alması" qalxanda göy üzünə,*

*Bir barış gətirəcək dünyanın hər üzünə.*
*Bu gün türkü yetirən, şərəf, şöhrət və şana*
*Türk oğlu türk Ərdoğan daha sığmır Cahana.*
*O dönməz iradəli, məğrur, uca, yenilməz,*
*Vulkan kimi möhtəşəm, dağlar kimi əyilməz,*
*Türkün türk qüdrətini qaytardı öz-özünə.*
*Türkə kəc baxanların bıçaq sancdı gözünə.*
*Onun cəsarətində Yerin, Göyün gücü var,*
*Onun böyük amalı TURAN adlı bir diyar.*
*O bir Tanrı gücüylə qaldırmaqla ayağa*
*"Türkəm" deyən hər kəsi döndərdi ulu dağa.*
*Dağlar dağa qovuşub yandırırlar çırağı,*
*Qaldırırlar göylərə Turan adlı bayrağı.*
*O bayrağın önündə dayanıb məğrur-məğrur*
*Mənim Azərbaycanım, baxışında min qürur.*
*Oddan keçib od olub od daşıyan millətim,*
*Qalib, zəfər adıyla dünya gəzir şöhrətin.*
*Bu şöhrəti şöhrətə mindirən türk qardaşım,*
*Qoy həmişə ucalsın göylərə məğrur başın.*
*İndi əlli milyonuq türk toplumu içində,*
*Əlli milyonluq ordu yerin, göyün gücündə.*
*Qazax, qırğız, özbəyin azadlıq amalına*
*Qoşulub türkmən, uyğur bir Turan cəlalına...*
*...Turan qalxır ayağa, başlayır Türk erası,*
*Bundan sonra bitəcək "böyüklərin" qovğası.*
*Çin səddi yaxşı bilir türkün böyüklüyünü,*
*Bilir türklə açılıb dünyanın hər düyünü.*
*Daha kimsə kimsəyə "mənəm, "mən" deyə bilməz,*
*Türkün həddi olmadan özlərin öyə bilməz.*
*Onda bəşər biləcək yaşamağın dadını,*
*Onda hər kəs biləcək öz nəslinin adını.*



*Biləcəklər dünyada, sən demə, həqiqət var,*
*İnsanı insan edən ədalət, ləyaqət var.*
*Çəkiləcək ayağı "tülkü siyasilərin",*
*Hər kəs Haqqın önündə tapacaqdır öz yerin.*
*Dünya türk işığıyla süslənəcək günbəgün,*
*Başlanacaq dünyada yeni mizan, yeni gün.*
*O günün hərarəti qızdıracaq hər kəsi,*
*Tutacaqdır dünyanı insanlığın haqq səsi.*

*Turan qalxır ayağa, sayalı olsun adı,*
*Kəsiləcək göz yaşı-insanlığın fəryadı.*
*Turan qalxır ayağa, bunu Yer, Göy də bilir,*
*Dünyaya yeni nəfəs, dünyaya işıq gəlir.*

*Turan qalxır ayağa!...*
*Dünyaya Turan gəlir!...*
*Dünyaya iman gəlir!...*
*Dünyanı quran gəlir!...*

***8-9.06.2023-cü il***

## SÖZÜNDƏN TORPAQ ƏTRİ GƏLƏN ŞAİR

***Dostum Xanəli Kərimliyə ithaf edirəm***

*Sözə sığal verib, sözə təravət,*
*Sözün qüdrətini çəkibdir önə.*
*Könüllər oxşayan söz məşəlinin,*
*Qoymayıb alovu, atəşi sönə.*

*Söz onun vicdanı, tanrı müjdəsi,*
*Qaynayıb cağlayan bulaq kimidir.*
*Qəlbində alışan misralarının,*
*Odu, hərarəti Vətən himnidir.*

*"Dərələr boyunca axan bulaqlar",*
*Dəli dağ çayları yol yoldaşıdır.*
*Sevib-oxşadığı güllər, çiçəklər,*
*Qəlbinin bəzəyi, söz naxışıdır.*

*Ulu Turan onun ulu vətəni,*
*Döyüş bayrağını qəlbindən asıb.*
*Tanrının törəsi olan xalqının,*
*Hünər dastanını yenidən yazıb.*

*"Payız duğuları", "Ay işığında",*
*"Qarabağnamə"si söz xəsinəsi.*
*Neçə şeirləri, poemaları,*
*Şairin xalqına sənət töhfəsi.*

*Torpağın ətrini qatıb şeirinə,*
*Güc alıb Salvartı, Toğluqayadan.*
*Vətəndaş olmağı, yurddaş olmağı,*
*Ona bəxş edibdir Uca Yaradan...*

**Rövşən Hüseynov**
***17.04.2023.***

## QALX AYAĞA, TURAN GƏLİR

***Bu şeir Xanəli Kərimlinin "Turan qalxır ayağa" lirik poemasının təsirindən yaranıb***

Qalx ayağa ulu millət
Ay ulduzlu Turan, gəlir.
Yer üzündə ədaləti
Bərpa edən, quran, gəlir.

Bir igidi sağındadı,
Bir igidi solundadı.
Onun gücü Ərdoğanın,
İlhamımın qolundadı.

Qalx ayağa ulu millət,
Dünyaya din, iman gəlir.
Yaradandan alıb qüvvət,
Yer üzünə "Quran" gəlir.

**Rövşən Hüseynov**
***29 oktyabr 2023-cü il***

## MƏMMƏD ARAZ MİRASININ DAVAMÇISI EL ŞAİRİ

***Xanəli Kərimliyə iltifat edilir…***

*Kimdir o, bizlərin şairi adam,*
*Nur salan aləmə, işığa çatan?*

*Deyirəm! vəhiylə o hikmət olur,*
*Yazdığı hər misra dastana dolur.*

*“Böyük Turan Cəddidir", hördüyü divar,*
*Ustası Xanəlidir - onun hökmü var!*

*Qılıncı qüdrətli daş qazıları,*
*Qələbə əzmində baş yazıları.*

*Sehirli şerində qardaş söhbəti,*
*Bax buna görədir elin hörməti.*

*Ocağı alovlu qəlbində çağlar,*
*Dediyi hər sözlə insanı bağlar.*

*Qəlbində ülfəti, ruhunda hünər,*
*Ruhuyla ülfəti eyni döyünər.*

*Onunla ünsiyyət alidə niyyət,*
*Ondan xeyir görür bütün cəmiyyət,*

*Dedim, dahi şairdən bir əşar yazım,*
*Qoy aləmdən gəlsin səsim, avazım.*

*O andaca yazar oldu qələmim.*
*Çün böyük şairdəndir bəhsi əməlim.*

**Çingiz Süleymanov**
***05.05.2023-cü il***

## SÖZ-SƏNƏT DÜNYASININ FATEHİ

*Sirr tək gəldim dünyaya,*
*Sirr tək çıxıb gedirəm.*
*Cismim torpaq tək ölü,*
*Ruhum ilə diriyəm.*

– deyən Xanəli Kərimli söz-sənət dünyamızın fatehlərindən biridir. Milli ziyalılıq, mənəvi bütövlük, halallıq, təmiz ad, zəhmət, istedad, yüksək insanı keyfiyyət, məğrurluq, haqq yolçusu olmaq onun həyat tərzidir, bir sözlə O, ehtişamlı şairdir. Şairin dediyi kimi "Şair Tanrı ruhudursa, söz də şairin ruhudur". Xanəli Kərimli bu ruhla zülmətin bağrını yarmağı, onu qorunda əritməyi bacarır. Bu ruhla o, könlündəki fəzilətləri oxucusu ilə bölüşür. Onlara halallığı haramdan, haqqı nahaqdan, şeytanı mələkdən, qürurluğu lovğa və mənəmlikdən ayırmağı və sevməyi məsləhət görür. Ləyaqəti, vüqarı, məsləyi isə özünün əzəli və əbədi yol yoldadaşı hesab edir. Onun sözünün də, avazının da, qanının da rəngi od rəngidir. Vətən onun daxilində püskürən nurla güc alır, vətən onun şeirlərində ucalır- desək yanılmarıq. Çünki, Xanəli Kərimli qəlbi vətən üçün daim yanan, alovlanan, misraları ilə döyüşən bir şairdir. O, "sözünün, qələminin və dözümünün şəhidi" olmağı ilə qürür duyur və yazır:

*Mənim dostum, qardaşım şəhidləşib ucalıb,*
*Cəsədi torpaq altda, ruhu haqdan güc alıb.*
*Mən hələ qələmimin, sözümün, şəhidiyəm,*
*Düşmən əhatəsində dözümün şəhidiyəm.*
*Bu torpağın rəngi var, mənim tale yazımda,*
*Onuncün od rənglidir, sözüm də, avazım da.*

Bəli, kim Xanəli Kərimlini oxusa, qəlbinin dərinliklərinə nüfus etsə onun ilhamından doğan hisslərin, misraların insanı necə ağuşuna alıb ovsunladığının şahidi olar. Bu duyğulara şairin qələmə aldığı təbiət şeirlərində daha çox rast gəlirik. Şairin könül dünyasına səyahət etdikcə onun qəlbimizə təravət gətirən misralarının sehrinə düşür, özümüzü bu gözəl təbiətin qoynunda hiss edirik. "Payız duyğuları" şeirində onun təbiətə vurduğu naxışların şehrindən çıxa bilmirik. Şair "Payız duyğuları" şeirində yazır:

*Təbiət könülsüz köçən qız kimi,*
*Qəlbin ilk eşqini ata bilməyir.*
*Təpədən-dırnağa qızıllaşsa da,*
*Uyuyub payızla yata bilməyir.*

*Yığılıb meşədən əl-ayaq izi,*
*Ocaq daşları da qırovlaşıbdı.*
*Dünya yola salan qoca palıdın,*
*Gözü yolda qalıb, tənhalaşıbdı.*

Şairin vurğunu olan dostuna həsr etdiy "Bir yaz duyğusu" şeri də oxucu qəlbini vəcdə gətirir, onu baharın ecazkar mənzərəsini seyr etməyə çağırır. Şeirin qısa məzmunu belədir;- Yurdumuza bahar gəlib. Quşlar daş üstünə, kol qanadına qonub çırpınırlar. Lalə, nərgiz, dağ çiçəkləri hər tərəfi öz naxışıyla bəzəyib. Belə vaxtda dodağı süd qoxan körpə bulaqlar da yavaş-yavaş dil düyününü açır. Təbiətin bu əsrarəngiz gözəlliyi insanı heyran edir:

*Gah duman çəkilir, gah yağış yağır,*
*Günəş də arabir oxşayır yeri.*
*Al-əlvan rəngilə göy qurşağı da,*
*Bürüyür şəfəqə süslü çölləri.*

*Bənövşə sığınıb kolun dibinə,*
*Şehli baxışlarla yol çəkir gözü.*
*Bir vüsal eşqilə alışıb yanır,*
*Məst edib ətrilə çəməni, düzü.*

Xanəli Kərimlinin " Altmış il", " Bir canda qoruyaq", "Nə göyərdi, nə ağardı", "Dünyaya" adlı şeirlərini oxuyanda onun həyat fəlsəfəsinin nə qədər böyük və zəngin olmasına heyranlığını gizlədə bilmirsən. Şair bu poetik deyimlərində oxucusunu yenişli-yoxuşlu, acılı-şirinli, yazı payız, payızı qış olan dünyanın hər üzü ilə tanış etməyə çalışır. İstəyir ki, dərə keçib, dağlar aşan, diz yoran, dişi, dırnağı ilə yuva salıb, yurd quran insanların sabaha saldığı cığır, iz heç zaman toza-torpağa dönməsin. Ömrünü haqq üçün girov qoyan insanlar bu dünyadan izsiz-əsərsiz köçməsin. Yaşadığı illər qəcimədaş oyununa dönməsin, arzuları daşa bükülüb bələnməsin. Kirpiyi ilə odluqdan od götürən, qaranlıqdan pay ummamağa şairin bu fani dünyaya cavabı da məntiqsiz qalmır:

*Onunçün mənimlə düz yola get, sən,*
*Bilmirəm nəyimiz şərikdir axı?!*
*Sən mənsən, mən sənəm-bir canıq elə,*
*Bir canda qoruyaq gələn sabahı.*

Dərdin böyüyünü, zamanın yükünü özü ilə haqq dünyaya aparan Mirzə Cəlilə həsr etdiyi "Heykələ Xitab", xalqının əhli qələmi və ələmi olan, kədərini, dərdini çəkən, iblisi xudpəsənd insanların könlündə axtaran bəşər şairi Hüseyn Cavid haqqnda yazdığı "Cavid Əfəndi", Hüseyn Cavidin əbədiyyət sirdaşı olan qızı Turan xanım haqqında nəzmə çəkdiyi "Yüksəl", ustad Şəhriyarla bağlı qələmə aldığı "Aparmağa", "Toğluqayanın Savalana məktubu" adlı

şeirlərində vətənpərvərlik, vətəndaşlıq duyğuları, torpağa, elə məhəbbət, qan qoxuyan zamanın ağrı-acılarına mətanətlə, dözümlə sinə gərmək kimi kövrəldici hisslər oxucusuna çox mətləbləri açır. Şair xalqının yolunda sönməz məşələ dönən, illərlə qapıları bağlı qalan, haqqa qovuşmaq üçün həyatını, ömrünü tanrının dərgahına bağışlayan, öz içindən yeyilən, güllələnən, əriyən, böhtanlara məruz qalan, xalqının keçmişini, dünənini özünə tanıtdıran bu məğrur simalarla öyünməyi və onları oxucularına da danışmağı özünün vətəndaşlıq borcu hesab edir. Bu simalara-dahilərə, fatehlərə özünün hörmət və ehtiramını bildirir "Cavid Əfəndi" adlı şerində yazır.

*Bəlkə də bu vətənin,*
*Satılmış torpaqları.*
*O keçmiş xoş cağları,*
*Qayıdacaq nə vaxtsa.*
*Satılmış vicdanımız,*
*Şərəfimiz, şanımız.*
*Satılmış əxlaqımız,*
*Qayıtmayacq.*
*Füzulilərə,*
*Sabirlərə,*
*Cavidlərə,*
*Ruhları təhqir olmuş*
*O bədbəxt dahilərə*
*Hörmət, ehtiram yoxsa!!*



Xanəli Kərimli də istəklərini bu dahilərin, söz fatehlərinin arzu və istəklərinin sırasında görür. Onların arzu və istəklərinin haqqa və həqiqətə qovuşması üçün özündə yenilməz bir güc, bir həmdəm axtarır. O bu gücü ustad şairimiz Şəhriyara həsr etdiyi "Aparmağa" adlı şeirində tapır:

*Xanəli köksündə min bir yara var,*
*Dərman üçün nə təbib, nə də yara var.*
*Sənin dərdinə bircə çarə var*
*Şəhriyar "ruhunu" vur aparmağa.*

Bəli, Xanəli Kərimli həyatda olduğu kimi, şeirlərində də ciddidir. O, az sözlə çox mətləblər ifadə etməyi bacarır. Şeirlərində axıcılıq, obrazlılıq, məzmun dərinliyi oxucusunu razı salır, həyacanlandırır. Əsərdəki ideyanı mənimsəməyə məcbur edir. Misraları səmimidir., iştah açan duz kimidir. Şair yaxşı bilir ki, bu fani dünyada hər şey gəldi-gedərdi. Söz isə qalandır. Çünki yaxşı söz qızıldan da qiymətlidir. Elə isə şairi oxumağa, bu qiymətli sərvəti yiğmağa tələsin!

**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**
***06.06.2023***

# MUXTAR QASIMZADƏ

## YEDDİNCİ QİTƏ



*Yeddi rəng,*
*Yeddi səs,*
*Yeddi gün...*
*Hamısı yeddi,*
*Hamısı düzgün*
*Bu lap aləm ki...*
*-Bəs yeddinci qitə hanı-*
*soruşsanız, deyərəm ki,*
*sualınız istəyimdi.*
*Altı qitənin*
*Dərdini çəkib*
*Yumağa dönən,*
*Yumruğa dönən*
*Yeddinci qitə*
*Köksümdə çarpan*
*Bu Ürəyimdi...*

## GƏMİQAYA
### *(Nuh əhvalatı)*
***

*Yeri, göyü, asimanı,*
*dəryaları oxuyanlar.*
*Ulduzları, kəhkəşanı,*
*yuxuları oxuyanlar*
*dolanırdı yer üzündə.*
*Dərgahına fal açanlar,*
*Allahına əl açanlar,*
*sabahına yol açanlar*
*dolanırdı yer üzündə.*
*Günəş niyə doğdu görən,*
*şimşək niyə çaxdı görən,*
*bulud niyə yağdı görən?!*
*Adamların zəkasında*
*düşüncələr sayrışırdı.*
*Gələcəkdən, olacaqdan*
*Həzrəti Nuh danışırdı.*
*Elə bil ki, özü deyil,*
*içində ruh danışırdı:*
*Yer üzünün bu üzünü*
*su alacaq.*
*Bizə böyük gəmi gərək*
*nicatımız o olacaq!*
*Dinləyənlər şəkk elədi,*
*bəziləri qəşş elədi.*
*Aram-aram dağıldılar*
*ancaq Nuha güvənənlər,*
*ona iman gətirənlər*
*dövrəsinə yığıldılar*

***

*Uzunluğu yüz əlliydi,*
*qayım-ətək.*
*Eni altmış,*
*hündürlüyü otuz dirsək.*
*Tökdü bütün xəracını,*
*kəsdi xurma ağacını*
*o dərmədən nəfəsini,*
*hazırlatdı gəmisini.*
*Gəmisinə toplamışdı*
*hər canlıdan,*
*bir də yetmiş altı adam.*

***

*Dəclə, Fərat sahilləri*
*gərnəşdilər.*
*Çaylar coşub birləşdilər.*
*Silkələnib*
*qalxdı gəmi su üzünə.*
*Mələklər dua oxudu*
*o üzünə, bu üzünə...*
*Yer partladı,*
*Gün çatladı,*
*buz qatları sındı Ərzin.*
*O zaman ki,*
*tərəddüdlər qucağında,*
*insan Allah sorağında*
*sürünürdü dizin-dizin.*
*Təndirlərin küfləsindən*
*su çağladı.*
*Yer ağladı, göy ağladı.*
*On üç fəsil*

*yanar-yanar sellər daşdı.*
*Dünyamızın bu üzünü*
*sular tutdu,*
*dağlar mavi dəryalarla*
*qucaqlaşdı.*
*Zəmiləri*
*su altında tel gətirdi*
*boylu-boylu qayaları*
*soyuq-soyuq əl gətirdi.*
*İnsan oğlu qəribsədi,*
*bir yanıqlı dil gətirdi:*
*"Dəryada gəmim qaldı,*
*biçmədim zəmim qaldı.*
*Məni Tanrım saxladı*
*o yanda kimim qaldı..."*
*Günəşə yalvaran,*
*Aya yalvaran*
*Ulduza yalvaran,*
*Suya yalvaran*
*əl açıb göylərə*
*dözür, dözürdü.*
*Tanrı sevimlisi,*
*Nuhun gəmisi*
*suların üzündə*
*üzür, üzürdü...*
*Gün keçdi, sıxıldı*
*təngidi tufan.*
*Axırda darıxdı,*
*səngidi tufan.*
*Qalxıb şükr etdilər*
*onlar Allaha.*

*Dalğalar gəmini*
*yormadı daha...*
*Ağrıya dəydi, döndü,*
*Kəmkiyə dəydi döndü,*
*Haçadağa süründü.*
*Batdı çənə, dumana*
*can atdı gündoğana.*
*Göyləndi güldü yazı*
*qazlandı Qafaqazı -*
*Gəmiqaya göründü!..*
*Sular tərk etmişdi*
*azacıq dağı.*
*Boy verdi,*
*boyuna Qapıcıq dağı*
*Bərə-qayalığa*
*yan aldı gəmi,*
*Bütün canlılardan*
*boşaldı gəmi...*
*Yer üzünün göy üzünə*
*baxan yeri oldu ora.*
*Nuhçuların quraqlığa*
*çıxan yeri oldu ora.*
*Ləpələri çəkildikcə*
*təpələri görünürdü.*
*Adamların qaya üstə*
*ləpirləri görünürdü.*
*Kəlmə-kəlmə toxudular,*
*nəğmə-nəğmə oxudular:*
*"Səndir-səndir su yatdı,*
*tufan bitdi, ur batdı,*
*Bu dağda bir elat var,*

*Nuh andı Urdubatdı".*
*Cığır açıb, daş oydular,*
*Yurdlarını qura-qura*
*ora-bura ad qoydular:*
*Ayıboğan, Çadır daşı,*
*Nəsir dağı, Xıdır daşı,*
*Palantökən, Qaranqucaq,*
*Tillək, Göydağ.*
*Qapıcığın gen sinəsi*
*ad qazandı: "Gəmiqaya."*
*Nuh babamın məskənitək*
*məşəl kimi*
*alovlandı Gəmiqaya!..*

***

*Ayağım, əlim olsun*
*Heşanım, vəlim olsun.*
*Yeri ha, dizim, yeri*
*Bir cüt öküzüm, yeri.*
*...Əkirdilər, biçirdilər,*
*yeyirdilər, içirdilər.*
*Sənətkarın tişəsindən*
*iz düşürdü qara daşa.*
*Nəğməkarın ürəyindən,*
*söz düşürdü qara daşa.*
*Bu daşların, qayaların*
*sayı sonsuz.*
*Eraların tarixində*
*payı sonsuz...*
*O yay çəkən səyyada bax*
*bərə daşda sən halı gör.*
*Bəri daşda sinəsi dağ*

*dərdə düçar maralı gör.*
*Gözlərindən yaşdı gələn*
*sanki deyir yaralıyam.*
*“Aman ovçu, vurma məni*
*mən bu dağın maralıyam”.*
*İrəliyə, geriyə bax,*
*qayalıqda “sürüyə” bax.*
*Dağ qoçunun*
*ox şəkilli buynuzları,*
*meşə salıb daş üstündə.*
*O zamandan bu zamana*
*qaya qalıb-*
*“beşqanadlı” quş üstündə!*
*Sinəsində*
*“kosmoqoniq” xəritələr,*
*yallı gedən ilk insanlar,*
*başlarında*
*çoxşaxəli “antennalar”...*

***

*Qədim, doğma Qobustanın*
*atasıdır, anasıdır*
*Gəmiqaya.*
*Nuh babamın nicat yeri,*
*xilasıdır Gəmiqaya.*
*Doğulanlar,*
*yaşayanlar oldu burda.*
*Dünyasını*
*dəyişənlər oldu burda.*
*Qəbirləndi, kəpirləndi*
*məzarıstan saldı burda.*
*Uzaqdaydı-*

*su altında uyuyurdu*
*hələ Fərat sahilləri.*
*Ancaq burda-*
*təzə yurdda*
*gündən-günə*
*çoxalırdı Nuh elləri...*
*İllər ötdü, ömür bitdi*
*Nuh babamız bu dünyadan*
*o dünyaya köçüb getdi.*
*Xan Arazın sahilində,*
*Nuh elində qəbir bitdi.*
*“Adını ozan ağlar,*
*dərdini yazan ağlar.*
*Burda Nuhum ölübdü,*
*qəbrini qazan ağlar...”*
*Ovundular, oxşandılar,*
*Yavaş-yavaş*
*aranlara daşındılar.*
*Törəndilər qız-gəlini,*
*mərd ərəni,*
*Yurd salanı, ad verəni:*
*“Nuhəcir”i, “Nuhdaban”ı,*
*“Nuhərəm”i...*
*Sal yazıda, gil yazıda,*
*“Avesta”da, “Bilqamıs”da*
*sətirləndi,*
*əsilləndi qaya-qalam.*
*Daş üstündə möhürləndi,*
*şəkilləndi qaya-qalam...*
*O zirvəni, o kürsünü*
*həqiqətin səsi bilin.*

*Dörd min metr ucalıqdan*
*tarixlərə hörmət deyir*
*Gəmiqaya!*
*Qoy eşitsin bütün dünya:*
*Bura Nuhun vətənidir*
*Nuhçıxandır-Naxçıvandır,*
*Diqqət, diqqət,*
*Diqqət deyir Gəmiqaya!*

## BƏKİR OĞLU ƏCƏMİ
### *(Lirik poema)*

*O əllərin nə qəribə möcüzə,*
*O əllərin nə qəribə sehr imiş.*
*Yaratdığın neçə məğrur abidə*
*Azərbaycan torpağına mehr imiş.*

*Ey Əcəmi, hər baxışın öncədi,*
*Hər naxışın daşda bitən qönçədi.*
*Yaxın gəldim, baxım hələ necədi,*
*Toxunanda gördüm təzə-tər imiş.*

*Hər türbəni gəzdim dönə-dönə mən,*
*Qüdrətinə sevgi deyim, ya nə mən?!*
*Sehrləndim öz yerimdə yenə mən,*
*kaşıların başdan-başa şeir imiş...*

***

*Keçmiş zamanda,*
*Nuhçıxan adlı*
*gözəl məkanda*
*müdrik, nurani*
*memar yaşarmış.*
*Onun ürəyi*
*xan Araz kimi*
*coşub, daşarmış.*
*Adamlar onu*
*çox sevərmişlər.*
*Hörmət, ehtiram*
*göstərərmişlər.*



*Kimiymiş görən*
*o bəxtəvər kəs?*
*Bilmək istəsə*
*yaxına gəlsin,*
*dinləsin hər kəs.*
*Söyləyək ona,*
*qəlbən vurulsun*
*Ata Bəkirin*
*memar oğluna...*

***

*Bəkir zəkalı*
*bir insan idi.*
*Yaradan əli*
*qızıldan idi.*
*Şanı, şöhrəti*
*ellər aşmışdı.*

*Ancaq qocalmış,*
*ahıllaşmışdı.*
*Oğlu Əcəmi*
*hələ uşaqdı.*
*Ata bilirdi*
*yalnız Əcəmi*
*ona dayaqdı.*
*Bir gün çıxdılar*
*eyvana qoşa.*
*Dönüb baxdılar*
*hər yana qoşa.*
*Zərli eyvanın*
*açıq hər yeri.*
*Onlar buradan*
*seyr elədilər*
*doğma şəhəri.*
*Baxıb gördülər*
*hər yan yaraşıq.*
*Memar Bəkirin*
*üzündə işıq*
*boylandı qəsrə,*
*özü tikdiyi*
*neçə cameyə.*
*Dönüb söylədi*
*o, Əcəmiyə:*
*Bir gün köçərəm*
*əməlim qalar.*
*Göy minarələr-*
*heykəlim olar.*
*Hərbiş körpülər,*
*o dörd-beş qala,*

*istəməzdim heç*
*özümdən sonra*
*yarımçıq qala,*
*nisgilim ola...*
*Atanın sözü,*
*istəyi vardı.*
*Bunu oğluna*
*hey arzulardı.*
*Daş sənətini*
*yaşatsın deyə,*
*şan-şöhrətini*
*yaşatsın deyə!*

***

*Həyət-bacada*
*dünənə kimi,*
*Palçıqdan "evlər"*
*quran Əcəmi*
*on beş yaşına*
*çatmışdı artıq.*
*Ata sözündən*
*düşdü qəlbinə*
*sanki bir işıq.*
*Mavi gözləri*
*Ümidlə doldu,*
*dikəldi başı.*
*Göy qurşağıtək*
*çatıldı qaşı.*
*Qoşa çıxdılar*
*sabahdan yola.*
*Müəllim oldu*
*ata oğula.*

***

*O vaxtdan aylar,*
*illər keçmişdi.*
*Bəkir dünyadan*
*çoxdan köçmüşdü.*
*Oğlu Əcəmi*
*Neçə türbəyə*
*Naxış salmışdı.*
*Atanın yolu*
*bir memar kimi*
*ona qalmışdı.*

***

*Doğma məkanda-*
*Nəqşicahanda*
*hələ o zaman,*
*məşhur pəhləvan*
*Üzeyir oğlu*
*Yusif varıydı.*
*El sərkərdəsi,*
*elin yarıydı.*
*Qoç oğullara*
*öndər idi o.*
*Qoçüstü adlı*
*Kiçik Qalaya*
*sərdar idi o.*
*Xələfi üçün*
*şan olsun deyə,*
*Türk əcdadına,*
*gözəl abidə*
*ucalsın deyə,-*
*elçi göndərdi,*

*sifariş verdi*
*gənc Əcəmiyə.*
*...Qatdı gecəni*
*gündüzə memar.*
*Durdu zamanla,*
*üz-üzə memar.*
*Qürub bilmədi,*
*dan üzü hördü.*
*Ay nuru içdi,*
*gün üzü hördü.*
*Deyilən vaxta*
*işini gördü.*
*Məğrur türbənin*
*qoydu başına*
*dərviş papağı.*
*Qızıl suyuna*
*çəkdi qurşağı.*
*Sirlə suvadı*
*o, səkkiz tağı.*
*Zərə tutuldu*
*səmavi türbə.*
*Hikmətlə doldu*
*mavi kitabə.*
*Yazdı üzünə*
*Memar Hədisi.*
*Beləcə gəldi*
*bu yer üzünə*
*Üzeyir oğlu*
*Yusif türbəsi.*

***

*Artıq Əcəmi*
*məşhurlaşmışdı.*
*Onun şöhrəti*
*ellər aşmışdı:*
*Bərdə, Səmərqənd,*
*Marağa, Dərbənd,*
*bilmədi sərhəd*
*Əcəmi eşqi.*
*Nur kimi daşdı,*
*axdı, qarışdı.*
*Səs verdi ona,*
*söz verdi ona*
*Nizami eşqi.*
*Qalmışdı heyran,*
*ona çox xaqan.*
*Eldəniz oğlu*
*şah Qızıl Arslan.*
*Böyük Məhəmməd-*
*ünlü Atabəy*
*Cahan Pəhləvan...*
*Bir gün dolaşdı*
*bütün şəhəri*
*xəbər quş kimi.*
*Elçi göndərib*
*Cahan Pəhləvan,*
*Deyir saraya*
*gəlsin Əcəmi.*

***

*Gənc Əcəminin*
*yeri başqaydı.*
*Şaha bərabər,*

*günəşə taydı.*
*Bəzəndi saray*
*büsbütün əlvan.*
*Əyan-əşrəflə*
*qəbul eylədi*
*Bəkir oğlunu*
*Cahan Pəhləvan.*
*Söylədi ona:*
*-Ey böyük ustad,*
*qoy Tanrı versin*
*Sənə güc, qanad,*
*bir türbə yarat,-*
*Ana türbəsi.*
*Üzündə olsun*
*ismət pərdəsi.*
*Nurdan tökülsün,*
*o, mələk olsun.*
*Şərqdə birinci,*
*o gərək olsun!*

***

*... İşə başladı*
*dahi sənətkar.*
*Aylar ötüşdü,*
*keçdi ruzigar.*
*Bəkir oğluna*
*güc verdi xaliq.*
*Yüz on beş aya*
*türbə ucaltdı.*
*Anaya layiq,*
*qiblə yaratdı.*
*Baxanlar dedi*

*kaşanədəndir.*
*Boyu-buxunu*
*ilahidəndir.*
*Ulduz falıdı*
*dörd "medalyonu".*
*Yalnız münəccim*
*oxuyar onu.*
*Naxışı incə,*
*naxışı qönçə,*
*Hələ gör necə*
*təzədi, tərdi.*
*Hər Ayəsi zər,*
*mat qalıb bəşər.*
*Allahu-əkbər*
*bu necə sirdi...*
*Yatır qoynunda*
*Mömünə Xatın.*
*Müqəddəs ana,-*
*müqəddəs qadın.*
*Ziyarətinə*
*El-oba gəldi.*
*Hamı könüldən*
*baxıb söylədi:*
*Kərpic anamız,*
*bacımızdı o.*
*Şərəf-şanımız,*
*tacımızdı o.*
*Memar nəfəsi,*
*mehridi türbə.*
*Nəqqaş nəğməsi,*
*şeirdi türbə.*

## BURA ŞUŞADI

*Dağların yaxasında*
*Boy atıb, bitib evlər.*
*Sanki yallı gedəcək,*
*Əl-ələ tutub evlər.*
*Ucalıb pillə-pillə,*
*Zirvəyə çatıb evlər.*
*Bir-birinin dizinə*
*Baş qoyub, yatıb evlər.*
*Şirin-şirin nəğməyə,*
*Nağıla batıb evlər.*
*Qalıb qonağı oldum,*
*Doğmasıtək oxşadı,*
*Bura Şuşadı.*



*Bağçaları, bağları,*
*Şirinlik tabağıdır.*
*Uca dağlar qoynunda*
*Sanki cənnət bağıdır.*

*Qarabağın əlində*
*Gözəllik bayrağıdır.*
*Doğma Azərbaycanın*
*Musiqi ocağıdır.*
*Düşdüm ulu Qarqara*
*Gördüm ilham çağıdır.*
*İsa bulağı üstə*
*Mürsəl muğam başladı,*
*Bura Şuşadı.*

*Xəlfəlisi möcüzə,*
*Daşaltısı nağıldı.*
*Qol-boyun meşələri*
*Üfüqlərə sığaldı.*
*Dərəsinə söz atdım,*
*Hər daşdan səs sağıldı.*
*Məxmər yamaclarını*
*Gəzdim, dərdim dağıldı.*
*"Xarı bülbül"ə qıyan*
*Paxıldan da paxıldı.*
*Çəməni xalı-xalça,*
*İlməsi tamaşadı,*
*Bura Şuşadı.*

*Xan qızı Natəvanın*
*Ayna bulağını gör.*
*"Xuraman qayası"nın*
*Pərişan tağını gör.*
*Boylan Cıdır düzünə*
*Vaqifin "dağını" gör.*
*Cabbarın eyvanını,*



*Xanın otağını gör.*
*Baş əy Nəvvab ruhuna,*
*Seyid ocağını gör.*
*Sənətkarı, sənəti*
*Əbədilik yaşadır,*
*Bura Şuşadı.*

*Abidələr diyarı,*
*Gözəllik qoruğudur.*
*Sanki qala divarı*
*Boynunda muncuğudur.*
*Ormanları Çənlibel,*
*Hər qaya Koroğludur.*
*Dərə döşü təbildi,*
*Gur sellər yumruğudur.*
*Havalanan qovaqlar*
*Niyazi çubuğudur,*
*Burda dahi Üzeyir*
*Zirvələrlə qoşadı,*
*Bura Şuşadı.*

*Çadır-çadır zanbağı*
*Bənzər gümüş xalına.*
*Çıraq-çıraq lalələr,*
*Nur səpir camalına.*
*Dolanıb dörd yanından*
*Bahar girib qoluna.*
*Hüsnündən doymaq olmur,*
*Xoş Şuşanın halına.*
*"Maraldağın" "Qırxqızın"*
*Qovuşdum vüsalına.*
*Könlüm ovsuna düşüb*
*Sevdasıyla yaşadı,*
*Bura Şuşadı.*

*Xana-xana evləri*
*Ədalı göyçək kimi.*
*Gül-çiçəyin içinə*
*Qonub kəpənək kimi.*
*Şuşa təzə gəlindi-*
*Bəzənib mələk kimi.*
*Burum-burum zirvələr*
*Çiynində səhəng kimi.*
*Bəyaz-bəyaz buludlar*
*Başında örpək kimi,*
*Dönüb hayana baxdım*
*Toy evinə oxşadı,*
*Bura Şuşadı.*

*Murov alnıaçıqdır*
*Dönüb bəyə, xaqana.*
*Səsi Arazdan keçib*

*Sarılır Savalana.*
*Uçur qartal xəyalı*
*Göyçəyə, Uluxana.*
*Çaylar muştuluq kimi*
*Gül daşıyır arana.*
*Burda coşan könüllər*
*Salam deyir dörd yana.*
*Vətənimin cəlalı,*
*Cəvahiri, qaşıdı,*
*Bura Şuşadı.*

*Mamırbaşlı zağalar*
*Əzəli səngəridir.*
*Dəmirdöşlü qayalar*
*Ehtiyat əsgəridir.*
*Zirehli sıldırımlar*
*Süngüsü, xəncəridir.*
*Şuşa Pənah xanındır–,*
*İlhamlı əsəridir.*
*Səsimin paytaxtıdı,*
*Bəyanımın qəsridir.*
*Burda şəhid ruhları*
*Zəfərlə baş-başadı,*
*Bura Şuşadı.*

## ETİRAF

*Bu yerlər necə də o yerlər imiş,*
*Bu yerlər bir zaman mən olan yerlər.*
*İndi sənə qalıb, mənim deyilmiş,*
*Səndən də olcaq sən olan yerlər.*

*Ay kimi, su kimi sadəkönül ol,*
*Gör necə dolanır günəş dünyada.*
*Ya sakit bulaq ol, ya qorxunc sel ol,*
*Gedib ikisi də batır dəryada.*

*Bir gün üzülərsən peşmançılıqdan,*
*Sındır, təkəbbürü ürəyindən at.*
*İstəsən inanma, istəsən inan,*
*Etiraf olanda gözəldir həyat.*

## KİM BAXSA GÖZLƏRİNƏ

*Məni atdın, qoy olsun*
*Sanma xoşbəxt oldun sən.*
*Gözündə yurd salmışam,*
*Hara getsən, mənimsən.*

*Kim baxsa gözlərinə,*
*Məni orda görəcək.*
*Məndən xəcalət çəkib,*
*Səndən üz döndərəcək...*

## MÜQƏDDƏS AND – SÖZ HAQQI

Muxtar Əziz oğlu Qasımzadə 1951-ci ildə Naxçıvan şəhərində anadan olub. Gənclik illərindən (1970) bu günə qədər jurnalistlik fəaliyyətini davam etdirməkdədir. Bədii yaradıcılığa da elə həmin illərdən başlayıb. Şeir və poemaları mətbuatdan, ədəbi jurnallardan, almanaxlardan, mavi ekrandan, radio dalğalarından ictimaiyyətə yaxşı tanışdır. Müxtəlif vaxtlarda Beynəlxalq poeziya festivallarının iştirakçısı olmuş, şeirləri rus, fars, ingilis dillərinə tərcümə edilmişdir.

Televiziya və radionun inkişafındakı xidmətlərinə görə ölkə Prezidentinin sərəncamı ilə (2006) "Tərəqqi" medalına layiq görülmüşdür.

O, minə yaxın müxtəlif mövzulu kitabın redaktorudur. M.Qasımzadə öz poetik imkanlarını ölçüb-biçən, sözə qənaətlə yanaşan qələm sahiblərimizdəndir.

Əli qələm tutan bir gündən and yeri bildiyi doğma yurdunun hər qarışını sözlə bəzəyib. Şeiri "Yaradanın verdiyi nemət" hesab edib. Ən müqəddəs andı isə "söz haqqı" olub və bu müqəddəs andına həmişə sadiq qalıb. Könlünün çağrışlarına səs verib. Gördüklərinə, eşitdiklərinə, duyduqlarına içindəki duyğularıyla sığal çəkib, rəng qatıb, yeni səs, yeni nəfəs gətirib. Oxucunun əlindən tutub onu dünyanın gəzmədiyi, görmədiyi, eşitmədiyi "yeddinci qitə" ilə tanış olmağa səsləyib və uca bir səslə:

*Altı qitənin*
*dərdini çəkib,*
*Yumağa dönən,*
*Yumruğa dönən,*

*Yeddinci qitə*
*Köksümdə çarpan*

*Bu ürəyimdir* – deyib. Əgər kimsə bu ürəyin içərisindəkiləri vərəqləsə orada bu yurdun laylası, nəğməsi, beşiyi, ocağı olan anamız Naxçıvanı, hər qayasında, daşında Nuhun nişanəsi olan "Gəmiqayanı", Şirinin sorağından xəbər verən "Fərhad evini", Müqəddəs Quranda adı çəkilən "Əshabi-Kəhf"-i, sevgi mülkündə əfsanə kimi yaşanan "Oğlan qala, Qız qala"nı, insan əlləriylə yonulmuş, dünənimizdən, bu günümüzə xatirə qalan, dünyanı heyrətə salan, divarı duz, tavanı duz, yeri duz olan "Duz muzeyi"nı "Belinə kəmər kimi sərt daşları bağlayan" "Əlincəqala"nı, Qədim nağıl dünyamızın yel atında ya simurqun qanadında uçub gələn, neçə-neçə əsrləri yola salan nağıl dünyamızın ibtidai metrosu adlandırdığı "Köhnə qala"nı və sairin vətəninə olan sonsuz sevgisini görər. Onun bu əsərlərini oxuduqca adama elə gəlir ki, hansı söz-sənət adamı bu mövzulara müraciət etmiş olarsa da Muxtar Qasımzadənin yaradıcılığındakı orjinal təravəti bu səviyyədə oxucusuna təqdim edə bilməz. Sözlə əksini yaratmaq üçün bu abidələr öz sirli qapılarını sanki Muxtar Qasımzadənin üzünə açıb.

M.Qasımzadənin hər bir əsəri ürəkaçandır, möhtəşəmdir, obrazlıdır. Şair oxuçusunu Günəş tanrısından əlini üzməməyə, qaranlıqları əritməyə, arzu və məqsədlərimizə çatmağa, sabahımıza nikbin baxmağa çağırır. Çünki insanları hər açılan sabahda təzə gün, fərəh, dülüş, dost-tanışlarla görüş gözləyir. Şair "Açıl sabahım, açıl" adlı şeirində yazır:

*Günəş ulu tanrımızdı,*
*Ruzumuzdu, uğrumuzdu,*
*Qaranlıqlar ağrımızdı,*
*Açıl, sabahım, açıl.*

*Təzə günə gəliş üçün,*
*Fərəh üçün, gülüş üçün,*
*İnsanlarla görüş üçün,*
*Açıl, sabahım, açıl.*

Şairin "Bənövşə", "Qış duyğuları", "Bir çinar oynayır", "Meşədə payız", "Külək əsir", "Yadımda", "Quşlar uçar ilk bahara" adlı şeirlərində də onun poetik duyumlarnın, qəlb çırpıntılarnın sehrindən çıxa bilmirsən. Çünki, şair təsvir etdiyi təbiət lövhələrinin elə məna çalarlarını açıqlayır ki, nəticədə təqdim etdiyi hər nə varsa oxuçunun gözündə ülviləşir. Şairin bu duyğuları ilə baş-başa qalmaq, ovunmaq istəyirsən. Bir bahar günündə çəmənə, dağların döşünə naxış salan, zərif, incə, körpə olan, günəşdən şölə alan təzə-tər çiçəkləri ağuşuna almağa, təbiətin ilk nübarı olan bənövşə gülünün ətrindən məst olmağa tələsirsən. Budaqları nənni kimi yırğalayan ərköyün küləyin şıltaqlığına, göydə "ağ yelkənləri" xatırladan durna qatarının səsinə heyranlığını gizlədə bilmirsən. Qışda dağların üstünə ələnən buludların "bəyaz varını", payızda durnaların necə koç etdiyini göz oxşadıqca intizarlı baxışlarla oxşamaq istəyirsən. Şair "Qış duyğuları" adlı şeirində yazır:

*Buludlar ələyib bəyaz varını,*
*Küləklər yüz yana kürəkləyibdir.*
*Sərçələr çırpdıqca qanadlarını,*
*Sandım budaqlardı çiçəkləyiblər.*

*Qarlı duyğulardan, heç doymaq olmaz,*
*Qarlı duyğuların sığalı xoşdur.*
*Bu ana torpağın yuxusu bəyaz,*
*Ana təbiətin nağılı xoşdur.*

Biz bu kiçik yazımızda Muxtar Qasımzadənin yaradıcılığının az bir hissəsinə işiq salmaq istədik. Onun poeziyası haqqında müəyyən bir təəssürat yaratmağa çalışdıq. Şeirlərindən də görünür ki, şairin sözə məshuliyyəti, orjinal deyim tərzi, bədii təsvir və ifadə vasitələri ədəbi mühit üçün dəyərli və həmişəyaşardır.

**Çingiz Süleymanov**
**Rövşən Hüseynov**

# RAMİZ BABAYEV



## MƏN ŞEİR YAZANDA ŞAİR OLURAM

*Dağlardan gül-çiçək dərib gəlirəm,*
*Dərdimi yamaca sərib gəlirəm,*
*Mən kim olduğumu yaxşı bilirəm.*
*Mən şeir yazanda şair oluram.*

*Bir qız gözləriylə öpürsə məni,*
*Yağış damcısıyla qovursa çəni,*
*Biri yandırırsa sevgi şəklini,*
*Mən onu görəndə şair oluram.*

*Biri dərd üstünə dərd gətirirsə,*
*Biri gözyaşıyla gül bitirirsə,*
*Birinin işləri düşəndə tərsə,*
*Mən onu görəndə şair oluram.*

*Bir eşqin ümidi parçalanırsa,*
*Bir dilək min yerə haçalanırsa,*
*Bir ana gözləri yolda qalırsa,*
*Mən onu görəndə şair oluram.*

*Biri ayrılanda öz sevdiyindən,*
*Ürəyi yananda həsrətdən, kəindən,*
*Bezəndə həyata gəldiyi gündən,*
*Mən onu görəndə şair oluram.*

*Bir arzu yarımçıq yolda qalırsa,*
*Birinin haqqını biri alırsa,*
*Vallah duranmıram dünya dağılsa,*
*Mən onu görəndə şair oluram.*
*Mən onu görəndə şair oluram.*

*Zirvəsini duman örtmüş bir dağam,*
*Gül çiçəyi xəzan olmuş bir bağam,*
*Sönmək üçün su səpilən ocağam,*
*Daha məni qucaqlamır göy çəmən*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Dizdə taqət,gözdə işıq azalıb.*
*Ümidlərim arzularım sozalıb.*
*Altmışdayam, yetmişimə nə qalıb*
*Büdrəyəndə hay umuram küləkdən,*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Dost tanışlı cərgələrim seyrəlir*
*Bahar gedib, payız gəlir qış gəlir*
*Ürək indi rahatlanır, dincəlir.*
*Hər addımda imdad umur fələkdən,*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Bu günümdən sabahıma gümanlar*
*Ümidimə sığal çəkir yağış-qar*
*Yarımçıqdır, bitməyibdir arzular.*
*Xatirələr soraq verir keçmişdən,*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Boş kecməyib yaşadığım o illər,*
*Vicdanıma qoymamışam girə şər,*
*Eşq üstündə qurulubdur bu bəşər.*
*O qız hələ silinməyib qəlbimdən,*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Həyat dəniz, mən yelkənsiz bir gəmi,*
*Ötən günlər bu qəlbimin həmdəmi,*
*Bu dünyanın həm zili var, həm bəmi.*
*Gərəkdir ki hər üzünə dözəsən*
*Yavaş-yavaş qocalıram deyəsən.*

*Mən Ramizəm yüz əzabdan keçmişəm*
*Bu həyatda qovrulmuşam, bişmişəm.*
*Var dövlət yox, insanlığı seçmişəm.*
*Varlığımı duyğularla bölüb tən,*
*Yavaş-yavaş qocalıram deyəsən.*
*Yavaş-yavaş qocalıram deyəsən.*

## YAĞIŞIN ŞƏKİLLƏRİ

*Gecə keçir gecədən*
*Bayırda külək əsir,*
*Baxıram pəncərədən*
*Hamı qacır tələsir.*

*Ağaclar yırğalayır*
*Bir-birini durmadan,*
*Bayırda haray salıb*
*Mahnı oxuyur novdan.*

*Pəncərə şüşələri*
*Hərdən girir bir dona,*
*Yağışın şəkilləri*
*Bitib yetişmir sona.*

*Üşüyür dibçəkdəki*
*Güllərin ləçəkləri,*
*Yağış damcılarıyla*
*Çimizdirir şəhəri.*

*Buludlar haray salıb*
*Dəyirlər bir birinə,*
*Küçələr təslim olur*
*Axan yağış selinə.*

*Heç bir azca keçməmiş,*
*Kəsilir o səs səmir.*
*Havadan nəm torpağın*
*Yuyulmuş ətri gəlir.*

***11.05.2022.***

## MƏN MƏHƏBBƏT TANRISIYAM



*Dərd, üstünə dərd gətirər,*
*Dərd var məhəbbət bitirər.*
*Məni duyanmaz özgələr*
*Mən məhəbbət tanrısıyam.*

*Ünvanımdı eniş yoxuş,*
*Çox gəlmişəm hicrana tuş,*
*Məndən Leyli, Məcnun soruş,*
*Mən məhəbbət tanrısıyam.*

*Çox ğörmüşəm çəmən, çiçək,*
*Qız sevmişəm gözəl, göyçək,*
*Heç kim məntək sevməyəçək*
*Mən məhəbbət tanrısıyam.*

*Nə Məcnunam, nə də Kərəm,*
*Qoşa düşmüş bir cüt zərəm,*
*Məhəbbətə can verərəm,*
*Mən məhəbbət tanrısıyam*
*Mən ,məhəbbət tanrısıyam.*

## SƏNİN MƏKTUBLARIN

*Sənin məktubların hələ də durur,*
*İllərdi qoruyub saxlamışam mən.*
*Nə vaxtkı, qəlbimə sənsizlik dolur,*
*Açıb oxuyuram onları hərdən.*

*Hər sətir, hər kəlmə sevgi dolusu,*
*Min arzu, min dilək yaşayır orda.*
*Vərəqlər içində ləçək qurusu,*
*Sənin izlərini daşıyır orda.*



*Mənə göndərdiyin şəkillər ki, var,*
*Qat kəsib, əzilib, solub, saralıb.*
*Çoxuna yazmışam məndən yadigar,*
*Sevgin ayrılıqdan yadigar qalıb.*

*Sənin məktubların hələdə durur,*
*Tez-tez dəyişirəm yerini hərdən.*
*Kiminsə tapmağı məni qorxudur,*
*Deyirəm itirsəm, səndə itərsən.*

*Sənin məktubların hələdə durur,*
*Amma ki, yetişir ömrümün sonu.*
*Oğlumdan, qızımdan istəyim budur,*
*Öləndə qəbrimə qoysunlar onu.*

*Sənin məktubların hələdə durur,*
*O gündən, bu günə xatirə kimi.*
*Sənin məktubların hələdə durur,*
*Yaşadır özündə o ilk sevgimi.*

## AYRILIQ GÖZ İLƏ QAŞIN ARASI

*Sən ki incimişdin küsmüşdün məndən,*
*Demişdin bir daha qayıtmayacam.*
*Nə olub yenə də dönüb gəlmisən*
*Deyirsən bir günlük sənə qonağam.*

*Üzündən gözündən intizar yağır,*
*Sıxıla-sıxıla baxırsan mənə*
*Get ötən günləri keçmişi çağır*
*Bəlkə kömək ola o günlər sənə.*

*Yanağın dayaqdır kirpiklərinə*
*Gözündə dumanlı çiskinli yollar*
*Hər nə istəyirsən yığ gözlərinə*
*Məndən xatirə tək özünlə apar.*

*Ayrılıq göz ilə qaşın arası,*
*Orda ildırımlar çaxar, çağlayar.*
*Kamına çatmayan sevgi dünyası*
*Dönüb kecmişinə baxıb ağlayar.*

*25.05.2022.*

## GÖZLƏRİM GÖZLƏRİNƏ QOŞULUB ÇIXIB GETDİ

Gözlərinə baxmaqdan utandı bu gözlərim.
İstəmədim gözündə o hicranı görüm mən.
Səni görəndən sonra gec açıldı səhərim,
İntizarın asıldı mənim kirpiklərimdən.

Nə qədər çalışdımsa baxanmadım üzünə,
Gözlərin gözlərimi qovaladı üzündən.
Umidlərim qul oldu sənin salam sözünə
Quruca salamı da alanmadım sevincdən.

İllərlə ağrısını çəkmişdim bu görüşün,
Səni görəndən sonra hər şey yox oldu, bitdi.
Sən hər yerdə həmişə mənimsən demək üçün
Gözlərim gözlərinə qoşulub çıxıb getdi.

*23.12.2023.*

## SƏN ALLAH AĞLAMA MƏNİ GÖRƏNDƏ

Yaman qızarmısan dolub gözlərin,
Üzündə həsrətin naxışları var.
Həmişə qəlbimdə görünür yerin,
Hər yerdə gözlərim səni axtarar.

Sən mənim qızılım, sən mənim zərim,
Səni unutmağa gümanım yoxdu,
Sən mənim göz yaşı bitən gözlərim,
Sənə ehtiyacım hamıdan çoxdu.

Sən Allah ağlama məni görəndə,
Gözlərim gözünə qoşulub ağlar.
Mən heç vaxt bilməzdim səni sevəndə,
Bu eşqin sonunda ayrılıqda var.

Axır yanağından isti göz yaşı,
Dolan bulud kimi baxırsan mənə.
Bəsdir ətəyində tök sən bu daşı
Birdə dönənmərik o keçən günə.
Birdə dönənmərik o keçən günə.

*22.12.2023*

## HARA GEDİR BU DÜNYA

Satanı çox alandan
Don geyinib yalandan
Çapıb o yan bu yandan
Hara gedir bu dünya.

Əyri düzünü kəsir
Kasıb varlıya əsir,
Gedir,durmur tələsir.
Hara gedir bu dünya.

Çox sevdalar başında
Tarix yaşar daşında
Qoca ahıl yaşında
Hara gedir bu dünya.

Dəniz bulağa möhtac
Toxdan xeyli çoxdu aç

Nöqsanı qulac qulac,
Hara gedir bu dünya.

Halala haram qatıb,
Insafın çölə atıb
Bütün varlığın satıb,
Hara gedir bu dünya.

Heç vaxt danışmır, dinmir,
Nə dərdi var bilinmir,
Heç nöqsanı silinmir
Hara gedir bu dünya.

Çoxdu yaxşı yamanı
Saymır çisi dumanı
Qalıb quru samanı,
Hara gedir bu dünya.

İnsafı əldən verib
Olub cahanda qərib.
Bizə dirsək göstərib,
Hara gedir bu dünya.

Çox arzu dilək qalır
Bizi bizlikdən alır
Yol üstündən yol salır,
Hara gedir bu dünya.

Hər şey bitib tükənir
Kəsilir haray hənir
Hamılədir gücənir
Dara düşüb bu dünya.

## DAHA MƏN ƏVVƏLKİ O MƏN DEYİLƏM

Görsən tanımazsan indi sən məni
O qara saçların yerində ağ qar.
Hər yerə od alov salan gozümdən,
İndi şimşək çaxar, yağışlar yağar.

Qalıb ürəyimdə ilmən, naxışın,
O günü bu günə dəyişmək olmur.
Gözümdə gizlənib sənin baxışın
Daha payız yeli saçımı yolmur.

Çoxdandır batıbdır həsrətim yasa,
Üzümdə intizar alnımda qırış.
Əgər sənlə keçən günlər olmasa,
Elə düşünərdim dünya yoxuymuş.

Daha mən əvvəlki o mən deyiləm
O gündən bu günə sevgim qocalıb.
Ayrılıq özünə eyləyib sitəm
Mənim ürəyimdə tək-tənha qalıb.

Daha mən əvvəlki o mən deyiləm,
Yükümü tutmuşam ölum apara.
Zər də qiymətini itirər gülüm,
Əgər ucuzlaşıb çıxsa bazara.

# YAXŞI Kİ, GƏLMƏDİN

Yaxşı ki gəlmədin, görmədim səni
O son görüşümüz nəyə gərəkmiş.
Demə həmin o gün mənim qəlbimdə,
Səni ömrüm boyu gəzdirəcəkmiş.

Yaxşı ki gəlmədin, o soyuq axşam,
İllərdi üşüdür, dondurur məni.
Sənsiz tənha qalıb cox ağlamışam.
Sən məni yad edib ağlayan kimi.

Yaxşı ki gəlmədin yoxsa ölərdim,
O son sözlərini eşidəndə mən.
Könlümə od vurub yandıran dərdim
Başıma ələrdi yandığım küldən.

Yaxşı ki gəlmədin, utandığımdan,
Gözünün icinə baxa bilməzdim.
Səni əvvəlki tək öpüb oxşayıb,
Bu soyuq köksümə sıxa bilməzdim.

Yaxşı ki gəlmədin, eh nə deyim mən,
Bu sevda beləcə ötüşdü itdi.
Sən o son görüşə gəlmədiyindən
Gözüm o yollarda düşüb itibdi.

# MİLYONLARA ÖRNƏK OLA BİLƏCƏK ÖMÜR YOLU

## Oktay Qurban oğlu Niftəliyev



Culfanın dəli küləkləri yenə aləmi birbirinə qatmışdı. Qurban kişinin özü işdə olsa da fikiri evdə idi. O bu gün dünyaya göz açacaq körpəsini gözləyirdi. Bu gün Pəri xalanın da işi çox idi. O daha iki başqa hamilə qadınların vəziyyətlərinin nə yerdə olduğunu öyrənmək üçün gah o, gah da ki o biri qadına baş çəkir, onları nəzarətdə saxlayırdı. İllər keçdikdən sonra həmin uşaqlar birbirlərinə – "biz bir gündə anadan olmuş uşaqlarıq" deyirdilər. Bu uşaqlardan biri sonralar dəmiryolunda maşinist işləmiş adlı sanlı maşinist Təvəkkül (ləqəbi Vest), Cahangir əminin qızı Laləzar və Oktay idi. Bu tarix isə 1938 ci ilin avqust ayının 23-ü idi.

Mən bu gün bu hekayətimdə həmin uşaqlardan biri, öz həyat yolu ilə çoxlarına nümunə olan, yoxsulluqdan başlayıb nazirə qədər bir ağır həyat yolu keçən, xalqını vətənini canından artıq sevən, ürəyi yaşamaq, yaratmaq eşqi ilə döyünən, hal-hazırda ömrünün 86-cı baharını yaşayan Oktay müəllimin həyatının bəzi məqamları ilə tanış etmək istəyirəm.

Bu gün 4 övlad, 8 nəvə, 3 nəticə sahibi olan Oktay müəllimin keçməkeçli həyatından müəyyən detallarla sizi

tanış etmək istəyirəm.

Oktay müəllimin atası Niftəliyev Qurban Niftəli oğlu 1988-ci ildə Şərur rayonunun (indiki Kəngərli rayonu) Şahtaxtı kəndində anadan olmuşdur. O vaxtlar Şahtaxtı kəndindən İran İslam respublikasının Urmiya vilayətinə dəmiryolu var idi. Qurban kişi də həmin dəmiryolu körpüsündə gömrük nəzarətçisi işləyirdi. Şahtaxtı gömrüyü ilə Culfa gömrük idarəsi birləşdikdən sonra Qurban kişi də işi ilə əlaqədar Culfa şəhərinə köçməli olub. Qurban kişinin həyat yoldaşı Naxçıvan şəhərindən olan Mirzəliyeva Mina Novruz qızı idi. Bu izdivacdan Zəhra, Fatma və Oktay dünyaya göz açmışdı.

Oktay müəllimlə söhbət zamanı bildirdi ki, onun uşaqlıq çağları çox ağır və məşəqqətli keçib. Balaca yaşlarından anası Mina xanımı itirməsi onu ana nəvazişindən, uşaqlıq dünyasından məhrum edib. Uşaq olmasına baxmayaraq hər vəclə atasına kömək etmək istəyib. Oktay müəllim o günləri belə xatırlayır.

O vaxtlar çox çətin günlər yaşayırdım. Mən qonşu qadınlarla birlikdə dəmiryol stansiyasında vaqonlardan tökülən daş kömürləri yığıb evimizə gətirir, özümüzə lazım olan qədərini işlədir artıq qalanını isə pul müqabilində satırdım ki, bu da evimizə bir köməklik olurdu. O vaxtlar biz uşaqlar Novruz bayramının gəlişini bir də Culfada yol kənarında olan tutların yetişməsini böyük səbirsizliklə gözləyirdik. Bayramda baca-baca vaxtı qonşu evlərdən yığıb yediyim şirniyyatların dadı hələ də damağımdadı.

Ağır xəstəlikdən dünyasını dəyişən anamdan sonra atam Kolanı kəndindən olan Güllü adlı bir qadınla evlənmişdi ki, o qadın da nə məni, nə də bacılarımı yola vermirdi. Bunun üçün də atam bu qadından ayrıldı. Həmin qadından olan Şövkət adlı bacım da bizimlə qaldı.

Bir gün məktəbə gedərkən ağır bir xəbər eşitdim. Atamı dəmiryol qatarının çıxıntısı vurub ağır hala salmışdı. Atamın xəstə olmağı bacılarımın və mənim işimi çətinləşdirmişdi.

Artıq 7-ci sinifdə oxuyurdum. Haradan beynimə düşmüşdü bilmirəm amma sənədlərimi Bakıya İnşaat Texnikumuna verdim və əla qiymətlərlə oraya daxil oldum.

Atamın xəstə olması, oxumaq üçün tələb olunan xərclər böyük çətinliklər yaradır, verilən təqaüdlə birtəhər ötüşürdüm.

3-cü kursda oxuyanda atam vəfat etdi. Bu itki mənə həm mənəvi, həm də maddi cəhətdən böyük çətinliklər yaratdı. Bacılarım Fatma və Şövkətə himayə etmək də mənim üstümə düşdü. Artıq böyük bacım Zəhra Ordubaddan olan yaxın qohumumuzla ailə həyatı qurub, Bakı şəhərində yaşayırdı. Texnikumda oxuduğum müddətdə tez tez onlara gedirdim. Həmin vaxt onların da maddi cəhətdən vəziyyətləri yaxşı deyildi.

Texnikomu bitirib Culfaya qayıtdıqdan sonra həmişə böyük ehtiram və hörmətlə yad etdiyim Culfa Rayon Partiya Komitəsinin 1-ci katibi Kamil Məmmədov mənə böyük qayğı və ehtiram göstərərək məni Kolxoz və Kənd Tikinti şöbəsinə müdir təyin etdi. Yavaş yavaş çətin günlər arxada qaldı. Mənim maaşım 88 manat idi ki, bu pul da o vaxtlar üçün böyük məbləğ idi. Bacılarım Fatma və Şövkətlə birlikdə yaşamağa başladım. İllər keçdikcə çətin günlər arxada qalırdı.

İşə can yandırmağım, işimin öhdəsindən layiqincə gəlməyim mənə böyük uğur və nüfuz gətirirdi. Artıq dəfələrlə Sosializm yarışının qalibi olmağım, qazandığım uğurlar məni bütün respublikada tanıdırdı. Çox keçmədi ki, məni Komunal Təsərrüfat şöbəsinin müdiri təyin etdilər və mənə Culfa dəmiryol stansiyasında olan inturist binasının bərpası tapşırıldı ki, bu da birbaşa İrandan Sovetlər ittifaqına gələn

qonaqların dincəlib istirahət etməsi üçün hazırlammalı idi.

O vaxtlar Mərkəzi Komitədən gəlmiş Topçuyev familyalı məsul şəxsin bu işin şəxsən Azərbaycan Mərkəzi Komitəsinin 1-ci katibi Heydər Əliyevin tapşırığı olduğunu bildirdi. Mən o işi heçkəsin ağlına gəlməyəcək dərəcədə mükəmməl surətdə həll etdim. İşim çox bəyənildi. Həmin işdə əməyi olan bütün adamlara mükafat verildi. Bu zaman Mərkəzi Komitədən gəlmiş məsul işci söz alıb bildirdi ki, bu işin bütün təşkilatçısı Oktay Niftəliyev olduğu halda o niyə bu mükafatlandırmadan kənarda qalsın sualına Topçuyev bildirdi ki, bu işinə görə Oktay Niftəliyevə Lenin ordeninin verilməsinə köməklik edəcəyimə söz verirəm.

O vaxtlar Naxçıvan Komunal Təsərrüfat naziri Kazım Kazımov idi. Bir gün o mənə zəng edib nazirliyə çağırdı və mənə bildirdi ki, Bakıdan Lenin ordeni verilməsi üçün sənədlərini istəyirlər. Amma mən belə məsləhət görürəm ki, sən hələ cavansan qabaqda böyük uğurların olacaq gəl sənin razılığınla bu medalı Mehralı Vəliyevin adına sənədləşdirək. Mən heç nə demədim. Bir müddətdən sonra məlum oldu ki, həmin ordeni Naxçıvana yox hansısa başqa rayonlardan birində kiməsə veriblər. Sonralar Topçuyev bildirib ki, mən o ordeni məhz Oktay Niftəliyevdən ötəri nəzərdə tutmuşdum.

İllər keçdikcə uğurlarım çoxalırdı. Bir dəfə məni Naxçıvan Vilayət Partiya Komitəsinə çağırıb bildirdilər ki, rəhbərlik sizin işinizi və iş metodunuzu bəyəndiyindən sizi Respublika Aqrar Sənaye Tikinti Trestinə nazir təyin olunmağınızı məsləhət görür. Beləliklə mən nazir kimi işə başladım. Muxtar Respublikanın inkişafında yeni yeni yaşayış evlərinin tikilməsində iştirak etdim. Şərur rayonundan Naxçıvan şəhərinə su xətti çəkdim. Şəhərimizə xüsusi yaraşıq

verən Təbriz otelini, Vayxır gölündə işləyən işçilər üçün inşa edilən şəhərimizin ilk doqquzmərtəbələri kimi tanınan binaların və onlarla belə başqa binaların tikintisində böyük əmək sərf etmişəm. Gördüyüm işlər sadalamaqla qurtarmaz deyə Oktay müəllim gülümsədi.

Ömrünün ahıl yaşlarını yaşayan muxtar respublikamızın sayılıb seçilən ağsaqqallarından biri olan Oktay müəllim haqqında bu böyük həyat salnaməsinin kiçik bir hissəsini qələmə almaqla mən Oktay müəllimə qarşı böyük hörmət və ehtiramımı bildirir, qalın kitablara sığacaq qədər şərəfli ömür yolu keçmiş ağsaqqalımıza uzun ömür can sağlığı arzulayıram.

**Ramiz BABAYEV**
***Azərbaycan yazıçılar birliyinin üzvü.***
***Qızıl qələm mükafatçısı***

# YADDAŞLARDA YAŞAYAN ÖMÜR YOLU



Qahab kəndi Muxtar Respublikanın sayılıb seçilən kəndlərindən biri olduğu kimi orada yaşayıb yaradan insanlar da öz işləri əməlləri ilə dövlətimizin xalqımızın inkişafına böyük töhfələr verməkdədir.

Bu kiçik təqdimatında sizləri uzun illər partiya və dövlət işlərində çalışmış öz zəhməti və zəhmətsevərliyi ilə Babək rayonunda sadə insanlardan tutmuş sayılıb seçilən ziyalılara qədər böyük nüfuz qazanmış Əbdülhüseyn Şahhüseyn oğlu Zamanov haqqında söhbət açmaq istəyirəm.

01.10.1958-ci ildə Naxçıvan rayonun Qahab kəndində müharibə veteranı və kolxozçu ailəsində anadan olmuşdur. Atası Şahhüseyn kişi Əbdülhüseyn lap kiçik yaşlarında olarkən vəfat etdiyindən evin ağırlığı anası Durna xanımın üzərinə düşmüşdür. Sovxozda fəhlə işləyən anası onları çox çətinliklə böyütmüş həddən artıq əzab əziyyət çəkmişdir. Əbdülhüseyn müəllim bir xatirəni alnını ovuşdura-ovuşdura belə xatırlayır.

1982-86-ci illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olub oxudum.

1985-ci ildə ailə həyatı qurmuşam 3 övladım 6 nəvəm var. Övladlarım Pərvin, Pərviz, Şahhüseyn hal-hazırda Respublikanın dövlət orqanlarında çalışırlar.

Uzun illər Babək rayonunun İcra Hakimiyyəti başçısının birinci müavini işləmişəm. 2008-ci ildə Hörmətli Prezidentimiz İ. Əliyevin sərəncamı ilə Dövlət qulluğunda qüsursuz xidmətə

görə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunmuşam. Hal-hazırda Naxçıvan Dövlət Universitetinin iqtisadiyyat fakültəsində baş müəllim işləməklə bərabər “Naxçıvan Muxtar Respublikasında ixrac yönümlü iqtisadiyyatın formalaşması və inkişafı” mövzusunda dissertasiya elmi tədqiqat işini tamamlayıb Ali attestasiya komissiyasına təqdim etmişəm.

Sizə dostum Əbdülhüseyn müəllimin keşmə-keşli həvatı haqqında kiçik bir ömür hekayəsini təqdim etdim. Elə bir hekayə ki, onu tanıyanların yaddaşında həmişə xoş təəssürat və sevinclə qalacaqdır.

Yaşımın kiçik olmağına baxmayaraq evimizdə olan çatışmazlıqlar üzündən o vaxtlar kəndimizin yaşlı adamları gəvən yağı yığmaq üçün keçmişdə Azərbaycan torpağı olan və ermənilərə verilınış o vaxtlar Almalı, Ses, Mərdürüst. Avanes kimi adlandırılan kəndlərinin kövşənlərinə gedirdilər. Mən də onlara qoşulub dayım Qurbanov Novruzla gəvən yağı yığmağa getdim. Xatırlayıram ki, həmin zamanlarda da bədxah ermənilər bizim oradan gəvən yağı yığmağımıza hər cəhdlə maneçilik törədirdilər.

Bizim gəvən yağı yığdığımız əraziyə mal heyvan ötürür çəkdiyimiz əziyyəti heçə çevirirdilər. Kəndimizin cavanlarının onları dəfələrlə döydüyünün şahidi olmuşam. Söhbətimin canı var deyə Əbdülhüseyn müəllim danışığını davam etdi. Həmin vaxt evimizə ilk qazancı mən gətirmişdim. Anam qazandığım 1000 manat pulu görüb çox sevindi. Həmin pula bir televizor, bir soyuducu. 5-6 kisə un və digər zəruri ehtiyaclarımızı aldıq. Həmin gönlər heç vaxt yadımdan çıxmaz. Növbəti il əsgərliyə getdim, qayıtdıqdan sonra sənədlərimi Şıxmahmud kəndində yerləşən sovxoz texnikumunun mühasibat uçotu fakültəsinə verdim və ora qəbul olundum. Texnikumu bitirdikdən sonra bir ilə yaxın kəndimizdə briqada başçısı işlədim.

# RAMİZ BABYEVİN POEZİYASINDAN SÖZ ÇİÇƏKLƏRİNİN ƏTRİ GƏLİR

Ədəbi mühitdə öz dəsti-xətti olan şair Ramiz Babayevin hər yeni şeirlər kitabı çapdan çıxanda təəssüratlarımı isti-isti onunla bölüşmüşəm. Bədii nümunələrini dəyərləndirməyə çalışmışam. Bu dəfə isə şairin yeni işıq üzü görmüş "Şərqin doğan günəşi" adlı şeirlər kitabı ilə necə deyərlər üz-üzə, göz-gözə, baş-başayam. Düzünü deyim ki, Ramiz Babayevin şeirləri ilə baş-başa qalanda elə bilirəm ki, özüm-özümlə söhbət edirəm. Sanki iki dost, iki həmfikir insan uzun ayrılıqdan sonra qarşılaşıb və çəkilib bir hücrədə özlərini bölüşürlər, öz dünyalarını sərgiləyirlər. Bu mənada dostum Ramizin şeirlərilə söhbətləşmək mənim qəlbimə bir rahatlıq gətirir. Çünki onun misraları, şeirləri ruhuma çilənən şeh, içilən bulaq suyu, ciyərlərimə çəkdiyim dağ havasıdır. Hər bir şeirinin öz gözəlliyi, özəlliyi vardır. Çünki o qarış-qarış gəzdiyi Vətəninin hər bir guşəsinin gözəlliklərini vəsf edib, onu məharətlə söz tablosuna köçürməyi bacarır. Sözün tablosunu çəkmək, onun rəng çalarlarını yaratmaq şairin Vətənə olan sevgisindən, məhəbbətindən irəli gəlir. Şair yazır:

*Çadırlar səpələnib yenə köhnə yaylağa,*
*Qızlar səhəng götürüb gedirlər Zor bulağa.*
*Yenə qoyun sürüsü yayılıbdı göy dağa,*
*Mən də bu gözəlliyi söz tabloma çəkmişəm.*
*Batabata gəlmişəm.*

*Üzən ada möcüzə, üzən ada bir həyat,*
*Vətən oğlu, gəl, burda İlham al, əsər yarat.*
*Naxçıvan torpağının baş tacıdır Batabat*

*Mən ruhumu, canımı bu torpağa vermişəm*
*Batabata gəlmişəm.*

Adətən bütün qələm adamları yaşadıqlarını, duyğularını, xəyallarını yazıya köçürüb oxucuya təqdim edirlər. Bu, təkcə onların oxucuya nəyisə təqdim etmək istəkləri deyil. Bu həm də öz düşüncəsini, öz iç dünyasını bölüşməkdir. Bir az da obrazlı şəkildə desək, oxucu ilə canlı bağlantı, fikir bölüşməsidi. Nəticədə isə bədii bir fikrin ortaya qoyulmasıdır.

Dilimizdə qəlbimizin dərinliklərindən süzülüb gələn bir söz var: – Gözəllik. Bu söz həm təbiətdə, həm cəmiyyətdə, həm əxlaqda, həm sosial-məişət sahəsində, ən çox da insanın çöhrəsində özünü təsdiqləyir. Ona görə də biz hər yerdə onu axtarırıq və inanmıram ki, hansısa bir allah bəndəsi gözəlliyə baxmadan yan keçib gedə bilsin. Burda söhbət insanın qadın və kişi olmasından getmir. Amma qadınlar daha çox öz gözəlliklərinə diqqət ayırmağa fikir verirlər. Gözümə aşağıdakı misralar sataşır:

*Sən bir çiçək idin, gözəl, təzə, tər,*
*Getdin ürəyimi yandırdı kədər.*
*Baxışlar ürəyə sevgi gətirər,*
*Sənin baxışından sevgi tökülür.*

Təbii ki, bu misralar səmimi və cəlbedicidir. Mən də sözə meyilli olduğumdan bu misraların izinə düşüb çözməyə başladım. Şeiri oxuduqca yavaş-yavaş həmin auraya səyahətim başladı. Sadə, səmimi şəkildə sıralanan bu misralar bir gözəlin, bir gözəlliyin vəsfi və tərənnümü idi. Şair yazırdı:

*Yaman bəyənirsən özünü özün,*
*Hərdən gözlərində dincəlir gözüm.*

*Ay yanan ocağım, közərən közüm,*
*Sənin baxışından sevgi tökülür.*

*Çox baxma gözümdə ildırım çaxar,*
*Dərdimin üstünə yağar, yağış, qar.*
*Gözümdən gözümü özümə qaytar,*
*Sənin baxışından sevgi tökülür.*

Bu şeirdə şair, çox ustalıqla səmimi sözlərin poetik mənzərəsini yaradıb. Bu hardasa həm də bir rəssam işidi. Naturadan çəkilmiş bir rəsm işidi. Özü də naturanın özü ilə müqayisə olunan bir rəsm.

Həqiqətən də insan azacıq duyğusal olarsa, iynə ucu boyda könlündə, ruhunda, kiməsə, nəyəsə dəyər vermək, bir də dərk etmək qabiliyyəti varsa, o mütləq gördüyünə və duyduğuna münasibətini bir sözlə də olsa ifadə edəcəkdi. Ramiz Babayev də həyatda müşahidə etdiyi bu gözəllikləri misralarında yaşatmağa çalışıb. Gündən-günə çiçəklənən doğma Naxçıvan onu ruhunun bir parçasına çevrilib.

*Mənim doğma diyarım,*
*Səninlə fəxr edirəm mən.*
*Gül-çiçək ətri gəlir,*
*Sənin küçələrindən.*
*Sən səhərə boylanan,*
*Nurlu, aydın şəfəqsən.*
*İnsanların gülər üz,*
*Xoş sifətli mehriban*
*Ey mənim doğma yurdum,*
*Çiçəklənən Naxçıvan!*

*Tarixlərin yaddaşı,*
*Neçə abidələr var.*

*Dünyaya səs salıbdır,*
*Köksündən çıxan sular.*
*Daşında, kərpicində*
*Minilik tarix yaşar.*
*Günəştək boylanmısan,*
*Şərqin astanasından.*
*Ey mənim doğma yurdum,*
*Çiçəklənən Naxçıvan!*

Ramizin daha bir şeirinə nəzər salıram: – “Nənəmə bir ovuc torpaq borcluyam”. Bu şeir bizi yaxın keçmişimizə qaytarır. O keçmişə ki, dərd-qəm səpib, kədər biçmişdik. Qarabağımız əldən getmişdi. Yurd yerlərimizi əsarətdən qaytarmaq, işğaldan nicat tapmaq üçün yollar aramış, yollar yormuşduq. Hətta bu yollarda yorulmuşduq da. Arzularımız, ümidlərimiz bələyində boğulmuş, səbrimiz tükənmişdi. Bəndə düşmüş kilidin açarı tapılmırdı ki, tapılmırdı. Boşalmış kəndlərimizdəki evlərin qapısındakı paslı qıfıllar öz yiyəsinin hənirtisinə, əlinin istisinə həsrət qalmışdı. Doğmalarımızı, əzizlərimizi dəfn etdiyimiz o əlçatmaz məzarlıqlar ruhumuzu, heysiyyatımızı, duyğularımızı sıxırdı. Elə çarəsiz idik ki, bir ovuc torpaq belə yaralarımıza məlhəm ola bilərdi. Şair ürəkağrısı ilə yazır:

*Nənəmə bir ovuc torpaq borcluyam,*
*Bulaqlar kəndindən gətirəm gərək.*
*Babamın qəbrindən, ayaq tərəfdən,*
*Nənəm deyən yerdən götürəm gərək.*

*Nənəmə bir ovuc torpaq borcluyam,*
*O doğma torpaqda hikmətə bir bax.*

*O torpaq qəbrinə səpilsə əgər,*
*Nənəmin ruhu da rahat olacaq.*

*Nənəmə bir ovuc torpaq borcluyam,*
*İllər illər üstə qalanıb gedir.*
*Nənəmə bir ovuc torpaq borcluyam,*
*Dözüb gözləməkdən əyilib qəbir.*
*Dözüb gözləməkdən əyilib qəbir.*

Bu şeir oxucuya bir daha təlqin edir ki, Ramiz Babayev zamanın nəbzini tutub. Dövrün ovqatını, xalqının fikrini şeirə gətirib.

Şeirlərində şairin qürur hissi keçirdiyinin də şahidi oluram. Bu nəhayətsiz sevinci və aşıb-daşan coşqunu yurddaşlarımıza yaşadan, bəxş edən, 44 günlük Vətən müharibəsində müdrik, Ali Baş Komandanımızın qətiyyəti, müzəffər ordumuzun rəşadəti ilə qazanılmış möhtəşəm qələbəsidir. Bəli, hər günün ovqatı var. Bu ovqatı gərək özün yaradasan, özün kökləyəsən. Ramiz də qələmini və sözünü bu ruhda kökləyir. Qalib Komandanın ürəyinin və xalqının fəxarət kürsüsünə qaldırır və gur səslə deyir:

*Vətənimin vuran qolu,*
*Dərrakəli, məğrur ulu!*
*Heydərimin İlham oğlu*
*Mənim qalib Komandanım!*

*Tarix yazdı bu günlərə,*
*Hər gün döndü bir əsərə.*
*Örnək oldu nəsillərə,*
*Mənim qalib Komandanım!*

*Odur xalqın qəhrəmanı,*
*Bu torpağın ruhu, canı.*
*Heyran qoydu bu dünyanı,*
*Mənim qalib Komandanım!*

Ramizin şeirləri bir nur çeşmədir. Onun aurasında özümü çox rahat hiss edirəm. Zəngin, tükənməz poeziyasından bəhrələnmək istəyirəm. Hərdən özümə də sual verirəm. Şair olmaq asandırmı? Bir şeir karıma çatır. Onunla həmsöhbət oluram:

*Dağlardan gül-çiçək dərib gəlirəm,*
*Dərdimi yamaca sərib gəlirəm.*
*Mən kim olduğumu yaxşı bilirəm,*
*Mən şeir yazanda şair oluram.*

*Biri dərd üstünə dərd gətirərsə,*
*Biri göz yaşıyla gül bitirərsə,*
*Birinin işləri düşəndə tərsə,*
*Mən onu görəndə şair oluram.*

*Bir eşqin ümidi parçalanırsa,*
*Bir dilək min yerə haçalanırsa,*
*Bir Ana gözləri yolda qalırsa,*
*Mən onu görəndə şair oluram.*

Qətiyyətlə deyə bilərəm ki, Ramiz Babayevin şeirləri təbiətimiz kimi əlvan və zəngindir. Budur şairin şeirlərinin məndə yaratdığı əks-səda, xoş ovqat, şeirlərinin ab-havası, nəfəsi, bir də onun duyğularının bir parçası olan söz çiçəklərinin ətri. Bu ətirdən mən xoş oldum. Yəqin siz də xoş olacaqsınız!

**Rövşən Hüseynov**

## YADA SALIRAM

***Dostum şair Ramiz Babayevə həsr olunur***

*Yağış pəncərəmə naxış salanda,*
*Dərələr dumanda batıb qalanda,*
*Lalələr közərmiş bir od olanda,*
*O zaman mən səni yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Səndə yanan ürəyə bax ürəyə,*
*El içində çevrilmisən örnəyə,*
*Öz sevgini qatanda duz-çörəyə,*
*O zaman mən səni yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Gözümüzə kədər şehi qonanda,*
*Yollar buz bağlayıb, çaylar donanda,*
*"Ağ atlı oğlan"dan kömək umanda*
*O zaman mən səni yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Qartal kimi qanad çalıb uçanda,*
*Arılartək gül-çiçəyi qucanda,*
*Vətən torpağından söhbət açanda,*
*O zaman mən səni yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Qarabağda tar-kamanım dinəndə,*
*Xarı bülbül sevinəndə, güləndə,*
*Misraların el-obanı gəzəndə,*
*O zaman mən səni yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Tanrının sevgisi, sehri səndədir,*
*İlahi vergisi, sirri səndədir,*
*Sözlərin incisi, dürrü səndədir,*
*Mən səni hər zaman yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

*Sənsən təbiətin danışan dili,*
*Poetik aləmin açar-kilidi,*
*Sənsən elimizin yaddaş kimliyi,*
*Mən səni hər zaman yada salıram,*
*Şeirdə, sənətdə ustad sanıram.*

**Rövşən Hüseynov**

## NİZAMİ ƏZİZƏLİYEV



Nizami Qurban oğlu Əzizəliyev 1956-cı ilin 2 avqustunda Ordubad rayonunun Tivi kəndində dünyaya göz açıb. 1973-cü ildə kənd orta məktəbini bitirən Nizami Əzizəliyev rayonun Parağaçay dağmədən qəsəbəsində fəhləliklə ilk əmək fəaliyyətinə başlayıb. O, 1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universitetinin) dil-ədəbiyyat fakültəsinə qiyabi yolla daxil olmuş, 1975-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətdən tərxis olunduqdan sonra əmək fəaliyyətini Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında, 1977-ci ilin noyabr ayından Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin nəzdindəki mədəniyyət evi və klub müəssisələrində mədəni-kütləvi təşkilatçı və müdir, 1980-ci ildə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Xalq Yaradıcılığı və Mədəni-Maarif İşi üzrə Elmi-Metodiki Mərkəzdə metodist vəzifəsində davam etdirmişdir. 1989-cu ildə Elmi-Metodik Mərkəzin təşkilat metodika şöbəsində baş metodist, 1990-cı ildə həmin şöbənin müdiri, 1996-cı ildə mərkəzin direktor müavini vəzifələrində, 2006-cı ildən isə mərkəzin direktoru vəzifəsində çalışmışdır.

Nizami Əzizəliyev bütün fəaliyyəti dövrlərində dövlət və muxtar respublika əhəmiyyətli mədəni-kütləvi tədbirlərin ssenari müəllifi olmuşdur. Yaradıcılığının müəyyən dövrünü

milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin təbliğinə və öyrənilməsinə həsr etmişdir. Müxtəlif səpkili məqalələri və şeirləri ölkə və muxtar respublika mətbuatında dərc olunmuşdur. Onlarla şeirlərin və məqalələrin müəllifidir. Hazırda təqaüdçüdür. Üç övlad atasıdır.

## XALQIMIZIN BİRLİK RƏMZİ – YALLI

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamında deyilir: "Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl IV-I minilliklərə aid Gəmiqaya təsvirlərində, "Avesta" və "Kitabi-Dədə Qorqud" kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir".***

İncəsənətin ən geniş yayılmış növlərindən biri olan rəqs sənətinin tarixi zərb musiqi alətlərinin yaranma tarixindən xeyli qədimdir. İbtidai icma quruluşu dövründə Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə üzvləri ova çıxdıqları zaman əl çala-çala, ya da ağac və daşları bir-birinə vuraraq rəqs etmişlər. Bu cəhətdən muxtar respublikamızın Ordubad rayonu ərazisində yerləşən Gəmiqayadakı qaya təsvirləri xüsusilə səciyyəvidir. Qayanın mərkəzi hissəsində od və Günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə qollarını yuxarı qaldırıb rəqs edən insanın təsviri fikrimizi təsdiq edən tutarlı faktlardandır. Naxçıvan şəhərindən 18 kilometr



cənubda yerləşən və eradan əvvəl II-I minilliyə aid yaşayış yeri olan Qızılburunda aşkar edilmiş polixrom boyalı küpə üzərindəki rəqs-ifaçılıq təsviri yurdumuzda yallının çox qədim tarixə malik olduğundan xəbər verir. Bu təsvirlər həm də yallıların qədim dünyanın ən nadir sənət nümunələrindən biri olduğunu göstərir. Xalqımızın mədəniyyət incisi olan rəqs sənəti insanların ictimai həyat tərzinin, bədii-estetik zövqünün ayrılmaz tərkib hissəsinə çevrilmiş, gözəllik və incəliyin, həyatsevərlik və sevincin, mərdlik və mübarizliyin, vətənpərvərlik və insanpərvərliyin təzahürü olmaqla xalq ruhunu oxşayan digər çalarlarla zənginləşmişdir.

O da qeyd edilməlidir ki, qədim dövrdə yaranan yallılar mərasim xarakterli olmaq baxımından da diqqəti cəlb edən məsələlər sırasındadır. Rəqs tayfa və ailə birləşmələri tərəfindən keçirilən müəyyən bir mərasimin vacib elementlərindəndir. Uzaq keçmişdə insanlar Günəşə, Aya, küləyə, oda, suya, ağaclara və bəzi heyvanlara sitayiş etmiş, onların şərəfinə təzim ibadətləri və mərasim rəqsləri ifa etmişlər. Mənbələrdə ənənəvi el sənəti nümunələrində canlıların fiqurlarından quraşdırılmış ornamentlər içərisində ən geniş yayılanının heyvan rəsmləri olduğu qeyd

edilir. Və göstərilir ki, bu tipli rəsmlər, əsasən, üç qrupa bölünür: ev, vəhşi və fantastik heyvan rəsmləri. Keçmişdə ev heyvanları içərisində ən geniş yayılanı at, öküz, qoyun və dəvə olmuşdur. İnsanların həyat və təsərrüfatlarında mühüm rol oynayan bu heyvanlar hələ ta qədimdən sənət nümunələrində stilizə edilmiş halda təsvir olunmuşdur. Mənbələrdə qoç buynuzunun, pişik ayağının, qurd izinin, dəvə ləpirinin el sənətinin müxtəlif növlərində təsvir edilməsinə rast gəlinir. Bizim üçün maraqlı faktlardan biri odur ki, bu, incəsənətin ən geniş yayılmış növlərindən olan, yaranması Naxçıvan diyarının Şərur bölgəsi ilə əlaqələndirilən yallılara da hopmuşdur.

Şərur bölgəsində yaranan, qədimliyinə görə ikinci yallı hesab olunan "Hoydu, nərim" yallısının yaranma tarixi haqqında bəzi məlumatları oxuculara çatdırmaq istəyirik.

Mənbələrdə göstərilir ki, insanlar keçmişdə dağ aşırımlarında yaşadıqlarından və ehtiyac üzündən vəhşi heyvanları əhliləşdirmək istəmişlər. Bu heyvanlardan ilki at, qoyun və dəvə olmuşdur. İnsanlar üçün gərəkli olan heyvanlardan ən əlverişlisi dəvə sayılmışdır. Onun ağır yük götürə bilməsi, soyuğa, istiyə, susuzluğa, aclığa dözümlülüyü, sahibinə sədaqəti məişət üçün olduqca əlverişli əlamətlər idi. O həm də hər hansı bir çətin keçilən yolu kəsə gedə bilən heyvandır. Bunumla bağlı şifahi xalq ədəbiyyatının bayatı janrında bəzi nümunələrə də rastlanmaqdadır.

***Əzizim, kəsəmənnər,***
***Yol gedər kəsəmən nər.***
***Poyludan ölən olsa,***
***Baş yolar kəsəmənnər.***

Mənbələrdə Şərur bölgəsində "Kərimbəyli-Kəsəməni" adlanan qədim yaşayış yerinin olması, burada insanların

dəvə saxlamaları barədə məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlarda həmçinin dəvənin, adətən, yolu kəsə getməsi faktı da diqqətə çatdırılır. Həmin prosesi özündə ehtiva edən yallılardan birinə "Hoydu, nərim" adının verilməsi də məhz buradan qaynaqlanır. Yallıda bir dəstənin o biri dəstənin qarşısına keçərək kəsə irəli keçməklə nərin hərəkətinə uyğun yürüşü təcəssüm olunur. Ağır yük altında yatmayan, yükü belindən salmayan, getdiyi yol nə qədər əziyyətli olsa belə, yoluna davam edən, yüksək dağ yolunu cəsarətlə qət edən, çətinliyə düşəndə nərə çəkən dəvəyə insanların sitayişi səbəbsiz olmamışdır. Ona görə də dəvəyə tərif olaraq əcdadlarımız dərin mənalı və dəyərli, dəvə karvanının yerişini, hərəkətini təcəssüm etdirən yallı yaratmış və ona "Hoydu, nərim" adını vermişlər.

Yeddihecalı bayatının səsləndirildiyi "Arzumanı" yallısı muxtar respublikanın Şərur bölgəsində ən geniş yayılan qədim sənət nümunələrimizdəndir. Yallı ifaçılarının hərəkətlərində arzusunda olduqları diləklərinə çatmağa can atdıqları hiss olunur. Məhz bu fikir yallının qayəsini təşkil edir. Burada maraqlı məqam yallı adının ikinci komponenti olan "manı" sözü ətrafında aparılan tədqiqatlar barəsindədir.

Əsrlərin süzgəcindən süzülüb bu günümüzə qədər gəlib çatan və dil ifası ilə gedilən yallılarda Azərbaycan şifahi xalq ədəbiyyatının bayatı janrına aid nümunələrdən daha çox istifadə olunur. Bayatı şeir şəklinin adı haqqında bir sıra mülahizələr mövcuddur. "Türk xalqları ədəbiyyatında "manı" növü və Azərbaycan bayatılarının xüsusiyyəti" adlı tədqiqat əsərinin müəllifi olmuş Əmin Abidə görə, türk xalqları folklorunda heca vəzninin "yeddili"si ilə yaradılan dördmisralı müstəqil mənzumələr yalnız Azərbaycanda "bayatı" adlanır. Mənbələrdə qərb ləhcəsində bu şeir növünün

"mani" adlandırıldığı bildirilir. Alim qeyd edir ki, Azərbaycanın bəzi kəndlərində də bayatıya "mani-məni", "mahni-mahna" deyilir. Tədqiqatçılar "manı" sözünün mənasına da toxunmuşlar. A.Samoyloviçə görə, osmanlılar və azərbaycanlılar bunu "mani" kimi yazırlar. Əmin Abid yazır ki, Övliya Çələbi həmin şeir şəklindən öz "Səyahətnamə"sində istifadə etmiş və bunu "məni" kimi yazmışdır. Əmin Abid belə bir nəticəyə gəlir ki, sözün kökü "məni"dir və türkcə tələffüzünə görə "mani" olmuşdur. Sonralar xalqımız içərisində həmin şeir şəkli bayatı kimi, xalq şerinin digər şəkilləri də mahnı, nəğmə kimi sabitləşmişdir. M.F.Köprülünün yazdığına görə, türk xalqlarının ən qədim nəzm şəkli manidir. Çox güman ki, muxtar respublikamızın Şərur bölgəsinə aid "Arzumanı" yallısı arzu və istəkləri ifadə edən bayatıların ("manı"ların) məcmusudur.

***"Şərq qapısı" qəzeti,***
***23.11.2012-ci il***

## NOVRUZ TAMAŞALARI

***Yazın ilk günü olan Novruz bayramını, yəni təbiətin oyanmasını xalqımız həmişə ən əziz bayram kimi təntənə ilə qeyd edir. Adamlar əvvəlcədən bayrama hazırlaşır, evlər təmizlənir, paltar-palazlar çırpılır, qab-qacaqlar yuyulur. Novruz süfrəsinə düzmək üçün cürbəcür xörəklər, çərəz, şirni hazırlanır. Xalq etiqadına görə, bayram axşamı gərək hamı dərd-qəmi unutsun, şən əhval-ruhiyyədə olsun. Çünki belə olduqda bütün il də adamlar üçün elə bu tərzdə keçər. Novruz bayramında bir sıra mərasim və ayinlər icra olunar. Tarixi mənbələr göstərir ki, xalqımız arasında at həmişə insanın şərəfi, qəhrəmanlığı və qələbəsinin rəmzi olduğu halda, atsızlıq zəifliyin, məğlubiyyətin ifadəsi olmuşdur.***

### *“Cıdır” mərasimi*

Azərbaycan xalqının qəhrəmanlıq tarixini əks etdirən “Kitabi-Dədə Qorqud” dastanının boylarında əcdadlarımızın ata bəslədikləri sonsuz məhəbbət bədii dillə təsvir edilmişdir. Novruz bayramı ilə əlaqədar Ordubad rayonunun ucqar dağ və sərhəd kəndi Tividə adamların yaşatdıqları mərasimlərdən olan “Cıdır” bu mənada xüsusi qeyd olunmalıdır. Novruz bayramı ərəfəsindəki çərşənbələrin sonuncusundan – torpaq çərşənbəsindən sonrakı günün erkən səhərindən başlanan suüstü mərasiminin ikinci mərhələsi sayılan “Cıdır” mərasimində rayonun Xurs, Nürgüt, Nəsirvaz, Bist, Tivi və Parağa kəndlərinin cavan çaparları qara zurnanın sədaları altında yarışırlar. Mərasimdə

atlara göstərilən diqqət onların cilovundan, yəhərindən, üzəngisindən bəlli olar. Kütləvi cıdırdan sonra fərqlənən atlarla sərt yoxuş yollarla "Haça" deyilən təpəyə qədər çapılır. Mərasim çal-çağırla sona çatır. Mərasimdən sonra camaat halal zəhmətlə qazandığı nemətlərlə dolu süfrəyə digər kəndlərdən mərasimə gələn tamaşaçıları da dəvət edər.

### *"Xanbəzəmə" meydan tamaşası yaşadılan milli dəyərlərdəndir*

İlaxır çərşənbə günü və ondan sonrakı Novruz bayramı günlərində Ordubadda göstərilən "Xanbəzəmə" meydan tamaşası əski çağlardan davam edərək bu günümüzə gəlib çatan adətlərdəndir. Bayram günü sübh çağından bir qədər keçəndən sonra kiçikdən böyüyə hər kəs heç bir dəvət almadan mərkəzi meydana toplaşır. Qara zurna və nağaranın müşayiətilə musiqi nömrələri ifa olunur. Geyinib bəzədilmiş



xan təmtəraqla meydana gətirilərək meydanın yuxarı başında qurulmuş taxtda əyləşdirilir. İki oğlan uşağı xanı yelpiklə yelləyir. Meydan tamaşası üçün seçilmiş vəzir-vəkil də gəlib xanın sağ-solunda əyləşirlər. Təyin olunmuş fərraşlar, qırmızı paltar geyinmiş cəllad xanın əmrlərinə hazır dururlar. Xanın verdiyi əmrlər mərhələ-mərhələ yerinə yetirilir. Yola salınmaqda olan qışın simvolları Kosa və Keçəl, yalançı pəhləvanın rəmzi olan təlxək meydana atılıb cürbəcür gülməli oyunlar göstərməklə xanı güldürməyə çalışırlar. Çünki el adətinə görə, xan gülərsə, onu taxtdan endirib yerinə təzə xan seçərlər. "Xanbəzəmə" mərasimində Kosa və Keçəl obrazı ilə yanaşı, xan obrazı və onun ətrafındakılar da qışın rəmzi kimi xalqın yaddaşında yaşamışdır. Xanı güldürmək el arasında insanların sərt, qaşqabaqlı qışın yerinə gülərüz, mülayim, onlara sevinc, xoş güzəran, ruzi-bərəkət gətirən yazı gətirmək istəyini ifadə edir. Adətə görə, mərasimin sonunda xanın güldürülüb üzərinə su atılması qışın yola salınması və yazın qarşılanması anlamını daşıyır.

### *"Yumurta döyüşdürmə" oyun-əyləncəsi Novruzun sevilən mərasimlərindəndir*

Novruz bayramı ərəfəsində qeyd olunan su çərşənbəsindən başlayaraq oğlan uşaqları, cavanlar və ortayaşlı nəslin nümayəndələri yumurta döyüşdürmə oyun-əyləncəsi keçirirlər. Yumurta döyüşdürmə oyununda, əsasən, bişmiş və müxtəlif rənglərlə boyanmış yumurtalardan istifadə olunur. Qədim azərbaycanlıların ilaxır çərşənbələr arasında və Novruz bayramı günlərində qırmızı yumurta boyamaq adəti torpağın dirilməsi, canlanması, bir sözlə, oyanma, dirilmə inancı ilə əlaqədardır. O da məlumdur ki, il hər biri üç aydan ibarət olmaqla, dörd fəslə bölünmüşdür.



Ulu əcdadlarımız da yumurtaları yaşıl (göy), sarı, qırmızı rənglərlə boyamaqla bu rənglərin hər birinə təbiət səciyyəsi vermişlər. Boyanmamış ağ rəng qışı, yaşıl rəng yazı, qırmızı rəng yayı, sarı rəng payızı mənalandırır. O da qeyd olunmalıdır ki, mənbələrdə ulu əcdadlarımızın ibtidai təsəvvür və etiqadlarında yumurta həm də Tanrının bəşəriyyətə bəxş etdiyi dörd əsas maddi nemət olan hava, su, torpaq və odun bir yerdə əks olunduğu nəsnə kimi səciyyələnir. Belə ki, yumurtanın dairəviliyi və qabığı torpağı, pərdəsi havanı, ağı suyu, sarısı isə odu simvollaşdırır. Xalqımızın bədii təfəkküründə kök salmış bu oyun-əyləncənin xüsusiyyətləri dahi Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin əsərlərində də özünə yer almışdır. Yumurta döyüşdürmə mərasimindən sonra keçirilən oyunlar da maraqlı əyləncələrdən olmuşdur. Belə oyunlardan biri də yumurtaları yoxuş yerdən üzüaşağı diyirlətməkdir. Cavanlar və uşaqlar tərəfindən icra olunan bu oyunda kimin diyirləndirdiyi yumurta uzaq məsafəyə gedərsə, o, qalib hesab olunur. Çox sevindirici haldır ki, Novruz bayramı ərəfəsində və bayramaqədər müddətdə ulu əcdadlarımız tərəfindən icra olunan oyun və əyləncələr bu gün də muxtar respublikamızın yaşayış məntəqələrində bu və ya digər variantlarda yaşamaqdadır.

***"Şərq qapısı" qəzeti,***
***20.03.2014-cü il***

## UCALTDIĞI BAYRAQLA QALXDI HAQQ DƏRGAHINA

Nurlu, aydın səhərin tər çiçəkdə şehiydi,
Ömrümüzə təsəlli, ilk baharın mehiydi,
Ürəklərdə taxt quran könüllər fatehiydi,
Ulularıın ulusu, mənim ulu rəhbərim!

Bayrağımın al rəngi damarının qanıydı,
Mavi rəngin çaları cismiydi, canıydı.
Haqdan gələn haqq idi, din idi, islam idi,
Ulularıın ulusu, mənim ulu rəhbərim!

O, nurlu gələcəyə aparırdı milləti,
Zəkası nur etmişdi qaranlığı, zülməti.
Millətimə ərməğan etdi haqq-ədaləti,
Ulularıın ulusu, mənim ulu rəhbərim!

O, ömrünü şan etdi xalqının istiqlalına,
And yerimiz vətənin yetişdi fəryadına.
Ucaltdığı bayraqla qalxdı haqq dərgahına,
Ulularıın ulusu, mənim ulu rəhbərim!

***"Şərq qapısı" qəzeti,***
***3 noyabr 2004-cü il***



## SƏN DÜNYADAN KÖÇƏNDƏ

Gözdə yaş gilələndi,
Bayatıyla bəzəndi,
Göylər yolub saçını,
Ağlayıb qəhərləndi
Sən dünyadan köçəndə.

Damlaları selləndi,
Dərya, dəniz lilləndi.
Səni sevən millətin,
Tanrıdan gileyləndi
Sən dünyadan köçəndə.

Xəbər tutdu hər yanı,
Yeri, ərşi, cahanı.
Tanımayan tanıdı,
Yurdun Azərbaycanı
Sən dünyadan köçəndə.

Haray qopdu, ün düşdü,
Sevinc, şadlıq gen düşdü.
Şəvə kimi tellərə,
Qar ələndi, dən düşdü
Sən dünyadan köçəndə.

Bayrağında ulduz, ay,
Azadlığın bizə pay.
Şəhidlərin şəhidi,
Dedi millət, çəkdi hay
Sən dünyadan köçəndə.

Ürək yandı, köz düşdü,
Dodaq əsdi, söz düşdü.
Uca ziyarətgaha,
İzdihamlı iz düşdü
Sən dünyadan köçəndə.

Dağda mələdi ahu,
Qalxdı fəryadı, ahı.
Millətin özü seçdi,
Özünə səcdəgahı
Sən dünyadan köçəndə.

Ox dəydi yaralandı,
Ürəklər paralandı.
Haqq dərgahı ağladı,
Qapısı aralandı
Sən dünyadan köçəndə.

Haqsan, haqqı seçmisən,
Öz canından keçmisən.
Bu dünyadan köçəndə,
Ürəklərə köçmüsən
Sən dünyadan köçəndə.

***“Şərq qapısı” qəzeti,***
***17 yanvar 2004-cü il***

## YURDUMA ALİ BAŞ KOMANDAN GƏLİB

Bəzənib Naxçıvan bayram sayağı,
Memar əlləriylə cilvələnibdir.
Durub zirvəsində Heydər sorağı,
Alqışlarla ərşə zirvələnibdir.

Günəş cövlan edir asimanında,
Sevincdən kəhkəşan ona dar gəlib.
Titrəyib damarım, coşub qanım da,
Yurduma Ali Baş Komandan gəlib.

Onun gəlişiylə sevinir cahan,
Göylər qibtə edir insan sayına.
Durub ənginlərdə mərd Azərbaycan,
İlham yaraşıqdır onun boyuna.

Alqış deyən dillər düşməyir heydən,
Ürəklər ümmantək ləpələnibdir.
Onun gəlişiylə ay-ulduz göydən,
Şərqin qapısına səpələnibdir.

Deyir nəğmələrim, dil açır sözüm,
Rəhbərə sevgini dost ellərinə.
Sevincdən, fərəhdən coşub Arazım,
Rəhbərim qonaqdır sahillərinə.

***"Şərq qapısı" qəzeti,***
***27 may 2004-cü il***

## YURDUMA BAHAR GƏLİR

Sellər-sular çağlayır,
Zirvələr qan ağlayır.
Günəş şəfəq teliylə,
Bar-bərəkət bağlayır -
Yurduma bahar gəlir!

Şimşəklər gur səsiylə,
Qaranquş nəğməsiylə.
Yerin bağrını oyan,
Nida şəlaləsiylə -
Yurduma bahar gəlir!

Yam-yaşıl meşəsiylə,
Min sevinc nəşəsiylə.
Kol dibindən boylanan,
Küskün bənövşəsiylə -
Yurduma bahar gəlir!

Saçaq-saçaq teliylə,
Qəlb oxşayan mehiylə.
Qızların yanağı tək,
Qızaran laləsiylə -
Yurduma bahar gəlir!

Günəş qarı talayır,
Lalədən od qalayır.
Arılar sevincindən,
Gül-çiçəyi yalayır -
Yurduma bahar gəlir!

Fəsillərin gözəli,
Gəlir meyli-məzəli.

Güllər ləçəklərində,
Qaldırarlar xəzəli -
Yurduma bahar gəlir!

Qulaq tutulur səsdən,
Şadlıq umur hər kəsdən.
Dağ çayını qurtarıb,
Buz altdakı məhbəsdən -
Yurduma bahar gəlir!

Arzular aşıb-daşır,
Gözəllər pıçıldaşır.
Sahilləri öpən sel,
Oymaq-oymaq dolaşır -
Yurduma bahar gəlir!

Küsülülər barışır,
Şeh-şəbnəmlər sayrışır.
İz düşür bağ-bağçaya,
Tər torpağa qarışır -
Yurduma bahar gəlir!

Düzlər pörtüb al olur,
Buz-bulaqlar bol olur.
Bülbüllərin yanında,
Boz sərçələr lal olur -
Yurduma bahar gəlir!

Ürəklərin parasın,
Gözlərin ağ-qarasın.
Sağaltmaqçün elimin,
Qarabağtək yarasın -
Yurduma bahar gəlir!

## ƏSGƏR MƏKTUBLARI GƏLƏNDƏ

Yetirib özünü dəcəl uşaqlar,
Əsgər anasından muştuluq umar.
Gəlib yığışarlar yaxın uşaqlar,
Bacılar tez dükcə üstünə cumar.

O dəm ev-eşiyə düşər toy-düyün,
Dönər göyərçinə əsgər kağızı.
Düşər məhəlləyə, düşər haray, ün,
Xəlvət nişanlayar ona bir qızı.

İntizar ürəkdə tutanmaz qərar,
Əsgər məktubları sevinc, nur ələr.
Fikirlər arıtlar, xəyallar arar,
Sevən ürəklərdən nə keçər, nələr.

Sevgi cığırına düşər izləri,
Çıxarlar sadiqlik sınaqlarından.
Sevincdən qızların dolar gözləri,
Vücudu su içər yanaqlarından.

İsti nəfəsiylə vüsala qədər,
Ayrılıq qovrular ürəklərində.
Arzular dil açar, gün düşər kədər,
Alışar göylərin küləklərində.

Eşq səhərlərini qəlbində tutub,
Vətənin yolunda canından keçər.
Qızlardan əsgərə hər gedən məktub,
Vətən sevgisini səfərbər edər.

***"Şərq qapısı" qəzeti,***
***7 avqust 2004-cü il***

## BİR GÖZƏLLİK ƏDASIDIR NAXÇIVAN

Tarixləri varaq-varaq qalanan,
Qocalığı gəncliyinə calanan,
Əcəminin əllərilə ucalan,
Türbələrin anasıdır Naxçıvan!

Ululuğu naxışlanıb kaşıynan,
Öyünürəm saxsısıynan, daşıynan,
Yağılara sinə gərmiş döşüynən,
Əyilməzlik nidasıdır Naxçıvan!



Tufanlara diksinərək oyanan,
Mərdlik ilə, əzəmətlə dayanan.
Al günəşin şəfəqilə boyanan,
Dan yerinin simasıdır Naxçıvan!

Qeyrət qalasıyla, Şəruru qoşa,
Şahbuz gülüstandır, Babək tamaşa.
Culfa, Ordubada aşıq söz qoşa,
Nəğmələrin sədasıdır Naxçıvan!

Bu büsatı bəhrəsidir əllərin,
Xoş növrağı nəğməsidir dillərin.
Hər tərəfdə ətir saçan güllərin,
Gözəllərə ədasıdır Naxçıvan!

Ərşə qalxır nişan səsi, toy səsi,
Əhdə sadiq yara çatır neçəsi.
Durnaların gəlin köçən gecəsi,
Zər naxışlı aynasıdır Naxçıvan!

Ərənlərin səf-səf durub qoşununan,
Qoymaram bir tük əksilə qaşından,
Haqsızlıqla Zəngəzurun başından,
Ayrı düşən cunasıdır Naxçıvan!

## BATABAT

Ağ buludlar qayaların cünası,
Qövsü-qüzeh yamacların xınası.
Gözəllərin göllərinin sonası,
Gözəllərin gözəlisən, Batabat.

Çən-dumanın gecələrin yorğanı,
Yamac taxıb lalələrdən sırğanı.
Toy-mağara bələnibdi yarğanı,
Söz-söhbətli məzəlisən, Batabat.

Fərhad evi ucalıqdan boylanır,
Sürülərin güneylərdə yaylanır.
Sevda yolun qucağımdan paylanır,
Məhəbbətin əzəlisən, Batabat.
Söz-söhbətli məzəlisən Batabat.

## BAHAR LÖVHƏSİ

Nəğmə tutub yenə oba-oymağı,
Babam dağlar, bığın burma eşibdir.
Hikkəsindən ildırımlar çomağın,
Elə vurub göy təbili deşibdir.

Züyçü bulaq salamlayır çəməni,
Dəstəbaşı qaranquşdur qabaqda.
Dağlar sanki bəslənilən səməni,
Düzlər onu qaldırırlar tabaqda.

## ANAMIN GİLEYİ

Anam suya gedərdi,
Çiynində də səhəngi.
Ləngiyərdi anamın,
Addımının ahəngi.

Yorulardı yollarda,
Bulaqda dincəlirdi.
Qızları bircə-bircə,
Gizli-gizli süzərdi.

O, kömək ummasa da,
Bir qızdan, bir gəlindən.
Səhəngini anamın,
Alardılar əlindən.

Olsa da bulaq yolu,
Yeniş-yoxuş dolanıb.
Bu qızların hamısı,
Kömək idi anama.

Qızlar anam deməmiş,
Öz işini tapardı.
Kimisi çörək açar,
Kimisi də yapardı.

Həyət-baca gül kimi,
Doymaq olmaz iyindən.
“Bəli”lər, “baş üstə”lər,
Birisi çox birindən.

Kəndə döndüm bax bu yaz,
Hər yan güldü üzümə.
Anam yaman gileyli,
Dəydi mənim gözümə.

Öyrəndim qızlar daha,
Yetmir onun dadına.
Heç yaxın da düşmürlər,
Ocağına, oduna.

Qızların ürəyini,
O yandırıb, yaxıbdı.
Sən demə anam mənə,
Təzə nişan taxıbdı.

## QIZLAR SUYA GEDƏNDƏ

Arzular giləlnər,
Pıçıltıya bələnər.
Ulduzlar da elə bil,
Göydən yerə ələnər,
Qızlar suya gedəndə.

Küçələrə göz düşər,
Ürəklərə köz düşər,
Kəndin sevgi yoluna,
Təzə cığır, iz düşər,
Qızlar suya gedəndə.

Yağış yağar sellənər,
Çeşməmiz də lillənər,
Anam subaylığımdan,
Mənə hey gileylənər,
Qızlar suya gedəndə.

## VƏLİ BAXŞƏLİYEV

## NAXÇIVANIM

*AMEA-nın müxbir üzvü*
*Vəli Baxşəliyeva həsr olunur*



Gəlin sizə xəbər verim,
Naxçıvanın tarixindən.
Yerin dərin qatlarında,
Sirr saxlayan arxivindən.

Naxçıvanın sinəsində,
Beş min illik tarix yatıb.
İlkin şəhər olmağına,
Neçə alim imza atıb.

“Gəmiqaya”, “Əshabi-Kəhf”,
Eraların yaddaşıdır.
Möminə xatın türbəsi,
Əcəminin sirr daşıdır.

Minillikdən soraq verir,
“Oğlanqala”, “Qızqalası”.
Əcdadımın sığındığı,
“Kilit” adlı mağarası.

“Haçadağı” ucalığım,
“Əlincə”si mərdliyimdir.
Teymurləngin oxlarını,
Əyən daşlar sərtliyimdir.

Ulu Tanrı sığal çəkib,
Naxçıvanın çöhrəsinə.
Dədəm Qorqud boy-boylayıb,
Ərənlərin hər birinə.

Bir aləmdir "Batabat"ın,
"Ağbulağ"ın cazibəsi.
Hər bir kəsi heyran edir,
"Duzdağ"ın duz möcüzəsi.

Abidələr diyarıdır,
Qoca-cavan Naxçıvanım!
Odur mənim söz çələngim,
Odur mənim Adım-sanım!

**Rövşən Hüseynov**
***9 oktyabr 2023-cü il***

# YENİ TƏDQİQATLAR TARİXİMİZİN AÇILMAMIŞ SƏHİFƏLƏRİNİ ÜZƏ ÇIXARIR

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan elminin inkişafını daim diqqət mərkəzində saxlamış, onun inkişafına qayğı göstərmişdir. Ulu Öndər elmin inkişafının yalnız mərkəzdə cəmlənməsi ilə razılaşmamış, Azərbaycanın regionlarında da elmin inkişafı üçün tutarlı tədbirlər görmüşdür. 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə bağlı görkəmli dövlət xadiminin müvafiq Sərəncamı bunun bariz nümunəsi idi.*

2002-ci il avqust ayının 12-də AMEA Naxçıvan Bölməsinin yaradılması ilə bağlı iclasda çıxış edərkən Ulu Öndər Heydər Əliyev demişdir: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən, dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram".*** XX əsrdə Azərbaycan Respublikasının müstəqillik qazanması ölkəmizin sosial-iqtisadi və mədəni inkişafı üçün yeni fürsət verdi. Müstəqillik illərində ölkəmizin qarşısında duran vəzifələri dərindən təhlil edən görkəmli dövlət xadimi deyirdi: ***"Müstəqillik haqqında şüar demək, yaxud onun haqqında yaxşı bir şeir oxumaq – bu hələ müstəqilliyi möhkəmləndirmək deyildir. Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kino-lentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır".***



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Ulu Öndərin çıxışlarından irəli gələn məsələləri həll etmək üçün geniş fəaliyyət proqramı hazırlayaraq onu həyata keçirmiş və bu işlər uğurla davam etdirilməkdədir. Ötən illər ərzində tarix, ədəbiyyat, incəsənət, dil və folklorumuzla bağlı dəyərli tədqiqat əsərləri nəşr olunmuşdur. Bölmənin qarşısında duran mühüm vəzifələrdən biri də xalqımızın qədim tarixinin öyrənilməsi və tarixi həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarət idi. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu dünyanın müxtəlif ölkələrinin universitetləri ilə, o cümlədən Amerika Birləşmiş Ştatlarının Pensilvaniya, Emory, Utah, Avstraliyanın Monaş Universiteti ilə elmi əlaqələr yaratmışdır. 2006-cı ildən başlayaraq aparılan arxeoloji araşdırmalar xeyli uğurlu nəticələr vermişdir.

Məlum olduğu kimi, bədxah qonşularımız Cənubi Qafqazda mövcud olan qədim abidələri və arxeoloji mədəniyyətləri öz adlarına çıxmağa cəhd etmişlər. Orta Tunc dövrünə aid Qızqala yaşayış yerinin beynəlxalq Azərbaycan-ABŞ arxeoloji

ekspedisiyası tərəfindən öyrənilməsi nəticəsində boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq etmişdir. Beynəlxalq arxeoloji ekspedisiyanın Qızqala yaşayış yerində, həmçinin Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar edilməsi Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini göstərir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarımköçmə maldarlıqla məşğul olmuşdur. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir. 2015-ci ilin ikinci yarısında bu abidələrin tədqiqi zamanı yeni faktlar aşkar olunmuşdur. İnsan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən olunmuşdur ki, Arpaçay vadisində məskunlaşan qədim tayfaların məskəni Naxçıvan olmuşdur. Onlar yaz və yayda Arpaçay vadisi ilə indiki Ermənistan ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə etmiş və geri dönərək bu vadidə – Qızqala yaşayış yerində yaşamışlar. Eramızdan əvvəl II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaları müdafiə mövqeyi tutmağa məcbur etmiş, yaşayış yerində iri daşlardan qala divarları inşa edilmişdir. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan tayfaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir. Tədqiqatların yekunu Cənubi Qafqazın Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq

və yarımköçəri həyat tərzini mənimsəyən tayfalara məxsus olduğunu təsdiq etmişdir.

Cənubi Qafqazda Dəmir dövrünün ən böyük abidələrindən biri olan Oğlanqala yaşayış yerində 2008-2012-cu illərdə beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən tədqiqatlar aparılmışdır. Həmin tədqiqatlar Naxçıvan tarixinin öyrənilməmiş səhifələrini üzə çıxarmağa imkan vermişdir. Araşdırmalar eramızdan əvvəl IX-VI əsrlərdə Oğlanqalanın müstəqil dövlətin mərkəzi olduğunu və urartulara qarşı müvəffəqiyyətlə mübarizə apardığını göstərir. Arxeoloji tapıntılar göstərir ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Naxçıvanda məskunlaşması və Naxçıvan tayfalarının Göyçə ətrafındakı Etiuni tayfaları ilə ittifaq yaratması onun yadelli işğalçılara müqavimət göstərməsinə imkan yaratmışdır.

2019-2022-ci illərdə Dəmir dövrünün mühüm abidəsi olan Sədərək Kültəpəsində aparılan tədqiqatlar bu yaşayış yerinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Dəmir dövrünə aid ən qədim şəhər yeri olduğunu göstərmişdir. Arxeoloji araşdırmalar zamanı şəhərtipli strukturların, təqribən, eramızdan əvvəl 900-790-cı illərdə, yəni urartuların Cənubi Qafqaza yürüşlərindən xeyli əvvəl salındığını təsdiq etmişdir. Qeyd etmək istəyirik ki, Yaxın Şərq və Cənubi Qafqazda formalaşan Urartu dövlətinin ermənilərlə etnik baxımdan yaxın olması ilə bağlı bəzi erməni alimlərinin uydurma fikirləri hazırda dünya alimləri tərəfindən alt-üst edilmişdir. Urartu dilinin mənşəcə türk dilləri ilə bağlılığı da söylənmişdir. Digər tərəfdən, Urartu işğallarına qədər Azərbaycanda, o cümlədən Naxçıvanda Etiuni tayfalarına məxsus mədəniyyət mövcud olmuşdur. 2023-cü il mayın 16-da Sədərək Kültəpəsinin tədqiqi zamanı aşkar olunan

şəhərin strukturlarının öyrənilməsinə başlanmışdır. Tədqiqatlar zamanı Sədərək şəhərində daş döşəməli yeni küçənin qalığı aşkar edilib. Ümidvarıq ki, yeni tədqiqatların davamı tariximizin açılmamış səhifələrinin üzə çıxarılması ilə nəticələnəcəkdir.

**Vəli Baxşəliyev**
***AMEA-nın müxbir üzvü***

## Vəli Baxşəliyev: "TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ MÜTƏXƏSSİSLƏRİN İŞTİRAKI İLƏ BƏRPA OLUNMALI, TARİXİ GÖRKƏMİ QORUNUB SAXLANILMALIDIR"

*Qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan ərazisində müxtəlif təyinatlı tarix və mədəniyyət abidələri mövcuddur. Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyası milli sərvətlərimizin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bu mənada, böyük əhəmiyyət daşıyır və gələcəkdə tarixi-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması və sair nəzərdə tutulur, tarixi-memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılmasını ön plana çıxarır. Müsahibimiz Naxçıvanın qədim tarixi və arxeoloji abidələri ilə bağlı zəngin tədqiqatlar aparan, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdir.*

***– Vəli müəllim, əvvəlcə öyrənmək istərdik ki, adıçəkilən Dövlət Proqramı Naxçıvanın gələcək inkişafına nə kimi töhfə verəcək?***

– Ölkə başçısı tərəfindən qəbul edilən müvafiq Dövlət Proqramı Naxçıvanın gələcəkdə sosial-iqtisadi inkişafı üçün baza yaradacaq və 2027-ci ildən sonra da ölkəmizin irəliyə doğru inkişafının addımları atılacaqdır. Muxtar respublika-



mızda müasir tələblərə cavab verən sənaye və kənd təsərrüfatı müəssisələrinin, yeni iş yerlərinin yaradılması əhalinin sosial təminatının yaxşılaşması və insanların burada sıx məskunlaşmasına şərait yaradacaq. Bildiyiniz kimi, hazırda Azərbaycanın Qarabağ bölgəsində əhalinin məskunlaşması ilə bağlı müəyyən tədbirlər görülür və ilk olaraq orada infrastrukturlar, iş yerləri yaradılır və insanlar köçürülür. Bu mənada, Dövlət Proqramı gələcəkdə Naxçıvanın iqtisadi inkişafına və bunun əsasında sosial inkişafına böyük təkan verəcək.

***– Naxçıvanın qədim tarixinin, tarix-mədəniyyət abidələrinin daha yaxşı öyrənilməsi, tədqiqi, bərpası baxımından hansı işlər görülməlidir?***

– Müvafiq Dövlət Proqramında tarix-mədəniyyət abidələrinin öyrənilməsi və bərpası ilə bağlı müəyyən işlərin görülməsi nəzərdə tutulur. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının tarix və mədəniyyət abidələrinin öyrənilməsi ilə bağlı müəyyən işlər görülübdür. AMEA Naxçıvan Bölməsinin apardığı tədqiqat işləri nəticəsində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınıb. Əlbəttə ki,

bunların hamısını eyni vaxtda öyrənmək mümkün deyil. Onları qoruyub saxlamaq, mühafizə etmək ən vacib məsələlərdən biridir. Bəzi abidələrimiz əkin yerlərinin, bəziləri tikinti obyektlərinin kənarındadır. Buna görə biz bəzən insanların laqeyd münasibəti ilə rastlaşırıq. Bu da tarix və mədəniyyət abidələrimizin dağılmasına gətirib çıxarır. Həmin bölgədə yaşayan, işləyən insanlara, müvafiq icra hakimiyyətinə, eyni zamanda fermerlərə, sənaye müəssisələrinin sahiblərinə bu haqda müəyyən maarifləndirici məlumatlar verilməlidir ki, onlar bu abidələri məhz özləri qorumalıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın borcudur.

Abidələr gələcəkdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq tədqiq olunmalıdır. Onların tədqiqi üçün müəyyən miqdarda vəsait lazımdır və əlbəttə ki, bunun hamısını birdən-birə büdcədən ayırmaq olmur, ona görə də tədricən tədqiq edilməli, eyni zamanda müəyyən qismi də bərpa, konservasiya olunmalıdır. Bizdə bəzən abidələrin bərpasına önəm verilir, milyonlarla pul xərclənir, lakin abidələrin konservasiyasına diqqətlə yanaşılmır. Elə abidələrimiz var ki, onların əsaslı bərpası böyük vəsait tələb edir, lakin onların konservasiya olunması və mühafizəsi o qədər də böyük vəsait tələb etmir. Ona görə də onları qoruyub saxlamaq, ilkin olaraq konservasiya etmək lazımdır, yəni olduğu vəziyyətdə mühafizə etmək, dağılmasının qarşısını almaq, gələcəkdə isə həm tədqiq, həm də bərpa etmək olar.

***– Ən önəmli nüanslardan biri də abidələrin restavrasiya, bərpa prosesinin düzgün, qədim tarixə uyğunlaşdırılmış***

***şəkildə aparılmasıdır. Bu mənada, Naxçıvanda vəziyyət necədir?***

– Əlbəttə ki, tarix-mədəniyyət abidələri mütəxəssislərin iştirakı ilə bərpa edilməlidir, eyni zamanda həmin bərpa ilə məşğul olan insanlar bu sahədə müəyyən ixtisas sahibləri olmalıdırlar. Çünki sıradan bir usta həmin tarix-mədəniyyət abidəsini bərpa edə bilməz. Ortaya çıxan nöqsanlar da bununla bağlıdır. Abidələrin bərpası ilə birbaşa bu sahə üzrə ixtisaslaşmış ustalar deyil, inşaat işçiləri məşğul olublar. Bəzi abidələr bərpa edilərkən onların müasirləşdirilməsinə yol verilib, qədim dövrlərə, orta əsrlərə aid tikinti texnikası nəzərə alınmayıb. Onların daha möhkəm olması üçün sementlə bərkidilməsi, daha yaxşı görünməsi üçün boyanması hallarına rast gəlirik ki, bu da yolverilməzdir. Hər hansı tarixi abidənin gözəlliyi onun tarixi görkəmindədir. Yəni onun üzərinə boya vurmaq, onu gözəlləşdirmək və yaxud da müəyyən mozaika ilə onun yaxşı görünməsinə çalışmaq olmaz. Abidə olduğu kimi, orijinal şəkildə bərpa edilməlidir. Məsələn, Gülüstan türbəsi orijinallığa uyğun bərpa olunubdur, amma abidənin hissələri müxtəlif rənglərə boyanıbdır, tamamilə müasir görkəmə salınıbdır ki, bu da onun tarixi bir abidə olması ilə bağlı tamaşaçılarda şübhə yaradır. Eyni zamanda körpülərin bərpası zamanı onların bəzilərinin daşlarının arasına sement doldurulması, əlavə tikintilərin aparılması, boyanması hadisələrinə də rast gəlirik. Bəzi abidələrin bərpası zamanı isə əlavə inşaat işləri aparılıb, minarələr, günbəzlər qoyulubdur. Məsələn, Naxçıvan şəhərində yerləşən, xalq arasında Zaviyə məscidi deyilən abidənin rənglənməsi heç də düzgün deyil, eyni zamanda günbəz hissəsi qüsurlu şəkildə bərpa olunubdur. Bu cür hallara yol verməyə ehtiyac yoxdur. Abidə necədirsə, olduğu görkəmində saxlanmalıdır.

***– Vəli müəllim, Naxçıvan Muxtar Respublikasının bəzi tarixi-memarlıq abidələrinin gələcəkdə UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması ilə bağlı nə deyərdiniz?***

– Naxçıvanda çox qədim, eyni zamanda tarixi abidələr var. Sədərək Kültəpəsi, Qazançıqala, Oğlanqala kimi bizim dünya əhəmiyyətli abidələrimizi UNESCO-nun mədəni irs siyahısına salmaq mümkündür. UNESCO-nun siyahısına salmaqda əsas məqsəd odur ki, abidələr beynəlxalq səviyyədə qorunsun. Elə bilirəm ki, hər bir xalq öz tarix və mədəniyyət abidəsini özü qorumalıdır. Fransadan, İngiltərədən, Amerikadan gəlib bizim abidələri heç kəs qorumayacaq. Yəni o siyahıya salınsa belə bu abidələrin qorunması yenə də bizim borcumuzdur. Ona görə də abidələrin mühafizəsini, qorunmasını təşkil etmək, bəzi tarix və mədəniyyət abidələrinə mühafizəçi təyin etmək xüsusilə lazımdır. Məsələn, xarici ölkələrdə belədir, hər hansı bir arxeoloji abidə tədqiq edilirsə, ora mütləq mühafizəçi təyin olunur və onun icazəsi olmadan heç kəs oraya gedib-gələ bilmir. Əlbəttə, abidəyə hər kəs gedib baxa bilər, lakin bura kim gəlir, kim gedir, abidəyə gedərkən oranın daşlarını sökmək, üzərinə əlavə yazı yazmaq hallarına rast gəlinir ki, mühafizəçilər bunlara nəzarət edirlər, eyni zamanda abidələri ziyarət edən insanlar məlumatlandırılır. Təəssüf ki, bizdə bu hal gözlənilmir. Xarabagilan kimi böyük bir abidəmiz var. Hər il ora dağıntıya məruz qalır. Təkcə vətəndaşlar tərəfindən deyil, eyni zamanda iri müəssisələr tərəfindən. Traktorla, buldozerlə oranın kürənməsi, dağılması hallarına tez-tez rast gəlinir. Və bu iş indi də davam edir və qarşısı mütləq alınmalıdır.

***– Necə?***

– Bəzi abidələr kəndlərin içərisində, kəndlərin yaxınlığında yerləşir və tikinti işləri zamanı dağıntıya məruz qalır, ona görə də mütləq lövhələr qoyulmalıdır. Eyni zamanda kəndlərin içərisində yerləşən abidələrin müəyyən çəpərə alınmasına ehtiyac var. Xarabagilanda buna ehtiyac yoxdur, sadəcə, mühafizə olunmalıdır, amma o abidələr ki bizim kəndlərimizin içərisində yerləşir, onların ətrafı çəpərlənməlidir ki, inşaat işləri apararkən oranı dağıtmasınlar.

***– Tarixi abidələrin qorunması ilə bağlı hər hansı layihə, işlər həyata keçirilibmi?***

– Keçən illərdə "İlandağ" geoparkının yaradılması ilə bağlı müəyyən işlər görüldü, sənədlər hazırlandı, lakin bu işlər hələlik yarımçıq qalıb. Bu geopark Şahbuz, Culfa, Ordubad, Babək rayonunun böyük bir hissəsini əhatə etməklə, təqribən, 100-ə yaxın arxeoloji, tarix və mədəniyyət abidələrini özündə cəmləşdirir. Və bu artıq hazır bir layihədir və onun təsdiq edilməsi ilə bağlı müəyyən işlər aparılsa daha yaxşı olardı. Bu, Naxçıvan təbiətinin mühafizə edilməsinə, eyni zamanda bölgədəki tarix və mədəniyyət abidələrinin bərpa olunmasına gətirib çıxara bilər. Bizim dünyaca məşhur Gəmiqaya abidəmiz vardır ki, dövlət parkı şəklində təşkil olunub, Zəngəzur Milli Parkına daxildir, ora mühafizə edilməlidir. Heyvandarlıqla məşğul olan insanlar oraya heyvanlarını aparır, oranı zibilləyir, ən pisi isə qədim təsvirlərin yanına əlavə olaraq rəsmlər çəkirlər. Bununla da tarixi abidələrimizi məhv edirlər. Baxmayaraq ki, Gəmiqaya milli park ərazisidir, ora heyvan ötürmək olmaz, amma yenə də mühafizə edilmir. Bunların qarşısı müvafiq icra hakimiyyəti orqanları tərəfindən alınmalı, Gəmiqaya, Göygöl, Batabat ərazilərində yaşayan, heyvandarlıqla məşğul olan insanlara abidələrlə bağlı məlumat verilməlidir ki, onların dağıntılara uğramasının qarşısı alınsın.

***– Tarix-mədəniyyət abidələri həm də turizmin inkişafında mühüm rol oynayır. Bu mənada, turizm cəlbediciliyini artırmaq üçün nə etməliyik?***

– Tarix və mədəniyyət abidələrini turizm baxımından əlverişli vəziyyətə salmaq üçün, hər şeydən əvvəl, infrastrukturlar lazımdır. İlk növbədə, müəyyən turist marşrutları olmalıdır. Bu marşrutlar üzərində bəzi abidələrimiz var, amma bəziləri yoxdur. Buna görə də infrastrukturların bərpa edilməsi, dediyim kimi, həmin abidələrin, eyni zamanda mühafizə olunması lazımdır. Elə abidələr var ki, baxımsızlıqdan ətrafını kol-kos basıb. Onlar daim təmizlənməli, səliqəli saxlanmalıdır və buraya yol olmalıdır ki, turistləri oraya aparmaq və abidə haqqında məlumat vermək mümkün olsun. Biz abidələri qeydə alarkən belə nəzərdə tutmuşduq ki, onların hamısının yaxınlığında lövhələr qoyulsun, amma bu lövhələr abidələrin əksəriyyətində yoxdur.

Turizmin inkişafı Naxçıvan Muxtar Respublikasının büdcəsinə əlavə gəlirlər gətirə bilər. Qardaş Türkiyə Respublikasında turizmə çox böyük önəm verilir və onun büdcəsinin böyük bir qismi turizmdən qaynaqlanır. Burada da bu işi həyata keçirmək mümkündür. Düzdür, Naxçıvan hələ də blokada vəziyyətindədir. Zəngəzur dəhlizinin açılmasından sonra elə bilirəm ki, vəziyyət biz istədiyimiz istiqamətdə olacaq. Bu dəhliz açılana qədər də müəyyən işləri görmək lazımdır. İndi də turistlər gəlir və turist marşrutlarını genişləndirmək üçün mütləq bu işləri görmək lazımdır. Eyni zamanda abidələrin tədqiqinə beynəlxalq ekspedisiyaları, beynəlxalq qurumları cəlb etməyə önəm verilməlidir. Həmçinin tarixi-memarlıq, arxeoloji abidələrlə bağlı internet saytlarının sayının çoxaldılmasına, beynəlxalq məcmuələrdə məqalələrin çap olunmasına ehtiyac var. Çünki

bədxah qonşularımızın bizə əsassız ərazi iddialarının əsasında tarixi abidələr də müəyyən yer tutur. Naxçıvan ərazisində olan abidələri, qədim mədəniyyətləri özlərinə çıxmağa çalışırlar. Bu sahədə AMEA Naxçıvan Bölməsində xeyli işlər görülüb, amma yenə də bunu bitmiş hesab etmək olmaz, bu iş davam etdirilməlidir.

***– Vəli müəllim, müsahibəyə vaxt ayırdığınız üçün çox sağ olun!***

– Sağ olun!

**Güntac Şahməmmədli**
***"Şərq qapısı" qəzeti,***
***10 avqust 2023-cü il***

.

## OVÇULAR TƏPƏSİ NAXÇIVANIN QƏDİM TARİXİNİN DAHA BİR SÜBUTUDUR

*Buradakı arxeoloji qazıntıların nəticələri elmi əhəmiyyəti ilə tarixşünaslığa böyük hədiyyədir*

*2006-cı ildən Şərur rayonunun Dizə kəndi ərazisindəki Ovçular təpəsində beynəlxalq ekspedisiyanın apardığı arxeoloji qazıntılar tariximizin hələ sirri açılmamış bir sıra səhifələrini üzə çıxarıb. Buradan tapılan maddi mədəniyyət nümunələri Eneolit dövründə qədim yurd yerində məskunlaşmış insanların yaşam tərzindən soraq verir. AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiya şöbəsinin müdiri Vəli Baxşəliyevlə də söhbətimiz bu barədədir.*

***-Vəli müəllim, bu arxeoloji qazıntı muxtar respublikada apardığınız ilk arxeoloji qazıntı deyil. Bundan əvvəl də bir neçə ünvanda aparılan araşdırmalarda iştirak etmisiniz. Həmin tədqiqatlar Naxçıvanın qədim tarixə malik olmasını bir daha təsdiqləyir. Bu barədə nə deyə bilərsiniz?***

-Ulu Naxçıvan torpağı qədim abidələr diyarı, maddi mədəniyyət nümunələri ilə zəngin olan yurd yeridir. Tarixin açılmamış səhifələrinə işıq salan bu abidələrin öyrənilməsi, yanarlıqla mühafizə olunması və gələcək nəsillərə ötürülməsi məqsədilə son illər ərzində həyata keçirilən tədbirlər yüksək səviyyədə olmaqla daha intensiv xarakter alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci il tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamı isə bu sahədə daha böyük

işlər görülməsinə imkan verib. Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmış, region ərazisində 1200 tarixi abidə qeydə alınmışdır. Qürur hissi keçiririk ki, onların böyük əksəriyyəti dünya və ölkə əhəmiyyətli abidələr sırasındadır. Həyata keçirilən tədbirlər bununla məhdudlaşmır. Muxtar respublikada keçirilən konfrans və simpoziumların böyük bir qismi Naxçıvanın qədim tarixinə və mədəniyyətinə həsr olunub. Bu tədbirlərdə çox mühüm elmi dəlillər üzə çıxarılıb. Naxçıvanın şəhər kimi formalaşmasının beş min il tarixi olduğu müəyyən edilib. Muxtar respublikada bu istiqamətlərdə çoxlu sayda kitab və monoqrafiyanın işıq üzü görməsi də tariximizin öyrənilməsi baxımından böyük maraq doğurub. Bu işlərlə paralel olaraq muxtar respublikanın müxtəlif bölgələrində ilkin yaşayış məntəqələrində aparılan arxeoloji qazıntılar diyarın min illərlə yaşı təkcə Azərbaycanda deyil, dünyada ən qədim yaşayış məskənlərindən biri olduğunu sübut edir. Burada apardığımız tədqiqatlar həmin arxeoloji qazıntıların davamıdır.

***-Yeri gəlmişkən, nəyə əsasən burada ilkin yaşayış məskənlərinin olduğu fikrinə gəlinib?***

- 1980-ci ildə AMEA-nın müxbir üzvü Vəli Əliyev və tarix elmləri doktoru Abbas Seyidov, 10 il sonra tarix elmləri namizədi Səfər Aşurov Ovçular təpəsində kəşfiyyat xarakterli araşdırmalar aparıblar. Və bu araşdırmaların nəticəsi uğurlu olub. Elə buna görə 2006-cı ildən bu ərazidə arxeoloji qazıntılara başlamışıq. Müəyyən etmişik ki, Ovçular təpəsi sakinləri Şərqi Anadolu, Şimali Mesopotomiya ilə sıx əlaqələr saxlamışlar. 2009-cu ildə aşkar olunan üzərində heyvan təsvirləri çəkilmiş keramikalar Mesopotomiya ilə əlaqələrin müəyyən edilməsində xüsusi əhəmiyyətə malikdir. Digər bir tərəfdən bu qazıntılar Eneolit mədəniyyəti ilə Kür-Araz

mədəniyyəti arasındakı əlaqələrin öyrənilməsində Azərbaycan tarixşünaslığına xeyli dərəcədə köməklik edəcək.

Qazıntılar zamanı üzə çıxan botaniki qalıqlar və heyvan sümüklərinin analizləri burada yaşayan insanların əkinçilik, maldarlıq, balıqçılıq, dulusçuluq, ovçuluqla məşğul olduğunu göstərir.

***-Buraya beynəlxalq ekspedisiyanın cəlb edilməsi hansı zərurətdən irəli gəlib?***

-Sovet dönəmində tariximizin təhrif olunması bu gün etnoqrafların, arxeoloqların qarşısında mühüm və çox ciddi vəzifələr qoyub. Həmin vəzifələrin yerinə yetirilməsi hər bir tarixçi alimdən, hər bir ziyalıdan, sıravi vətəndaşdan vətənpərvərlik fəallığı tələb edir. Məhz bu halda biz tariximizi doğru-düzgün yaza, buraxılmış səhvləri düzəldə, keçmişimizi olduğu kimi üzə çıxara bilərik. Yeri gəlmişkən onu da qeyd edək ki, adıçəkilən dövrdə tariximiz xarici ölkələrin tarixşünaslığında da təhrif olunmuş şəkildə verilib. Bu cəhətdən muxtar respublikamızın ərazisində aparılan arxeoloji qazıntılara müxtəlif ölkələrin bu sahə ilə məşğul olan alimləri də dəvət olunur. Apardığımız müştərək araşdırmalarda müəyyən etdiklərimizi birlikdə elmi təhlil süzgəcindən keçiririk. Gəlinən elmi qənaətlər isə tariximizin nə qədər zəngin və qədim olduğunu göstərir. Bunu xarici ölkələrdən gələn alimlər də görürlər. Bu isə bəzi bədxahların tariximizi təhrif edilmiş şəkildə ortaya çıxarmalarına əl yeri qoymur.

***-Son aylarda erməni saytlarının birində Oğlanqalada tapılmış maddi mədəniyyət nümunələrinin guya qədim erməni dövlətinə aid olduğu irəli sürülmüş və bu məlumatın onlara Pensilvaniya Universitetinin tarix və etnoqrafiya muzeyinin əməkdaşları tərəfindən verildiyi iddia olunmuşdu. Bu iddiaların təkzib olunması istiqamətində hansı tədbirlər həyata keçirildi?***

-Bəli, belə bir yalan iddia erməni saytlarının birində yerləşdirilmişdi. Ermənilər hər zaman olduğu kimi, bu dəfə də tarixi faktları saxtalaşdırmağa çalışır, Oğlanqalada tapılmış maddi mədəniyyət nümunələrinin onlara aid olduğunu iddia edir, bu ərazilərin qədim erməni dövlətinin ərazisi olduğunu bildirirdilər. Bizim tərəfdən dərhal bu iddiaların təkzib olunması üçün tədbirlər planı hazırlandı və Pensilvaniya Universitetinin Tarix və Etnoqrafiya muzeyinin əməkdaşlarına da məlumat verildi. Sözügedən universitetin saytında qısa zaman ərzində təkzib materialları yerləşdirildi. Bundan başqa, burada arxeoloji tədqiqatlara qatılmış amerikalı arxeoloqların iştirakı ilə AMEA Naxçıvan Bölməsində mətbuat konfransı keçirildi, erməni iddialarının saxta olduğu haqda ictimaiyyətə ətraflı məlumat verildi. Bildirildi ki, Oğlanqala ərazisi heç bir zaman erməni dövlətinin ərazisi olmamış, burada tarixin ən qədim dövrlərində türk xalqları məskunlaşmışdır. Biz bundan sonra da ermənilərin saxtakarlıqlarına qarşı tarixi sübutlarla mübarizə aparacaq, onların dünya ictimaiyyətini aldatmasına imkan verməyəcəyik. Onu da deyim ki, Oğlanqala yaşayış yerində aparılan qazıntılar 2006-cı ildə başlamışdır və bu iş Amerika və Azərbaycan alimləri arasında uzunmüddətli əməkdaşlığın bağlanğıcını qoymuşdur. Oğlanqala ehtimal ki, erkən və dəmir dövründə yerli dövlətin mərkəzi olmuş, sonra isə Əhəməni imperiyasının şimal ərazilərinin tərkibində birləşmişdir. Tarixi saxtalaşdırmaq istəyənlər yaxşı bilməlidirlər ki, əlimizdə bu torpağın onlara aid olmadığını sübut edə biləcək kifayət qədər dəlil var.

**Muxtar Məmmədov,**<br>***"Şərq qapısı",***<br>***4 sentyabr 2010-cu il***

## NİZAMİ ALIYEV



### GƏMİQAYA

*Sənətşünas Nizami Alıyevə*
*həsr olunur*

*Gəmiqaya daş üstündə,*
*İlk əlifbam, nişanəmdir*
*Qayadakı hər bir təsvir,*
*Yerə-göyə işarəmdir.*

*Daş nənəmin, daş babamın,*
*Baxışı var yaddaşında.*
*Yaxın-uzaq eraların,*
*Naxışı var hər daşında.*

*Neçə-neçə nər igidlər,*
*Quş-quşlayıb "Qaranquş"da.*
*Əlindəki ox-kamanın,*
*Qazılıbdır şəkli daşda.*

*Bu qayada ərənlərim,*
*Əcdadlarım uyuyurlar.*
*Hər bir daşı bir əsgər tək,*
*Abidəni qoruyurlar.*

*İllərdir ki, sinə gərir,*
*Külək, boran, çovğun, qara.*
*Qoymayıbdır sinəsindən,*
*Bir daşı da yel qopara.*

*Daş muzeyim Gəmiqaya,*
*Baş muzeyim, abidəmdir.*
*Nuh babamın gəmisindən,*
*Xəbər verən, salnaməmdir.*

**Rövşən Hüseynov**

Alıyev Nizami İsgəndər oğlu 16.11.1958-ci ildə Kəlbəcər rayonunun Qaraçanlı kəndində anadan olub. Rəssam, sənətşünas. Naxçıvan Müəllimlər İnstitutunun dosenti (2021). Bakı şəhərində Rəssamlıq Məktəbinin Daş üzərində oyma ixtisasında (1979-1981) və indiki Nəsrəddin Tusi adına Azərbaycan Dovlət Pedaqoji Univerisitetinin Bədii qrafika fakültəsində təhsil almışdır (1981-1986). Azərbaycan Rəssamlar İttifaqının (2011), Naxçıvan Rəssamlar Birliyinin (2012) və Naxçıvan Memarlar Birliyinin üzvüdür (2020). Hazırda Naxçıvan Müəllimlər İnistitutunun İncəsənət kafedrasında (2007) və Naxçıvan MR Rəssamlar Birliyində (2013) işləyir. Təyinatla indiki Naxçıvan Dövlət Univerisitetinə göndərilmiş və orada müəllim, baş müəllim (1986-2005), sonra isə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Təsviri və Dekorativ-tətbiqi sənətlər

şöbəsinin müdiri vəzifələrində işləmişdir (2005-2013). 2001-ci ildə Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Univerisitetində qədim xalq sənətlərimizdən biri olan "Ebru" sənətini bərpa etmiş və tədrisinə başlamışdır. Naxçıvan Universitetində rəhbəri olduğu "Təsviri sənət studiyası"nın xətti ilə özünün və 11 nəfər studiya üzvlərinin, Azərbaycanda ilk dəfə olaraq Amerikada Birləşmiş Ştatlarında sərgilərini təşkil etmişdir. O cümlədən ebru əsərləri: ABŞ-da – oktyabr 2000-ci ildə "Western Sprinqs" Qadınlar Klubunda, Oktyabr-noyabrda Ford Xatirə Kitabxanasında, yanvar 2001-ci ildə Avraasiya Konfransında, apreldə Beynəlxalq Araşdırmalar, Təhsil Mərkəzində, PUC dərnəyinin iclasında, Nortwest İndiana Dünya Ticarət Şurasında, Perdue Universiteti Calumetdə və may ayında Təşəbbüskarlıq-Ticarət sərgisində və digər yerlərdə nümayiş etdirilmişdir. Naxçıvan Abidələrinin qeydiyyata alınması və pasportlaşdırılmasında (2006-2007) və Duzdağın qədim duz mədənlərinin öyrənilməsində Fransa Beynəlxalq Araşdırma Mərkəzinin tədqiqatçıları ilə birgə Duzdağ və Süst mədənləri ətrafında geniş tədqiqat işləri aparmışdir (2007-2013). Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşkil etdiyi "Gəmiqaya ekspedisiyası"nın rəhbəri olmuş və ilk dəfə olaraq Gəmiqaya qayaüstü rəsmləri tam olaraq qeydiyyata alınmış, pasportlaşdırılmış və yayılma arealı müəyyənləşdirilmişdir (2016). Bir çox Respublika və beynəlxalq əhəmiyyətli simpozium və elmi-praktik konfranslarda o cümlədən – Moskvada keçirilən "Tələbə və gənclərin XII beynəlxalq festivalı"nda (1985), Xəzər Universitetində (1997), Naxçıvan Universitetində II beynəlxalq elmi-praktik konfransında (2000), Türkiyənin Kağızman və Kars şəhərlərində keçirilən "Uluslararası Aras Havzası Sempoziumu"nda(2010), AMEA Naxçıvan Bolməsində

“Huh peyğəmbər dünya tufanı və Naxçıvan” (2010), “Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi” (2012) və “Naxçıvan ilkin şəhər və Duzdağ” beynəlxalq simpoziumlarında fəal iştirak etmişdir (2013). “Huh peyğəmbər dünya tufanı və Naxçıvan” (2010), “Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi” (2012) və “Naxçıvan ilkin şəhər və Duzdağ” Beynəlxalq Simpoziumlarının loqotiplərinin müəllifidir (2013), 1985-ci ildə Bakı şəhərində keçirilən “faşizm üzərində qələbənin 40 illiyi”nə həsr olunmuş həvəskar studiyaların Respublika Kino Festivalında “İki cəbhənin veteranı” sənədli filiminə görə I dərəcəli Diplomla mükafatlandırılmışdır. “Naxçıvan - bəşəriyyətin beşiyi” II, III, IV, V və VI Beynəlxalq Rəsm Festivalının iştirakçısıdır (2014, 2016, 2018, 2021, 2023). “Naxçıvan abidələri ensiklopediyası” (2008), “Naxçıvan Duzdağının qədim duz mədənləri” (2012), “Naxçıvan tarixi” I cild (2013), “Bəhruz bəy Kəngərli taleyi” (2017) (həmmüəlliflərlə birgə), “Gəmiqaya qayaüstü rəsmləri” (2020) və “Naxçıvan rəssamlarının ensiklopediyası” (2021) (həmmüəlliflərlə birgə) kitablarının müəllifidir. 2017-ci ildə həmmüəlliflərindən biri olduğu “Naxçıvan tarixi” çoxcildliyinə elm sahəsində, 2021-ci ildə isə, müəllifi olduğu “Gəmiqaya qayaüstü rəsmləri” kitabına mədəniyyət sahəsi üzrə Naxçıvan Muxtar Respublika Mükafatı verilmişdir. 120-dən çox elmi və ensiklopediya məqalələrinin, 14 ali məktəblər üçün tədris proqramının və 6 kitabın (5-i həmmüəlliflərlə birgə) müəllifidir. Ebru əsərləri ABŞ-ın bir çox ştatlarında, Türkiyə, İran kimi xarici ölkələrdə, Bakı, Gəncə və Naxçıvan şəhərlərində bir çox şəxsi koleksiyalarda saxlanılır

## “GƏMİQAYA QAYAÜSTÜ RƏSMLƏRİ” KİTABININ TƏQDİMATI OLUB

*Dünən “Gəmiqaya” Tarix-Bədii Qoruğu və Muzey binasında “Gəmiqaya qayaüstü rəsmləri” adlı kitabın təqdimat mərasimi keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev 2002-ci ilin 12 avqustunda AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Naxçıvanın qədim və zəngin tarixini, Gəmiqaya abidələrinin öyrənilməsini müqəddəs və vacib vəzifə kimi qarşıya qoymuşdur.

Qeyd edilib ki, xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksi daşüstü rəsmlərlə zəngindir. Bu abidələrin tədqiqinə 1970-ci illərdə ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” 2001-ci il 26 aprel tarixli Sərəncamına əsasən elmi-tədqiqat işlərinin aparılması üçün “Gəmiqaya” ekspedisiyası təşkil edilib, yaradılan şərait nəticəsində 2002-ci il iyun ayının 10-dan başlayaraq arxeoloji tədqiqatlar daha da genişləndirilib. Muxtar respublika rəhbəri 2001, 2002, 2005 və 2013-cü illərdə Gəmiqayaya səfər edərək qayaüstü rəsmlərin yayıldığı

ərazilərlə tanış olub, ərazidə tədqiqat aparan alimlərlə görüşüb, tədqiqat işləri ilə bağlı tövsiyə və tapşırıqlarını verib. Ekspedisiya Gəmiqaya abidələrinin qorunub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə elmi rəy hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edib.



Diqqətə çatdırılıb ki, 2006-cı ildə Gəmiqaya Tarix-Bədii Qoruğu, 2013-cü ildə "Gəmiqaya" Muzeyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən 2016-cı ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğunda və ona bitişik ərazilərdəki daşüstü təsvirləri ilə bağlı tədqiqat işləri aparılıb. Tədqiqat nəticəsində, ümumilikdə, 136 hektar ərazidə 2040 daş üzərində 7477 təsvir müəyyənləşdirilərək qeydiyyata alınıb. Gəmiqaya abidələrinin elmi təsvirindən və fotoşəkillərdən ibarət fundamental nəşr – albom-kataloq hazırlanıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Gəmiqaya abidəsinin geniş tədqiqinə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilkin mərhələsində başlanılıb və ümummilli liderin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu sahəyə yenidən diqqət artırılıb. Muxtar respublikamızda Gəmiqaya abidələrinə dövlət qayğısı həmişə diqqət mərkəzində olub. Gəmiqaya təsvirlərinin tədqiqi sahəsində atılan ən mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamından sonra Gəmiqaya ərazisinə bir neçə



dəfə elmi səfərlərin təşkil edilməsi, çoxlu təsvirlərin qeydə alınması, bir neçə monoqrafiya və çox sayda məqalələrin işıq üzü görməsidir. Ali Məclis Sədrinin tapşırığına əsasən 2016-cı ilin avqustunda Gəmiqayaya təşkil olunan yeni ekspedisiya ilə qeydə alınan təsvirlər sistemləşdirilib və onların əsasında bu gün təqdimat mərasiminə toplaşdığımız "Gəmiqaya qayaüstü rəsmləri" kitabı hazırlanıb. Qeydə alınmış təsvirlərin əsasında hazırlanmış yeni nəşr Gəmiqaya abidələrinə həsr olunmuş ən möhtəşəm və mükəmməl kitabdır.

İsmayıl Hacıyev Naxçıvan ərazisində tarixi-memarlıq abidələrinin tədqiqi, bərpası, mühafizəsi və bununla əlaqədar kitabların nəşr olunmasına göstərilən diqqət və qayğıya görə muxtar respublikanın ziyalıları, elm və təhsil işçiləri adından dövlətimizə minnətdarlıq edib.

Sonra AMEA-nın müxbir üzvləri – AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Fəxrəddin Səfərli və AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev, "Gəmiqaya" ekspedisiyasının rəhbəri, sənətşünas Nizami Alıyev, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Nazim Bababəyli çıxış ediblər. Çıxışlarda tariximiz və milli-mənəvi dəyərlərimizin yaşadılmasına qiymətli töhfə olan kitabın üstünlükləri, tarixi abidədə aparılan tədqiqatlar barədə ətraflı məlumat verilib.

Bildirilib ki, yeni nəşrin əsas üstünlükləri ondan ibarətdir ki, ilk dəfə olaraq Gəmiqaya təsvirlərinin yerləşdikləri

ərazilərin sahəsi çox dəqiqliklə hesablanıb, kitaba daxil olan təsvirlərin fotoşəkilləri qeydə alındığı ərazilərin ardıcıllığı üzrə verilib, hər bir şəklin altında daşın materialı, ölçüsü qısa təsvir olunub. Şərhlər kitabın digər materialları kimi üç dildə (Azərbaycan, rus və ingilis dillərində) verilib. Çıxış edənlər tarix və mədəniyyətimizə göstərilən böyük diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçıları "Gəmiqaya" Tarix-Bədii Qoruğu və Muzeyi ilə yaxından tanış olublar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə birlikdə hazırladığı, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan "Gəmiqaya qayaüstü rəsmləri" adlı nəfis tərtibatlı, yüksək poliqrafik keyfiyyətə malik yeni kitabın layihə rəhbəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur. Elmi redaktoru AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, müəllifi "Gəmiqaya" ekspedisiya qrupunun rəhbəri, sənətşünas Nizami Alıyev, fotolar və qrafik cızmaların müəllifləri Nizami Alıyev və Arzu Novruzov, dizayner Ziya Məmmədov, mətnlərin rus və ingilis dillərinə tərcüməçiləri filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı, Aidə Cəlilzadə, Bayram Əliyev və Fatimə İsmayıllıdır. Yeni nəşr Naxçıvanşünaslığa və milli tariximizə ən böyük töhfədir. Kitab Gəmiqaya təsvirlərinin tədqiqi tarixində xüsusi və mükəmməl mərhələ təşkil etməklə Azərbaycan sərhədləri çərçivəsindən çıxaraq dünya miqyasında geniş oxucu kütləsinin və elmi ictimaiyyətin diqqətini cəlb edə biləcəkdir.

**Güntac Şahməmmədli,**<br>
***"Şərq qapısı" qəzeti,***<br>
***10.06.2021-ci il***

# GƏMİQAYA TƏSVİRLƏRİNƏ YENİ HƏYAT VERİLDİ

***Azərbaycan xalqının ümummilli lideri, Azərbaycançılıq ideologiyasının siyasi müstəvidə yaradıcısı və yaşadıcısı Heydər Əliyev xalqımızın tarixinin, milli-mənəvi dəyərlərinin öyrənilməsinə böyük önəm verirdi. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən indi də davam etdirilməkdədir.***



Dünyanın ən qədim insan məskənlərindən olan tarixi abidələr diyarı Naxçıvanda da tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikamızda digər tarixi abidələrimiz kimi, Gəmiqaya abidələrinə dövlət qayğısı həmişə diqqət mərkəzində olub. Gəmiqaya təsvirlərinin tədqiqi sahəsində atılan ən mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamından sonra Gəmiqaya ərazisinə bir neçə dəfə elmi ekspedisiyaların təşkil edilməsi, çoxlu təsvirlərin qeydə alınması, bir neçə monoqrafiya və çox sayda məqalələrin işıq üzü görməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli Sərəncamı da ulu öndərin milli tarixi irsimizə ali münasibətinin bu gün də layiqincə davam



etdirilməsinə bariz nümunədir. Sərəncamdan sonra AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarından ibarət elmi ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı abidələr və Gəmiqaya təsvirləri qeydə alınmışdır. 2001-2005-ci illərdə burada Azərbaycan və xarici ölkə alimlərinin iştirakı ilə beynəlxalq və yerli ekspedisiyalar fəaliyyət göstərmişdir. Gəmiqaya təsvirlərini daha da dərindən öyrənmək məqsədilə 2016-cı ilin avqust ayında AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi mütəxəssislərindən ibarət “Gəmiqaya” ekspedisiyası yaradılmışdır. Ekspedisiya qayaüstü rəsmlərin yayıldığı 136 hektar ərazidə olmuş, 2040 daş üzərində 7477 təsvir qeydə almışdır. Bu tədqiqatların nəticəsi kimi 2020-ci ilin iyun ayında “Gəmiqaya qayaüstü rəsmləri” adlı fundamental kitab ərsəyə gəlmişdir. Elmi yeniliklərlə zəngin kitabın layihə rəhbəri, gərgin elmi tədqiqatların ideya təşəbbüskarı və himayədarı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunan kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyev, müəllifi “Gəmiqaya” ekspedisiya qrupunun rəhbəri, sənətşünas Nizami Alıyev, fotolar və qrafik cızmaların müəllifləri Nizami Alıyev və Arzu Novruzovdur. Kitabda “Qaranquş”, “Camışölən”, “Nəbiyurdu”, “Qız-Gəlin çuxuru”, “Göllər” və digər yaylaqlardakı bütün təsvirlər haqqında məlumat öz əksini tapmışdır.

Haqqında bəhs etdiyimiz yeni nəşrdə Gəmiqayadakı qayaüstü rəsmlərin qısa təsviri verilmiş və onların rəngli şəkilləri uyğun səhifələrdə yerləşdirilmişdir. Yüksək poliqrafik keyfiyyəti ilə seçilən kitabda qeydə alınan rəsmlərin hamısının fotoşəkilləri yerləşdirilmişdir. Kitaba qayaüstü təsvirlərin elektron şəkilləri də əlavə edilmişdir ki, bu da onun dəyərini daha da artırır.



Araşdırmalar dərin dini-mifoloji məzmuna sahib Gəmiqaya təsvirlərinin qədim insanların həyat tərzi və dünyagörüşü ilə sıx bağlı olduğunu göstərir. Gəmiqaya təsvirlərində rastlanan astral rəsmlər, heyvan rəsmləri, ov və ritual rəqs səhnələrinin bənzərləri Azərbaycanın xalq sənəti nümunələrində indi də yaşamaqda davam edir. Qaya təsvirlərində müəyyən mərasimlərin keçirilməsi ilə bağlı olan təsvirlər, xüsusilə diqqətəlayiqdir.

İnsanların həyatının təmin edilməsi, bu məqsədlə müəyyən ovsunların tətbiqi, gərəksiz ova yasaq qoyulması, xeyirin şər üzərində qələbəsinə inam, həyatın kosmik başlanğıc tərəfindən idarə edilməsi ilə bağlı inanclar Azərbaycanda məskunlaşan qədim tayfaların mənəvi mədəniyyətinin, onların əski dünyabaxışlarının ayrılmaz tərkib hissəsi olmuşdur.

Araşdırmalar Gəmiqaya abidəsinin qədim insanların inanc yeri olduğunu göstərir. Ordubad rayonunun Tivi kənd sakinlərinin verdiyi məlumata görə, yerli əhali son zamanlaradək Gəmiqaya ziyarətgahlarına gedərək müəyyən

mərasimlər keçirirmiş. Bu mərasimlərdən biri “Susəpən” bayramı olmuşdur ki, bu, indi də türk xalqları içərisində yaşadılmaqdadır. Şərqi Anadoluda apardığımız elmi araşdırmalar zamanı türk xalqlarının əski inancları ilə bağlı olduqca maraqlı faktlarla rastlaşdıq. Bunlardan biri indi də xalq arasında dolaşmaqda olan “Van canavarı” əfsanəsidir. Bu əfsanənin tarixi kökləri qurd totemi ilə bağlıdır. Qurdun xilaskar olması haqqında Azərbaycan folklor nümunələrində xeyli məlumat vardır. Qurdla bağlı inanclar və qurd təsvirləri Gəmiqaya təsvirlərinin və boyalı keramikanın sevilən motivlərindəndir. Gəmiqaya təsvirləri ilə bağlı Nuh əfsanəsinin olmasına baxmayaraq, araşdırmalar folklor nümunələrində yaşayan bəzi inancların Nuh əfsanəsindən də qədimlərə gedib çıxdığını göstərir. Gəmiqayadakı heyvan və insan təsvirlərində əks olunan inanclar buna misal ola bilər.



Albom-kataloqda yer alan təsvirlərin bir qrupu heyvanların mübarizəsini, yırtıcı heyvanların dırnaqlıları parçalamasını əks etdirir. Yırtıcı heyvanların dırnaqlıları parçalama səhnəsi Yaxın Şərq, xüsusilə Mesopotamiya incəsənəti üçün xarakterik olmuşdur. Şumerlərdən Skiflərə, daha sonra orta əsrlərədək davam edən bu motiv Mesopotamiyadan Orta Asiya və Qara dəniz sahillərinədək geniş bir coğrafiyaya yayılmışdır. Bu tip rəsmlərə III Ur sülaləsi dövrünə aid silindr möhürlər üzərində rastlanmışdır. Zamanla müəyyən dəyişikliyə uğrayan bu motiv Assur, Urartu, Manna və Skif incəsənətinə təsir etmişdir. Orta əsrlərdə bu motivdə naxışlanmış parçalar,

xalılar və keramika nümunələri geniş yayılmışdır. Yırtıcı heyvanların dırnaqlıları parçalaması motivi tarixi kökləri ilə Yaxın Şərqlə bağlı olan türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin mifologiyası üçün xarakterikdir. "Kitabi-Dədə Qorqud" dastanında Qazan xanın dilindən deyilən belə bir parça vardır:

*Ağ qayanın qaplanının erkəyində bir köküm var,*
*Ortac qırda sizin keyikləriniz durğurmaya.*
*Ağ sazın aslanında bir köküm var,*
*Qaz alaca yündününü durğurmaya.*
*Əzvay qurd əniyi erkəyində bir köküm var,*
*Ağca yunlu tümən qoyunun gəzdirməyə.*



Bu bədii parçada qaplan keyikə, aslan qaza, qurd qoyuna qarşı qoyulmuşdur. Şübhəsiz ki, "Dədə Qorqud" dastanının bu parçası qədim mifologiyanın poetik ifadəsidir.

Ümumiyyətlə, tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab Gəmiqaya təsvirlərinin öyrənilməsi üçün fundamental, dəyərli elmi mənbə olacaqdır. Mətnlərin rus və ingilis dillərinə tərcümələrinin də verilməsi yeni nəşr vasitəsilə diyarımızın çox qədim və zəngin tarixinin güzgüsü olan Gəmiqayadakı qayaüstü rəsmlər haqqında məlumatların

dünyada təqdim olunması və öyrənilməsi, bəşər sivilizasiyasında öz yeri və dəyəri olan tarixi, etnoqrafik irsimizin təbliği arealının genişləndirilməsi baxımından da əhəmiyyətlidir. Yeni nəşr Naxçıvanşünaslığa və milli tariximizə ən böyük töhfədir. Albom-kataloq Gəmiqaya təsvirlərinin tədqiqi tarixində yeni mərhələnin əsasını qoymaqla beynəlxalq elmi ictimaiyyətin də diqqətini cəlb edə biləcək mükəmməl elmi-kütləvi nəşr, hər bir vətənpərvər və tarixsevər azərbaycanlının stolüstü kitabı dəyərindədir.

**Vəli Baxşəliyev**
***AMEA-nın müxbir üzvü,***
***tarix elmləri doktoru, professor***
***“Şərq qapısı” qəzeti 18.06.2021-ci il***

# ŞƏMSƏDDİN QASIMOV



Şəmsəddin Qasımov 27 iyun 1955-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk musiqi təhsilini Naxçıvan Şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin tar sinfində almış, 1971-75-ci illərdə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbində təhsilini davam etdirmiş və istedadlı tarzən kimi Naxçıvana qayıdaraq Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbində müəllim işləmişdir. Şəmsəddin Qasımov 1980-ci ildə Azərbaycan İncəsənət Universitetinə daxil olmuş və 1985-ci ildə universitetin mədəni-maarif fakultəsini bitirməklə özfəaliyyət teatr kollektivinin rəhbəri ixtisasına yiyələnmişdir. 1981-ci ildə Nehrəm və Cavidabad kənd uşaq musiqi məktəblərində, sonralar Naxçıvan şəhər 1 və 2 saylı uşaq musiqi məktəblərində direktor, müəllim, dərs hissə müdiri işləmişdir. Şəmsəddin Qasımov 1970-ci illərdən həm də bəstəkar kimi fəaliyyətə başlamışdır.Tanınmış bəstəkar Boris Kabakovdan bəstəkarlıq dərsi almaqla bu illərdə özünün bir sıra əsərlərini bəstələmişdir.

Azərbaycanda Bayraq haqqında və 1990-cı ildə İlk dəfə şəhid şəxslər haqqında yazılan ilk mahnıların müəllifi olmuşdur. İlk dəfə musiqisi və sözləri özünə məxsus olan orta məktəb məzunları üçün yazmış Əlvida doğma məktəb və Son zəng mahnılarının bəstəkarıdır. Son illərdə Azərbaycanda demək olar ki, tam unudulmaqda olan 6-

yeni duet mahnısı yazmış və bu gün də dinləyicilər arasında çox populyardir. Naxçıvan Bəstəkarlarının uşaq mahnıları adli kitabında 6-uşaq mahnısı çap edilib və s. Şəmsəddin Qasımov fəal bəstəkarlıq işi ilə bərabər pedaqoji fəaliyyətini Naxçıvan Dövlət Universitetindəki İncəsənət fakultəsində baş müəllim kimi davam etdirir. Muxtar Respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə Şəmsəddin Qasımovun mahnıları məktəblilərin, xor kollektivlərinin, vokal qrupların və müğənnilərin ifasında tez-tez səslənir və kollektivlərin repertuarına daxil edilir. Eyni zamanda Şəmsəddin Qasımov 2000-ci ildən 2016-cı ilədək Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan MR Bəstəkarlar Təşkilatının sədri vəzifəsində işləmişdir.[1] Tələbəlik illərinin məhsulu olan mahnıları o dövrdə istedadlı müğənni Kəmalə Rəhimli tərəfindən ifa olunmuşdur.

***Ailəsi***

Övladları: Rəşadət Şəmsəddin oğlu Qasimov Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Prezident Aparati yaninda İdarəetmə Akademiyasini bitirib, SOKARDA İşləyir. Ramin Şəmsəddin oğlu Qasımov Naxçıvan MR Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsini bitirib.Qubada Cinayət Axtarişi İdarəsində işləyir. Sadiqə Şəmsəddin qızı Həmzəyeva Naxçıvan Universitetinin İbtidai Metodika fakültəsini bitirib.

***Yaradıcılığı***

Əsasən mahnı janrında məhsuldar çalışan Şəmsəddin Qasımov 40-dan artıq mahnının müəllifidir. M.Araz, B.Vahabzadə, H.Arif, İ.Oruc, A.Yadigar, M.Qasımzadə, Z.Vedili, A.Mirzəyev və s. şairlərin sözlərinə yazılmış mahnılarında bəstəkar doğma Vətənin, onun gözəlliklərini, bu yurdun şəhid övladlarını, əməksevər insanları vəsf etməklə

yanaşı lirik məhəbbət mövzularına da geniş yer vermişdir. Azərbaycanın milli qəhrəmanları-İbrahim Məmmədova həsr olunmuş Altı bacı, Yusif Mirzəyevə həsr edilmiş Yusifim, polis mayoru Məhərrəm Seyidova həsr edilmiş Məhərrəm Sədərəyin ən kiçik şəhidləri Malik və Elvin qardaşları haqqında Malikim, Elvinim mənim, Sədərəklilər, Mənim Azərbaycanım, Marş irəli kimi mahnıların müəllifin Vətənə, onun şəhidlik zirvəsinə ucalmış oğullarına həsr olunmuş musiqi nümunələridir. Romans janrında yazdığı Ay üzlü nigarım kimə mehman olacaqsan,(söz: N.Gəncəvinin), Dəyişmərəm və Sənsiz (söz: E.Həbibin), lirik səpkili Unut bu sevdanı, Nə deyim, Unutsam dözəcəkmi?, Xatirələr, Sənin sevgin, mənim sevgim, İndən belə, Dedin məhəbbət hanı?, Anlamadın məni və s. Onun instrumental əsərləri sırasına fortepiano üçün 2 pyesini, skripka və fortepiano üçün pyesini aid etmək olar.

Şəmsəddin Qasımovun şair-jurnalist Rövşən Hüseynovla birlikdə işlədikləri mahnıları son illərin ən uğurlu mahnılarından hesab etmək olar. Heydərim var ol, Sən həmişə bizimləsən, Zərifə həkim, Vətən oğlu Bayraq mahnıları bu əsərlərdəndir. Şairə Rasimə Könülün sözlərinə yazdığı, Azərbaycanın Milli Qəhrəmanı Mübarız İbrahiova həsr olunmuş Mübariz və Yağışmahnıları da bəstəkarın son uğurlu əsərlərindəndir. Şəmsəddin Qasımov uşaqları da yaddan çıxarmamış, onlar üçün bir-birindən maraqlı mahnılar yazmışdır. Biz xoşbəxt uşaqlarıq, Baxçamız, Can gülüm,can can, Azadlıq nəğməsi, Şahinlərini marşı, Şən nəğməmiz belə mahnılardandır. Şəmsəddin Qasımovun Kamera Orkestri üçün yazdığı 3 hissəli Naxçıvan lövhələri əsəri” Təşkilatın Naxçıvanda keçirilən hesabat konsertində və 2007-ci ildə Bakıda keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının VIII



qurultayında dinləyicilərə təqdim edilərək, uğurla ifa olunmuşdur.

Şəmsəddin Qasımov xor janrında bir çox uğurlu əsərlərin müəllifidir. Onun xor üçün yazdığı əsərləri bu gün Naxçıvan Muxtar Respublikanın bir çox musiqi məktəblərində, orta və ali məktəblərdə müvəffəqiyyətlə ifa edilir.Bu janrda bəstəkarın şair Hüseyn Razinin sözlərinə yazdığı Mirzə Cəlilin xatirəsinə kantatası xüsusilə diqqətəlayiqdir.Şəmsəddin Qasımov bu əsərlə Mirzə Cəlil dünyasının musiqi ilə dinləyicilərə çatdırılmasına çox gözəl nail olmuşdur. Şəmsəddin Qasımov yaradıcılığını teatr sahəsində də uğurla davam etdirmiş və bu gün də etdirməkdədir. Hələ 70-ci illərdə fəaliyyət göstərən Gənclik Xalq Teatrında o, Fiqeyredonun Ezop, Ə.Haqverdiyevin Bəxtsiz Cavan, Hüseyn Cavidin Ana, B.Vahabzadənin Yollara iz düşür, Şeyx Rəhmətulla, Məhəbbət nişanəsi kimi 10-a yaxın tamaşaya orijinal musiqilər bəstələmişdir.Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə sıx yaradıcılıq əlaqələri saxlayan Şəmsəddin Qasımov bu illər ərzində Bir gün də insan ömrüdür, Hacı Qara, Sizi deyib gəlmişəm, Qarğanın iflası, Ərsizlər və arsızlar, Topal Teymur və s. kimi 20-dən artıq tamaşaların bəstəkarı və musiqi tərtibatçısı olmuşdur.Bəstəkarın son illərdə Hökmdar və qızı, Araz sahilində doğan günəş, Koroğlunun Çənlibelə qayıdışı, Mirzə Fətəli kimi dram tamaşalarına yazdığı orijinal musiqilər və verdiyi musiqi tərtibatları tamaşaçıların zövqünü oxşamış və əsərlərin ideyasının

açılmasında böyük rol oynamışdır.Maraqlı bir cəhədi də qeyd etmək yerinə düşər ki, Şəfahət Mehdiyevin müəllifi olduğu Mirzə Fətəli tamaşasının ilk premyerasında Naxçıvan MR Ali Məclis Sədrinin şəxsən iştirakı ilə bərabər Bakıdan dəvət olunmuş 20-yə yaxın ziyalı da bu tamaşaya baxmış, tamaşanın quruluşu və musiqisi haqqında öz müsbət fikirlərini bildirmişlər.Müəllifin oğlu Arif Mehdiyev əsərin ən yüksək səviyyədə hazırlandığını qeyd etmiş, musiqinin bu tamaşadakı rolunu xüsusi vurğulamışdır.Şəmsəddin Qasımovun Naxçıvan Dövlət Kukla Teatrındakı fəaliyyəti xüsusi ilə təqdirəlayiqdir. Belə ki, teatrın repertuarında özünə möhkəm yer tutan Məlikməmməd, Cik-cik xanım, Tənbəl Əhməd, Sirli sözlər, Cəsur dovşan, Dursunəli və ballıbadı və s. kimi onlarla əsərə yazılan musiqi gənc nəslin, xüsusi ilə məktəblilərin zövqünü oxşayır.

***Fəaliyyəti***

Əsərlərinin adı

- 2003- “Naxçıvan lövhələri” 3 hissəli-Kamera orkestri üçün
- 2004- “Naxçıvanım” Xor və orkestr üçün-Söz: İlyas Fərəməzoğlu
- 2010- “Mirzə Cəlilin xatirəsinə” F-no və qarışıq xor üçün.Söz: Hüseyn Razinin
- 2001- “Baxsayağı” –F-no və skripka üçün
- 2002- “Xatirə ” –F-no üçün pyes
- 2002- “Fikirli” F-no üçün pyes

***Mahnılar***

- 2003- Zərifə həkim - söz: Rövşən Hüseynovun
- 2000- Sönməyən günəşim -söz: R.Hüseynov
- 2003- Vətən oğlu -söz: R.Hüseynov-
- 2005- Sən həmişə bizimləsən -söz: Həmid Arzulunun

- 2005- Xalqımın İlhamı -söz: Ələkbər Qasımovun
- 2011- Həmrəylik günü –söz: Ə.Qasımov-
- 2011- Müstəqil Respublikam –söz: Ə.Qasımov
- 201 - Azərbaycan gəncləri -söz: İ.Fərəməzoğlu
- 2003- Azərbaycan -söz: Zaur Vedili
- 2006 - Şahbuzum -söz: Əbülfəz Muxtaroğlunun
- 2002 -Mən əsgərəm -söz: Mirfazil Seyidovun
- 2010- Biz xoşbəxt uşaqlarıq
- 2009- Şən nəğməmiz –söz: İlyas Fərəməzoğlu
- 2016- Bayraq -söz : Rövşən Hüseynov
- 2016- Mübariz -söz : Rasimə Könül
- Ata -söz :Elbəyi Maqsudovun.
- Ana -söz: Zaur Vedilinin
- Təbriz -söz :Zaur Vedilinin
- Sirab suyu -söz :Asim Yadigar.
- Şəhidlər -söz :Zaur Vedili.
- Sənli günlərim

***Romanslar***

- 2003-Olacaqsan – söz: N.Gəncəvi
- 2007-Dəyişmərəm - söz: Elman Həbib
- 2007- Sənsiz - söz: Elman Həbib

***Dram Teatrına yazılan musiqilər***

- 2003-H.Cavid -İblis
- 2003-Həmid Arzulu - Mərhəmət məhəbbət deyil
- 2003-A.Şaiq -Yazıya pozu yoxdur
- 2003-İ.Əfəndiyev- Hökmdar və qızı
- 2004-E.Sultanov - Sənəm
- 2004-Ə.Əylisli- Vəzifə
- 2004-H.Cavid- Afət
- 2005-E.Həbib - Sahilsiz çaylar
- 2007-H.Arzulu- Əlincə qalası

- 2008- Həsənalı Eyvazlı- Araz sahilində doğan günəş
- 2008 -Adil Babayev- Koroğlunun Çənlibelə qayıdışı
- 2009 -Elçin -Ah, Paris, Paris
- 2009 -Şəmil Sadiq- Qana qan qarışdı
- 2011-Şəfaət Mehdiyev- Mirzə Fətəli

***Kukla teatrına yazılan musiqilər***

- 2011-S.M.Qənizadə- Dursunəli və Ballıbadı
- 2001-C.Məmmədquluzadə- Çay dəsgahı
- 2001-A.Şaiq- Danışan kukla
- 2001-K.Ağayeva- Tıq-tıq xanım
- 2005-K.Ağayeva -Məlikməmməd
- 2006-Şirməmməd Qüdrətoğlu -Ağ atlı oğlan
- 2006-A.Şaiq- Gözəl bahar
- 2011-Aybəniz Ağaqızı- Daşdəmir

***Mükafatlar***

- 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin mükafatı.
- 2005-ci ildə Naxçıvan MR əməkdar incəsənət xadimi

## VƏTƏN OĞLU

*Sözləri: Rövşən Hüseynovundur*
*Musiqisi: Şəmsəddin Qasımovundur*

*Əlinlə Naxçıvan qızıl don geyir,*
*Ağ günlər eşqinə göyə yüksəlir,*
*Cavidim məzardan dikəlib deyir:*
*Bütün varlığınla elə bağlısan,*
*Qədim Naxçıvanın əziz oğlusan.*

*Heydərin qəlbindən işıq, nur aldın,*
*Yurdumun köksündə körpülər saldın,*
*Ucalır şöhrətin, ucalır adın,*
*Bütün varlığınla elə bağlısan,*
*Qədim Naxçıvanın əziz oğlusan.*

*Şöhrətin sözdə yox, əməlindədir,*
*Yurdumun sevinci əllərindədir,*
*Sən Vətən oğlusan, xalq səninlədir,*
*Bütün varlığınla elə bağlısan,*
*Qədim Naxçıvanın əziz oğlusan.*

***"Şərq qapısı" qəzeti,***
***15 yanvar 2017-ci il***

\

## SÖNMƏYƏN GÜNƏŞİM

*Sözləri: Rövşən Hüseynovundur*
*Musiqisi: Şəmsəddin Qasımovundur*

*Şöhrətin yayılıb indi hər yana,*
*Qüdrətin səs salıb bütün cahana,*
*Parlayan Günəşsən Azərbaycana,*
*Sən mənim şöhrətim, şərəfim, şanım,*
*Səninlə ucalır Azərbaycanım!*

*Heydərim var ol!*
*Öndərim var ol!*
*Sönməyən Günəşim var ol!*

*Qəhrəman oğlusan ana torpağın,*
*Ucaltdın göylərə Vətən bayrağın,*
*Başlanıb yurdumda təzə növrağım,*
*Sən mənim şöhrətim, şərəfim, şanım,*
*Səninlə ucalır Azərbaycanım!*

*Heydərim var ol!*
*Öndərim var ol!*
*Sönməyən Günəşim var ol!*

*Sən yazdın tarixə neçə zəfərlər,*
*Bəxş etdin xalqıma nurlu səhərlər,*
*Səninlə güləcək gələn nəsillər,*
*Sən mənim şöhrətim, şərəfim, şanım,*
*Səninlə ucalır Azərbaycanım!*

*Heydərim var ol!*
*Öndərim var ol!*
*Sönməyən Günəşim var ol!*

***10 may 2004-cü il***

## ZƏRİFƏ HƏKİM

*Sözləri: Rövşən Hüseynovundur*
*Musiqisi: Şəmsəddin Qasımovundur*

*Qəlbimdə dil açan arzu, diləklər,*
*Nəğməmi dilimdən alan küləklər,*
*Sənsiz qəribsəyən min-min ürəklər,*
*Səni yada salır, Zərifə həkim.*

*Mavi Xəzərimin həzin ləpəsi,*
*İlhamın dilində ana kəlməsi,*
*Haçandır Sevilin şirin nəğməsi,*
*Sənə layla çalır, Zərifə həkim.*

*Gözlərə nur verdin, işıq verdin sən,*
*Hər kəsin qəlbində, könüllərdəsən,*
*Hər an bizimləsən, bizə əzizsən,*
*Xatirən yaşayır, Zərifə həkim.*

***"Arazın səsi" qəzeti,***
**10 aprel 2015-ci il**

## ÜÇRƏNGLİ BAYRAĞIM

*Sözləri: Rövşən Hüseynovundur*
*Musiqisi: Şəmsəddin Qasımovundur*

*Göylərdən almısan mavi rəngini,*
*Təbiət bəxş edib öz çələngini.*
*Döyüşdə çalmısan zəfər cəngini,*
*Qalxıb ucalmısan Vətənlə qoşa,*
*Üçrəngli bayrağım, yaşa, min yaşa!*

*Xalqımın sevgisi, məhəbbətisən,*
*Yurdumun vüqarı, əzəmətisən,*
*Sən ulu Heydərin əmanətisən –*
*Qalxıb ucalmısan Vətənlə qoşa,*
*Üçrəngli bayrağım, yaşa, min yaşa!*

*Sən qan yaddaşımsan, mənim elimsən,*
*Neçə yad ölkədə ötən dilimsən,*
*Ən uca zirvəyə çatan əlimsən,*
*Qalxıb ucalmısan Vətənlə qoşa,*
*Üçrəngli bayrağım, yaşa, min yaşa!*

*Sinəndə parlayır, ayın, ulduzun,*
*Səninlə fəxr edir hər oğlun, qızın.*
*Yurdumda gül açıb ən böyük arzun,*
*Qalxıb ucalmısan Vətənlə qoşa,*
*Üçrəngli bayrağım, yaşa, min yaşa!*

***"Şərq qapısı" qəzeti,***
***17 noyabr 2017-ci il***

## XOCALIM

*Sözləri: Rövşən Hüseynovundur*
*Musiqisi: Şəmsəddin Qasımovundur*

*Xocalım dərd yerim mənim,*
*Xocalım yurd yerim mənim,*
*Xocalım and yerim mənim,*
*Xocalım, ay Xocalım!*

*Çaylar kimi, coş, çağla sən,*
*Ordumuza bel bağla sən,*
*Səninlədir ana Vətən,*
*Xocalım, ay Xocalım!*

*Çalınacaq zəfər cəngim,*
*Başlayacaq xoş günlərim,*
*Qurulacaq toy-düyünüm,*
*Xocalım, ay Xocalım!*

*Ordum zəfər çalacaqdır,*
*Qisasını alacaqdır,*
*Yurdum azad olacaqdır,*
*Xocalım, ay Xocalım!*

***fevral 2017-ci il***

## Kamal ƏHMƏDOV

## BƏSTƏKARIN ÖMÜR YOLU



Tanınmış bəstəkar Kamal Rüstəm oğlu Əhmədov 1948-ci il avqust ayının 5-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Ailədə altı qardaş, bir bacı olmuşlar. Baxmayaraq ki, atası qardaşların hamısını musiqi məktəbində oxutdurmuşdur, onlardan yalnız böyük qardaş Kamal və ən kiçik qardaş Rüfət musiqi sənətini davam etdirmişlər. Atası musiqiçi deyildi, lakin musiqiyə və poeziyaya çox həvəs göstərirdi. Kamalın kiçik yaşlarından musiqiyə maraq göstərməsi heç də təsadüfi deyildir. İlk musiqi təhsilini Naxçıvan şəhərində professional musiqi ocağı olan 1 №-li uşaq musiqi məktəbinin tar sinfində almışdır. O, ixtisas üzrə müəllimi Rəşid Məmmədov, muğam üzrə Yusif Əliyev, Vahid Axundov, nəzəriyyə üzrə Məmməd Ələkbərov və digər müəllimlərinin verdikləri tapşırıqları vaxtlı-vaxtında yerinə yetirərək qabiliyyətli bir şagird kimi özünü göstərir. Çox keçmir güclü musiqi duyumuna malik olan Kamal öz müəllimlərinin böyük etimadını qazanır.

1967-ci ildə Bakı şəhərində Asəf Zeynallı adına orta ixtisas Musiqi Texnikumunun Xalq Çalğı Alətləri şöbəsinin tar sinfinə daxil olur. Texnikumda təhsil aldığı

K.Əhmədov müəllimi Rəşid Məmmədovla dərs zamanı illərdə polifoniya, harmoniya, analiz və s. öyrənərək, dünya musiqisi ilə tanış olur. Muğam sənətinin sirlərini muğam bilicisi, ustad sənətkar Əhməd Bakıxanovdan öyrənmişdir. Məhz bu illərdə bəstəkarlıq sənətinə maraq göstərmiş, fortepiano üçün yazdığı kiçik pyes və prelüdlərlə yaradıcılıq sahəsində ilk addımlarını atmışdır.

K.Əhmədov 1970-1972-ci illərdə hərbi xidmətə çağırılır. Hərbi xidməti başa vurduqdan sonra təhsilini davam etdirərək 1973-cü ildə Asəf Zeynallı adına Musiqi Texnikumunun Xalq Çalğı Alətləri şöbəsini bitirir və təyinatla Ordubad Şəhər Uşaq Musiqi Məktəbində ilk pedaqoji fəaliyyətə başlayır. Çox keçmir ki, o, yüksək istedadı və bacarığı sayəsində musiqi məktəbinin tərkibində Xalq Çalğı Alətləri Orkestri təşkil edir. Bu illərdə xalq mahnı və orkestr işləmələri ilə yanaşı, bir sıra müxtəlif xarakterli mahnılar bəstələyir. İki il Ordubad, bir il Naxçıvan uşaq musiqi məktəbində işlədikdən sonra 1976-cı ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şöbəsinə daxil olur. Xalq Çalğı Alətləri şöbəsinin tar sinfində oxumaqla yanaşı, fakültativ olaraq görkəmli bəstəkar, professor Afaq Cəfərovanın sinfində bəstəkarlıq üzrə hazırlıq keçir. Bu illərdə fortepiano üçün "Prelüdlər", "Variasiyalar" və "Sonata" yazır. Nəhayət, üç ildən sonra - 1979-cu ildə yenidən fərq imtahanları verərək Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsinə daxil olur. Respublikamızın görkəmli bəstəkarı, professor X.Mirzəzadənin sinfində bəstəkarlıq sənətinin sirlərini mənimsəyir, eyni zamanda dünya musiqi korifeylərinin klassik və müasir səpkili əsərlərini öyrənərək özünün fərdi yaradıcılıq üslubunu - dəstxətini müəyyən edir.



*K.Əhmədov müəllimi Rəşid Məmmədovla dərs zamanı*

Təhsil aldığı illərdə fortepiano üçün yazdığı "Prelüdlər", "Prelüd və fuqalar", "Mövzu ilə variasiyalar", a cappella "Fuqa", tar üçün "Sonata", truba üçün "Mövzu ilə variasiyalar", simli ansambl üçün üçhissəli "Kvartet" və s. əsərlər onun professional yaradıcılığının ilk dövrünü təşkil edir. Konservatoriyada keçirilən konsertlərdə onun bir sira əsərlərinin ifası müəllim və tələbə auditoriyasının rəğbətini qazanmışdır. Diplomişi kimi yazdığı böyük simfonik orkestr üçün "Cavid" simfonik poemasını təhsil illərinin ən mükəmməl və uğurlu əsəri hesab etmək olar. Təsadüfi deyil ki, 1988-ci ilin oktyabr ayında Krım Vilayətinin Yalta şəhərində "Cavid" simfonik poemasının premyerası oldu. Əsəri Ümumittifaq Müsabiqə baxışının laureatı, orkestrin bədii rəhbəri və baş dirijoru, Ukrayna SSR Xalq artisti A.F.Qulyaniskinin idarəsi ilə Krım Dövlət Simfonik Orkestri ifa etmişdir. Orkestrin rəhbərliyi premyerada iştirak etmək üçün müəllifi Yalta şəhərinə dəvət etmişdilər.

"Cavid" simfonik poemasının uğurlu ifası haqqında "Sovetskiy Krım" qəzetinin 4 oktyabr 1988-ci il nömrəsində Krım Dövlət Filarmoniyasının musiqi redaktoru S.Sokolik K.Əhmədovun yaradıcılığından bəhs edən məqaləsində "Cavid" simfonik poemasını qısaca təhlil edir. Əsərin uğurlu ifasından söhbət açaraq qeyd edir ki, fakturasının mürəkkəb olmasına baxmayaraq, orkestr və dirijor bu ifanın öhdəsindən gələrək "Cavid" simfonik poemasının məğzinin tamaşaçılara çatdırıl masına nail oldu,

Müəllif "Cavid" simfonik poemasını yenidən redaktə edərək, əsərə yeni musiqi materialı əlavə etmədən və əsərin musiqi materialını daxilən genişləndirərək simfoniya formasına salır. Poemadan fərqli olaraq, simfoniyanın kodası "Maestoso" tempində təntənəli qələbə ruhunda bitir. Müəllif bunu belə izah edir ki, "Cavidin həyatı faciə ilə bitdiyi üçün poemanın kodasını faciə mövzusu əsasında bitirmişdim, lakin yeni redaktədə simfoniyanı qələbə kodası ilə bitirdim. Bununla göstərmək istədim ki, Cavidi fiziki olaraq məhv edib məğlub etsələr də, onun əbədi ideyaları qələbə çalmışdır!"

"Cavid" simfoniyası 2009-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqının yaranmasının 75 illik yubileyi münasibətilə keçirilən Beynəlxalq festivalın yekun konsertində Əməkdar incəsənət xadimi F.Kərimovun idarəsi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən ifa olunmuşdur.



*A.F.Qulyaniski və K.Əhmədov*

1985-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq ixtisası üzrə təhsilini başa vurduqdan sonra Naxçıvan şəhərinə gəlmiş, burada yeni yaranmış Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsinə başlayır. Bu illərdən başlayaraq, yaradıcılığını Xalq Çalğı Alətləri Orkestri ilə bağlamış, orkestr üçün müxtəlif səpkili əsərlər yazmış, transkripsiyalar və işləmələr etmişdir.

1985-ci ildən 1997-ci ilədək Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin yaranmasında və formalaşmasında böyük zəhməti olan K.Əhmədovun idarəsi ilə bu orkestr Bakı, Sumqayıt və digər şəhərlərdə dəfələrlə müvəffəqiyyətlə konsertlər vermişdir.

K.Əhmədovun dirijorluq fəaliyyəti təkcə Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri ilə məhdudlaşmır. 1993-cü ildə Təbriz bəstəkarı Əli Səliminin rəhbərliyi ilə Təbriz Radio-Televiziyasının Xalq Çalğı



*"Cavid" simfonik poemasının premyerası. Yalta 1988-ci ii*

Alətləri Orkestrinin Naxçıvan şəhərində konsert səfərində olduğu ərəfədə K.Əhmədov və Əli Səlimi arasındakı şəxsi tanışlıq Naxçıvan və Təbriz orkestrləri arasında yaradıcılıq əlaqələrinin yaranmasına səbəb olur. K.Əhmədov hər dəfə Təbrizə gedərkən Ə.Səliminin rəhbərlik etdiyi orkestrdə olur, öz yaradıcılıq təcrübəsini onlarla bölüşürdü. 1997-ci ildə Əli Səliminin ölümündən sonra Təbriz Radio-Televiziyasının Xalq Çalğı Alətləri Orkestri başsız qaldığından fəaliyyətini dayandırır. 2001-ci ildə Ə.Səlimi adına musiqi məktəbinin rəhbəri İsmail Kərimpur orkestri yenidən bərpa etmək üçün K.Əhmədovu Təbrizə dəvət edir. K.Əhmədov bu dəvəti qəbul edərək Ə.Səlimi adına məktəbin nəzdində orkestri yenidən formalaşdırmaq üçün gərgin iş aparır. Təbriz Xalq Çalğı Alətləri Orkestrində düzgün partitura yazılışı olmadığı üçün orkestr qrupları transportdan istifadə etməyərək (in-c) do kökündən istifadə etmişlər. Bu isə orkestr ifaçılığına xələl gətirmişdir.

K.Əhmədov Təbrizdə ilk dəfə bu orkestrin kök sistemini dəyişərək Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin kök sistemini tətbiq etmişdir. O, orkestr üçün bir çox xalq mahnılarını işləyir, Azərbaycan bəstəkarlarının əsərlərini orkestrləşdirir və eyni zamanda özünün müəllifi olduğu əsərlərlə orkestrin repertuarını zənginləşdirir. 3 sentyabr 2001-ci il tarixdə Təbriz şəhərində orkestrin verdiyi konsert haqqında "Əxtər" qəzetində geniş məqalə dərc olunmuşdur.

K.Əhmədov 1996-cı ildə Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətə başladığı gündən bir çox nəzəri və praktiki fənləri layiqincə tədris etmiş, bu fənlərə dair elmi-metodiki yenilikləri öyrənərək öz biliyini daima inkişaf etdirmiş, təcrübəsini təkmilləşdirmişdir. Rəhbərlik etdiyi Bəstəkarlıq kafedrasında professional bəstəkarların yetişməsi



*K.Əhmədovurı rəhbərliyi ilə Naxçıvan Dövlət Filarmoniyast-nın Xalq Çalğı Alətləri Orkestrinin Bakı konserti. 1994-cü il*

üçün bu sənətin sirlərini tələbələrinə öyrətmişdir. Onun yetişdirdiyi gənc bəstəkarlar muxtar respublikada keçirilən və hətta Azərbaycan Bəstəkarlar İttifaqının Bakı şəhərində keçirdiyi konsertlərdə öz əsərləri ilə çıxışlar etmişlər.

K.Əhmədovun Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətləri olmuşdur. Bəstələdiyi əsərlərinin bir qismi ifa olunmuş, bir qismi isə hələ öz ifasını gözləməkdədir.

2001-ci il noyabr ayının 11-də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 1-ci hesabat konsertində E.Maqsudovun sözlərinə "Anacan", H.Valehin sözlərinə "Qoşa çinar", T.Aslanın sözlərinə "Unutdun sən məni" mahnıları, müəllifin öz sözlərinə "Azadlıq türküsü" marşı, kamera orkestri üçün "Simfoniya"dan proloq, 2005-ci il aprel ayının 16-da 2-ci hesabat konsertində Xalq Çalğı Alətləri Orkestri üçün "Naxçıvan lövhələri" süitası, E.Maqsudovun sözlərinə "Vətəndir" romansı ifa olunmuşdur.

2007-ci il iyun ayında Bakı şəhərində keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayında bəstəkarın fortepiano üçün yazdığı "Mövzu ilə variasiyalar" əsəri Beynəlxalq müsabiqə laureatı Svetlana Əhmədova tərəfindən ifa olundu.

2008-ci ildə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar



*K.Əhmədov Ə.Səlimi adına Təbriz orkestrində məşq zamanı*

Təşkilatının yaranmasının 30 illiyi münasibətilə keçirilən konsertdə tar ilə Xalq Çalğı Alətləri Orkestrinin ifasında "Konsert"in I hissəsi, fortepiano üçün prelüdlər ifa olunmuşdur. 2009-cu ildə Azərbaycan Bəstə- karlar İttifaqının yaranmasının 75 illiyi münasibətilə keçirilən festivalın yekun konsertində "Cavid" simfoniyasını F.Kərimovun idarəsi ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Simfonik Orkestri ifa etmişdir. 2012-ci il dekabr ayının 16-da Azərbaycan Bəstəkarlar İttifaqının IX qurultayında "Cəngi" əsəri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri tərəfindən ifa olunmuşdur. 10 iyun 2013-cü il tarixdə Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsinin akt zalında Ümummilli lider Heydər Əliyevin

anadan olmasının 90 illik yubileyi münasibətilə Beynəlxalq müsabiqə lau- reatı, istedadlı pianoçu Teymur Şəmsiyevin iştirakı ilə bəstəkarın fortepiano vokal-instrumental əsərlərindən ibarət müəllif konserti keçirilmişdir. 20 dekabr 2013-cü il tarixdə bəstəkarın anadan olmasının 65 illiyi münasibətilə yaradıcılıq gecəsi keçirilmişdir. K.Əhmədov musiqi mədəniyyətindəki səmərəli fəaliyyətinə görə 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin mü- kafatına, 2013-cü ildə isə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

## BƏSTƏKARIN SƏNƏT DÜNYASI

Bəstəkar Kamal Rüstəm oğlu Əhmədov yaradıcılığının ilk dövrü keçmiş Sovet imperiyasının dağılması ərəfəsinə, sonrakı yaradıcılıq dövrü isə Azərbaycanın müstəqillik əldə etdiyi dövrə təsadüf edir. İki siyasi quruluşda yaşayıb-yaratmış bəstəkarın yaradıcılıq yolu çoxşaxəli və zəngin olmuşdur. O, musiqinin bir çox janr- larında əsərlər yazmışdır. İlk əsərləri A.Zeynallı adına Musiqi Texnikumunda təhsil aldığı illərdə fortepiano üçün yazdığı kiçik pyeslər və prelüdlər olmuşdur.

1973-1976-cı illərdə Naxçıvanda yaşayarkən M.Nəsirlinin sözlərinə "Gözəl qız", "Qızlar bulağı", S.Rüstəmin sözlərinə "Bu yolu seçdim", Ə.Kürçaylının sözlərinə "Nəğmə", R.Məmmədovun sözlərinə "Bir kaman səsi", R.Oqtayın sözlərinə "Ürək səsləri" və s. mahnılarını yazmışdır.

1979-1984-cü illəri K.Əhmədovun professional yaradıcılığının ilk mərhələsi hesab etmək olar. Məhz bu illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konser- vatoriyasında təhsil alarkən bir sıra vokal, instrumental, simfonik əsərlər - fortepiano üçün "Prelüdlər", "Prelüd və fuqalar", "Mövzu

ilə variasiyalar", tar ilə fortepiano üçün "Sonata", truba və fortepiano üçün "Mövzu ilə variasiyalar", xalq yaradıcılığı əsasında a cappella - "Fuqa", simli alətlər üçün 3 hissəli "Kvar-tet", böyük simfonik orkestr üçün "Cavid" simfonik poemasını yazmışdır.

Təhsil aldığı illərdə bəstələdiyi hər bir yeni əsərlə professionallığa doğru addım ataraq öz dəstxətini, üslubunu formalaşdırmış olur. Müəllimi - Azərbaycan Respublikasının Xalq artisti, professor X.MİrzəzadƏ tələbəsinin yaradıcılıq üslubunu qiymətləndirərək bu yolla getməsini məsləhət görür.

Təhsil illərinin ən uğurlu əsəri diplom işi kimi yazdığı "Cavid" simfonik poeması olmuşdur. Məhz bu simfonik poemanı orkestrləşdirməklə Simfonik Orkestri dərindən öyrənir. Bu yolda müəllimi X.Mirzəzadənin rolunu yüksək qiymətləndirərək poemanın orkestrləşdirilməsinə necə tələbkarlıqla yanaşmasını qeyd edir.

K.Əhmədov yaradıcılığının ikinci mərhələsi Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində işlədiyi dövrü (1985-1996) əhatə edir. Məhz bu dövrdə Xalq Çalğı Alətləri Orkestri onun yaradıcılıq laboratoriya- sına çevrilir. Bu musiqi kollektivi üçün bir sıra əsərlər yazır, xalq mahnılarını işləyir, transkripsiyalar edir.

M.Nəsirlinin sözlərinə "Qızlar bulağı", T.Aslanlının sözlərinə "Unutdun sən məni", H.Valehin sözlərinə "Qoşa Çinar", Orxan Seyfi Orhonun sözlərinə "Keçmə", G.Tərifənin sözlərinə "Bənövşə", Y.Şirinoğlunun sözlərinə "Saçlarıma qar da yağdı", müəllifin öz sözlərinə "Sevdam" mahnılarını; solo bariton, qarışıq xor və xalq çalğı alətləri orkestri üçün Rövşən Əhmədin sözlərinə "Milli Ordumuz", Y.Şirinoğlunun

sözlərinə "Marş irəli!", müəllifin öz sözlərinə "Azadlıq türküsü" marşlarını; solo soprano, solo bariton, qarışıq xor və xalq çalğı alətləri orkestri üçün Elbəyi Maqsudovun sözlərinə "Şəhidlər" rekviyemini, orkestr üçün üçhissəli "Naxçıvan eskizləri" süitasını, zurna ilə orkestr üçün "Cəngi" və s. əsərlər yazmışdır. Bu dövrdə təkcə Xalq Çalğı Alətləri Orkestri üçün əsərlər yazmaqla kifayətlənməmiş, aşıq yaradıcılığı əsasında "Şahsevəni", "Ovşarı" a cappella xorlarını, fortepiano üçün "Aşıqsayağı" rapsodiyasını və kamera simli orkestr üçün üçhissəli "Gəmiqaya" simfoniyasını yazır.

K.Əhmədov yaradıcılığının III mərhələsi Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətə başladığı dövrdür (1996-cı il). Pedaqoji fəaliyyətlə yanaşı, 2000-ci ildən Naxçıvan Bəstəkarlar Təşkilatının məsul katibi, 2008-ci ildən isə Naxçıvan Dövlət Universitetində İncə- sənət fakültəsinin Bəstəkarlıq kafedrasının müdiri vəzifəsində təşkilati işlərlə məşğul olması bəstəkarın yaradıcılıq gücünü tükətməmiş, əksinə, o daha da məhsul- dar işləyərək bir çox əsərlər yazmışdır. Yaradıcılığının bu mərhələsi janr etibarilə çox zəngin olmuşdur.

Kamera orkestri və solo soprano üçün Elbəyi Maqsudovun sözlərinə "Anacan", solo soprano və Xalq Çalğı Alətləri Orkestri üçün Cavanşir Fədainin sözlərinə "Nakam eşqim" mahnılarını, fortepiano və solo bariton üçün Elbəyi Maqsudovun sözlərinə "Zəfər marşı", solo tenor və xalq çalğı alətləri orkestri üçün Elbəyi Maqsudovun sözlərinə "Vətəndir", solo soprano və Xalq Çalğı Alətləri Orkestri üçün Xanəli Kərimlinin sözlərinə "Mən səni sevmişəm" romanslarını, fortepiano üçün "Prelüdlər", "Prelüd və fuqalar", "Skerso", S.Rax- maninov mövzusu əsasında "Mövzu ilə variasiyalar", klarnet və fortepiano üçün "Ballada", klarnet,

skripka və fortepiano üçün "Trio", skripka və fortepiano üçün "Kapriçio", qanun və Xalq Çalğı Alətləri Orkestri üçün "Rapsodiya", solo bariton, solo soprano, qarışıq xor və Xalq Çalğı Alətləri Orkestri üçün Z.Yaqubun sözlərinə "Ömrün Heydər Zirvəsi", Xanəli Kərimlinin sözlərinə "Azərbaycan bayrağı" odalarını, solo bariton, solo soprano və qarışıq xor üçün Q.Hacıyevanın sözlərinə "Qədim Naxçıvan" kantatasını, fortepiano və simfonik orkestr üçün üçhissəli "Konsert", tar ilə simfonik orkestr üçün üçhissəli "Konsert", kamera orkestri üçün "İthaf", "Noktürn", "Naxçıvan lövhələri" simfonik süitasını, simfonik orkestr üçün "Səyahət" simfonik lövhələrini və "Xocalı" simfoniyasını yazmışdır.

C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında tamaşaya qoyulmuş C.Məmmədquluzadənin "Dəli yığıncağı", M.Paşayevin "Dirilən adam", S.Vurğunun "Fərhad və Şirin" dram əsərlərinə musiqi bəstələmiş, tərtibat vermişdir.

**Bənövşə Rzayeva**

# KAMAL ƏHMƏDOVUN MUSİQİ MƏDƏNİYYƏTİMİZƏ BƏXŞ ETDİYİ TÖHFƏLƏR

Kamal Əhmədov 1948-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Tar ixtisası üzrə ibtidai musiqi təhsilini Naxçıvan şəhər uşaq musiqi məktəbində, orta musiqi təhsilini isə Bakı şəhərində A. Zeynallı adına Musiqi Texnikumunda almışdır. Texnikumda oxuduğu illərdə polifoniya, harmoniya, analiz və s. musiqi elmlərinə yiyələnmiş, dünya musiqisi ilə tanış olmuşdur. Muğam sənətinin sirlərini muğam bilicisi, ustad Əhməd Bakıxanovdan öyrənmişdir. Bu illərdə Kamal Rüstəm oğlunda bəstəkarlıq sənətinə maraq yaranmışdır. Piano üçün yazdığı kiçik pyes və prelüdlər onun ilk yaradıcılıq məhsuludur

1973-cü ildə A. Zeynallı adına musiqi texnikumunun xalq çalğı şöbəsinin tar sinifini bitirmiş, işləmək üçün təyinatını Ordubad musiqi məktəbinə almışdır. K. Rüstəm oğlu musiqi məktəbində Xalq Çalğı Alətləri Orkestri təşkil etmişdir. Ordubadda ilk Xalq Çalğı Alətləri Orkestri sayılan bu kollektivin konsertləri dəfələrlə Naxçıvan televiziyası ilə göstərilmiş, bir çox konsert salonlarında nümunəvi çıxışları olmuşdur. Məhz bu illərdə onun bəstəkarlığa olan marağı daha da artmış, orkestr üçün bir sıra işləmələr və mahnılar yazmışdır. İki il Ordubadda, bir il Naxçıvan musiqi məktəbində işlədikdən sonra 1976-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şö`bəsinə daxil olur. Lakin bəstəkarlığa olan həvəsi onu 3 il sonra yenidən konservatoriyanin bəstəkarliq şöbəsinə imtahan verərək bəstəkarlıq ixtisası üzrə təhsilini davam etdirməyə sövq etmişdir.

Respublikamızın görkəmli bəstəkarı, professor Xəyyam Mirzəzadənin sinifində bəstəkarlıq sənətinin sirlərini mənimsəyir, eyni zamanda dünya musiqi korifeylərinin klassik və müasir səpkili əsərlərini öyrənərək, özünün fərdi yaradıcılıq üslubunu müəyyən etmişdir. Musiqinin bir çox janrlarında əsərlər yazan Kamal Rüstəm oğlu öz dəstixəttini püxtələşdirməyə nail olmuşdur. Təhsil illərində yazdığı fortepiano üçün "Prelüd və fuqalar", "Variyasiyalar", tar üçün "Sonata", simli alətlər ansamblı üçün "Kvartet" və s. əsərlər onun peşəkar yaradıcılığının ilk dövrünü təşkil edir. Konservatoriyada keçirilən konsertlərdə onun bir sıra əsərlərinin ifası musiqisevərlərin rəğbətini qazanmışdır. Diplom işi kimi Böyük simfonik orkestr üçün yazdığı "Cavid" simfonik poeması təhsil illərinin ən mükəmməl və uğuru əsəri hesab edilə bilər. Bəstəkar bu əsərdə orkestrin tembr xüsusiyyətlərindən, imkanlarından bacarıqla istifadə edərək polifonik səpkili əsas mövzunun müxtəlif kolorit və ritmik dəyişikliyə uğrayan inkişafı vasitəsilə nakam şairimiz Hüseyn Cavidin keşməkeşli, ağır taleyini göstərməyə çalışır. Müəllif xalq musiqisinin elementlərindən, muğam intonasiyalarından istifadə edərək əsərin simfonik dilini zənginləşdirmiş, milli koloritlə avropa musiqi koloritinin sintezini yaratmışdır. Təsadüfi deyil ki, bu poema 1988-ci ildə Ukrayna Respublikasının Xalq artisti Aleksey Fedoseyeviç Qulyaniskinin idarəsilə Krım Dövlət Filarmoniyasının Simfonik Orkestri tərəfindən ifa edilmiş və orkestrin repertuarına salınmışdır. Əsərin uğurlu ifası və özünəməxsus maraqlı bəstəkar manerası haqqında "Sovetskiy Krım" qəzetində musiqişünas Sokolik müsbət resenziya yazmaqla bərabər müəllifi böyük istedada malik musiqiçi adlandırmışdır. 1985-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq üzrə

təhsilini başa vurduqdan sonra K.Əhmədov Naxçıvan şəhərinə gəlmiş, burada yeni yaranmış Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində fəaliyyətə başlamışdır. Bu illərdən başlayaraq o, yaradıcılığını Xalq Çalğı Alətləri Orkestri ilə bağlamış, orkestr üçün müxtəlif səpkili əsərlər yazmış, transkripsiyalar və işləmələr etmişdir. Kamal Əhmədov mahnı yaradıcılığında əsasən naxçıvanlı şairlərin sözlərinə müraciət etmişdir. M. Nəsirlinin sözlərinə "Qızlar bulağı", H. Valehin sözlərinə "Qoşa çinar", "Yaqub Şirinoğlunun sözlərinə "Saçlarıma qar da yağdı", "Gözlərinə baxan zaman", E. Maqsudovun sözlərinə "Zəfər marşı", "Anacan", Xanəli Kərimlinin “Bayraq”, “Onu zaman doğmuşdu”, “Ata”, Muxtar Qasımzadənin “Bura Şuşadır”, Rövşən Əhmədin sözlərinə “Milli Ordumuz”, Tərifənin sözlərinə "Bənövşə", T. Aslanin sözlərinə “Unutdun məni” digər şairlərin sözlərinə “Kaman səsi", "Bu yolu seçdim", "Keçmə" və s. mahnılar yazmışdır. "Azadlıq türküsü", Sevdam" mahnılarının sözləri isə bəstəkarın özünə məxsusdur. Xalq Çalğı Alətləri Orkestrinə dərindən bələd olan Kamal Əhmədov bir sıra orkestr əsərləri yazmışdır. "Cəngi", "Süita", "Naxçıvan eskizləri", "Rekviyem" kimi əsərləri öz orijinallığı ilə fərqlənir. Azərbaycanın azadlığı uğrunda həlak olmuş şəhidlərə həsr olunmuş "Rekviyem" əsəri xalq çalğı alətləri orkestrinin janr xüsusiyyətlərini aşaraq simfonikliyi ilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, bu əsər dəfələrlə "Şəhidlər" simfoniyası adı altında səsləndirilərək Naxçıvan televiziyası ilə göstərilmişdir. 1985-ci ildən 1997-ci ilədək Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin yaranmasında və formalaşmasında böyük zəhməti olan Kamal Əhmədovun idarəsilə bu orkestr Bakı, Sumqayıt

və digər şəhərlərdə dəfələrlə müvəffəqiyyətli konsertlər vermişdir. Bəstəkarın yaradıcılığı xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlərlə məhdudlaşmır. O, bir sıra vokal, instrumental və simfonik əsərlərə müraciət etmiş, qarışıq xor üçün "Fuqa", aşıq mahnıları mövzusu əsasında "A-kapellalar", böyük simfonik orkestr və fortepiano üçün "Konsert", kamera orkestri üçün "Simfoniya" və s. əsərlər yazmışdır. Bəstəkarın kamera orkestri üçün yazdığı 3 hissəli "Simfoniya" Türkiyənin istedadlı dirijoru Saim Akcılın rəhbərlik etdiyi İstanbul-Borusan Oda Orkestri tərəfindən səslənmiş və orkestrin daimi repertuarına salınmışdır. Bəstəkar bir neçə tamaşaya da musiqi yazmışdır. Belə ki, C. Məmmədquluzadənin “Dəli yığıncağı”, M. Paşayevin “Dirilən adam”, S. Vurğunun “Fərhad və Şirin” tamaşalarına musiqi bəstələmişdir. Keçmiş SSRİ Bəstəkarlar İttifaqının üzvü olan Kamal Əhmədov hal-hazırda Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan MR Təşkilatının məsul katibi olmaqla yanaşı, Naxçıvan Dövlət Universitetində pedoqoji fəaliyyətini davam etdirir.

Bəstəkarın fortepiano üçün yazdığı “Mövzu ilə variyasiyalar” əsəri Beynəlxalq Müsabiqələr laureatı, pianoçu Svetlana Əhmədova tərəfindən, 2007-ci il tarixdə Bakı şəhərində keçirilən Azərbaycan Bəstəkarlarının 8-ci Qurultay konsertində uğurla ifa edildi.

2007-2008 illər ərzində kamera simli orkestri üçün “Simfonietta”, Gəmiqaya” simfonik lövhələri, kamera orkestri, iki solist və qarışıq xor üçün Zəlimxan Yaqubun sözlərinə “Ömrün Heydər zirvəsi” odasını, piano, iki solist və qarışıq xor üçün Yaqub Şirinoğlunun sözlərinə “Marş irəli”, qanun və xalq çalğı alətləri orkestri üçün “Rapsodiya”, tar ilə böyük simfonik orkestr üçün üç hissəli “Konsert” yazmış, piano və böyük simfonik orkestr üçün üç hissəli

konserti və böyük simfonik orkestr üçün “Cavid” simfonik poemasını redaksiya etmişdir.

Hal-hazırda bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilatının məsul katibi işləməklə yanaşı, Naxçıvan Dövlət Universitetində İncəsənət Fakulltəsinin Bəstəkarlıq kafedrasına rəhbərlik edir.

Bu məhşür bəstəkarın hələ gənclik illərində bəstələdiyi və dahi şəxsiyyət Hüseyn Cavidə həsr etdiyİ “Cavid” simfonik poeması o dövurdə və haliyədə də böyük rəğbətlə qarşılanır və müsiqi içtimayyəti arasında da poema yüksək qiymətləndirilir. Belə ki, simfonik poemada partetura xüsusi vurğulnmaqla burada olan tureyə görə milli dəyərlərin önə çəkilməsi, milli simli alələtlərində ifa ahənginin əvəzsiz qorunması fərəhlə qeyd edilir. Bu sənət əsərində gənc istedadlı bəstəkar dünya bəstəkarları arasında nadir təsadüf olunan bir müsiqi afəngi yarada bilmişdir. Əsərdə Cavidin keçdiyi əzablı, əziyyətli, məşəqqətli həyat faciəsi olduğu kimi səslərin dili ilə səsləndirilmişdir. Əbəs yerə bəstəkarın bəstələdiyi əsərlərə Kaninatdan-Evrəndən gələn səslər deyilmədiyi bir daha sübuta yetirilmiş və təsdiq olunmuşdur. Bəstəkarın variasiyalarında, mahnılarında və versajlarında da mili dəyər dünya musiqi dəyərlərinə inteqrasiya etməklə tarixi dərinilikdən gələn Üşşaq muğamı üstündə qurulduğunu tam təsdiq edir və əsərlərin məlahətili, qürurlu səslərməsində də öz əksini rezanas etdirir, məna tapır, yüksək məqamla tərənnüm olunur.

Bildiyimiz kimi, Rast muğamı Adəm peyğəmbərdən qalmışdır. O, ilk insanın cənnəti və xamuşluğunu itirdiyi üçün ağlamasını ifadə edir. Üşşaq muğamı insanlığın ikinci atası Nuhdan qalmışdır. Nəva muğamının yaranmasına səbəb Davud peyğəmbər olmuşdur. Hicaz muğamı isə Süleyman

peyğəmbərdən qalmışdır. Əraq muğamı ədalətli Yəhya peyğəmbərdən miras qalmışdır. Hüseyni muğamı Yaqub peyğəmbərdən qalmışdır. Buzulik muğamı Baba Ömərdən qalmışdır. Rəhaği muğamına gəldikdə isə bu, Məhəmməd peyğəmbərə Quranın nazil edilməsi zamanlarında yaranmışdır. Belə ki, Məhəmməd peyğəmbər Quranın ayələrini yarı musiqili qaydada Rəhaği muğamı tonunda oxumuşdur.

Görkəmli bəstəkarın yaradıcılığında önəmli amillərdən biri də milli dəyərlərimizi tarixə bağlayan ən ülvü hisslərin ön planda olmasıdır. Bununla da, bəstəkarın Nuh diyarının öz qədimiliyini simfonik əsərlərindəki səs bölgüsündə dəqiq təmin etməsi, daha dolğun və təsirli vurğulaması, milli dəyərlərimizi qorumaqla yanaşı bir yeni musiqi etalonu da yaradır. Bunun da, hər bəstəkara nəsib olan bir an olmadığını xüsusi vurğulamaq gərəkdir.

O, bir sıra vokal, instrumental və simfonik əsərlərədə mili dəyərlərimizi dünya müsiqi arenasına çıxarmış, və milli dəyərləri əsan ana xətt olaraq saxlamışır. Belə ki, aşıq mahnıları mövzusu əsasında "A-kapellalar" rı aşıq müsiqisini dünya musiqi sisteminə daha dəqiq və məna çalarları ilə bağlayır və insanı valeh etməklə yeni bir müsisqi duyumu yaradır. Bu əsərdə bəstəkar yeni musiqi idrakı ifadə edərək, xalq sənətimizin dünya arenasına çıxışını təmin etmişdir.

Kamal müllimin bütün əsərlərində polifoniya, ritm, harmoniya və analiz tam ölçülərdə vurğulandığından onun müsiqisinin ahəngi ürəklərə mülayım səslə, ahəstəcə yol tapır.

Tək bir çümlə ilə Kamal Əhmədov yaradıcılığını xarakterizə etsək – onun əsərlərində səslərin rəngi və ahəngi tam olaraq aydın görünür.

**Çingiz Süleymanov**
***11.09.2023-cü il***

## BİR MARŞ BƏSTƏLƏ!

*Bəstəkar Kamal Əhmədova həsr edilir.*

*Bəstəkar qardaşım, bir marş bəstələ,*
*Sədası yayılsın yer kürəsinə.*
*Cəm olsun bir yerə Turan elləri,*
*Qovuşsun bu marşın təntənəsinə.*

*Bəstəkar qardaşım, bir marş bəstələ,*
*Nəğməndə Vətənin özü görünsün.*
*Mustafa Kamalın, Heydər babamın,*
*Dünyaya baxışı, sözü görünsün.*

*Müsiqin fəth etsin uca zirvəni,*
*Zirvədə Ərdoğan, İlham görünsün.*
*Cahana sülh, barış, nizam gətirən,*
*Ulu vətən, ulu Turan görünsün.*

*Elə yaz nəğməni Türk xalqlarının,*
*Oyanış, dirçəliş nəğməsi olsun.*
*Elə yaz, bəstələ, möhürün vur ki,*
*Sənin bu nəğmənə heykəl qoyulsun.*

*Qardaşım unutma mənim sözümü,*
*İllər gəlib keçir, zaman tələsir.*
*Köksündən qopacaq birlik nəğməni,*
*Ellər oxumaqçun səni gözləyir.*

**Rövşən Hüseynov,**
***"Yeni fikir" qəzeti,***
***30 sentyabr 2023-cü il***

**BİR MARŞ BESTELE!**




Besteci kardeşim, bir marş bestele,
Sedası yayılsın tüm yer yüzüne.
Cem olsun bir yere Turan elleri,
Kavuşsun bu marşın tentenesine.

Besteci kardeşim, bir marş bestele,
Nagmende Vatanın özü görünsün.
Mustafa Kemalın, Haydar babamın,
Dünyaya bakışı, sözü görünsün.

Müzigin feth etsin yüce zirveni,
Zirvede Erdoğan, İlham görünsün.
Cihana sülh, barış, nizam getiren,
Ulu Vatan, ulu Turan görünsün.

Öyle yaz nagmeni Türk halklarının
Oyanış, dirceliş nağmesi olsun.
Öyle yaz, bestele, mühürün vur ki,
Senin bu nağmene heykel qoyulsun.

Kardeşim unutma benim sözümü
Yıllar gelib kecir, zaman telesir.
Göğüsünden kopacak birlik nağmeni,
Eller okumak için seni bekleyir.

**Rövşan Hüseynov**
***Nahçıvan Basın Konseyi Başkanı***
***Yaşıl İğdır qəzeti***
***30.10.2023***

## SAHİB ƏLİYEV



### ONUN XOŞ MƏRAMI VAR

***Dostum Sahib müəllimə həsr edirəm***

Dağlar vüqarını veribdir ona,
Təbiət varını veribdir ona,
Ağaclar barını veribdir ona,
Bir yanar günəşdir, tükənməz, bitməz,
Onun xoş məramı havayı getməz.

Nə varda gözü var, nə də sərvətdə,
Dərdini, qəmini saxlar xəlvətdə,
Nurunda əriyər qatı zülmət də,
Qəlbinin atəşi tükənməz, bitməz.
Onun xoş məramı havayı getməz

Əzəldən insana məhəbbəti var,
Ürəyi bir anda min dostu anar.
Savab qazanmağa daim can atar.
İnsana sevgisi tükənməz, bitməz,
Onun xoş məramı havayı getməz.

O yaşamaq üçün gəlib dünyaya,
O yaşatmaq üçün gəlib dünyaya,
O nur paylamaqçün gəlib dünyaya,
Bu nurun işığı tükənməz, bitməz,
Onun xoş məramı havayı getməz.

**Rövşən Hüseynov**
***25.06.2023-cü il***

Sahib Əli oğlu Əliyev
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
NDU-nun Ümumi riyaziyyat kafedrasının dosenti (0.5 ş)
NMİ-nin Ali riyaziyyat və informatika kaferasının dosenti (1.0 ş)
E-mail: sahib1960elm@gmail.com

## QISA BİOQRAFİK MƏLUMAT

Sahib Əli oğlu Əliyev 1960-cı ildə Culfa rayonu Xanəgah kəndində anadan olmuşdur. Xanəgah kənd orta məktəbində təhsil alıb.

Naxçıvan Dövlət Universitetinin (Naxçıvan Dövlət Pedaqoji institutu) fizika-riyaziyyat fakültəsində 1977-1981-ci illərdə təhsil alıb.



1981-1990-cı illərdə Cəlilabad rayonunda riyaziyyat müəllimi işləmişdir.

1987-1991-ci illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat-Mexanika institutunun qiyabi aspirant olub.

1992-ci ildə "Xüsusi periodik əyri quruluşlu kompozit materiallarda gərginlik vəziyyəti" mövzusunda dissertasiya müdafiə etmişdir. Fizika-riyaziyyat elmlər namizədidir. "Məqalə və tezis", "dərs vəsaiti", "fənn proqramı" müəllifidir.

## ƏMƏK FƏALİYYƏTİ

1981-1990-cı illərdə Cəlilabad rayonunda riyaziyyat müəllimliyində çalışmışdır.

1990-1992-ci illərdə NDPİ-nun Ümumi riyaziyyat kafedrasında laborant, baş laborant, 1993-cü ildən müəllim, baş müəllim, 1997-ciildən riyazi analiz kafedrasının dosentidir.

2020-ci illərdə riyazi analiz kafedrasının müdiri vəzifəsində çalışmışdır.

2021-2022-ci illərdən Naxçıvan müəllimlər İnstitutunun "Ali riyaziyyat və informatika" kafedrasının dosenti və həmin kafedranın kafedra müdiri əvəzi vəzifəsində çalışmaqdadır.

## TƏDQİQAT İŞLƏRİ

Hissə-hissə bircins mühitlər modeli əsasında gərginlik-deformasiya vəziyyətində ədədi nəticələrin analizi tədqiq edilmişdir. Eyni zamanda riyazi analizin bəzi məsələlərinin həllinə aid tədqiqat işlərinə baxılmış, "Riyazi analiz" dərs vəsaitinin müəllifidir. (I və II hissə).

## BEYNƏLXALQ SİMPOZİUM VƏ KONFRANSLARDA İŞTİRAKI

2004-cü ildə 5-7 noyabr AMEA Riyaziyyat və Mexanika institutunun 45 illiyinə həsr olunmuş X beynəlxalq konfransında iştirak etmişdir.

2019-cu il 16-20 iyulda Türkiyədə Kutahya Dumlupinar Universitində Operators in General Morrey-Type Spaces and Applications (OMTSA 2019) beynəlxalq konfransında iştirak etmişdir.

2019-cu il 23-25 oktyabr Bakıda Riyaziyyat və Mexanika İnstitutunda Riyaziyyat və Mexanika İnstitutunun 60 illiyinə həsr olunmuş "Riyaziyyat və mexanikanın müasir problemləri" adlı beynəlxalq konfransında iştirak etmişdir.

2021-ci il 28 avqust İsveçrədə keçirilmiş The XVII İnternational Scientific Symposium “Karabakh: Way to Victory” beynəlxal konfransında onlayn formada iştirak etmişdir.

2022-ci il 22 fevral Türkiyənin Qars şəhərində keçirilmiş The XXIII İnternational Scientific Symposium “İntcgration of culturcs and multiculturalism” dedicated to the 305 anniversary of Molla Panah Vagif beynəlxalq konfransında onlayn formda iştirak etmişdir.

# ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ VƏ MÜƏLLİMLƏR ÜÇÜN DƏRS VƏSAİTİ

*Hər iki dərs vəsaiti Ümummilli Lider Heydıər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdur.*




Müasir dövrdə Azərbaycanın beynəlxalq rəqabətə sürətlə uyğunlaşma qabiliyyəti uğurlu və davamlı inkişafın ən mühüm amilinə çevrilir. Hər bir ölkənin siyasi və iqtisadi rolunun gücləndirilməsinin və onun əhalisinin rifahının yüksəldilməsinin əsas şərti ölkənin rəqabət qabiliyyətliyinin artmasını təmin etməkdir. Ölkənin başlıca rəqabət üstünlüyü bir çox cəhətdən təhsillə müəyyənləşən insan potensialının inkişafı ilə bağlıdır. Hazırkı mərhələdə ölkənin iqtisadi yüksəlişinin açarı məhz təhsillə bağlıdır. Elm və texnologiyalar sürətlə inkişaf edir. Ali təhsildən gözləntilər günbə-gün dəyişir. Müasir dövr ali təhsildən elmi-texniki, texnoloji və ekoloji təlabatlara, innovasiyalara və beynəlxalq rəqabətə daha həssas yanaşmağı tələb edir. Respublikamızın təhsil qanunvericiliyində baş vermiş dəyişikliklər ali məktəblərin inkişaf strategiyasının müəyyənləşməsinə təsir göstərir, situasiyanın inkişaf proqnozlarının və ali məktəblərin yeni şəraitdə davranış modelinin işlənib hazırlanmasını daha da aktuallaşdırır. Ali təhsilin ikipilləli sistemi (bakalavr və magistr) proqram və dərsliklərin məzmununda uyğun dəyişikliklərin aparılmasını tələb edir.




Elm və texnologiyaların inkişafında bir sıra elmlərlə yanaşı riyaziyyatın və xüsusən onun riyazi analiz qolunun çox böyük rolu vardır. Riyazi analiz elementlərinin əsası ümumtəhsil məktəblərinin riyaziyyat kursunda qoyulur, ali təhsilin bakalavriat və magistratura səviyyələrində daha geniş və elmi əsaslarla öyrənilir. Müasir təlim texnologiyaları və təhsil proqramları müvafiq dərs vəsaitlərinin və dərsliklərin tətbiqini tələb edir. “Riyaziyyat”, “Riyaziyyat müəllimliyi”, “Riyaziyyat və informatika müəllimliyi” ixtisaslarının yeni təhsil proqramlarına və onların məzun kompetensiyalarına uyğun hazırlanmış bu dərs vəsaitində Riyazi analizdən mühazirələr və həmin mühazirələri daha sadə şəkildə başadüşülən olması üçün nümunələrlə verilmişdir.

Vəsait on üç fəsildən ibarətdir. Hər fəslin sonunda bu fəslə aid tapşırıqlar verilmişdir.

**Azad Novruzov,**
***pedaqigika üzrə fəlsəfə doltoru***

## SEYİDOV MİRƏLƏKBƏR MİRMÖHSÜN OĞLU



1951-ci ilin 27 fevralında Naxçıvan şəhərində Atatürk küçəsindəki (keçmiş Kirov küçəsi) musiqi məktəbinin (musiqi məktəbi B.Kəngərli muzeyinin həyətində) arxasındakı evdə anadan olmuşam.

Ağam Seyidov Mirmöhsün Mirələkbər oğlu 1892-ci ildə Təbrizdə anadan olub-babam Mirələkbər Ağa böyük tacir olmaqla yanaşı həm də “daşbasma” üsullu mətbəə sahibi olub, həmin mətbəədə “Qurani-Kərim” çap etdirərək camaat arasında yayıb. Babam dünyasını dəyişəndən sonra nənəm Kərbəlayi Zəhra bir oğlu Mirmöhsünü və üç qızını özü ilə bərabər öz doğulduğu yerə - Naxçıvana gətirib və onların hamısı Naxçıvanda vəfat edib.

Həmin “Quran” Kitabından bir nüsxəsi hazırda bizim Naxçıvandakı evimizdə saxlanılmaqdadır!! Onun bir çox səhifələrində babamın öz əli ilə yazdığı şərhləri də öz yerini tutub.

Ağam Naxçıvanda “şapqaçı–papaqçı” Mirmöhsün adı ilə tanınmaqdadır. Çoxlu şəyirdləri olub... 1959-cu ildə mənim 8 yaşımın tamamına bir gün qalmış 26 fevralda Naxçıvan şəhərində dünyasını dəyişib.

Anam Seyidova Qüdrət Cəfər qızı Sədərək kəndində anadan olub - 1950-ci ildə ağamla ailə həyatı qurublar. O Sədərəkdə məşhur olan Kərbalayi Qara Seyid - Kərbalayi

Seyid Qənbər -Kərbəlayi Mirkazım Ağa-Kərbəlayi Mirbaba Ağa nəslindəndir. Kərbəlayı Mirbaba Ağa ana nənəm "Qara Cənnət"in atası Kərbəlayi Mirkazım Ağa nənəmin babasıdır. Onların hər ikisi Sədərək kəndindəki qəbristanlıqların birində yox, "Bəyzadə" məscidinin həyətində dəfn olunublar.

Səbəbi: 1901-ci ildə Sədərək kəndində vəba (taun) epidemiyası baş verir -hər gün yüzlərlə insan ölür-nənəmin babası Kərbəlayi Mirkazım Ağa cümə günü həmin "Bəyzadə" məscidində pişnamaz olur-namaz qurtardıqdan sonra Kəbə istiqamətində 7 qədəm atıb dua edir: "Allahım məni apar bu Sədərək camaatını bu bəladan xilas elə!!!!!!!+1" Camaatın gözü qarşısında canını tapşırır və o gündən vəba epidemiyası dayanır. Bu hərəkətinə görə camaat Onu elə o məscid həyətində də dəfn edir. Bir müddət sonra nənəmin atası-anamın babası Kərbəlayi Mirbaba öz Ağ Atının üzərində yenidən Kərbalaya səfər edir - geri qayıdarkən İranda -Mərənd yaxınlığında Atın üstündə dünyasını dəyişir -Atı onu Sədərəyə kimi gətirib çıxarır - Onu da Atası Kərbəlayi Mirkazım Ağanın ayağı altında dəfn edirlər -3 gündən sonra o Ağ At da dünyasını dəyişir -Onu da Kərbəlayi Mirbabanın ayağı altında dəfn edirlər.

Anamın Atası Cəfər babamın anası Möminə Xatın nənəm də Seyid qızı olub.

Anam 26 yaşından dul qalıb -özünün savadı olmasa da -bacım Hafizəyə və qardaşım Mirələsgərə ali təhsil verib!!

Anamı qaynanamla birgə 1999-cu ildə avtobusla Bakı-Astara-İraq-Kərbəla-Məkkə marşrutu ilə ziyarətlərə yola salmışıq -qayıdıb Bakıya gələndən 2 həftə sonra dünyasını dəyişib.

Hacı Qüdrət Xanım Cəfər qızı Seyidova 17 aprel 1999-cu ildə Bakıda dünyasını dəyişəndən sonra "Qurd Qapısı"

adlanan qəbristanlıqda dəfn olunub. Qohum-qardaş, qonşular-tanıyanlar arasında bir Seyid qızı kimi indi də hörmətlə yad edilir.

Mən 1957-1959-cu illərdə Naxçıvan şəhər 2 nömrəli məktəbdə; 27 il Naxçıvan MR-nın ictimai-təminat naziri olmuş bibim Səkinə Rzalının təklifi və təkidi ilə 1959-1961-ci illərdə Əbrəqunus internat məktəbində; 1961-1967-ci illərdə Naxçıvan şəhər Əkbər Ağayev adına internat məktəbində oxumuşam -sonuncu məktəbi "Gümüş medalla bitirib -elə həmin il Dadaş Bünyatzadə adına XTİ-nun əmtəəşünaslıq və ticarətin təşkili fakültəsinə daxil olub 1971-ci ildə oranı bitirmişəm -oxuyan dövrdə Il növbə işləmişəm.

1971-1980-cı illərdə Naxçıvan şəhər ticarət idarəsində -Naxtorqda satıcı, mağaza müdiri, əmtəəşünas, direktor müavini vəzifələrində, 1980 -1982-ci illərdə Naxçıvan MR -nın Nazirlər soveti aparatında referent, 1982-1985-ci illərdə Naxçıvan Yol Restoranları idarəsində direktor, 1985-1988-ci illərdə Azərbaycan Dəmir yolu Naxçıvan hissəsinin Fəhlə Təchizat şöbəsində (ORS) rəis, 1988-1990-cı illərdə Babək rayon ictimai iaşə idarəsinin direktoru, 1990-1991-ci illərdə Naxkoopittifaqın bazasında alış üzrə əmtəəşünas işləmişəm.

1990-cı ildə Ümummilli Liderimiz Heydər Əliyevi bacısı Surə Xanımın həyətində ziyarət etmişəm-mənə "...bizim qonşu olmağımızı" O Özü deyib -və sən gəl-get!!!!" -tapşırığını verib..

1991-ildə Naxçıvan blokadaya alınanda Astara şəhərindən avtomaşın yolu ilə Naxçıvana İlk yük daşınmasının təşkilatçılarından biri də mən olmuşam (Naxçıvan şəhər kooperativ ticarətinin müdiri RAhmatliklər Surxay və İliç (hazırda Şərur) rayon kooperativ ticarətinin müdiri Nəsirlə birgə).

O ağır blokada illərində həm Naxçıvanın həm də Bakının ərzaqla təchizatında xidmətlərim olub -taxıl, noxud, kartof, diri qaramal və sair...

1992-ci ildən ailəmlə birgə Bakıya köçmüşəm -1999-cu ilədək Azərbaycanda bir çox önəmli biznes işləri ilə məşğul olmuşam -dövlətə təkliflər vermişəm -onlardan biri "Azərbaycanda elektrik enerjisi istehsalında istifadə olunan mazutun qazla əvəz olunmasının texniki -iqtisadi əsasları"nı hazırlayıb təqdim etmişəm -layihə qəbul olunub və indi də işləməkdədir!!!

Bunlarla yanası həm beynəlxalq həm də yerli əhəmiyyət daşıyan -qəbul olunan bir sıra təkliflərim də olub.

2000-2004-cü illərdə Özbəkistan Respublikasında çalışmışam -ikitərəfli faydalı işlər görmüşəm. Özbəkistandan Azərbaycana 10 min tonlarla taxıl göndərilməsini təşkil etmişəm!!!!

2004-cü ilin 20 martında Xalq şairi Nəbi Xəzrini, alimlər Vasim Məmmədəliyevi, Elməddin Əlibəyzadəni, Cəlil Nağıyevi, Məmməd Əlizadəni özümlə birgə Özbəkistanın Daşkənd şəhərinə aparmışam. Bu ezamiyyət Azərbaycanın Özbəkistan Respublikasında və Mərkəzi Asiya respublikalarında İlk Fövqəladə və Səlahiyyətli səfiri Aydın Əlibəy oğlu Əzimbəyovun təklifi ilə baş tutub -həmin dövrdə Özbəkistanın Daşkənd şəhərində:

- "Azərbaycan evi"nin açılışı;

- Həmin "ev"in qarşısında Ulu Öndərimiz Heydər Əliyevin büstünün qoyulması; küçəyə Onun adının verilməsi;

- Nizami Gəncəvi adına Daşkənd Pedaqoji institutunun qarşısında Nizami Gəncəvinin heykəlinin qoyulması;

- Müstəqil Azərbaycan respublikasının maliyyəsi ilə tikilən "Azərbaycan respublikası səfirliyinin" açılışı -

nəzərdə tutulmuşdu. Tədbirlərdə Azərbaycan tərəfdən Prezidentimiz İlham Əliyev, l Xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və digər rəsmilər, Özbəkistan tərəfdən isə Prezident İslam Kərimov, baş nazir Şövkət Mirziyayev (hazırkı prezident) və digər rəsmi şəxslər iştirak edirdi.

Bu tədbir haqda "Aydın Əzimbəyov -tarixlə səsləşən ömür yolu" (Azərbaycan və rus dillərində) buraxdığımız Kitabda ətraflı məlumatlar gedib -həmin kitabda həm də RAhmatlik dostum Məhərrəm Zamanın mənim təklifimlə qələmə aldığı "Körpü" romanı da öz yerini alıb.

2005-ci ilin əvvəlindən başlayaraq daha çox milli -mənəvi dəyərlərimiz istiqamətində fəaliyyətim olub. Bu işlərin başlanğıcı isə- Əshabü-Kəhfə bağlıdır... Bu barədə RAhmalik Əziz -Ağır -Dostum -Sirdaşım Elman İslam oğlu Əliyev (1959 -2011) barədə nəşr etdiyimiz "Elman Əliyev -Olduğu və Göründüyü kimi" Kitabında gedən yazıma baxmaq olar. Bir cümlə ilə demək lazım gələrsə: RAhmatliklər Elman Əliyev və Mahmud Mahmudov; Hacı Salman Məmmədli və mən 2005-ci ilin yanvarından -iyununa kimi birgə fəaliyyət göstərərək -respublikanın alimlərini -ictimaiyyətini -dövlət qurumlarını ayağa qaldıraraq hayların Azərbaycanımıza -onun ayrılmaz hissəsi Naxçıvan bölgəsinə qarşı -hiyləgərcəsinə planlaşdırılmış istəklərinin qarşısını ala bildik.

Həyatımın dönüş nöqtəsi isə 2011-ci ilin fevral ayına təsadüf edir!!!!!!!

Həmin dövrdə mən DAHİ Vahid Rzayevlə (22.04.1947 -21.09.2018) tanış olmuşam. Bu haqda Vahid Rzayevin “Var Olandan, Var Olmuşuq” Kitabının sonunda gedən yazımda qeydlərim var. Kitabı birgə 2015-ci ilin yayında nəşrə hazırlayarkən Vahid Rzayev mənə təklif etdi Kİ!! Həmin “Kitaba

ön söz yazım..” Mən O BÖYÜKLÜYÜN QARŞISINDA bu təklifi qəbul etməmək qərarına gəldim –“sözardı” yazmağıma icazə istədim..

2012-ci ildə Vahid Rzayevin Adlandırdığı "AqRA" Adlı Elmin İnkişafına Dəstək ictimai birliyini qeydiyyatdan keçirə bildik. Dövlətin maliyyə yardımı ilə:

1. Görkəmli Azərbaycan Alimi Əjdər Fərzəlinin "Ноев ковчег и Гямигая -Гобустанский алфавит" adlı Kitabını təkrar nəşr etdik və AMEA-da geniş elmi müzakirəsini təşkil etdik. Bu Kitabı 2005-ci ildə yuxarıda göstərdiyim hadisələrlə bağlı biz birbaşa rus dilində nəşr etdirmişdik -Cəmi 250 nüsxədə "Azərbaycan ensiklopediyası" nəşriyyatında Görkəmli Alim İsmayıl Vəliyevin dəstəyi ilə nəşr olunan "Gəmiqaya -Qobustan əlifbası" Kitabının üzərində bizim təklifimizlə yenidən işləyən Müəllif Əjdər Fərzəlinin rus dilində ilk Kitabı oldu. Dəfələrlə məsələ qaldırsaq da həmin Önəmli Kitab Azərbaycan dilində nəşr olunmayıb.

2. Vahid Rzayevin böyük qardaşı Fikrət Rzayevin (1936 -2013) "Söz. Söz konstruktorluğu. Sözün sirri." Kitablarını 2015-ci ildə birgə nəşr etdik.

Buna qədər isə həmin kitabları öz gücümüzlə 2012-ci ildə nəşr edib 19.11.2012-ci ildə NDU -də müzakirəsini təşkil etmişdik -o tədbirə Kitabların elmi redaktoru RAhmatliklər Buludxan Xəlilovu və texniki redaktoru Məhərrəm Zamanı aparmışdım.

Kitabda Fikrət və Vahid Rzayev qardaşlarının AMEA-nın Müxbir Üzvü Afad Qurbanovun təklifi ilə yazdıqları "DİLİN YARADILMASINA DAİR İLAHİ NƏZƏRİYYƏ" də daxil edilmişdir.

3. Övraqımızda (yəni saytda) gedən materialların bir qisminin ingilis dilinə tərcümə olunması və övraqın yenidən

qurulması. Hazırda dünyanın 140 ölkəsindən 148 mindən artıq oxucumuz vardır -o cümlədən ABŞ -dan 18700.

Vahid Rzayevin ingilis dilinə edilmiş tərcümə mətnlərinin sayını artıraraq Almaniyanın "Lambert" nəşriyyatında Onun "PASTULATE Greation" adlı Kitabını 2020 ci ildə ingiliscə nəşr etdirdik.

4. "AqRA" EİDİB-nin İH-nin Üzvü Həkim -narkoloq Asif Kəngərlinin "Bəla" pyesi əsasında eyni adlı 55 dəqiqəlik film -tamaşanı Bakı uşaq teatrında bədii rəhbər əməkdar artist İntiqam Soltanın dəstəyilə çəkdik və Nizami kino evində təqdimatını keçirdik.

Youtube-də yarım milyonu ötən baxış sayına nail olduq. Film -tamaşanın əvvəlində Vahid Rzayevin "Narkomaniya bəşəriyyətin bəlası..." ilə başlanan deyimi gedir..

5. Hazırda Vahid Rzayevin Yazıya gətirdiyi BÖYÜK YARADAN DEYİMLƏRİ Olan -Zərdüştün "AVESTA"sının təkmil variantı Olan "YARANIŞ" KİTABININ;

Vahid Rzayevin "ÜMİDİMİZ SƏNƏDİR" KİTABININ (hər ikisinin azlatın əlifbası ilə);

Vahid Rzayevin indiyənədək çap olunmayan "İŞIQ, ZƏRRƏ" KİTABININ nəşri ilə məşğuluq.

Vahid Rzayev bu yer üzünün bəşəriyyətinə yenidən İLAHİYYAT ELMİNİ GƏTİRİB -BU ELMDİR, DİN DEYİL -İLAHİDƏN GƏLƏN ELMDİR!!!!!!!+1

Vahid Rzayev bu yer üzünə GÖNDƏRİLƏNDİR!!!!!!!+1

BÖYÜK YARADAN TƏRƏFİNDƏN GÖNDƏRİLƏNDİR!!!!!!!+1

Vahid Rzayevin arxiv materiallarını Azərbaycan Respublikasının Milli Arxiv idarəsinə təhvil vermişik -bura Onun əlyazma dəftərləri -səs yazıları və sair daxildir.

Eyni zamanda onu da qeyd edim Kİ!! Bu materallar “AqRA” EİDİB-nin adından təhvil verilmişdir. Bura bizimlə əməkdaşlıq edən şəxslərin də təqdim etdikləri müxtəlif səpgili sənədlər, kitablar, nəşr etdiyimiz kitabların əlyazmaları, müxtəlif rəylər, qəzetlər və sair.. daxildir.

10 ildən artıq müddətdə müxtəlif dövlət orqanlarına yüz dəfələrlə cavabsız qalan müraciətlərimiz də təhvil verilən materiallara əlavə edilib.

Son 10 ildə Naxçıvan MR-nın rəhbərliyinə də 30-dan artıq müraciətimiz olub.. Təəssüf edilməli haldır Kİ!!

Nə mərkəzdə nə də Naxçıvanda ciddi yanaşma müşahidə etməmişik..

Dünya isə bu Elmdən faydalanmaqdadır -ABŞ -dan 19 minə yaxın oxucumuz olması da təsadüfi deyil..

Bunu göz önünə alaraq Naxçıvan MR-nın yeni rəhbərliyinə də müraciət etmək qərarına gəlmişik.. Görək nə olur və necə Olur!!??

Övraqımızı 2013-cü ildə təşkil etmişik -texniki baxımdan operatorluğunu İH-nin Üzvü Həsən İsmayılov təmin edir.

Bütün adını yuxarıda çəkdiyim kitablar və materiallar

www.aqra.az

www.aqra.az/en

www.aqra.az/ru övraqında yerləşdirilmişdir.

Ailəmiz barədə -iki qızım, bir oğlum, beş nəvəm var, həyat yoldaşım da mənim kimi pensiyaçıdır.

Bu mətn mənim bu 72 illik həyatım boyu gördüyüm işlərin xülasəsinin -xülasəsidir!!!!!

## Mirseyid cəddinin davamçısı

Seyid cəddinin davamçısı Mirələkbər müəllimlə tanış oldum. Təsadüf yoxdur. Hər nə görürsənsə Anırsan, duyur-

san və duyursansa deməli bir Nur yolunun ardıcıl, nizamlı davamçısısan və mən beləcədə bu böyük şəxsiyyəti tanıdım.

Naxçıvanda yaşayan əsilli nəsilli tayfalar biri birini tanıyır. Elə bu ərazidə yaşayan hamı hamını tanıyır. Bu hal, Nuh diyarının başqa bir izahı çətin olan halıdır. Hər zaman soruşarlar- Oğul kimlərdənsən? A bala (Ay qız) kimlərdənsən? Nədən? Çünki bu diyarın PİR, ŞAD, SEYİD, BƏY nəslindən olan insanları, tayfaları, şəcərələri, cədləri olanlar var. Pir nəslindən Şad nəslidən Seyid nəslindən olanların NURU, ZİYASI, PAKLIĞI, ZƏRİ olur.

Bu insanlardan biri də Cəddi, Nuru, Pak və təmizliyi olan MİR SEYİD cəddinin davamçısı – AĞ NUR İŞIQLI MİRƏLƏKBƏR bəydir. Belə tanıdım onu, nə yaxşı Kİ, tanıdım…

Sən hardan gəlmisən, hara gedirsən?
Yolunun özündə cədd olan İnsan!!!
Hər gahdan agaha yol alan İnsan!!!
Duyğunun zahiri, batini andır,
Sənin yaşadığın zamandır, candır.
Zahirdə müdriklik, batində cavan,
Nur, ziya səddini dünyaya yayan,
Dediyin hikmətin təməli Ağdır,
Bundan xeyir görən zaman və çağdır.
Gördüyün işlərin pak bir əməldir,
Gələcək uğruna yaxşı təməldir…
Təməli Nur ilə qoyulan Cəddin,
Hər həyan köməkdir cəmi Bəşərə,
Qoruyur onları düşməsin şərə,
Yaşasın həyatda, mənalı həyat,

Xeyirlərinsə görsün bütün kainat.
Hər duası işıqdır obaya, elə,
Ona görədir Ki, düşmürlər selə.
Gördüyü işlərdə elədən elə.
Beləsi olmayan Nurdur Ələkbər.

**Çingiz Süleymanov**
***26 iyul 2023-cü il***

## ƏZİM MİRZƏYEV



*Mirzəyev Əzim Şükür oğlu 1954-cü ildə Babək rayonunun Sirab kəndində anadan olub. 1971-ci ildə Sirab kənd orta məktəbini bitirib. 1975-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Təbiət-coğrafiya Fakültəsinə daxil olub. 1980-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. Coğrafiya-biologiya üzrə müəllimlik ixtisasına yiyələnib. 1992-2017-ci illərdə Məzrə kənd orta məktəbində coğrafiya-biologiya fənləri üzrə müəllim vəzifəsində çalışıb. Hazırda təqaüdçüdür.*

### TƏBİƏTİN DOSTU

Əzim müəllimi hər kəs yaxından tanıyır. Əlinin qabarı, çöhrəsinin mis rənginə çalması onun zəhmətsevər bir insan olduğundan xəbər verir. Muxtar respublikamızın elə bir guşəsi yoxdur ki, onun mübarək qədəmləri bu torpağa dəyməsin, əsrarəngiz təbiətimizin ecazkar gözəlliyinə, laləli-nərgizli çöllərinə, yaşıl ormanlarına valeh olmasın, dağların döşündən süzülən loğman bulaqların suyundan içməsin, səfalı bitki və otlarından məlhəm hazırlamasın. Bir sözlə, Əzim müəllim təbiətin dostudur – desək yanılmarıq. Dağlarda çox olduğundan onu dağlar oğlu da adlandırırlar.

O, Vətəninə, xalqına, dövlətinə, torpağına, dostuna, yoldaşına, ailəsinə olduqca bağlı bir insandır. Mərhəmətlidir,



dostcanlıdır. Heç kimin xəstələnməsini arzulamaz. Dost-tanışlarından, tanıdıqlarından kimsə xəstələnərsə dərhal xəstənin köməyinə çatar, onu özünün bildiyi, dağlarımızın bitirdiyi şəfalı otları və loğman suları ilə müalicə edər. Yaxud da onlara faydalı məsləhətlərini verər. Biz dostları da onun bu faydalı məsləhətlərindən dəfələrlə yararlanmışıq, sağlamlığımızın qayğısına qalmışıq. Əzim müəllimin söylədiyi el sözü ilə desək – sağlam bədəndə sağlam da ruh olar.

Əzim müəllimin yaşı yetmişə çatsa da sağlamdır, gümrahdır, cəld və çevikdir. Adama elə gəlir ki, heç bir gənc onun kimi yoxuş qalxa, uzun məsafə qət edə bilməz. Kimisi bunu bacarsa da yorğunluğunu dərhal hiss etdirər. Əzim müəllim sağlamlığının səbəblərini içdiyi bulaq sularında, dağ bitkilərindən (itburnu, solmazçiçəyi, ayıqulağı, kəklikotu, çobanyastığı və sair) dəmlədiyi çayda görsə də, bir səbəbini də insanın gün ərzində 10 kilometrdən çox yüyürməsində görür. Özü isə istirahət günlərində bəzən 15 kilometrədək məsafə qət etdiyini, hətta yaxın kəndlərə piyada gedib-gəldiyini də söyləyir.

Əzim müəllimin ən dəyərli məsləhətləri isə onun hazırladığı aşağıdakı materiallardakı tövsiyələridir.

**Rövşən Hüseynov**

**İtburnu** (lat. Rosa) –bitkilər aləminin gülçiçəklilər dəstəsinin gülçiçəyikimilər fəsiləsinə aid bitki cinsidir.



Bu cinsin 300 növündən Azərbaycanda 42 növünə rast gəlinir ki, bunların 36-sı yabanıdır. Sənaye üçün 2 növ daha əhəmiyyətlidir. Bunlar qəhvəyi və qırışıq itburnulardır.

C vitamininin miqdarına (5-7%, bəzən 14%) görə 1-ci yer tutur. Qırışıq itburnu qəhvəyi itburnuya nisbətən Azərbaycanda azdır. Lakin bunun məhsuldarlığı daha yüksəkdir. Hər koldan 3-4 kq, 1 hektardan isə 3 tona qədər məhsul yığılır. Meyvəsi 6-16 qr-dır. İtburnu may-iyunda çiçəkləyir. İtburnuda C vitamini birinci dəfə 1931-ci ildə tapılmışdır. Lakin bundan çox əvvəl Rusiyada itburnu dişlərin dibindən qan axmaya, yəni C-avitaminoza qarşı tətbiq edilirdi. İtburnu əbəs yerə vitamin daxılı adlandırılmamışdır. Onun tərkibində C vitamini ilə vitamini vardır. Vitaminlərdən başqa itburnuda 18%-ə qədər şəkər və başqa maddələr də mövcuddur.

Həzm sisteminin daha nizamlı işini təmin edən itburnu çayı qəbzlikdən qaynaqlanan şişkinliyi aradan qaldırdığı üçün arıqlamağa kömək edir. Artıq duz və suyun yaratdığı ödəmi bədəndən atır.

1 fincan qurudulmuş itburnu meyvəsi yuyulduqdan sonra 4-5 fincan su ilə 10 dəqiqə qaynadılır. Çayın dadının kəskin olması üçün diri qalan meyvələr qaşıqla əzilir. Daha sonra 10 dəqiqə dəmlənməyə qoyulur. İstəyə uyğun limon, zəncəfil, darçın və ya mixəklə içilə bilər.

**Solmazçiçəyi**



Solmazçiçəyi müalicəvi bitkilər arasında mühüm əhəmiyyət kəsb edir. Bu bitkinin çiçəklərindən müxtəlif xəstəliklərin müalicəsində təbii məhsul kimi geniş istifadə olunur.

Öd yollarının və öd kisəsinin saya əzələlərinə spazmolitik təsir göstərməklə həm ödün qovulmasını asanlaşdırır, həm də iltihabın sorulmasını sürətləndirir. Yüngül qaraciyərqoruyucu effekt verir. Qaraciyər hüceyrələrində ödün əmələ gəlməsi prosesini stimulyasiya edir və onun öd kisəsinə tökülməsini asanlaşdırır. Öddə öd turşularının konsentrasiyasını azaldır, nəticədə ödü durulaşdırır. Ödqovucu təsiri sayəsində yağların həzmini sürətləndirir.

Bilirik ki, normal halda qaraciyərdə öd sintez olunaraq qaraciyərdaxili və qaraciyərxarici yollardan keçərək öd kisəsinə toplanır. Öd mayesi gün ərzində çox duru halda bir neçə litr sintez olunur. Öd kisəsinə toplandıqdan sonra orada qatılaşır və ümumi miqdarı azalır. Qida qəbulu zamanı öd kisəsindən porsiyalarla onikibarmaq bağırsağa tökülür. Ödün əsas funksiyası mədəaltı vəzdən ifraz olunan lipazanı aktivləşdirərək yağların həzmini təmin etməkdir. Öd yollarında və öd kisəsində hər hansı bir patologiya yaranarsa ödün onikibarmaq bağırsağa tökülməsi ləngiyir, yağların, lipidlərin həzmi və sona qədər parçalanması pozulur. Nəticədə bağırsaqlarda çürümə baş verir, qazlar yaranır, meteorizm və qəbizlik inkişaf edir. Bu cür patologiyalar ciddi metabolizm pozulmalarına gətirib çıxarır.

Solmazçiçəyi ödün sintezini, yaxşılaşdırmaqla bərabər, onun öd kisəsinə və onikibarmaq bağırsağa tökülməsini də

sürətləndirir. Məhz bu səbəbdən də Herba Flora şirkətinin istehsal etdiyi Teaxolin çayının tərkibinə daxil edilmişdir. Teaxolin çayı öd yollarının diskineziyası və s. kimi xəstəliklərin müalicəsində geniş istifadə olunur. Teaxolin çayının tərkibində solmazçiçəyi çiçəyinin miqdarı çoxluq təşkil etdiyi üçün təsir effekti də yüksəkdir və daşlı xolesistitdə istifadə etmək tövsiyə olunmur. Onun güclü spazmolitik və ödqovucu təsiri nəticəsində daşlar öd yollarına düşə bilir və özünəməxsus ağırlaşmalar baş verir. Spazmolitik təsiri ilə yanaşı onun çiçəyinin öd yollarına antiseptik, iltihab əleyhinə təsirləri də məlumdur. Beləliklə qaraciyər və öd yollarının xəstəliklərində bu çiçəyinin həm müxtəlif bitki yığıntılarının tərkibində, həm də tək şəkildə dəmləməsindən istifadə etmək məsləhətdir.

**Ayıqulağı yarpağı**

Dezinfeksiyaedici, iltihab əleyhinə və sidikqovucu vasitə kimi böyrək, sidik kisəsi və sidik yollarının xəstəliklərində tətbiq olunur. Bir xörək qaşığı xammalın üzərinə 200 ml (1 stəkan) qaynar su tökülür, 30 dəq. qaynayan su hamamında dəmlənir, otaq temperaturunda soyudulur, süzülür. Gündə 3-5, hər dəfə 1 xörək qaşığı yeməkdən 40 dəq. sonra daxilə qəbul edilir.



Ayıqulağı Şimali Amerika, Şərqi Avropa, Sibir və Mərkəzi Amerika dağlarında bitən və həmin ərazilər üçün endemik sayılan bitkidir. Bitki uva-ursi (uva – üzüm və ursus – ayı) "ayı üzümü", "ayı giləmeyvəsi" €mdən tez bir zamanda xaric olmasını asanlaşdırır. Ayıqulağı yarpağı prostatitlər zamanı güclü

sidikqovucu effekt verərək sidik kisəsinin tam boşalmasını təmin edir, qalıq sidiyin əmələ gəlməsinin qarşısını alır. Büzücü olduğu üçün mədə-bağırsaq traktının da işini yaxşılaşdırır, xüsusilə xora xəstəliyi zamanı çox faydalıdır.

**Kəklikotu**

Hündürlüyü 35 sm-ə qədər olan kiçik, ətirli yarımkolcuqdur. Zoğları nazik, qonur rəngli, sürünəndir. Əsası tünd qonur rəngli qabıqla örtülüdür, çox vaxt kökləşir və əlavə köklər əmələ gətirir. Yarpaqları xırda, uzunsov və ya ellipsvari, qısa saplaqlı və ya oturaqdır. Çiçəkləri kiçik ölçülü, çəhrayı və ya bənövşəyi-çəhrayı rəngli, ikidodaqlıdır, başcıq çiçək dəstəsində seyrək toplanmışdır. Meyvəsi qurudur, dörd ədəd fındıqcığa bölünür.



Kəklikotu iyun-iyul aylarında çiçəkləyir, meyvəsi avqust-sentyabrda yetişir. Toxumla və vegetativ yolla çoxalır. 1000 ədəd toxumun kütləsi 0,3–0,5 qramdır. 30 ilə qədər ömür sürə bilər.

Qədim yunanlar kəklikotunu gözəllik ilahəsi Afroditanın şərəfinə yandırıb qurban verirdilər. Onun ətirli tüstüsü göyə qalxanda qurbanın ilahlar tərəfindən qəbul edildiyi hesab olunurdu. Kəklikotu yunanlar üçün həm də zəhmətsevərlik rəmzi idi. Qədim slavyanlar isə kəklikotu dəstələri ilə Müqəddəs Məryəmin ikonalarını bəzəyirdilər. Belə hesab olunurdu ki, bu bitki insana nəinki sağlamlığını, hətta həyatını qaytara bilər. Yəqin ki, bu səbəbdən bayılma zamanı kəklikotunun tozunu iyləyirdilər. İbn Sina, Dioskorid və Böyük Pliniyin əsərlərində kəklikotuna rast gəlinir.

Geniş antioksidant yığımı olduğundan, o, orqanizmi onkoloji və ürək-damar xəstəlilərindən qoruya bilir. Dəmirin zəngin mənbəyi sayıldığına görə, anemiya xəstələrinə də məsləhət görülür. Bu bitkidə olan kalinin yüksək konsentrasiyasına görə isə, o, arterial təzyiqi normallaşdırma gücünə malikdir.

Dəri, sinir xətəlikləri və əzələ spazmlarında geniş istifadə olunur. Sidikqovucu təsirə də malik olan bu bitki, orqanizmi qocalmadan qoruyur və qıcolmaları aradan qaldırır.

Hər bir məhsulun olduğu kim, bu məhsulun da ziyanlı tərəfləri vardır. Belə ki, kəklikotunu çoxlu miqdarda qəbul etdikdə arteriyal təzyiqin qalxasına səbəb olduğuna görə hipertoniklərin bu məhsulu müəyyən miqdarda qəbul etmələri məsləhət görülür. Digər bitkilərdə olduğu kimi, kəklikotu da torpaqda olan toksik maddələri özündə topladığına görə, ekoloji cəhətdən təmiz olmayan rayonlardan toplanan məhsul, orqanizmə ziyan vura bilər.

Həmçinin mədə yarası olan insanlar üçün kəklikotu məsləhət görülmür, belə ki, o, selikli qişanı qıcıqlandırır. Lakin prostatit və kişilərin reproduktiv funksiya problemlərinə çox yaxşı təsir göstərir. Bu hallarda bitkini dəmləyib, məhlul halında içirlər.



**Jenşen**

Fiziki və zehni yorğunluq, miqren, nevrozlar, nevrasteniya, ürək-damar sisteminin funksional pozğunluqları, revmatizm, şəkərli diabet, funksional cinsi zəiflik, immunitetin zəifləməsi zamanı və infeksion xəstəliklərdən sonrakı dövrdə tətbiq edilir. Ölümdən başqa bütün xəstəliklərin dərmanı - möcüzəvi jenşen.

Bu bitki qədim Çin təbabətində çox geniş istifadə olunurdu. Qədimdə bu bitki "ölümdən başqa bütün xəstəliklərin dərmanı" sayılırdı və həqiqətən də çox yaxşı kömək edirdi. Jenşen cavanlığı qoruyan, insanın ömrünü uzadan vasitə sayılırdı. Jenşenin köməyi ilə bir çox xəstəlikləri müalicə edirdilər - impotensiya, yuxusuzluq, ürək xəstəlikləri, müxtəlif yaralar və xoralar və s.

Müalicə zamanı əsasən jenşenin kökündən istifadə olunur. Jenşen kökünün çox maraqlı forması var - kök insana bənzəyir. Ümumimöhkəmləndirici təsirə malikdir. Bu səbəbdən bitki immunteti möhkəmləndirən bir çox preparatların tərkibinə daxildir. Jenşen orqanizmin müxtəlif infeksiyalara qarşı davamlılığını artırır, sağalmanı tezləşdirir. İnsanın mərkəzi sinir sisteminə çox müsbət təsir edir - yaddaşı möhkəmləndirir, yuxusuzluqdan və depresiyalardan azad edir, stresi azaldır, nevrasteniya zamanı kömək edir.

- Jenşen təbii tonuslaşdırıcı vasitədir - insanı daha gümrah və fəal edir, əqli yorğunluğunu azaldır, iş qabiliyyətini yaxşılaşdırır, ürəyin əzələsini qoruyur, arterial təzyiqi tənzimləyir, qanda xolesterinin səviyyəsini aşağı salır, damarlarda trombların əmələ gəlməsinin qarşısını alır. Hətta qanda şəkərin səviyyəsini də aşağı salır.

- Kişilər üçün jenşen xüsusilə xeyirlidir. Jenşen cinsi zəifliyi aradan qaldırmağa kömək edir, cinsi funksiyanı və spermoqrammanın nəticələrini yaxşılaşdırır. Məhz bu səbəbdən jenşen kişi sonsuzluğu, spermatogenezin (spermanın "istehsalı") müxtəlif pozulmaları, impotensiya zamanı tez-tez istifadə olunur. Qadınlarda menstrual funksiyanın yaxşılaşmasına kömək edir. Mübadilə prosesləri yaxşılaşdırır, piylərin parçalanmasını sürətləndirir. Bu səbəbdən jenşen arıqlamaq üçün olan müxtəlif preparatların tərkibinə daxil edilir.

**İstifadə qaydası aşağıdakı kimidir.**

20 qram kökü xırdaladıqdan sonra üzərinə 200 ml (bir stəkan) qaynadılmış su tökülür və 100 ml su qalana qədər qaynadılır. Gündə bir dəfə 15 ml (bir xörək qaşığı) yeməkdən 30 dəqiqə əvvəl qəbul edilir. Qəbul müddəti 60 gündür.

**Yemişan**

Ağac və ya iri kol bitkisi olub, növbə ilə düzülmüş yumurtaşəkilli yarpaqları vardır. Yarpaqlarının kənarı mişarvaridir. Ağ rəngli ətirli çiçəkləri, uzunsov kürəvari giləmeyvəyə oxşar lətli və şirəli meyvəsi olur. Meyvəsi yetişən vaxt qırmızı, qara, şabalıdı və s. rəngə boyanır. Meyvəsinin içərisində açıq-sarı rəngli toxumları yerləşir. Bitki may-iyun aylarında çiçək açır, sentyabr-oktyabr aylarında meyvələri yetişir.



Yemişan hələ qədim zamanlardan bəri istifadə edilən və bir dərman qədər müalicəvi təsirə malik olan çox faydalı bitkidir. Yemişanın çiçək, meyvə və yarpaqları şəfa ilə doludur. Çox faydalı olan bu bitkinin meyvəsi tikanlı gövdəsi və budaqları olan bir ağacda bitir. Tərkibindəki faydalı maddələr səbəbi ilə bədəndəki bir çox xəstəliyin aradan qaldırılması və orqanizmin qorunmasında istifadə olunur. Gündəlik həyatda bir sıra problemləri aradan qaldırmaqla yanaşı ciddi xəstəliklərin müalicəsinə də çox müsbət təsir göstərir.

Xüsusilə ürək üçün faydalıdır. Ürək-damar sisteminin funksiyalarını normallaşdırır, sinir impulslarının ötürücülüyünü tənzimləməsi səbəbindən ürək fəaliyyətini normallaşdırır. Ürəkdə qan axını və oksigenin artmasına kömək edir. Qan damarlarının

divarlarını gücləndirir. Ürək ritminin pozulması, ağır yoluxucu xəstəliklər, ürək çatışmazlığı, əzələ zəifliyi, yüksək qan təzyiqi və infarktdan sonrakı kardiosklerozun qarşısını almaq üçün çox faydalıdır. Ürək xəstəliklərinin sağalma prosesini xeyli sürətləndirir və ritm pozulmasını aradan qaldırır. C vitamini ilə çox zəngindir. Yaddaşı gücləndirir.

İshal problemini aradan qaldırır. Ancaq həddindən artıq qəbul edildikdə qəbizliyə səbəb ola bilər. Xüsusilə infarkt keçirmiş insanlar bu meyvəni yeyirlərsə, ürəyi gücləndirir. Qusmanı dayandırır və mədə işini tənzimləyir. Miqren və baş ağrısı üçün yüksək effektə malikdir. Damarların trombla tutulmasının qarşısını alan təsirli bir meyvədir.

Yemişan ağacının yarpaqları dəmlənir və çay şəklində istehlak olunur. Yemişan yarpağının istifadəsi damar və ürək xəstəlikləri olan insanlar üçün çox faydalıdır. Tıxanan damarları açmaq üçün istifadə edilən bir müalicə üsuludur.

Eyni zamanda yemişan sirkəsinin də damarları genişləndirən bir xüsusiyyəti var. Yemişan meyvə və yarpaqlarının uzunmüddətli istifadəsi arterial təzyiqin enməsinə, əsəblərin sakitləşməsinə və yuxunun tənzimlənməsinə müsbət təsir göstərir.

**Dəvədabanı**



Xırda ot bitkisi olub böyük və uzun saplaqlı yarpaqları, sarı çiçəkləri vardır. Bu bitki yazın ilk aylarında çiçək açır. Bitkinin yarpaqlarını yazın orta aylarında toplayaraq quru havada kölgə yerdə qurudurlar. Bitkinin tərkibində 2,63 faiz acı qlyukozid vardır. Xalq

təbabətində bu bitkinin yarpaqlarından bişirmə və dəmləmə şəklində bəlğəmgətirici və ösgürəyi sakitləşdirici dərman kimi işlədilir.

**Gülxətmi**

Çoxillik ot bitkisidir. 1-1,5 metr hündürlükdə olur. Qolbudaqlı gövdəyə malikdir. Bitki iyun ayında çiçək açmağa başlayır. Kökünün tərkibində zəif qoxulu, şirintəhər selik maddəsi vardır. Gülxətmi bitkisinin kökündən tənəffüs yollarının iltihabında dəmləmə şəklində bəlğəmgətirici dərman kimi geniş istifadə edilir. Bitki adətən çəmənliklərdə, çay kənarlarında, kolluqlarda, çox rütubətli yerlərdə yabanı halda geniş yayılıb.



**Acı qovuq**

Düyümlü kökləri olan çoxillik ot bitkisidir. Yerüstü gövdəsi yoxdur. Lakin çoxlu uzunsov lanset şəkilli kökyanı yarpaqları vardır. Bitkinin çiçək oxunun başında səbətəoxşar sarı rəngli iri çiçəkləri yerləşir. May, iyun, aylarında bitki çiçək açır. Kökündən başlayaraq çiçəyinə kimi bütün bitki acı dadlıdır. Yabanı halda rayonumuzun çəmənlik, kolluq və əkin yerlərində bitir. Bitkinin köklərində yerləşən borucuqlarında acı süd şirəsi vardır. Həmin süd şirəsindən müasir təbabətdə ekstrat hazırlayırlar ki, bundan həb dərmanlarının tərkibində iştahagətirən və həzm prosesini yaxşılaşdırmaq üçün istifadə edilir.

**Bağayarpağı**



Uzun saplağı, dairəvi forması, kənarından bütöv iri yarpaqları vardır. Qonur rəngli çiçəkləri sünbül formasında yerləşmişdir. Bitkinin çiçəklənmə dövrü may, iyun aylarından başlayaraq avqust, sentyabr aylarına kimi davam edir. Xalq təbabətində bitkinin yarpaqlarından yarasağaldıcı məlhəm kimi istifadə edilir. Bunun üçün bitkinin yarpaqlarını çiçək açan vaxt toplayıb açıq havada qurutmaq lazımdır. Bağayarpağının toxumlarında zülal, selik, aşı maddələri, piyli yağlar vardır. Son zamanlar bitkinin toxumlarından bişmiş halda zəif işlədici dərman kimi istifadə edilir. Bitkiyə çəmənliklərdə, su kənarlarında rast gəlmək olar.

**Nanə**

Çoxillik ot bitkisi olub, 0,5 metrə qədər hündürlükdə budağı və dördkünc gövdəsi vardır. Dərman məqsədi ilə ən çox iki cür nanə bitkisindən istifadə edilir:

1. Gövdəsi qırmızı-bənövşəyi olan qara nanə;
2. Gövdəsi açıq yaşıl rəngdə olan ağ nanə və ya ingilis nanəsi.

Bitkinin çiçək açan vaxt yarpaqlarını toplayıb qurudaraq su buxarı vasitəsilə nanə yağı alırlar. Alınmış nanə yağı bir sıra dərmanların tərkibində işlədilir. Əkilən nanənin yarpaqlarından dəmləmə şəklində mədə-bağırsaq xəstəliklərində, spazmanın qarşısını almaq, həzm prosesini yaxşılaşdırmaq və qusmanın qarşısını almaq məqsədilə geniş istifadə edilir.



**Heyva**

Məncə, elə bir insan tapılmaz ki, bərəkət simvolu, ruzi rəmzi olan heyvanı sevməsin. Heyva Azərbaycanda ənsevilən meyvələr sırasındadır. O, mahnılarda tərif olunur, ondan nağıllarda, rəvayətlərdə, dastanlarda söhbət açılır, müalicəvi faydaları haqqında tibdəki fikirlər bitmək-tükənmək bilmir. Azərbaycan folklorunda, qədim mədəni irsimizi təbliğ edən nağıllarda, xalq dastanlarında, rəsm əsərlərimizdə heyva ilə bağlı çoxlu nümunələr var.



Bəs payız mövsümündə yetişən və ilboyu saxlanılması mümkün olan, ağız dadı ilə yediyimiz heyvanın bizə nə qədər faydalı olduğunu bilirikmi? Elə isə heyvanın xalq təbabətində nə qədər qiymətli olmasına nəzər salaq. İnsansağlamlığına faydaları saymaqla bitməyən bu meyvədən qədim xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə edilib. Onun özü, qabığı, tumları, hətta yarpağı və çiçəyi ayrı-ayrılıqda min bir dərdə şəfadır. Bir sözlə, bu meyvənin faydaları saymaqla bitmir.

Havaların soyuması ilə əlaqədar qeyri-ixtiyari soyuqdəyməyə yaxalanırıq. Bu xəstəlikdən qurtarmaq üçün dərman preparatları ilə yanaşı, çoxumuz təbii vasitələrdən də istifadə edirik. Onlardan biri də elə məhz heyvadır. Bu meyvənin unikal antivirus xüsusiyyətləri olduğu üçün ondan qrip və soyuqdəymənin müalicəsi zamanı geniş istifadə edirlər. Belə hallarda o, az miqdar suda bişirilir və qəbul olunur. Heyva şirəsi bronxit, bronxial-astma, müxtəlif soyuqdəymələr və iltihablar zamanı istifadə oluna bilər. Ondan skleroz, pan-kreatit, hipertoniya, anemiya və sair xəstəliklər zamanı

da müalicə məqsədilə istifadə etmək olar. Heyva antioksidant maddələrlə zəngin olduğu üçün bu faydalı meyvə stres, depressiya zamanı, həmçinin xərçəng hüceyrələrinin əmələ gəlməsi ilə mübarizədə yaxşı təsir göstərir. Onun tumu ciyərlər üçün də olduqca faydalıdır. Heyva yarpağı və çiçəkləri soyuqdəymədə və mikrob əleyhinə mübarizədə istifadə edilə bilər. Xalq təbabətindəndə məlum olduğu kimi, heyva tumunu alma çəyirdəyi və bal ilə birlikdə qarışdırıb məcun halında qəbul etsək və ya su ilə qaynadıb içsək, öskürəkdən qurtularıq. Yarpaqlarından hazırlanan çay ürək ağrılarına yaxşı təsir edir və insanı sakitləşdirir. Həmçinin yarpaqlarını qaynadıb, suyu ilə qarqara etmək, yarpaqlarını isə boğaza kompres kimi qoymaq boğaz ağrısının və şişməsinin keçməsinə kömək edir. Heyva, eyni zamanda dietik məhsuldur. Arıqlamaq məqsədilə tutulan pəhrizlər zamanı bu meyvədən istifadə effektiv təsir göstərir. Bu meyvə qədim zamanlardan kosmetik vasitə kimi də istifadə olunur. Belə hesab edilir ki, heyva qadının cavanlığını və gözəlliyini qoruyur.

# RÖVŞƏN HÜSEYNOV



Hüseynov Rövşən Qurbanəli oğlu 1956-cı ildə Naxçıvan şəhərində anadan olub. 1973-cü ildə Naxçıvan şəhər 6 nömrəli tam məktəbini bitirdikdən sonra 1974-1976-cı illərdə Sovet Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 1977-ci ildə Naxçıvan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olub. 1982-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. Dil-ədəbiyyat müəllimi ixtisasına yiyələnib. 1982-1994-cü illərdə Babək rayon Mədəniyyət Şöbəsində müxtəlif vəzifələrdə çalışıb. İşlədiyi müddətdə "Şərq qapısı" və Babək rayonunun mətbu orqanı olan "Şərqin səhəri" qəzetində müxtəlif səpgili məqalə və şeirlərlə çıxış edib.1994-1997-ci illərdə Azərbaycan Respublikası Ali Soveti yanında Humanitar Tədqiqatlar və Proqnozlaşdırma Mərkəzinin Naxçıvan Muxtar Respublikası üzrə aparıcı mütəxəssisi işləyib. 1997-2001-ci illərdə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əvvəl böyük redaktor, sonra isə şöbə müdiri vəzifəsini daşıyıb. 2001-ci ildən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri vəzifəsində çalışır. 2005-2012-ci illərdə Naxçıvan Mətbuat Şurası İdarə Heyətinin üzvü, 2012-ci ildən isə ictimai əsaslarla Naxçıvan Mətbuat Şurasının sədridir. Əməyi dövlətimiz tərəfindən

yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 28 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülüb. 2019-cu ilin may ayında isə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik "Yubiley" medalı ilə təltif olunub. Yeni Azərbaycan Partiyasının üzvüdür.

## SƏN YAŞAYACAQSAN

*Dostum Hüseyn Adıgözəlovun*
*əziz xatirəsinə həsr olunur.*



*Nə yaman olurmuş ölüm xəbəri,*
*Acı göz yaşlarım gözümdə donub.*
*İstədim oxşayam sözlə ruhunu,*
*Gördüm ki, qələm də, sözüm də donub.*

*Dostların dayanıb məzarın üstə,*
*Ürəklər danışır, dodaqlar susur.*
*Sən haqq dünyasından baxırsan bizə,*
*Deyirsən, dünyanın vəfası budur.*

*Xəyalən dönürəm ötən günlərə,*
*Hər gözəl guşədə ocaq çatardıq.*
*Üst-üstə yığardıq xatirələri,*
*Deyərdik, fələkdən bir gün qopardıq.*

*Birlikdə gəzərdik, çəməni, düzü,*
*Güllərdən alardıq Vətən ətrini.*
*Sərin bulaqların suyun içərdik,*
*Toplardıq dağların naz-nemətini.*

*Elmin, mərifətin bağbanı idin,*
*Bağında söz əkər, söz becərərdin.*
*Xalqına gərəkli bir övlad idin,*
*Yolunda canını qurban verərdin.*

*Yazdığın əsərlər, tərcümələrin,*
*Kitab rəfimizdə yadigar qalıb.*
*Sənin insanlığın, sənin dostluğun*
*Könül dünyamıza dərin iz salıb.*

*Bu iz yaşadacaq səni həyatda,*
*Xatırlanacaqsan, necə ki, varıq.*
*Keçdiyin şərəfli həyat yolunu,*
*Heç zaman, heç zaman biz unutmarıq!*

***12 noyabr 2020-ci il***

## GÖMÜR KƏNDİ

*Səsimə səs verən uca dağların,*
*Geniş ormanların, meyvə bağların,*
*Döşündən süzülən saf bulaqların.*
*Məni heyran qoydu a Gömür kəndi*
*Quşum sənə qondu a Gömür kəndi.*

*Xanəli Kərimli, Səfiyar dostum,*
*Şəninə söylədi bir neçə tostun,*
*Əzim də topladı, nemətin, otun.*
*Çingizlə çox gəzdik sinəndə sənin*
*Ən gözəl guşəsi sənsən vətənin.*

*Bu torpaq əzəldən bir haya bənddi,*
*Qonaq qaralıdı, deyib güləndi,*
*Çoban Əli sözün qədrin biləndi.*
*Səndəki bu hikmət söylə nədəndi?*
*A Gömür kəndi, a Gömür kəndi.*

*Söyüdlü bulağın yolçunu əylər,*
*Şərbət tək suyuma qonaq ol deyər,*
*Arıçı dostlarım hər axşam, səhər,*
*Sənin ünvanına dualar edər*
*Ruzisin Tanrıdan, səndən diləyər.*

*Səninlə danışdım, səninlə güldüm,*
*Səninlə sevindim, sənlə öyündüm,*
*Dərdimi sənin tək sirdaşla böldüm,*
*Tanrıdan dilədim bir daha qismət*
*Səni bir də görəm, edəm ziyarət.*

***17.07.2023***

## GƏLƏCƏYƏ DAŞINAN XATİRƏLƏR

*Bir kitabdır mənim qəlbim,*
*Oxuyun siz varaq-varaq.*
*Hansı aydan, hansı ildən,*
*İstəsəniz verrəm soraq.*

*İçimdədir hər bir ilin*
*Həzin, kövrək duyğuları.*
*Hərdən mənə xatırladır,*
*Keçmiş günü, ötən ayı.*

*O illərin sevincini,*
*Kədərini yaşamışam.*
*Ayı-günü qucaqlayıb,*
*Bu günümə daşımışam.*

*Tarixləşmiş "köhnə qala",*
*Keçmişimdən bir yadigar.*
*Neçə-neçə məhəllələr,*
*Sinəm üstə tutub qərar.*

*"Çuxur", "Şahab", "Əlxan", "Qurtlar",*
*Bir vaxt olub dalaşıblar.*
*Bəzən dönüb komanda tək,*
*Bir-birilə yarışıblar.*
*Yaddaşımın bir küncündə,*
*Yatıb qalıb "köhnə bazar"*
*Neçə dalan, neçə döngə,*
*Səsli-küylü Avtovağzal.*

*Çayçı Məmməd, çayçı Əjdər,*
*Gözlərimdən getmir bir an,*

*Dəmlədiyi ətirli çay.*
*Yada düşür zaman-zaman.*

*Yay gələndə Umud əmi,*
*Sərin suyun bol edərdi.*
*Hambal Əli yükün qoyub,*
*Nəfəsini hey dərərdi.*

*Ağ buluda bənzəyərdi,*
*Bizim pambıq tarlaları.*
*Hey yığmaqla qurtarmazdı,*
*Elimizn bəyaz barı.*

*Evimizdə çox qiymətli,*
*Bir mücrü də yer alardı.*
*Nənəmin bu nişanəsi,*
*Hey boşalar, hey dolardı.*

*Nişan üzükləri, diplom,*
*Onun için bəzəyərdi.*
*Görkəmindən o sehrli,*
*Bir qutuya bənzəyərdi.*

*Çox evlərin məhəccəri,*
*Hasarı da heç olmazdı.*
*Qapı-bacalar açıq qalar,*
*Kilidlənməz, bağlanmazdı.*
*Qapımızı qış döyməmiş,*
*Əriştələr kəsələrdi.*
*Hər kəs evə odun, kömür,..*
*Almaq üçün tələsərdi.*

*Bir bayram da yaşanardı,*
*Təndirimiz alışanda.*

*Hər bir evə qucaq-qucaq,*
*Lavaş-çörək daşınanda.*

*Şaxtalı qış, boranlı qış,*
*Gəlməsə də bəzən xoşa.*
*Buz üstündə qoçaqları,*
*O çəkirdi bərkə-boşa.*

*Neçə bahar, neçə qışın,*
*Naxışı var ürəyimdə.*
*İllər keçib, bir gözəlin,*
*Baxışı var ürəyimdə.*

*Qızıl payız el toyların,*
*Gətirərdi yurdumuza.*
*Zurna səsi, qaval səsi,*
*Nur çilərdi ruhumuza.*

*Mən özüm də bu Vətənin,*
*Bir ziyalı övladıyam.*
*Tariximə işıq tutan,*
*Öz peşəmin ustadıyam.*

*Məmmədhüseyn nəslindənəm,*
*Soyum-köküm dərindədir.*
*Xalqımızın hər adəti,*
*Ənənəsi qəlbimdədir.*
*Ağsaqqala, ağbirçəyə,*
*El içində hörmət vardı.*
*Sayğısızlıq bağışlanmaz,*
*Bir qəbahət sayılardı.*

*Qanı-qanla yumazdılar,*
*Müdrik babam, igid atam.*

*Söz tanrının hikmətidir,*
*Söyləyərdi xanım anam.*

*O illərdə qalıb mənim,*
*Uşaqlığım, hay-harayım.*
*Bir nağıla, bir dastana,*
*Dönüb mənim ömür payım.*

*Bu yollarda dərə keçib,*
*Neçə-neçə dağ aşmışam.*
*Müdrikliyə yetmək üçün,*
*Günlə, ayla yarışmışam.*

*Arzularım, ümidlərim,*
*Pöhrələnib boy atıbdır.*
*İllər qonub yaşım üstə,*
*Yetmiş yaşa nə qalıbdır?!*

*Bax beləcə xatirəmi,*
*Gələcəyə daşıyıram.*
*O illərin nəğməsinin*
*Qanadında yaşayıram.*

## SADƏLİK

***Dostum Rövşən Hüseynova həsr edirəm***

*Naxçıvan şəhərində,*
*Soyuq bir qış səhəri*
*Gecə yağan bəyaz qar*
*Örtmüşdü küçələri*

*Şaxta öz qılıncını*
*Çıxarmışdı qınından*
*Yenə öz axarında*
*Davam edirdi dövran.*

*Qurbanəli kişinin*
*Evində şadlıq idi.*
*İlk övladı bu səhər*
*Bu dünyaya gəlmişdi.*

*Bütün yaxın qohumlar*
*Yığılmışdı başına*
*Sevincdən yanaqları*
*Batmışdı göz yaşına.*

*Üzünü incidirdi*
*Əllərinin qabarı.*
*Hələ paylamamışdı*
*O günkü məktubları.*

*İllər boyu evlərə*
*Şad xəbər aparırdı.*
*Hamıya sevincli gün*
*Uğurlar arzulardı.*

*Bütün iş yoldaşları*
*Təbrik etdilər onu.*
*Gözünə çıraq olsun*
*Söylədilər oğlunu.*

*Rövşən adını verdi*
*Anası öz oğluna.*
*Bütün ömür-gününü*
*Qurban eylədi ona.*

*İnstitutu qurtarıb*
*İşə başlayan günü*
*Dünyanın ən xoşbəxti*
*Hesab etdi özünü.*

*Sadəlik, mehribanlıq*
*Hər vaxt çatdı dadına.*
*Özünü fəda etdi*
*Yanan vətən oduna.*

*O ağır zamanlarda*
*Çox düşdü bərkə-boşa.*
*Amma hər vaxt yüyürdü*
*Doğma Vətənlə qoşa.*

*Əritdi öz ömrünü*
*Xoş əməllər yolunda.*
*Haqq-ədalət dolandı*
*Hər vaxt sağı-solunda.*

*Fəxri adlar qazandı*
*Hamı tanıdı onu.*

*Şair kimi tanıdı*
*Hamı Vətən oğlunu.*

*Doğma Vətən torpağı*
*Oldu hər bir qayəsi.*
*Çox ali kürsülərdən*
*Gəldi Rövşənin səsi.*

*Övladları böyüdü*
*Artdı bir az qayğılar.*
*Başında lövbər saldı*
*Vaxtsız gələn ağ saçlar.*

*Yazdı şeirlərin də*
*Hər vaxt alışdı, yandı.*
*Arxasında sevdiyi*
*Doğma Vətən dayandı.*

*Mənim bu kiçik şeirim*
*Bir ərmağandır ona.*
*Nə qədər çalışsam da*
*Bitib yetişmir sona.*

*Həmişə gözəl günlər*
*Nəsibi olsun onun.*
*Mən də belə bitirdim*
*Yazdığım şeirin sonuu.*

**Ramiz Babayev**

## RÖVNƏQLİ ŞAİR

*Dostum Rövşən Hüseynova həsr olunur*

*Rövnəqli şairdir yazar ahəstə,*
*Özü də, sözü də bir ülvi bəstə.*
*Varlığı sözlərlə vüqarlı dəstə,*
*Şövqusə ürəkdə, anda nəfəsdə.*
*Əlindən üzündən axır növrəstə,*
*Həyada baxışı əndə, həvəsdə.*

*Hüsnü camalını yazmış yaradan,*
*Uzaq durmuşdur o puldan, paradan.*
*Səmimi qəlbiylə könüldə, yarda,*
*Elmdə ocaqda, fəsli baharda.*

*Yazısı qəlbindən gələn nübarda,*
*Nübarlı sözünün mənası vardı.*
*Onunla dostluğun mayası vüqar,*
*Var ol gözəl insan, əsil yadigar,!!!*

**Çingiz Süleymanov**
***01.04.2023-cü il***

# MÜNDƏRİCAT

Bəsirət gözümüz ........................................................ 10
"Köz" ədəbi məclisi necə yarandı? ................................ 11
Dəyərli ziyalılarımız, haqqında bir neçə söz ................ 13
Ziyalıların yığışdığı ocaq – "Köz"
*yaxud ocaqdan nur alanlar* ........................................... 15
**Səfiyar Abışov ............................................................ 35**
Ulu Öndər Heydər Əlyevin fəaliyyətinin
Naxçıvan dövrü ............................................................ 36
Gün keçdi ...................................................................... 44
Bir dostum var .............................................................. 48
Ordubadda bir gün ........................................................ 49
**Çingiz Süleymanov ..................................................... 59**
Ordubad haqqında nə bilirik? ....................................... 60
Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi,
etnomədəni terror, azərbaycanlılara qarşı çarizmin
müstəmləkəçilik siyasəti və digər tarixi faktlar ............. 67
Faciə… ........................................................................... 75
Göl və mən ..................................................................... 78
Ol ay göl… ya da öl ay göl ............................................ 80
Uzunoba gölü ................................................................ 81
Tanrının elçisi.... ............................................................ 82
**Xanəli Kərimli ............................................................. 84**

Bir vulkan püskürməsi ................................................. 84
Bayrağını uca qaldır, ana vətən *(Lirik poema)* ............. *85*
Turan qalxır ayağa ...................................................... 92
Sözündən torpaq ətri gələn şair ................................... 97
Qalx ayağa Turan gəlir ................................................. 98
Məmməd Araz mirasının davamçısı el şairi ................. 99
Söz-sənət dünyasının fatehi ....................................... 100
**Muxtar Qasımzadə ................................................... 105**
Yeddinci qitə ............................................................... 105
Gəmiqaya *(Nuh əhvalatı)* ............................................ 106
Bəkir oğlu Əcəmi *(lirik poema)* ................................ 114
Bura Şuşadı ................................................................ 123
Etiraf ........................................................................... 128
Kim baxsa gözlərinə .................................................... 128
Şairin müqəddəs andı - Söz haqqı .............................. 129
**Ramiz Babayev ......................................................... 133**
Mən şeir yazanda şair oluram ...................................... 133
Qocalıram deyəsən ...................................................... 130
Yağışın şəkilləri .......................................................... 136
Mən məhəbbət tanrısıyam ........................................... 137
Sənin məktubların ....................................................... 138
Ayrılıq göz ilə qaşın arası ............................................ 139
Gözlərim gözlərinə qoşulub çıxıb getdi ...................... 140
Sən Allah ağlama məni görəndə ................................. 140

Hara gedir bu dünya ........................................................ 141
Daha mən əvvəlki o mən deyiləm ............................... 143
Yaxşı ki, gəlmədin ........................................................ 144
Milyonlara örnək ola biləcək ömür yolu
Oktay Qurban oğlu Niftəliyev ..................................... 145
Yaddaşlarda yaşayan ömür yolu ................................ 150
Ramiz Babyevin poeziyasından
söz çiçəklərinin ətri gəlir .............................................. 152
Yada salıram ................................................................. 158
**Nizami Əzizəliyev ..................................................... 160**
Xalqımızın birlik rəmzi – yallı ............................ 161
Novruz tamaşaları ....................................................... 166
Ucaltdığı bayraqla qalxdı haqq dərgahına .................. 170
Sən dünyadan köçəndə ................................................ 171
Yurduma Ali Baş Komandan gəlib .............................. 174
Yurduma bahar gəlir .................................................... 175
Əsgər məktubları gələndə ............................................ 177
Bir gözəllik ədasıdır Naxçıvan .................................... 178
Batabat .......................................................................... 179
Bahar lövhəsi ................................................................ 180
Anamın gileyi ............................................................... 180
Qızlar suya gedəndə .................................................... 182
**Vəli Baxşəliyev ........................................................... 183**
Naxçıvanım .................................................................. 183

Yeni tədqiqatlar tariximizin açılmamış
səhifələrini üzə çıxarır ............................................... 185
Vəli Baxşəliyev: "Tarix-mədəniyyət abidələri
mütəxəssislərin iştirakı ilə bərpa olunmalı,
tarixi görkəmi qorunub saxlanılmalıdır" .................... 190
Ovçular təpəsi Naxçıvanın qədim tarixinin
daha bir sübutudur ....................................................... 198
**Nizami Alıyev ........................................................ 202**
Gəmiqaya ...................................................................... 202
"Gəmiqaya qayaüstü rəsmləri" kitabının
təqdimatı olub ................................................................ 206
Gəmiqaya təsvirlərinə yeni həyat verildi .................... 210
**Şəmsəddin QASIMOV ............................................. 216**
Vətən oğlu ..................................................................... 223
Sönməyən Günəşim ..................................................... 224
Zərifə həkim .................................................................. 225
Üçrəngli bayrağım ......................................................... 226
Xocalım ......................................................................... 227
**Kamal Əhmədov ..................................................... 228**
Bəstəkarın ömür yolu .................................................. 228
Bəstəkarın sənət dünyası ............................................ 236
Kamal Əhmədovun musiqi mədəniyyətimizə
bəxş etdiyi töhfələr ....................................................... 240
Bir marş bəstələ! ........................................................... 246

Bir marş bestele! ........................................................ 247
**Sahib Əlıyev ........................................................ 248**
Onun xoş məramı var ........................................................ 248
Qısa bioqrafik məlumat ........................................................ 249
Ali məktəb tələbələri və müəllimlər üçün
dərs vəsaiti ........................................................ 252
**Seyidov Mirələkbər Mirmöhsün oğlu ........................** 254
**Əzim Mirzəyev ........................................................ 264**
Təbiətin dostu ........................................................ 264
**Rövşən Hüseynov ........................................................ 278**
Sən yaşayacaqsan ........................................................ 279
Gömür kəndi ........................................................ 281
Gələcəyə daşınan xatirələr ........................................................ 282
Sadəlik ........................................................ 286
Rövnəqli şair ........................................................ 289

**Çingiz Süleymanov**

**Rövşən Hüseynov**

# *Ocaqdan nur alanlar*

Çapa imzalanmış 22.02.2024.
Formatı 64X90 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 18.5 ç.v.
Sifariş № 46. Tiraj 50 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.